SƏFDƏR
EMİNOV

ROMAN

CƏSUS OVU

Qarabağ müharibəsində canından keçən şəhidlərimizin müqəddəs ruhuna ithaf.

“Mən bunları yazmaya bilmərəm. Hər şey gözlərim önündə baş verib. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmirəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə on doqquz səhifəlik məxfi arayışı həm Kremlə, həm də Rusiya Müdafiə nazirliyinə, Baş kəşfiyyat İdarəsinin generallarına göndərdim. Oxuyun! – dedim. – Biz rusların zabit şərəfi görün necə ləkələndi!”

SƏFDƏR EMINOV

CASUS OVU

roman

288 səh.

Redaktor:
Lalə Hüseynova

Korrektor:
Ləman Əliyeva

Dizayner:
Rəmzi Rəvan

Çap tarixi: 15.04.13
Format: 60x84 1/16
Qiyməti: 7 man

REDAKTORDAN

Azərbaycanımızın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü naminə canından, qanından keçən şəhidlərimizin əziz xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayır, yaşayacaqdır. Onların döyüş yolları nəsillərə nümunədir. Şəhidlik zirvəsinə yüksələn Vətənimizin hər bir qeyrətli oğul və qızı qəhrəmanlıq və şərəf nümunəsidir. Tariximizin hər dönəmində doğma Vətənin müdafiəsi və Torpağı uğrunda yadelli işğalçılara qarşı döyüşlərdə əcdadlarımızın, ata-babalarımızın qəhrəmanlıq, döyüşkənlik nümunələrini davam etdirən xalqımızın fədakar övladları şanlı hərb tariximizi yaradıblar.

XX əsrin sonlarından mənfur qonşularımızın ərazi iddiaları, elan olunmamış Qarabağ müharibəsinin başlanmasına səbəb oldu.Qarabağ müharibəsinin ilk illərində, təpədən-dırnağadək silahlanmış erməni yaraqlılarına və xaricdən gətirilmiş muzdlu dəstələrə qarşı heç bir silah və texnikası olmayan Azərbaycanın könüllüləri sinələrini sipər etdilər. Keçmiş könüllü döyüşçü Səfdər Eminovun qələmə aldığı "Casus ovu" əsərinin əsas süjet xətti də Qarabağ cəbhəsindən keçir. Vətənin dar günündə onun xilasına tələsən oğulların peşəkar xidmətləri yüksək ədəbi-bədii gücün təsvirində oxucuya təqdim olunur. Bir-birini izləyən süjet xəttinin ardıcıllıqla verilməsi təsdiqləyir ki, döyüşçü Səfdər Eminov birbaşa hadisələrin iştirakçısıdır.

Həm də onun bədii yaradıcılığının və təxəyyülünün məhsuludur. Müharibə ədəbiyyatında janr kimi yer alan cəbhə gündəliyi "Casus ovu"nda geniş istifadə olunub. Vətən üçün canından keçməyə hazır olan peşəkar, yüksək hazırlıqlı hərbçilərin döyüş tapşırıqlarının yerinə yetirmələri bədii təsvirin gücündə oxucunu dərindən düşündürəcək.

Bəs romanın müəllifi Səfdər Eminov kimdir? O nə yazıçıdır, nə jurnalist. Q,Vətənin başı üzərini qara buludlar alanda çox sevdiyi təhsilini yarımçıq qoyub Vətən,Torpaq uğrunda döyüşlərə atılan ilk könüllülərdəndir. S. Eminov 1988-ci ildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ hadisələri başlayanda Bakı Dövlət Univesitetinin (keçmiş Azərbaycan Dövlət Universiteti) filologiya fakültəsinin tələbəsi olub. Hələ tələbə ikən ədəbi-bədii yaradıcılıqda ilk addımlarını atıb. Ona görə də keçmiş döyüşçü Səfdər Eminov ağrılı-acılı, məşqqətli müharibə illərinin çətin günlərini — cəbhə xatirələrini çox asanlıqla "Casus ovu"nda süjet xəttinə çıxarıb. Romanı yaradıcı təxəyyülün məhsulu kimi bir ədəbiyyat nümunəsi hesab etmək olar.

Səfdər Eminov 1962-ci ildə Yardımlı rayonunda anadan olub. 1988-ci ildə Azərbaycanın müstəqilliyi uğrunda Bakı Dövlət Universitetində təşkil olunmuş "Çənlibel" və "Varlıq" cəmiyyətlərində fəal iştirak edib. 1991-ci ilin noyabrında könüllü olaraq erməni işğalçılarına qarşı döyüşlərə gedib. Qarabağ müharibəsinin odundan, alovundan çıxıb. Sıravi əsgər kimi cəbhəyə yollanıb, ordudan zabit kimi tərxis olunub. "Casus ovu" onun yazdığı ilk romandır. Əsər güclü süjet xətti, obraz seçimi və cərəyan edən hadisələrdə

bəzi məqamların obyektiv təsviri ilə Azərbaycan ədəbiyyatında yeni bir nəfəsdir. Əsər SSRİ-nin son dövrünü və Azərbaycanımızın müstəqilliyinin yenidən bərpası ərəfəsində və sonrakı dönəmlərdə qarşıya çıxan çətinliklərdən, qəhrəman azəri oğullarının iştirak etdiyi qanlı döyüşlərdən, əsir düşmüş soydaşlarımızın işgəncə dolu ağır həyatından bəhs edir. Bu silsilədən olan "Səbail Tank Taboru," və "Şirvan pələngi" əsərləri bu yaxınlarda çapa hazırlanacaq. Bu yolda yazarımıza uğurlar diləyirəm.

Əziz oxucu! İnanıram ki, kitabı vərəqlədikcə Siz də Qarabağ müharibəsində şanlı döyüş yolu keçən cəsur, qorxmaz, hünərli Vətən oğulları ilə fəxr edəcək, onlardan güc alacaqsınız...

BİRİNCİ FƏSİL

Günəş yenicə boylanırdı, şəhərin şərq tərəfində səma, sanki xüsusi bir rəssamın zövqlə işlədiyi rəsm əsərini xatırladırdı. Rənglər o qədər zövqlə seçilmişdi ki, heç bir çatışmazlıq görmək olmurdu. Hava tər-təmiz idi, axşamkı küləkdən sonra sanki bir ilahi qüvvə buludları qovaraq harasa aparmış, səmanı xüsusi bir məharətlə təmizləyərək indiki halına gətirmişdi. Ötən gecəki havadan əsər-əlamət yox idi. Sanki bütün gecə ərzində əsən külək artıq yorularaq, bir az istirahət etmək üçün öz otağına çəkilmiş, qapılarını bərk-bərk bağlayaraq səmanı və təbiəti özbaşına buraxmışdı. Dünən şəhər ətrafında yaşayan bir qohumunun xəstə olduğunu eşidərək ona baş çəkmiş və onların təkidi ilə gecəni burada keçirmişdi. İndi isə saat səkkizdə işdə olmaq üçün erkən durmuş, ev sahiblərini yuxudan oyatmadan səssizcə evdən çıxmışdı. Həyətdə maşını işə salmış, gecə heç kimin xəbəri olmadan gəldiyi kimi, səhər də yola çıxmışdı. O, üç ay olardı ki, "Alfa" şirkətində Nəqliyyat meneceri vəzifəsində işə başlamışdı. İşi ürəyincə olmasa da işsizlikdən yaxşı idi.

Bir ilə yaxın idi ki, ordu sıralarından tərxis olunmuş, lakin heç yerdə iş tapa bilmirdi. Bu bir ildə onu yalnız bir dəfə Milli Təhlükəsizlik Nazirliyinə çağırmışdılar. Səhər saat doqquz olardı, evdən çıxmaq istəyərkən, qapıda iki nəfər onun, bu gün nazirin qəbulunda olmasını deyəndə

bir az özünü itirdi, sonra sakitcə maşına oturdu. Qəbul otağında onu ləngitmədilər. Nazir özü şəxsən onu qəbul etdi. O, geniş kabinetə keçib salam verdi. Nazir onu başdan ayağadək süzdü, ayağa durub ona əl uzatdı.

– Mirzəyev, necəsiniz, mülki həyata uyğunlaşa bilirsinizmi?

– Çox sağ olun, hər şey yaxşıdır. Bəli, yavaş-yavaş uyğunlaşıram.

– Sizin keçmişiniz bizə məlumdur, Dövlət əhəmiyyətli bir əməliyyatda bizə kömək etməyinizi xahiş edirik. Düşündük ki, etiraz etməzsiniz. Bizim əməkdaşlar sizi əməliyyatla tanış edərlər. Əgər mənə aid bir işiniz yoxdursa, gedə bilərsiniz – bir anlıq duruxub əlavə etdi – hər hansı çətinliyiniz olsa çəkinmədən zəng edin, bu mənim şəxsi telefonumdur, – deyə cibindən bir kart çıxarıb ona uzatdı. Sonra ayağa qalxıb onu qapıya qədər yola saldı. Qapıda onu başqa iki nəfər gözləyirdi.

İki həftə gecə-gündüz həmin əməliyyatı hazırlayıb başa çatdırdılar. Onun hazırlanması və yerinə yetirilməsini öz üzərinə götürdü. Əməliyyat çətin olmasına baxmayaraq, uğurlu alındı.

Yenidən işsizlik böhranı başladı. Nəhayət ki, bir ildən sonra təhlükəsizlik orqanlarında işləyən bir dostunun tapşırığı ilə bura gəlmiş və çox get-gəldən sonra bu vəzifəyə düzəlmişdi. Zəfər bu işə düzələndən uzun müddət sonra başa düşdü ki, son bir ildə o heç də işsiz olmayıb, ordudan onu tərxis etmələrinə baxmayaraq, təhlükəsizlik orqanları belə bir peşəkar kadrı təcrid etməyib, bir il ərzində onu bir daha yoxlamalardan keçirərək öz sıralarına qəbul edilib, təlimatlandırılaraq hələlik bu şirkətə göndərilib.

İşdə müdriyyət ona böyük ehtiram göstərərək xidməti maşınla təmin etdi, sürücü ayırdılar. Ancaq o, sürücüdən imtina etdi və maşını özü idarə etməyi üstün tutdu. Elə birinci gündən müdir bir çox maxinasiyaları onun imzası ilə etməyə başladı. Zəfər bu işin sonunun heç də yaxşı olmayacağını gözəl bilirdi və elə birinci gündən də onun üçün olan son günün aqibətini görürdü. Şirkətin prezidenti boyca balaca, şişman bədənli, qarabəniz, enli qaşları olan Yusif Əbilov idi. Qırx iki yaşı olmasına baxmayaraq başının ortası keçəlləşmiş, sol tərəfdə saçlarını uzadaraq başının ortasına doğru darayar, keçəlini örtər, bununla da saçlarının erkən tökülməsi ilə barışmazdı. O, ilk baxışda ciddi təsir bağışlayar, çox danışmağı sevməzdi. İdarədə hamı ona "müdir" -- deyə müraciət edərdi. Özünü həmişə savadlı, bacarıqlı bir kadr kimi aparar, şirkətin bütün işlərinə nəzarət edərdi, əslində isə əməllərinin tam əksiydi ki, bunu da ətrafdakılar hamısı bilirdi.

Təbiətin bu füsunkar gözəlliyini seyr etmək üçün kəndin yuxarısındakı təpənin üstündə maşını saxladı, maşından düşərək dərindən nəfəs aldı, təmiz hava ciyərlərinə daxil olaraq, bədəninə xüsusi enerji verdi. Ötən günləri kino lenti kimi gözlərinin önündə canlandı. Ömrünün bu çağına qədər Bakının bu təkrarsız gözəlliyini duymamışdı. Sanki gözləri bağlı yaşamış, bu doğma şəhərə həmişə tam başqa neqativ bir hisslə baxmışdı. İndi, məhz indi keçmiş fikirləri büsbütün altüst oldu, Bakı olduğu kimi onun həyatına girərək ruhunun ayrılmaz hissəsinə çevrildi. Bakı haqqında nə qədər gözəl əsərlər oxumasına baxmayaraq yenə də azlıq etdi, vuruldu bu şəhərə, bütün varlığı ilə sevdi bu şəhəri, bu

səhərin erkən çağında. Günəşin sanki utanaraq üzünü göstərmədiyi, şəfəq dolu saçlarını Xəzərin sularında yuyaraq daradığı anda sevdi Bakını. O səhər qəlbində Bakı haqqında ən möhtəşəm əsər yarandı, ürəkləri fəth edən musiqisi ilə, könülləri oxşayan sözləri ilə bərabər. Hər şeyi unutdurdu ona. Həyatında qara zolaq kimi keçən, ağrılı-acılı günlərini bir anlıq da olsa, silib təmizlədi. Qəlbində olan yaraların üstünə məlhəm çəkdi Bakı. İtirdiklərinin yerini bir anlıq da olsa doldurdu.

Maşına yaxınlaşdı, gözlərini qarşıdakı gözəllikdən çəkmədən əks tərəfdən qapını açıb oturacağa çökdü. Sanki qorxurdu ki, ömründə bircə kərə gördüyü gözəlliyi gözlərinin qarşısından oğurlayacaqlar. Beləcə günəşin doğmasını izləyərək dərin xəyallara daldı – keçmiş günlərə qayıtdı, həyatında bütün təfərrüatı ilə yaddaşına həkk olunan və bəlkə də özü ilə birlikdə qəbrə gedəcək qara haşiyəli çərçivələrdə əks olunan xatirələrlə dolu, ürək yandıran həyatı keçdi gözləri önündən. Bu halda nə qədər qaldı, fərqinə varmadı. Günəşin şüaları gözlərini yandıranda xəyallardan ayrılaraq, səhər tezdən maşına atdığı telefonuna baxdı. Saat doqquzu göstərirdi, iş yoldaşından beş dəfə zəng gəlmişdi.

Telefonu maşının qabaq oturacağının üstünə ataraq sükanın arxasına keçdi. Son dəfə o gözəlliyi görmək üçün boylandı, günəşin şüaları gözlərinə batdı, seyr etdiyi o gözəllikdən artıq əsər-əlamət yox idi. Maşın kücələrdən şütüyərək iş yerinə yaxınlaşdı. Ofisin qarşısında xeyli adam var idi, nəsə olmuşdu.

Ofisin giriş qapısından içəri girmək istəyərkən tanımadığı adamlar onu saxladılar. Qapıçı ona yaxınlaşmaq istədikdə ona da mane oldular. Beləliklə, hər şeydən

xəbərsiz çölə çıxdı, qapıdan bir az aralıda dayanaraq siqaret yandırdı, çəkə-çəkə içəridəkiləri müşahidə etməyə başladı. Sonra maşına tərəf getdi, qapını açıb telefonu götürdü, buraxılmış zənglərə baxdı və birinə zəng etdi. Əsəbi şəkildə bir neçə dəfə yoxladı, zəng etdiyi telefon şəbəkə xidmətindən xaricdə idi, müdirin təsərrüfat işləri üzrə müavininə zəng etdi, o da cavab vermədi. Əsəbi halda telefona baxıb cibinə qoydu, maşına söykəndi, üzü ofisin qapısına tərəf dayanaraq qollarını sinəsində çarpazladı. Təcili yardım maşınının sirenasına xəyallardan ayrıldı, həkimlər tələsərək giriş qapısından içəri daxil oldular. Təcili yardım maşını isə fırlanaraq idarənin kiçik həyətinə daxil oldu. Nə baş verdiyini öyrənmək üçün yenidən qapıya tərəf getdi. Qapının çöl tərəfində dayanan kök polis işçisinə yaxınlaşdı. O isə üzünə baxmadan: "Vətəndaş mane olmayın", –deyərək onu kənara itələdi. Başqa vaxt olsaydı, qarşısındakının kimliyindən asılı olmayaraq, tapdalayıb keçərdi. Lakin indi əsəblərini cilovladı, hikkəsini içində boğub qarşısındakı kök polis işçisinə tabe oldu. O, ümumiyyətlə qanunlara tabe olmağı, hər bir işdə həddini gözləməyi sevirdi. Dövlət, Onun qanunları, konstitusiyası, atributları Zəfər üçün müqəddəs və ən ali bir hiss idi. Buna görə canını istəsəydilər əsirgəməzdi. Bu günə qədər də əsirgəməmişdi. Hələ uşaq vaxtlarından satqınları görən gözü yox idi, hər şeyi bağışlayardı, bircə satqınlıqdan başqa, xüsusən də söhbət Vətəndən gedərsə. Vətən onun üçün hər şey idi, bu dünyada elə bir varlıq yox idi ki, Vətəni əvəz edə bilsin. Bu Zəfərin ən böyük amalı idı və elə bu düşüncə, bu amal onu illərlə döyüşdən döyüşə aparırdı.

O, hansısa ciddi bir hadisənin baş verdiyini anlayırdı, anladığı üçün də əməliyatçılara bir söz demir, işin gedişatına mane olmaq istəmirdi. Beləcə bir saata yaxın vaxt keçdi. Təcili yardım maşını həyətdən çıxdı və sirenasını qoşub uzaqlaşdı. Bütün bu vaxt ərzində o, məlumatsız qaldı, siqareti azaldığı üçün yaxındakı köşkə getdi, qayıdanda artıq qapıdakı polislər yox idi. Qapıçı ona yaxınlaşıb:

– Sizi axtarırlar, Zəfər müəllim. – dedi. Qapıçıların ona müəllim deyərək müraciət etməsindən heç xoşu gəlmirdi, hətta müdir özü də ona "müəllim" deyə müraciət edirdi, onun bildiyinə görə belə müraciət forması təkcə Azərbaycanda idi və mülki həyatın sağalmaz xəstəliyi idi. Başqa vaxt olsaydı bəlkə də hansı yollasa etirazını bildirərdi, ancaq indi heç nə demədi.

– Kim axtarır və niyə?

– Müdirin otağındadırlar – cavab çox qısa oldu.

– Burda nə baş verib ki?

– Sevda xanımın vəziyyəti pisləşmişdi, təcili yardıma və polisə zəng vurduq. – O, bu qaradinməz qapıçının konkret cavablarından təngə gəldi. Elə bil sözləri ağzından kəlbətinlə çıxarırdılar. Tələsik pilləkənlərlə ikinci mərtəbəyə qalxdı, sola burularaq müdirin otağına tərəf getdi.

Qəbul otağında qələbəlik idi. İki polis nəfəri qapının sağ və sol tərəfində dayanmışdılar, iki mülki şəxs isə Sevda xanımın kompüterində və kağızları içərisində nəsə axtarırdılar. Onu görən kimi ikisi də ayağa qalxdılar və eyni vaxtda:

– Sən kimsən? – deyə soruşdular. Zəfər onların hər ikisini diqqətlə süzərək:

– Nəqliyyat meneceriyəm.

– Zəfər Mirzəyev?... Elə sən bizə lazımsan,. – deyə saçları çallaşmış mülki geyimdə olan şəxs onun adını xüsusi vurğu ilə dedi. Sonra başı ilə polisə işarə verdi, polis müdirin qapısını döyərək:

– Nəqliyyat meneceri burdadır – dedi. Sonra Zəfərə tərəf dönərək:

– Buyurun içəri, – dedi.

Zəfər yalnız indi baş verən hadisənin ciddiliyini anladı. Ona elə gəldi ki, edilən maxinasiyalara görə bütün bunlar baş verib. Amma Sevda ilə bunun nə əlaqəsi olduğunu başa düşmürdü. Keçirdiyi həyacandan alnına tər gəldi.

İçəri girərkən müdirlə bir nəfərin kabinetdə olduğunu gördü. Bu orta yaşlı, iti baxışlı, cüssəli bir adam idi. Zəfərə elə gəldi ki, o baxışları ilə qarşısındakının daxilini belə görür. Qapının ağzında quruyub qalmışdı. Müdirin həlim səsi onu diksindirdi.

– Zəfər müəllim, əyləşin.

Bayaqdan iti nəzərlərlə onu süzən adam gözlərini ondan çəkmədən:

– Hə-ə deməli, əsərin baş qəhrəmanı sizsiniz? – dedi və sağ əlini ona tərəf uzadaraq – Polkovnik Muradov, – deyə özünü təqdim etdi. Zəfər qeyri iradi olaraq ona tərəf getdi və birinci onunla sonra isə müdirlə görüşdü. Təklif gözləmədən stulun birini çəkərək oturdu, bununla da sanki özünü yıxılmaqdan qorudu. Amma boğazı qurumuşdu, su içmək istəyirdi. Ağlından ilk keçən fikir "belə olacağını bilsəydim heç bu gün işə gəlməzdim" oldu. "İndi sənədlər ortaya çıxacaq, sorğu-sual başlayacaq, hərəsinin arxasında min cür əzab dayanırdı. Sonu da ki, ən yaxşı vəziyyətdə bağlı qapılar arxasında kim bilir neçə il..." Bu fikirlər onun beynini məşğul edərək baş-

qa heç nə haqqında düşünməyə imkan vermirdi. Bir də ki, artıq düşünməkdən keçmişdi. Axı onu, təhlükəsizlik orqanlarında işləyən dostu, bir illik fasilədən sonra bu şirkətə göndərəndə üstüörtülü başa salmışdı. Sonda isə: "Kimdi ki, səni belə dərindən araşdıran, sənin keçmişin arxanda elə dayanıb ki, kimsə sənə heç nə edə biməz. Özünü möhkəm tut", demişdi, Zəfər də "özünü möhkəm tuturdu". Müharibə həyatı bir film kimi gözləri önündən keçdi. Üç dəfə yaralanmağı, iki dəfə mühasirədə olmağı, nə qədər soydaşlarını xilas etməyi, hərbi hospitallarda keçirdiyi ağır anlar, sonra il yarımlıq həbsxana həyatı, aldığı bəraət, yenidən ordu sıraları...

Əslində həbsxana həyatı onun üçün ağır keçmədi, çünki qapalı dünya ilə əlaqəsi olan tanışları hələ o içəri getməzdən əvvəl onun haqqında məlumat çatdırmışdılar. Zəfəri orda "Karol" kimi qarşıladılar, xüsusi otaq verdilər, hörmət, izzət sahibi oldu, yeməyi-içməyi yerində idi. İstər orda yatanlar, istərsə də "nadzorlar" ona böyük ehtiram göstərirdilər. Sonda da bəraət aldı. Ona ən çox təsir edən həbsxanada yatdığı zaman anasını və üç yaşlı qızı İlkayı itirməsi oldu. Həbsxanadan bəraət alaraq çıxmışdı, anasını və qızını isə həmişəlik itirmişdi. Təkcə bu hadisə onun yaddaşına xəncər kimi sancılmışdı, onun həyat sistemini tam şəkildə dəyişmişdi. Xəyalların burulğanında çabalayan Zəfəri polkovnikin sualı diksindirdi.

– Cənab Mirzəyev, kimdən şübhələnirsiniz, bu hadisənin baş verməsində, bizə bir ip ucu verə bilərsinizmi? Axı kimdir sizin qəsdinizə dayanan?... Amma necə deyərlər ananız namaz üstündə olub, yaxşı qurtarmısız.

Zəfər deyəsən yuxudaydı, ayıldı. İndiyə qədər düşündüklərinin heç biri düzgün deyilmiş, onun

məlumatı olmayan və bilavasitə onunla bağlı hansısa ciddi bir hadisə baş vermişdi. Birdən birə əhval-ruhiyyəsi dəyişdi, özünü çox pis hiss etdi. Ona ən çox təsir edən baş verən hadisədən xəbərsiz olması idi. Axı nə baş vermişdi, ofisdə onun olmadığı müddətdə. İşə gecikdiyi üçün özünü qınadı. "Deməli Sevda xanım mənim güdazına gedib" deyə fikirləşdi və bayaqdan sual dolu baxışlarını onun üzündən çəkməyən palkovnikə baxdı və bir bəhanə ilə otaqdan çıxmaq istədi.

– Bağışlayın, mən özümü pis hiss edirəm və elə buna görə də sizə heç nə deyə bilməyəcəyəm. Bir az havaya çıxmaq istəyirəm – deyə ayağa qalxdı.

Bütün iradəsini toplayaraq kabinetdən çıxdı, dəhlizi keçərək birinci mərtəbəyə düşdü. Küçəyə açılan qapıya tərəf getdi, polis nəfərinin qapıda dayandığını görərək, fikrini dəyişdi. Arxa qapıdan həyətə çıxdı. Kiçik həyətdə dairəvi formada quraşdırılmış oturacaqların birinin üstündə oturdu. Bir siqaret yandırıb baş verən hadisə haqqında düşünməyə başladı. Bu zaman təsərrüfat işləri üzrə müavin Ramiz qapıdan çıxdı və birbaşa ona yaxınlaşdı. Bir siqaret yandırıb onun yanında oturdu. O, dolubədənli, ortaboylu yaşı altımışa yaxın olan bir adam idi. Yumru, bir az da böyük olan başı bədəninə elə birləşmişdi ki, sanki boynu yox idi. Yaşına görə çox qıvraq və cəld adam idi. Yastı burnu və sifətinə nisbətdə çox kiçik olan yumru, qara gözləri və uzun qolları onun meymunlarla qohumluğunu açıq-aşkar göstərirdi. Amma xasiyyəti çox yaxşı idi, ilanla da yola gedən adam idi, hamı ilə münasibət saxlayar, heç kimlə işi olmazdı. Həm də çox ağıllı idi. Zəfərlə bir-birini uzun müddət tanımalarına baxmayaraq, özlərini sanki bu şirkətdə tanış

olduqları kimi aparırdılar. Ofisdə hamı onun müdirin atası ila uşaqlıq dostu olduğunu danışırdı. O, Zəfərə yaxın oturub, ətrafı gözdən keçirdi, səsini aşağı salıb, sanki pıçıltı ila danışmağa başladı.

– Yaxşı ki, işə gecikmisiniz, yoxsa indi siz Sevda xanımın yerində olardınız – deyə canıyananlıq etdi.

– Burda nə baş verib? – deyə Zəfər özünəməxsus ciddiyətlə soruşdu.

– Sizin xəbəriniz yoxdur ki?... – deyə sual dolu gözlərini onun üzünə dikdi, lakin tez də başa düşdü ki, keçmiş komandir əvvəllər olduğu kimi hadisədən məlumatlı olsa belə hər şeyi onun dilindən eşitmək istəyir, ona görə də cavab gözləmədən izahat verməyə başladı.

– Hadisədən xəbər tutan kimi sizə iki dəfə zəng elədim, ancaq telefonunuz çağırsa da cavab vermədiniz. – Bir az duruxub, əlavə etdi. – Sevda xanım işə gələn kimi yəqin ki, dünənki hesabatları götürmək üçün sizin otağınıza gedib ki, aparıb müdirin stolunun üstünə qoysun. Yaxşı ki, qapını açıq saxlayıb. İşığı yandıran zaman zəif partlayış səsi gəlib, otaq tüstü ilə dolub. Əvvəlcə heç nə anlamayan Sevda xanım, qapıdan çıxana qədər, udduğu qaz öz işini görüb, otaqdan çıxarkən qapının ağzında huşunu itirib. İşçilərin köməyi ilə onu dəhlizə çıxarıblar. Deyirlər, ağzından və burnundan qan gəlirmiş. Yazıq Sevda!... – Ramiz kişi kövrəldi, xırda gözləri parıldadı – İndicə xəstəxanadan gəlirəm, həkimlərin səyinə baxmayaraq dünyasını dəyişib, dedilər ki, hansısa qazdan zəhərlənib. Əclaflar, sənincün hazırlayıbmışlar bunu.

O, izahatını bitirdi. Zəfər sakitcə onu dinlədi. Artıq bu təsadüf deyildi. Deməli müharibə hələ də bitməmişdi,

o qanlı-qadalı günlər daha kəskin formada davam edirdi. Keçmiş kəşfiyyatçı bilirdi ki, onun kimilər üçün müharibə heç zaman bitmir və son nəfəslərinə qədər bitməyəcək də. Sadəcə motiv dəyişib. Yenidən xəyallar onu keçmişə qaytardı.

Ordudan yenicə tərxis olmuşdu. Hər gün iş axtarmaq üçün şəhərə çıxar, keçmiş idmançı dostları və cəbhə yoldaşları ilə görüşərdi. Bu gün də elə günlərdən biri idi. Evlərinin qarşısındakı yolu keçmək istəyərkən yolun kənarında dayanan ağ rəngli "Jiquli" markalı maşının birdən-birə üstünə şığıdığını gördü. Maşından canını güclə qurtardı, bir an geciksəydi, yəqin ki vəziyyət başqa cür ola bilərdi. Tüstüləyərək yerindən qopan maşın, silahdan çıxan güllə kimi onu sürtüb keçdi və saxlamadan uzaqlaşdı. Həmin anda Zəfər buna fikir vermədi. Təsadüf olduğunu düşündü. Xüsusi xidmət orqanında işləyən dostu ona üstüörtülü bir az ehtiyatlı olmağı tapşırmışdı. İşə düzəldikdən sonra da iki dəfə yük maşınının təzyiqiylə üz-üzə gəlmiş, hər ikisində hansısa bir qüvvənin təsirilə xətərsiz ötüşmüşdü. Artıq onda heç bir şübhə qalmamışdı ki, "onun ovuna çıxıblar, ovçuların məqsədi nə olursa, olsun onu cismani yox etməkdir" və bu fikir qətidir. Bir il üç ayda dörd dəfə həyatına qəsd məqsədiylə hücum... çox deyildimi? Görünür peşəkar deyildilər, ya da əksinə o, çox ehtiyatlı idi. Yenidən bu fikirlər onu öz aləminə apardı. Ayağa durdu, bir siqaret yandırdı, dərin bir qullab vuraraq, acgözlüklə tüstünü ciyərlərinə çəkdi, kiçik həyətdə asta-asta var-gəl etməyə başladı. Bayaqkı polis nəfərinin şüşənin arxasından ona baxdığını gördü, içəri daxil oldu. Sakit addımlarla öz otağına baxmaq üçün ikinci mərtəbəyə qalxdı. Dəhlizdə

polkovnik Muradovla şirkətin prezidentini görərək onlara yaxınlaşdı, deyəsən onlar da onun otağına baxmışdılar. Polkovnik Muradov gülümsəyərək ona yaxınlaşdı, boyları eyni olardı, Muradov bir az kök, həm də yaşlı idi. Sağ əlini onun çiyninə qoyaraq dedi.

– Mirzəyev, özünü qoru, görünür kimlər üçünsə çox maraqlısan, səni çox "sevirlər", yəqin elə ona görə də səni tez-tez "ziyarət" edirlər.

Sonra ikiəlli görüşərək sağollaşdılar. Polkovnik Muradov ayrılanda əlini pencəyinin döş cibinə atdi, bir kağız çıxarıb ona uzatdı.

– Şəxsi nömrəmdi, lazım olsam, zəng elə – dedi və iti addımlarla pillələri düşərək həyətdə onu gözləyən maşınına oturdu. Onu təqib edən müdir maşın həyətdən çıxdıqdan sonra geri döndü.

Zəfər otağına yaxınlaşdı, qapı açıq idi. Yarıqaranlıq otaqda nəyisə tam aydın seçmək olmurdu, hər ehtimala qarşı dərindən nəfəs aldı. Otağa daxil olaraq, pərdəni çəkdi, pəncərələri açdı və sonra kürəyini divara söykəyərək otağa göz gəzdirməyə başladı. Bir müddət hərəkətsiz dayandı. Masanın üstü səliqəsiz idi, kağızlar bir-birinə qarışmışdı. Masaya yaxınlaşdı, kreslonu diqqətlə yoxladı, sonra süyürmələri ehtiyatla bir-bir çəkib yoxladı. Hər şey səliqəsiz, dağılmış vəziyyətdə idi. Onun otağında bir gün əvvəl işıq xarab olmuşdu, o bu barədə Ramizə demişdi. Elektrik ustası olmadığına görə dünən Ramiz ona masaüstü lampa vermişdi. O, masaüstü lampanı qoşmaq istəyirdi ki, müdir qapıda göründü və işığı yandırdı, sonra isə qapıdan çöldə döşəməni göstərərək:

– O yazıq burda uzanmışdı – dedi. Zəfər müdirin yanına getdi. Onlar birlikdə yeməkxanaya düşdülər.

İKİNCİ FƏSİL

Sevda xanım müdirin köhnə tanışı idi, ali təhsilli, zahirən çox gözəl, lakin bir az təkəbbürlü bir xanım idi. Yusif bu işə başlayarkən özündən on yaş kiçik olan bacısının tələbə yoldaşı Sevdanı guya bacısının xahişi ilə katibə kimi işə götürmüşdü. İşdə heç kimin onların aralarında olan münasibətindən, Yusifin kiçik Fidanın atası olmasından xəbəri yox idi. Sevda katibə olmasına baxmayaraq şirkətin bütün işlərinə qarışardı, heç kim ondan xəbərsiz bir iş görə bilməzdi.

Zəfərin təqdimatına əvvəlcə etiraz etmişdi, Sevda. O, bu işə öz qohumlarından birini gətirmək istəyirdi. Lakin müdirin israrla təkidindən sonra razılaşmışdı. Axı Zəfəri elə-belə adam tapşırmamışdı müdirə. İlk dəfə Zəfəri görəndə qəlbi titrədi Sevdanın, bir anlıq özünü onunla bir yataqda təsəvvür etdi, xüsusi bir ləzzət aldı. Bu hündürboy, qamətli, əzələli, Sevdanın zövqüncə əsl kişi xüsusiyyətlərini özündə cəmləşdirən keçmiş hərbçi onun rahatlığını əlindən aldı. İllərlə qəlbində gəzdirdiyi "Ağ atlı şahzadəyə" bənzəyirdi o. Yox, bənzəmirdi, elə onun özü idi, uzun illərdən sonra gəlmişdi Sevdanın həyatına, ona göz dağı olmaq üçün. "Gecikmisən şahzadəm, yaman gecikmisən, əzablı, iztirablı illər məni soldurdu, başım qovğalar çəkdi. Həyatımın tər çiçəklərini sənə verə bilmədim, bir vəhşiyə qismət oldu ömür qönçələrim, ayaqlar altına düşdü mənliyim, qürurum tapdalandı. Səni xəyallarımda yaratdım, həyatda

çox axtardım, yalnız indi tapdım, amma nə xeyri var, daha gecdir, sənə verməyə heç nəyim yoxdur. Qəlbimin odu ilə isidə bilmədim səni. İndi sönmüş bir ocağam, səni isitməyə qor belə qalmayıb ürəyimdə. Vaxt var idi, hamı mənə xoşbəxtlik rəmzi kimi baxırdı, indi bədbəxtlik mücəssəməsiyəm. Ruhum qara haşiyəli çərçivədədir, lampaya salınmış cin kimi əsirdir. Onu ram etmək, duyğuların diktəsi ilə ovundurmaq, bizim bu xəyali sevdamızı diriltmək kimin nəyinə lazımdır axı?... Bilirəm ki, sənə lazım deyil, mənə isə hava kimi, su kimi lazımdır, həm sən özün, həm də sənin zərrə qədər olsa belə sevgin. Həyatda bu qədər zülmdən sonra səni qarşıma çıxaran Rəbbimə şükürlər olsun. Bəlkə hələ gec deyil?..."

Zəfərin "Alfa"ya gəlişi hər şeyi alt-üst etmişdi. Onsuz da dedi-qodu axtaran ofis çuğulları ağına-bozuna baxmadan ağıllarına və ağızlarına gələnləri danışmaqla sanki bir-biriylə yarışırdılar. Pıçıltı ilə, gizlində danışılan söhbətlər yavaş-yavaş aşkara çıxır və ümumi mövzular kimi adiləşir, hətta Yusifdən, Zəfərdən belə çəkinmədən hər yerdə danışılırdı. Ofis çuğulları bu xoşagəlməz söhbətləri artıq Barata da çatdırmağa macal tapmışdılar. Yusif bu dedi-qoduları nə qədər qulaqardına vurmaq istəsə də, çox zaman özü ilə bacara bilmirdi. Amma onu da gözəl başa düşürdü ki, vəziyyətin bu tərzdə getməsi nə onun, nə atasının sağ ikən ona miras qoyduğu şirkətin, nə də kənardan hər şeyi diqqətlə izləyən atasının xeyrinə deyildi. Hadisələrin gedişinə müdaxilə etmək, gündən-günə yayılmaqda olan şaiyələrin qarşısını almaq, dedi-qodunu kəsmək – bütün bunlar sadəcə olaraq onun bacarığı çərçivəsində deyildi. Buna görə də

o, gördüklərini və eşitdiklərini ya qulaqardına vurur, ya da ürəyinə salıb daha da qaradinməz olurdu.

Zəfər isə quyruq ələ verən adam deyildi. Həyatının çox hissəsini sözün həqiqi mənasında adam otarmaqla keçirən kəşfiyyatçı, tükü tükdən seçməyi bacarırdı. İlk gündən Sevdanın ürəyindən keçənləri oxumuşdu, bilirdi ki, azca boşluq eləsə hər şey baş-ayaq olar, bərbad şəklə düşər. Çünki, arada öz kobud görkəmi və qısqanc baxışları ilə onları daima nəzarətdə saxlayan Yusif vardı.

Yusif, Sevdanı işə götürən zaman ona söz vermişdi ki, məqam olan kimi onu katibəlikdən başqa bir işə keçirəcək, onu şirkətdə ikinci adam olmasına kömək edəcəkdi. Lakin bu illər ərzində nəinki ona kömək etmiş, hətta bacardıqca mane olmağa çalışmışdı. Bilirdi ki, Sevda həm savadlı, həm də füsunkar gözəlliyi ilə istədiyini əldə etməyi bacaran bir qadındır. Onunla bir dəfə yataqda olan hər hansı bir kişi ömrünün sonuna qədər bu ləzzəti unutmaz, təkrarən bu anların baş verməsini istəyərdi. O, yaxşı başa düşürdü ki, Sevda həm gözəlliyi, həm də intelektual səviyyəsinə görə onun əllərinin çata bilmədiyi yüksəklikdədir, onun kimilərin heç yuxusuna da gəlməyən bir yüksəklikdə.

Yusif bütün bunları gözəl başa düşür, bacardıqca onu pis baxışlardan uzaq tutur, pis niyyətlərdən qoruyurdu. Lakin qoruya bilirdimi?... Baxmayaraq ki, Sevdanın təkidiylə onlar əvvəlki münasibətlərinə iki il əvvəl son qoymuşdular. Qızdan aldığı ləzzəti ömrünün sonuna qədər unutmayacaqdı. Elə buna görə də Yusif, onunla əvvəlki münasibətləri bərpa etmək üçün öz yanında katibə kimi işə başlamasına razılıq vermiş, ancaq nəticədə heç nə alınmamışdı. Sevda daha da ərköyünləşmiş,

hətta Fidanla görüşməsini belə məhdudlaşdırmışdı. O, nə qədər çalışsa da, Sevda torpağın dərin qatlarından belə parıltısı ilə gözləri qamaşdıran daş-qaş kimi ətrafdakıları cəlb edirdi, bu isə heç də onun ürəyincə deyildi və ola da bilməzdi. Çünki Sevda təkcə gözəlliyi ilə onu ovsunlayan mələk deyildi, həm də qeyri-qanuni yolla dünyaya gələn, artıq iki yaşlı Fidanın anasıydı. Bütün bunlara baxmayaraq Yusif Sevdaya nəsə olmasını da istəmirdi, hər gün kənardan olsa belə onun mələk simasını görmək, ruhunu oxşayan səsini eşitmək, aralıdan olsa belə nəfəsini duymaq bəs edirdi ona.

Lakin Sevda kimsənin xəbəri olmadan artıq Zəfərin "ovuna" çıxmışdı, əslində o, özü bu "ovçunun" torunda idi. Zəfər işə başlayandan sonra qızın gecəsi-gündüzü yox idi, yuxularında belə onu görürdü. Amma bu qaşqabaqlı, qaradinməz adamla necə ünsiyyət qurmağın yolunu tapa bilmirdi. Ehtiyatsız bir addımla onu itirməkdən, hər ikisinin çətin anlar yaşamasından qorxurdu. Bilirdi ki, Yusif ona görə hər şey edər, amma qız Zəfərin zərər çəkməsini istəmirdi. Beləcə günlər ötür, istəklər toqquşur, münasibətlər kəskinləşir, ümidlər acı bağırsaq kimi uzanır, arzularsa hələlik arzu kimi qalır, reallaşmırdı.

Zəfər Sevda üçün "Ağ atlı şahzadə", Yusif üçün arzuolunmaz rəqib, Barat üçün keçilməz sədd, Ramiz üçün yaxın yoldaş, Dövlət üçün ağıllı və bacarıqlı kəşfiyyatçı idi. O, hər bir işi görən zaman təkcə beyni ilə yox, ürəyi ilə də düşünərdi. Əməliyyatları hazırlayan zaman bütün incəlikləri analiz edər, boşluqlar buraxmaz, yerinə yetirən zaman çətinlik çəkməzdi.

ÜÇÜNCÜ FƏSİL

Sevda uzaq dağ kəndindən gəlmişdi. Valideyinləri hələ o iki yaşında ikən avtobus qəzasında həlak olmuşdular. Balaca qızcığaz, körpə vaxtından yetim qalaraq, yarıuçuq daxmada yaşayan nənəsinə sığınmışdı. Nənə gecəsini gündüzə qataraq bir soyun yeganə davamçısı olan bu körpə qızcığazı korluq çəkməyə qoymamışdı.

Öz gözəlliyi ilə hələ orta məktəb illərindən çoxlarının qəlbinə od salmışdı Sevda. Kəndin bütün cavanları bu qarabuğdayı, iri, qara gözlü qızın saqqızını oğurlamaq üçün yüz oyundan çıxırdılar. Onun biganəliyi isə hər şeyi boşa çıxarırdı. Orta məktəbin onuncu sinfində oxuyarkən elçilərin arası kəsilmirdi. Gələnlərin hamısı kəskin "yox" cavabını eşidir, suyu süzülə-süzülə geri qayıdardılar. Universitetin filologiya fakültəsinə daxil olandan sonra bir müddət tələbələrə məxsus yataqxanada yaşadı. Elə ilk gündən ətrafdakıların diqqətini üzərində hiss edir, lakin heç nə başa düşmürmüş kimi özünü bilməməzliyə vururdı. O, hər bir qıza nəsib olmayan gözəlliyindən maksimum istifadə edərək öz "Ağ atlı şahzadəsini" gözləyirdi və əgər lazım olsa idi, onu ömrünün sonuna qədər də gözləyəcəkdi.

Amma çox zaman insanın düşündüyü kimi olmur, həyat sürprizlərlə doludur. Gözləmədiyimiz anda elə hadisələr baş verir ki, min il də fikirləşsək ağlımıza belə gəlməz ki, bu hadisələr bizi təqib edir. İnsan ya-

şadığı zamanı ən azı bircə an qabaqlaya bilsə idi yəqin ki, öz həyat cizgilərini özü istədiyi kimi cıza bilərdi. Bizim əksəriyyətimiz zamanın bizim üçün çəkdiyi iz ilə gedirik, əgər onu da gedə bilsək. Çünki, ötən zamanı təqib etmək belə bizim düşüncələrimizdən çox-çox kənardadır. Daşlı, kəsəkli, palçıqlı yollarda, qızmar günəş altında, qarda, yağışda zamanın bizim üçün açdığı cığırla irəliləmək o qədər də asan deyil. Bu cığırın axırında sonu görünməyən uçurumun, ya da güllüçiçəkli çəmənliyin olması, qabaqcadan bilinməsi mümkün olmayan sirdir. Sevda heç özü də bilmədən bu sonu məchul, daşlı, kəsəkli, enişli, yoxuşlu, ağıla gəlməyən sürprizlərlə dolu olan cığırın başlanğıcında idi və gənclik romantikasının əsrarəngiz ümmanında yelkənsiz qayığı xatırladırdı.

Üçüncü kursun son ayında tələbə yoldaşı Nigarın ad günü oldu. Nigar imkanlı ailənin tək qızı olduğu üçün ad gününü atasına məxsus mehmanxananın restoranında keçirirdi. Tələbə yoldaşları qızlar və Nigarın rəfiqələri öz yaxınları ilə gəlmişdilər. Böyük zal gənc qız və oğlanlarla dolu idi. Nigar qardaşı Yusiflə birgə gələnləri təmtaraqla qarşılayır, gətirilən hədiyyələri qəbul edir, onları boş yerlərdə otuzdururdular.

Musiqinin səsindən qulaq tutulurdu. Sevda tələbə yoldaşı Məsumə ilə birlikdə qapıda görünəndə zalda elə bir uğultu var idi ki, onlar hər ikisi çaşıb qaldı. Qapıdan qayıtmaq istəyirdilər ki, qarşılarında Nigar və Yusif peyda oldu. Nigar həmişəki kimi gözəl geyinmiş, gur saçlarını qeyri-adi formada kəsdirərək yığdırmış, üz boyalarından yetərincə istifadə etmiş, özünü lap təzə gəlinə döndərmişdi. O, özünəməxsus pafosla və uca səslə:

– Dünyanın ən gözəl qızları, xoş gəlmisiniz! – dedi və həmişəki mehribanlıqla qızları bir-bir qucaqlayıb öpüşlərə qərq etdi. Sevdanın incə belindən tutaraq havaya qaldırdı, firladıb yerə qoydu. Sonra Yusiflə qızları bir-birinə təqdim etdi.

Məclis isə öz axarında gedirdi. Eyni stolda yer olmadığı üçün Məsumə ilə ayrı-ayrı stollarda oturdular. Stola yaxınlaşan zaman artıq badələr süzülmüş, onun üçün isə məclisə gecikdiyinə görə bakal doldurulmuşdu. Masa ətrafındakılar onu cərimə etmişdilər. Hamı bir ağızdan onun bir nəfəsə içməsini təkid edirdi. Sevda bu günə kimi içki içməmişdi, heç onun dadını da bilmirdi və ona elə gəlirdi ki, heç bir zaman içə bilməz. Amma daxilində bir səs tələbə yoldaşları kimi ona içməyi təkid edirdi. Axı onun nəyi bu qızlardan əskik idi. Sevda bakalı əlinə götürdü, bir an duruxdu, sonra isə daxilindən gələn səsi batırmaq üçün başına çəkdi. Stoldakıların hamısı sakitləşərək təəccüblə ona baxırdılar. Bakalı son damlasına qədər içib stola qoyanda hamı ayağa qalxaraq onu alqışladı. O isə nəfəs ala bilmirdi, içinə sanki od, alov dolmuşdu. İçdiyi araq fantan verib ağzından çıxmaq istəyirdi, onsuz da boş olan mədəsi sanki alışıb yanırdı. Kimsə ona başqa bir bakalda meyvə şirəsi uzatdı, o azgözlüklə meyvə şirəsini başına çəkdi. Çəngəl, bıçağı unudub əlləri ilə yeməyə başladı.

Zaldakı səs-küydən qulaq tutulurdu. Qızlar yarıçılpaq vəziyyətdə bir-biriylə yarışırmışlar kimi tullanıb düşürdülər. Sonra Nigar və Yusif onların stoluna yaxınlaşdılar. Qədəhlər yenidən doldu, kimsə nəsə danışdı. Sevda növbəti qədəhi stola qoyanda artıq heç nə eşitmir və heç nə görmür, sanki səmalarda uçurdu. Ona elə

gəldi ki, bir az da belə getsə tamam uçub gedəcək və bir daha geriyə qayıtmayacaq. O, bütün gücünü toplayaraq yanında oturan Nigarı qucaqlamaq istədi, nə qədər çalışsa da qolları qalxmadı. Oturduğu yerdə səndələdi, elə bil stul altından qaçdı. Özünü saxlaya bilməyərək yıxılmaq istədi. Yusifin qolları üstünə düşdü...

Yusiflə Nigar onu ayağa qaldırdılar və restoranın geniş dəhlizinə çıxartdılar. Sonra Nigar qardaşına artıq özündə olmayan Sevdanı restoranın üstündə olan mehmanxananın otaqlarından birində yerləşdirməyi tapşırdı, xidmətçilərdən birini ona köməkçi verərək özü zala qayıtdı. Yusif xidmətçi oğlana lifti aşağı salmasını deyərək, Sevdanı qollarının üstünə aldı. Sonra dördüncü mərtəbədə özü üçün ayrılmış otağa apardı. Qapını açan xidmətçi nəsə bir köməyin lazım olacağını soruşdu və cavab gözləmədən qapını örtüb getdi.

Yusif, qızı səliqə ilə yığılmış iki nəfərlik çarpayının üstünə uzatdı, vanna otağına keçib əl-üzünü yudu. Güzgüdə özünə xeyli baxdı, saçlarını daradı, dolabı açıb bahalı ətiri saçlarına, paltarına vurdu. Bahalı kostyumunun boğazlığını düzəldərək restorana düşmək üçün vanna otağından çıxdı. Qapıda dönüb otağa göz gəzdirdi. Çarpayıda yarıçılpaq uzanmış qızı görüb duruxdu. Çarpayının yanına gəldi. Sevda arxası üstə qollarını yana açaraq uzanmışdı. Gur qara saçları bütün yastıq boyu sərilmiş, nazik qaşları, uzun kirpikləri, balaca, şişman dodaqları ona gəl-gəl deyirdi sanki. Köynəyinin düymələri dartınaraq iri sinəsini zorla saxlayırdı, yubkası yuxarı dartılmış, dolu və cəlbedici ətraflarını bütün gözəlliyi ilə göstərirdi. O çaşıb qalmışdı, otuzu haqlayırdı amma belə gözəl bir mənzərə görməmişdi. Dünya-

nın ən böyük rəssamı belə, bu mənzərənin oxşarını çəkə bilməzdi, belə bir təkrar olunmaz "rəsm əsəri"ni bu günə qədər heç kəs görməmişdi və bundan sonra da dünya durduqca görməyəcəkdi də. Bu otaq, bu çarpayı şahid idi ki, Yusif, kimlərlə gecə səhərə qədər hansı oyunlardan cıxmamışdı, kimləri bu yatağa gətirməmişdi. Amma indiki gözəlliyi heç vaxt görməmişdi və ömrünün sonuna qədər də görməyəcəkdi.

Pencəyini soyunub asılqandan asdı, çarpayının yanına gəlib qızın yanında oturdu, xeyli bu gözəlliyə tamaşa etdi, toxunmaq istəmirdi, sanki toxunsaydı, onu valeh edən sehr yoxa çıxacaqdı. Lakin özü ilə bacara bilmədi, ehtiyatla, qorxa-qorxa saçlarını tumarladı, əlini bütün bədəni boyu gəzdirdi. Ayaqqabılarını cıxarıb döşəmənin üstünə atdı. Əyilib qızın heç vaxt öpülməmiş, şeh düşmüş çiçəyə bənzəyən dodaqlarından öpdü. Paklıq, bakirəlik ətri bihuş etdi onu. Sonra onu soyundurmağa başladı, sinəsini zorla bir yerə yığan köynəyinin düymələrini açdı. Bədəni mərmərdən tökülmüşdü sanki.

Yenidən qalxıb oturdu, qıza xeyli tamaşa etdi. "Yatmış mələk" deyə fikirləşdi. Bu gözəlliyi pozmağa ürəyi gəlmədi, qəlbində qıza qarşı mərhəmət hissi yarandı, yoxsa içdiyi alkoqolun təsirindənmi, bəlkə də Nigarın qorxusundan ehtirası söndü? Onu belə halda yatağına çəkmək istəmədi, hisslərini cilovladı. Sevda içdiyi arağın təsirindən xumarlanıb yatırdı. Ayağa durub qızın köynəyini asılqandan asdı, kiçik masanın üstündəki "Sirab" butulkasını başına çəkdi.

O, restorana düşəndə artıq məclis dağılmışdı. Bir az təmiz havada gəzişdi. Qarson qaçaraq gəlib kiminsə onu telefona çağırdığını dedi, Nigar idi. Sevdanı soruşurdu.

Nigar evin tək qızı və son beşiyi idi, Yusifdən fərqli olaraq valideynləri onun nazı ilə oynayır, bir sözünü iki etməzdilər. O, Yusifdən on yaş kiçik idi. Ailədə hamıdan fərqli olaraq mehriban, qayğıkeş, ətrafdakılarla qaynayıb qarışmağı bacaran bir qız idi. Hələ uşaqkən Yusifdən gözü su içməyən atası onu oğlan kimi tərbiyə etmiş, bir çox qadağan olunmuş idman növləri ilə məşğul olmaq üçün məşqçilər yanına qoymuşdu.

Nigar döyüş sambosu və Ju Jitsu ilə məşğul olmuş, bu idman növlərinin daha çox, qadağan olunmuş tərəflərini mənimsəməyə üstünlük vermişdi. Hətta məşqçilərdən biri onun gələcəyindən ehtiyat edərək atasıyla bu barədə təklikdə söhbət də etmişdi. Barat isə üzdə narazı olmasını biruzə versə də, daxilən qızıyla qürur duyurdu. Nigar son illər silahlarla davranmaq, istifadə etmək məqsədi ilə xüsusi klublara yazılmış və bundan ötəri əlavə məşqçilər də tutmuşdu. Bu barədə heç kim bilməsə də, atası Baratın ətraflı şəkildə məlumatı var idi. Oğlu Yusifin bu sahədə fərsiz olması, onu heç də açmırdı.”Südünə çəkib bu küçük”, deyə tez-tez düşünərdi...

Yusif otağa səhər yeməyi və çay sifariş edərək, yuxarı qalxdı, cibindəki açarla qapın açdı, “yatmış mələk” hələ də oyanmamışdı. Vanna otağına keçərək yuyundu, yenidən güzgünün qarşısında xeyli dayandı. Otağa qayıdarkən Sevdanın çarpayının örtüyünə bürünərək ürkək baxışlarla ona baxdığını gördü, gülümsədi.

– Axır ki.., oyandın, yatmış mələk!?

Kompliment qızın ürəyincə olsa da, düşdüyü vəziyyətin təsirindən sifət cizgiləri dəyişmədi. Suala sualla cavab verdi.

– Mən hardayam, bura haradır, sən kimsən? – deyə iniltiyə bənzər, zorla eşidiləcək səslə dedi və sual dolu, intizarlı baxışlarını Yusifin üzündən çəkmədən cavab gözləyirdi.

Elə bu zaman qapı döyüldü, Yusif qapını açdı. Üstündə bütün nemətlərdən olan araba otağa daxil oldu. Xüsusi geyimdə olan qarson oğlan onlara fikir vermədən yeməkləri stolun üstünə düzdü və sakitcə, gəldiyi kimi də getdi. Maraqdan Sevdanın nitqi tutulmuş, matı-qutu qurumuşdu. Yoxsa xəyallarında mücərrəd olaraq qurduğu "Ağ atlı şahzadə" onu bir qarın ac, bir qarın tox yaşadığı həyatın girdabından çıxarıb bura – onun hələ də aydınlaşdıra bilmədiyi bu məkana gətirmişdi? Axı o indi universitetin yataqxanasında kiçik otaqda olmalı idi. Bəs otaq və tələbə yoldaşı Məsumə harda idi?... Xəyallarındakı "Ağ atlı şahzadədən" boyca kiçik, yetərincə eybəcər olan bu oğlan kim idi?... Onu kim soyundurmuşdu?... Görəsən ona toxunmamışdılar ki?... Sevda bu suallara cavab axtararaq çaşıb qalmışdı.

– Əynini geyin, bir az yemək yeyək, yəqin ki, acsan – deyə Yusif hamam otağına keçdi və hamam otağından – köynəyin asılqandadır – dedi.

Sevda əmrə tabe əsgər kimi cəld yerindən qalxdı, asılqandan köynəyini götürərək geyindi, yaxasını düymələyə-düymələyə:

– Gələ bilərsiniz – dedi.

Yusif vanna otağından çıxdı və bir başa stolun arxasına keçdi. Ərklə, hələ də çaşqınlıq içərisində çabalayan qıza baxdı.

– Əyləşin.

Sevda vanna otağına keçdi, qapını arxadan bağlayaraq, suyu açdı və paltarını soyundu. Özünü başdan

ayağa kimi yoxladı. Bədənində yad baxışın və təmasın nişanələrini axtardı. Şübhəli bir şey görməyincə rahatlandı. Ancaq inana bilmirdi ki, gecə onunla bir otaqda qalan kişi ona toxunmasın, "hamısı eyni olmur ki, görünür qeyrətlisi də var" deyə fikirləşdi. Qapı döyüldü.

– Nəsə lazımdır – deyə otaqdakı kişi soruşdu.

– Yox çıxıram.

Əllərini yuyub üzünə su vurdu, kağız dəsmalla qurulanıb otağa keçdi. Yusif pəncərənin qarşısında dayanıb çölə baxırdı, qapının səsinə geri döndü, qızı görüncə gülümsündü, stola yaxınlaşdı, əliylə işarə edərək qızı stola dəvət etdi. Sevda stola əks tərəfdən yaxınlaşdı, onun gözlərinin içinə baxaraq:

– Sən bu gecə mənimlə bir otaqda qalmısan? – Yusif başı ilə təsdiqlədi. Qız kinli baxışlarla onu süzdü və daha kəskin şəkildə soruşdu.

– Mən haradayam, mənə toxunmamısan?

Yusif onun sualına qəsdən cavab vermədi.

– Uzun məsələdi, otur yemək ye. Hamısını danışacam. Sən hər şeyi unutmusan ki, heç nəyi xatırlamırsan?

Verdiyi suallar qızı daha da şübhəyə salırdı. Axı o nəyi unutmuşdu, nəyi xatırlamalı idi deyə düşündü. Doğrudan, dünən nə baş vermişdi axı? Başı bərk ağrıdığı üçün fikirləşə də bilmirdi, sanki keyləşmişdi. Stulu çəkib oturdu. Boğazından aşağı od tutub yanırdı. Bir stəkan su süzüb içmək istədi. Yusif etiraz etdi. Sakitcə ayağa durub, soyuducunu açdı, bəzəkli bir butulka gətirib masanın üstünə qoydu. Sonra dolabı açıb iki qədəh gətirdi. Onları da masanın üstünə qoydu.

– Sənin indiki vəziyyətinin dərmanı budur.

Cavab gözləmədən hər iki qədəhi doldurdu və dünənki hadisələri hamısını bir az da dəyişilmiş formada qıza danışdı.

– Məni bu otağa kim gətirdi?

– Nigarla mən.

– Kim soyundurdu?

– Yəqin ki, Nigar. O, mənə dedi ki, sən yatırsan, narahat etməyək. Mən səhər yeməyi sifariş verib otağa gələndə sən hələ də yatırdın.

Yusif yalan danışmağa məcbur oldu. Sevda bir az rahatlandı. Axşamkı ad günü yavaş-yavaş yadına düşməyə başladı. Etdiklərinə görə utandı. Tələbə yoldaşlarının üzünə necə baxacaqdı, yəqin ki bütün universitet ondan danışacaqdı. Lap biabır olmuşdu. İndi arağı stolun üstündə görəndə ürəyi bulandı, durub vanna otağına qaçdı. Bir azdan otağa qayıtdı, pərt halda Yusifin üzünə baxmadan dedi.

– Mənimçün baş ağrı dərmanı tapa bilərsiniz?

– Mən dedim axı sənin dərmanın budur, əlli qram iç düzələcəksən. İndiki vəziyyətində dərman ziyan eləyər.

Sevda əlacsız qalıb, qədəhi götürdü, bir nəfəsə başına çəkib masanın üstünə qoydu. Bir neçə dəqiqədən sonra içindəki yanğı söndü, elə bil odun üstünə su ələndi. Yavaş-yavaş keyfi də yerinə gəldi. Utancaqlıq hissi yoxa çıxdı, deyib gülməyə başladı. Yusif qədəhə toxunmadı, sanki sehirlənmşdi, gözlərini qızdan çəkmirdi, həqiqətən Sevda çox gözəl idi və Yusif bu gözəlliyə biganə qala bilmirdi.

Yusif Sevdanın gözlərində dəyişdi, onun qəlbini ovsunladı, ona elə gəldi ki, illər boyu axtardığı "Ağ atlı

şahzadə" elə budur, iyirmi bir il gecə-gündüz dayanmadan yol gəlmiş və nəhayət onu tapmışdı.

Bəzən həyat bizim düşündüyümüz qədər bəsit olmur, istədiyimiz hər şeyi əldə edə bilmirik və o zaman həyatın yeni, daha sərt üzü ilə qarşı-qarşıya dururuq. İstəyimizi reallaşdırmaq üçün iradəmizin əksinə gedirik, duyğularımızı gizlədirik və ya vaxtında biruzə verə bilmirik. Belə olduqda hər şey istəyimizə tabe olur, hissə qapılırıq, ruhumuz qandallanır və istəklərimizin əsiri oluruq. Bizim üçün qoyulan hədləri aşırıq, özümüzü kənara qoyub içimizdə baş qaldıran ikinci bir "mənə" tabe oluruq və həddini aşanların cərgəsində dururuq. Belə olduqda yaşadığımız hər gün qara haşiyəli çərçivələrə salınır. Əslində yaşadığımız həyat olduğu kimi gözəldir, bütün rəngləri ilə, çalarları ilə birgə, musiqisi və ağısı ilə birlikdə. Həyat – ona gözləri ilə yox, qəlbi və ruhu ilə baxanlar üçün gözəldir. Həyat, sevənlər üçün və həyatı sevənlər üçün gözəldir. Həyatın dəyərlərini artıran, bizim qədrini bilməyib havaya sovurduğumuz anların yığımıdır. İnsan qəlbiylə görür, duyur, sevir, nifrət edir. Sevgi ilə nifrətin arasından nazik, çox nazik bir xətt keçir. Sevda bunların hamısının tam ortasında idi.

DÖRDÜNCÜ FƏSİL

Günortaya yaxın Sevda getmək üçün ayağa durdu. Yusif cəld ayağa qalxaraq onun pencəyini tutdu, qız etiraz etmədən geyindi. Sonra üz-üzə durdular, baxışları toqquşdu, sanki eyni vaxtda hər ikisinin gözlərində şimşək çaxdı. Bir müddət belə səssiz dayandılar, dilləri susdu, baxışları, qəlbləri danışdı. Sevda həyatının ən gözəl çağlarını yaşayan qöncəyə bənzəyirdi.

Yusif zəng edib bir taksi çağırmağı tapşırdı. Onlar dəhlizə çıxaraq liftlə yox, pilləkənlə aşağı düşdülər. Taksi gözləyirdi. Sevda getdi. Lakin bu gediş son gediş deyildi. Onlar hər ikisi özləri də bilmədən bir-birini axtarırdı.

Otağa girəndə Məsumə təəcüblə Sevdaya baxdı, başdan ayağadək onu süzdü, rəfiqəsini qucaqladı, sanki illər idi görüşmürdülər.

– Sən hara yoxa çıxmışdın, ay qız? Çox narahat idim sənin üçün, inan ki, bu gün gəlməsəydin polisə müraciət edəcəkdim. Dedim görən harda qaldı bu qız, başına nə iş gəldi? – Bir addım geri çəkilib tələbə yoldaşını ilk dəfə görürmüş kimi başdan ayağadək süzdü. – Ay-y-y sən nə qədər gözəlləşmisən?...

– Məsumə, başım ağrıyır, bir çay olsaydı içərdik.

Məsumə iki stəkan götürüb tez də otaqdan çıxdı, az keçmədi əllərində qaynar su dolu stəkanlarla geri qayıtdı. Hərəsinə bir paket çay atıb, yenidən sorğu-suala başladı. O, dil boğaza qoymadan elə hey danışırdı.

Sevda onun nə danışdığının fərqində deyildi, o yenidən dünənki gecənin davamı olan bu günün duyğularının təsiri altında idi. Yusif, öz kobud görkəmi ilə onun qəlbini elə ovsunlamışdı ki, başqa kimsəni gözləri görmürdü, qulaqlarında yalnız onun səsi eşidilirdi. Birdən Məsumə əli ilə ona toxundu və deyinməyə başladı.

– Ay qız sənə nə olub, deyəsən heç məni eşitmirsən? Buna bir bax, bayaqdan boş-boşuna danışırmışam.

Sevda gülümsədi, Məsuməni bağrına basıb sıxdı. Onun bu halı rəfiqəsinə də təsir etdi. Qızlar zarafatla birbirinə sataşdılar, uşaq kimi tullanıb düşdülər.

Üç gün Yusifdən xəbər çıxmadı. Əvvəlki günlərdə Sevda özünü çox pis hiss etdi, sanki qiymətli bir şeyini itirmişdi, ikinci gün hətta onun arxasınca mehmanxanaya getmək istədi, lakin qürurunu sığışdırmadı, onu unutmağa çalışdı. "hər yoldan keçənin dalınca qaçmaq olmaz" deyə düşündü. Ona belə tezliklə isnişdiyinə görə özünü qınadı, lap özündən zəhləsi getdi. Üçüncü gün dərsdən çıxanda Yusifin əlində gül buketi universitetin qapısı ağzında onu gözlədiyini görəndə özünü onun boynuna sarılmaqdan zorla saxladı. Boyda ondan balaca olan Yusif üzünü təzəcə taraş etdirmiş və zövqlə geyinmişdi. Başqaları eşitməsin deyə az qala pıçıltıyla:

– Salam, necəsiniz? – dedi

– Sağ olun, yaxşıyam, siz necəsiniz?

– İndi yaxşıyam, daha doğrusu səni görüb yaxşılaşdım.

O, buketi Sevdaya verdi. Birlikdə pilləkənləri düşüb yolun kənarında dayanan qara "Mersedes"ə tərəf getdilər. Elə o gün Yusif ona, sevgisini etiraf etdi, Sevda isə susurdu. O gündən sonra belə görüşlər mütəmadi hal

aldı. Sevda yataqxanada gec-gec görünməyə başladı, hər dəfə gələndə isə Məsumənin kəskin danlağına tuş olurdu. Üç aydan sonra Sevda yataqxananın yaxınlığında üç otaqlı evə köçdü, Məsuməni də özü ilə apardı. Bu Yusifin xoşuna gəlməsə də biruzə vermədi. Yataqxanadan çıxarkən yalnız onlara lazım olan kitabları götürdülər. Kənddə artıq qocalıb əldən düşmüş nənəsini də öz yanına gətirdi.

Tanış olmalarının bir illiyini Yusifin təklifi ilə iki-si baş-başa, Gürcüstanda keçirdilər. Səhər erkən yola düşərkən artıq doğma bacı kimi əziz olan Məsumənin gözləri dolmuşdu, intizarlı baxışlarını gizlətmək üçün Sevdanın üzünə baxmırdı. Nənə evdə sağollaşdı, Məsumə isə həyətə qədər düşdü. Əllərindəki çantaları maşına qoyandan sonra Sevda onu qucaqladı.

– Nənədən muğayat ol.

– Nigaran qalma, sən özünü qoru.

Maşın yerindən tərpəndi. Sevda bütün yol boyu susdu. Sanki qəlbində nəsə qırılmışdı. Ona elə gəlirdi ki, qayıdanda bu evi, bu küçəni, bu şəhəri indi olduğu kimi görməyəcək. Qoca nənəsini taleyin ümidünə buraxıb hara gedirdi axı? Onsuz da kövrək olan Məsuməni bu çətin anda tənha qoyduğuna görə özünü qınadı. Az qala Yusifə geri dönmək üçün yalvaracaqdı.

– Nə olub, yaman fikirlisən? – deyə Yusif soruşdu.

– Heç, bir az yorğunam, başım ağrıyır, – dedi və başını arxaya söykəyib gözlərini yumdu.

Maşın sürətlə irəliləyir, şəhərdən uzaqlaşdıqca, arxadakıları unutdururdu. Havanın isti olmasına baxmayaraq, kondisioner içərinin havasını sərinləşdirdiyi üçün isti o qədər də hiss olunmurdu.

Sevda ağıllı qız idi, lakin bəzən ağıllı olmaq kifayət etmir. Ağlın idarə edə bilməyəcəyi hallarda intuisiyanın, altıncı, yeddinci və bəlkə də onuncu hissin qoşulması insanı, başına gələcək müsibətlərdən qoruya bilir. Fəqət insan yaşadığı həyatda heç zaman heç nədən sığortalanmayıb. Özünün təmiz olması üçün ətrafdakıların da təmiz olması lazımdır. Cəmiyyət, insanın əsl insan kimi formalaşmasında böyük rol oynayır, müharibələr, cəmiyyətdə kasıb təbəqənin çoxluğu, intelektual səviyyənin, elmin şikəstliyi cəmiyyətin formalaşmasına mane olan faktorlardır.

BEŞİNCİ FƏSİL

Onlar Barjomiyə axşama yaxın çatdılar. Yusif qabaqcadan hər şeyi həll etmişdi. Onları xüsusi hörmətlə qarşıladılar. Meşənin içində yerləşən otel sıx ağaclarla əhatə olunmuşdu. Həyətin ortasında rəngbərəng güllərlə əhatə olunmuş böyük bir hovuz vardı. Onlara dördüncü mərtəbədə xüsusi qonaqlar üçün nəzərdə tutulmuş otaqlardan birini verdilər. Bu əslində otaq yox, otaqlar idi, geniş dəhliz, sağda hamam, solda ayaqyolu, düz qapı geniş televizor otağına açılırdı. Burada adam özünü sehrli nağıllar aləmində olduğu kimi hiss edirdi. Divarlar o qədər məharətlə işlənmişdi ki, qapılar bağlı olarkən onları tapmaq çox çətin olurdu. Buna görə də Sevda dəhlizə çıxış qapısını bir az aralı saxlayırdı ki, çaşmasın. Bu otaqda bir divan, iki kreslo, onların qarşısında uzun, üstü şüşədən olan jurnal masası, masanın üstündə məsafədən idarə olunan telefon vardı. Divarda gözlə seçilməyən, əlin təması ilə açılan soyuducu və müxtəlif içkilər düzülmüş bar vardı. Otağın işıqlandırılması da qəribə idi, lampalar elə düzülmüşdü ki, onların heç biri gözlə görünmür, amma otaq çox gözəl işıqlandırılırdı. Yataq otağının qapısı da əlin təması ilə açılırdı. Onlar yataq otağına daxil oldular. Solda otağın sonunda daha bir vanna otağı vardı. Qarson üzünü Yusifə tutaraq "hər hansı bir narahatçılıq olarsa, telefonun yaşıl düyməsini iki dəfə sıxmaq kifayətdir ki, bizlərdən birimiz bir neçə dəqiqəyə sizin yanınızda

olaq," deyib getdi. Sevda otağa göz gəzdirdi. Otaqda paltar üçün qapıları güzgülü dolab və iki nəfərlik geniş çarpayı vardı. Dolabı açıb çantaları qoydular. Sevdanın maraq və heyranlıqla dolu baxışlarını görüb Yusif ağlına gələni deməyə başladı.

– Hə necədir, xoşuna gəlir? Qonaq otağı çox maraqlıdır hə-ə? Adam bu otaqda özünü sehirli nağılların qəhrəmanları kimi hiss edir. Fikirləşirsən ki, bu saat yekə bir div bu qayaların arasından çıxacaq...

Birdən yersiz danışdığını hiss edib dayandı, nəsə fikirləşirmiş kimi başını qaşıdı, Sevdaya yaxınlaşdı, əllərindən tutub ehmalca özünə tərəf çəkdi. Belindən tutub, dodaqlarından öpdü. Qız etiraz etmədi, son zamanlar belə çılğın öpüş səhnələri tez-tez baş verdiyi üçün artıq öyrəşmişdi, belə hallarda qız özünü unudar, duyğular ehtirasın quluna çevrilərdi. Hətta arabir darıxardı bu səhnələr üçün.

– Gedək aşağı, restorana. Görək nə tapırıq yeməyə?

Birlikdə restorana düşdülər, bura demək olar ki, boş idi. Küncdəki stola yaxınlaşdılar, Yusif Sevda üçün kürsünü çəkdi, özü də üzbəüz oturaraq, menyunu götürdü, qıza tərəf uzatdı. Həzin musiqi adamı bihuş edirdi.

– Nə yeyək?

– Nə bilim, nə istəyirsən? Sən sifariş elə.

– Yüngül nəsə yeyək, bir az dincəlib sonra yenidən gələrik.

Üzündə süni təbəssüm olan qarson, sifarişləri qeyd edib getdi. Yusif gürcü çaxırının ləzzətindən, onun necə hazırlanması texnologiyasından uzun-uzadı danışmağa başladı. Qarson yeməkləri stolun üstünə düzüb, nə içəcəklərini soruşdu.

– Ən yaxşı ağ gürcü çaxırı. Kəmşirin.

Qarson sinidə beş cür çaxır gətirib masanın üstünə düzdü, hər biri haqqında geniş məlumat verməyə başladı, sonda ağ çaxırı açıb böyük badələrə doldurdu.

– Bizdə çaxırı buynuzda içirlər. Əgər istəyirsinizsə, buynuzda süzüm?

Yusif əlinin işarəsi ilə danışmağı sevən qarsonu saxladı.

– Çox sağ olun, lazım olsa özümüz süzərik. Bizə qulluq lazım deyil, məsləhət olsa sizi çağırarıq. Bizi tək buraxın.

Qarson etiraz etmədən getdi. Yusif əllərini yumaq bəhanəsiylə onun arxasınca yollandı və bir neçə dəqiqədən sonra qayıtdı. Gülümsünərək masanın üstündəki bakalın birini götürüb Sevdaya uzatdı, öz bakalını əlində tutaraq:

– Tanışlığımızın sağlığına. Düz bir il əvvəl tam təsadüfi bir halda tanış olmuşduq, bu gün həmin o təsadüfi tanışlığın tam bir ili tamam olur – deyə o heyranlıqla qıza baxdı – ancaq biz heç də təsadüfi adamlar deyilik, sən necə də gözəlsən.

Sevda onun danışığındakı ironiyanı hiss etdi, amma dərinə getmədi. Başqa vaxt olsa idi, bəlkə də onun ironiya ilə dediyi bu sözləri filoloq kimi analiz edər, süzgəcdən keçirərdi, universitetdə Məsumə ilə etdiyi kimi. O, masanın o biri tərəfinə keçərək Sevdanın yanında dayandı. Sevda bir anlıq Yusiflə tanış olduğu, ağlı kəsəndən bəri axtardığı "Ağ atlı şahzadə"ni tapdığı o gecəyə qayıtdı. O, başa düşürdü ki, həmin gecə "təsadüfən" tapdığı Yusif, heç də onun illər boyu xəyallarında yaratdığı obraz deyil və heç ona bənzəmir də. Axı "Ağ atlı şahzadə" ob-

razı onun öz tapıntısı, qəlbinin ən dərin guşəsində yaratdığı və hamıdan gizlətdiyi xalis kişi obrazı idi. Yusif istər boy buxunda, istərsə də xasiyyətdə həmin o "Ağ atlı şahzadə"nin tam əksi idi. İlk günlər özünü inandırmağa çalışsa da, zaman keçdikcə hər şey aydınlaşır, Yusif özünü hərtərəfli tanıdırdı. O, şəxsi keyfiyyətlər baxımından qızın fikirləşdiyi qədər ideal kişi deyildi, zaman keçdikcə onlar bir-birinə isnişir, isnişdikcə qız onu daha yaxından tanıyırdı. Nədənsə onun mənfi tərəfləri daha tez nəzərə çarpır, daxilindəkilər daha tez üzə çıxırdı. Bu isə qızın heç də xoşuna gəlmirdi. Lakin qəlbində başqa bir səs, Yusifə haqq qazandırır, onun kim olmasına baxmayaraq, Sevda üçün çox işlər görməsini gözləri önünə gətirirdi. Yusif dəridən-qabıqdan çıxırdı ki, Sevdanın məhəbbətini qazansın, onun yanında qızın bir sözü iki olmurdu, Sevda nə istəsəydi Yusif dərhal onu yerinə yetirirdi. Bu da qızın son zamanlar daha çox şıltaq olmasına səbəb olmuşdu.

Badələr toqquşdu, meyvə sirəsini xatırladan ağ çaxır içildikcə ləzzət verirdi, ikinci badədən sonra Sevdanın əhvalı düzəldi, dili açıldı. O, keyfini pozan hər şeyi unudaraq bu anın ləzzətini çıxarmaq istədi. Bir az əvvəl onu narahat edən Məsuməylə nənəsinin tək qalmasını da unutdu. Üçüncü badədən sonra qarson onlara restoranın hesabına iki kokteyl gətirdi. Bu müxtəlif meyvələrin şirəsi ilə alkoqolun qarışığından hazırlanmış içki idi. Ağ çaxır öz təsirini göstərməyə başlayırdı, başı dumanlanır, bütün bədəni idarə olunmaz hala gəlirdi. O, dördüncü badədən sonra bir az meyvə yedi və əlini bakala uzadarkən onun boş olduğunu görərək təəccüblə Yusifə baxdı.

– Sevda, bəlkə bu gecə üçün bəs edər, deyəsən sənin üçün çox oldu axı?

Qız cavab vermədi, kokteyli götürüb bir nəfəsə başına çəkdi və ayağa qalxmaq istədi. Lakin, ayaqları sözünə baxmadı, yıxılmamaq üçün yenidən stula oturdu. Bir neçə dəfə özünü yoxladı, alınmadı. Keyfi o qədər yuxarı idi ki, Yusifin hər sözünə gülürdü, hətta o danışmasa da belə. O, stula yayxandı, zorla gülməyini saxladı. Dili dolaşa-dolaşa, çətinliklə olsa da:

– Yusif, məni otağa apar, – deyə bildi.

Yusif ayağa qalxıb hesabı verdi, sonra Sevdaya yaxınlaşıb qoluna girdi. Otağa çatanda Sevda artıq özündə deyildi, bir il öncə tanış olduğu "alkoqol dünyasının" zirvəsini fəth etmişdi.

O, görür, eşidir, danışır, amma hərəkət edə bilmirdi, sanki ayaqları onun deyildi, beyninin verdiyi əmrləri əzaları yerinə yetirməkdən imtina edirdi. İçində vulkan qaynayırdı, daxilində başa düşə bilmədiyi bir atəş, onu bu tüklü ayının qoynuna sürüyürdü.

Bir anlıq baxışları – iki cüt ehtiras tonqalı qalanmış gözlər toqquşdu, atəşdən ürəkləri qarsdı. Yusif onu yataq otağına apardı, çarpayının üstünə qoydu. Sevda qollarını onun boynundan çəkmirdi. Kişi nəfəsi və məstedici alkaqol onu ehtirasa gətirir, Yusifin qolları arasında güclü əzələlərini duyduqca bu ehtiras daha da artırdı.

O, özü də bilmədən ehtirasın girdabında çabalayır, çabaladıqca daha dərinə gedir, düşdüyü bu qaynar girdabdan çıxış yolunu nəfəsi ilə onu yandıran Yusifin qolları arasında görürdü. Qız Yusifi öpüşlərə qərq etdi. Onlar uzun zaman bir-birinə sarılmış vəziyyətdə qaldılar, hər ikisi gözlərini yummuş, həyatdan, onun bütün qayğılarından uzaqlaşaraq, yeni dünyanın parametrlərini cızırdılar.

Sonra Yusif onun üstündən qalxaraq arxası üstə uzandı, gözlərini tavana zilləyib dayandı, qızın reaksiyasını yoxlamaq üçün özünü sakit göstərməyə çalışdı. Sevda çaşıb qalmışdı, nədənsə indi onun Yusifə daha çox ehtiyacı vardı – bətnində qalanmış ocaqın söndürülməsi üçün – ehtirasdan nəfəsi dayanacaqdı az qala. O, bütün bunlara son qoymaq üçün, Yusifə doğru dartındı, yalvarışla dolu gözlərini ona dikdi, əllərini tutub qabarmış sinəsinin üstünə qoydu.

Bədənində kobud kişi əllərinin təması onu real dünyadan uzaqlaşdırdı. Kobud barmaqlar onun sinəsində gəzdi, döşlərini sıxdı, köynəyinin düymələrini açdı, bədəninə oturmuş idman şalvarını və altdan geyindiyi nazik paltarlarını dartıb əynindən çıxartdı, sanki ac ayı öz ovunu parçalayırdı. Cəld özü də soyundu və Sevda bütün bədəni ilə bu vəhşinin ağırlığını hiss etdi. Daxilində nəsə qırıldı, xoş bir gizilti bütün bədəninə yayıldı, içi göynədi, sanki hansısa əzasını iti ülgüclə çərtdilər. O, gözlərini yummuş və artıq intim dünyanın ən dərin quyusunun tam dibində idi.

Yusifin ağır bədəni qalxıb endikcə, özündən asılı olmayaraq çıxardığı inilti səsi, ehtirasları daha da alovlandırır, ritmi daha çox sürətləndirirdi. Birdən o gözlərini açdı, nəyin baş verdiyinin fərqindəymiş kimi ona mane olmaq istədi, lakin içindəki atəşi söndürmək istəyi və bu ləzzəti sona qədər dadmaq arzusu əl qolunu bağladı. Başa düşdü ki, bu dərin quyuda bir az əvvəl itirdiklərini bir daha heç zaman tapa bilməyəcək. Allahın bütün qadınlar kimi ona da bəxş etdiyi bakirəlik tacı öz istəyi ilə əllərindən alınmış, artıq Yusifin ayaqları altında tapdalanırdı.

ALTINCI FƏSİL

Yusfin atası Barat Əbilov Sovet dönəmində Mərkəzi Komitədə şöbə müdiri işləmişdi. Müstəqillik əldə ediləndən sonra könüllü olaraq işdən çıxmış və bizneslə məşğul olmağa başlamışdı. İndi də yuxarılarla çox güclü əlaqələri olduğu üçün kimsə ona qaşın üstə gözün var deyə bilmirdi. Şəhərin mərkəzində mehmanxanası və müxtəlif yerlərdə fəaliyyət göstərən kiçik restoranları vardı. Oğlu ali məktəbi bitirdikdən sonra dövlət işinə düzəltmək istədi, lakin tez də fikrini dəyişərək onu da biznesə yönəltdi. Yusif ilk an\lar atasının bu qərarı ilə razılaşmaq istəmirdi, dövlət işini daha üstün sayırdı, müəyyən vaxt keçəndən sonra atasının təklifi ilə razılaşdı və özünü tamamilə biznesə həsr etdi. Barat müəllim oğlunun biznes bacarığını görərək hər şeyi ona həvalə etdi. Son yeddi ildə Yusif çox iş gördü. Kiçik restoranları böyüdərək otel-restoran şəbəkəsi yaratdı və bunu bölgələrə genişləndirdi. İndi "Alfa"nın Şamaxıda, Gəncədə, Salyan və Lənkəranda fəaliyyətdə olan obyektləri vardı. O, "Alfa"nı şirkətlər qrupuna çevirərək "Holdinq" etdi və özü də bu "Holdinq"in prezidenti oldu.

Atası arabir heç kəsin xəbəri olmadan şirkətə gələr, kimin nə işlə məşğul olmasına nəzarət edərdi. O, şirkətə yerləşdirdiyi çuğulları vasitəsi ilə bütün işlərdən məlumatı olar, xüsusən də maliyəni daima öz şəxsi nəzarətində saxlayardı.

Yusif Sevda üçün ev almaq istəyəndə üç yüz min manat pulu səbəb göstərmədən şirkətin balansından çıxartdırdı. Şirkətin maliyə işləri üzrə şöbə rəisi hesabatda nə yazılacağını soruşarkən, çəkinmədən "nə istəyirsinizsə onu da yazın", dedi və birdən nəyisə xatırlayıb qəti olaraq tapşırdı ki, bu barədə heç kəs, xüsusən də, atası bilməsin. Maliyə şöbəsinin rəisi hələ otaqda ikən, onun telefonuna bu barədə atasından mesaj gəldi. Yusif şirkətdə hamını tanıyırdı, hamı onun ən çox inandığı və etibar etdiyi adamlar idi. O, nə qədər çalışsa da atasının kimlərin vasitəsi ilə bu məlumatları aldığını öyrənə bilmirdi. Sadəcə olaraq onun üçün maraqlı idi ki, atası bunu necə edir. Kişi öz sistemini elə qurmuşdu ki, bu sistemi dağıtmaq üçün şirkətdən yalnız Yusifin özü getməli idi.

Üzdə sakit təbiətli atası, həm də çox diqqətcil adam idi. Hər hansı bir nalayiq iş üstündə tutduğu işçiləri dərhal cəzalandırmaz, ən uyğun məqamını gözləyərdi. Məqamında isə o, ilan kimi soyuqqanlı və zəhərli ola bilirdi. Arabir Yusifə elə gəlirdi ki, atasını həm yaxşı tanıyır, həm də heç tanımır. Onun açıq-aşkar heç bir tanışı və dostu yox idi, həm də hamı ilə elə rəftar edərdi ki, qarşısındakı onu özünə ən yaxın adam bilir və bütün dərdlərini onunla bölüşürdü.

Yusif bu illər ərzində atasından çox şey öyrənmiş, amma hələ öyrəniləsi daha çox şey vardı. O, atasının bəzi işlərindən xəbərdar idi. Bilirdi ki, atası şirkəti ona boş yerə verməyib, nə də illər boyu min bir hiyləylə ərsəyə çatdırdığı, sözün həqiqi mənasında ömrünü verdiyi bu şirkəti ona elə belə bağışlamayıb. Bunun arxasında nəyin və kimlərin dayandığı da ona az da olsa məlum

idi. Onu da bilirdi ki, əgər o, öz işinin öhdəsindən onun istədiyi kimi gəlməsə, atası onu şirkətin iyini belə duymağa qoymaz.

İlk ali təhsilini Rusiyada alan Barat müəllim, sözün həqiqi mənasında bağlı boxça idi, kimsə onun bir an sonra hansı qərarı verəcəyini təxmin edə bilməzdi. O, sirlərini heç kimlə, hətta ən yaxın bildiyi ailə üzvüləri ilə belə bölüşməzdi. Sonralar iki dəfə Rusiyada ixtisas artırma kurslarında olmuş, Sovet höküməti dağıldıqdan sonra dövlət işindən istefa verərək bizneslə məşğul olmağa başlamışdı. Lakin Sovet İttifaqı dağıldıqdan sonra belə, şimalla əlaqələrini kəsməmiş, tez-tez oradakı "dostlarına" baş çəkirdi. Yusif üçün ən maraqlısı bu idi ki, o, bütün bunları şirkətin vəsaiti hesabına etmirdi. Xərclədiyi pulları haradan və necə tapır heç kimə məlum deyildi. Axı onun təqaüdü heç Rusiyaya gediş haqqına bəs etməzdi. Cavab tapa bilməyəcəyi bu cür suallar ətrafında düşünmək belə istəmirdi.

Zəfəri işə götürərkən atasına deməmişdi. Az sonra bu hadisədən xəbər tutan Barat müəllim Zəfərin "Alfa"ya işə girdiyini eşidərkən əsəbləşdi. Oğlunun qarasına deyindi. "Heç olmasa, adamdan bir məsləhət alarlar. Bircə kəşfiyyatçımız çatmırdı," deyə dodağının altında donquldandı.

Rusiyada hərbi kəşfiyyat məktəbini bitirdikdən sonra bir çox ölkələrdə xidməti borcunu yerinə yetirərək Azərbaycan müstəqillik qazandıqdan sonra könüllü olaraq Vətənə qayıdan və bütün xidmətini döyüş bölgəsində keçirən keçmiş hərbi kəşfiyyatçı onu heç açmırdı. Amma oğlunun üstünə çox getmədi. Yaxşı başa düşürdü ki, böyük şirkətlərin böyük də problemləri olur, əgər bir neçə

il bundan əvvəl olsa idi Barat, bütün kanallarını işə salar, nəinki Zəfəri, hətta ondan güclüləri belə şirkətə yaxın buraxmazdı. İndi isə buna risk etmədi. Birincisi, ona görə ki, şirkət əvvəlki kimi kiçik müəssisə yox, holdinq idi. İkincisi, şirkətin başında o özü yox, oğlu dayanırdı və hazırkı vaxtda o, nə yenicə yüksəliş dövrünə qədəm qoyan şirkətin, nə də oğlunun adının hallanmasını istəmirdi. Üçüncüsü, ən əsası isə, necə ki o, şirkəti, hətta başda oğlu olsa belə, nəzarətdə saxlamaq üçün öz adamlarını gizli və ya açıq şəkildə yerləşdirmişdisə, ətrafında olan dövlət strukturları bu işdə daha maraqlı və daha peşəkar idilər.

Barat müəllim, uzun illərin təcrübəsindən bilirdi ki, o və onunkimilər hər hansı struktur qarşısında çox acizdirlər, onlarla açıq şəkildə üz-üzə gəlmək, sonda məğlubiyyət və hər şeyi itirmək deməkdir. Amma çox çəkmədən bunun da yolunu tapdı. Bu işdə ona şimaldakı "dostları" kömək etdilər.

Rusiya xüsusi xidmət orqanları Zəfərin kimliyini, heç bir çətinlik çəkmədən araşdırdılar, onun necə bacarıqlı kəşfiyyatçı olmasını, haralarda və hansı əməliyyatlarda iştirakını öyrəndilər. Onun zəif yerlərini tapmağa cəhd etdilər. Onlar gözəl bilirdilər ki, hər bir insanın aşa bilmədiyi bir aşırım, keçə bilmədiyi bir sədd var. Bəzən öz canından keçməyə hazır olan birisini, kənardan çox sadə görünən, əslində isə onun üçün çox qiymətli olan bir faktorla üz-üzə qoymaq, ən zəif nöqtəsi olan bir amillə fikrindən döndərmək, onu məcbur edərək tam başqa istiqamətə yönəltmək mümkündür. Ruslar belə işlərdə çox peşəkar idilər. Dünyanın xüsusi xidmət orqanları içərisində Rusiyanın xüsusi xidmət orqanları

özünə məxsus xüsusiyyətləri ilə seçilirdi. Təməlini Sovet kəşfiyyat orqanlarının bazası üzərində quran rusların bu işlərdə öz xüsusi dəstxəti vardı.

Zəfər min doqquz yüz səksən beşinci ildə Rusiyada hərbi kəşfiyyat məktəbini əla qiymətlərlə bitirdi. Döyüş hazırlığı, əməliyyatların hazırlanması, yerinə yetirilməsi və rəhbərlik etməkdə xüsusi bacarıq nümayiş etdirərək, komandanlığın rəğbətini qazandı, məktəbi bitirdikdən sonra ayrı-ayrı dövlətlərdə aparılan əməliyyatların bilavasitə iştirakçısı kimi özünəməxsus dəstxət ilə seçildi. Komandanlıq onun əksər kəşfiyyatçılara nəsib olmayan intuisiyaya malik olmaq bacarığını görür və yüksək qiymətləndirirdilər. Hələ Sovet dönəmində onun təhsil aldığı akademiyanın müəllimlərindən biri Zəfər haqqında heyranlıqla: "O, qeyri-adi bacarığa malik kəşfiyatçıdır. Yaxşı ki, biz tərəfdədir, O, əks kəşfiyatın Eynşteynidir" demişdi.

Sonra İttifaq dağıldı, o, öz müstəqil vətəninə qayıtmaq üçün müraciət etdi. lakin ona icazə əvəzinə müxtəlif vədlər verildi, verilən vədlərinsə, Vətənin bir qum dənəsi qədər qiyməti yox idi, Zəfər üçün. O, başa düşürdü ki, bu gün olduğu qədər heç zaman öz Vətəninə lazım olmayacaq, hətta general olsa belə. Əslində isə O, yad ölkədə general kimi xidmət etməkdənsə, öz torpağında əsgər kimi ölməyi üstün tuturdu. Axı ona valideynləri o zaman vətən saydıqları SSRİ-ni qoruması üçün hərbçi peşəsini sevdirmişdilər. İndi isə SSRİ dağılmışdı, Vətən, Azərbaycan idi, müstəqil Azərbaycan. Onun hər bir varlıqdan artıq sevdiyi, uğrunda ölməyə hazır olduğu Azərbaycan.

İnsanda elə duyğular var ki, bu duyğular sonradan qazanılmır, fitrətdə olur və bütün ömür boyu

– son nəfəsədək onu tərk etmir. Vətənə sevgi, torpağa bağlılıq bu fitrətin zirvəsində dayanır. Yüz illər boyu Azərbaycanın müstəqilliyi uğrunda canından keçən millət qəhrəmanları buna bariz nümunədir. Əfsus ki, şovinist hisslərlə yaşayan soyuqqanlı şimallılar, ittifaqın dağılmasını rəmzi sayır, tezliklə SSRİ-nin yerində yenidən daha güclü bir dövlətin yaranacağını zənn edirdilər. Zəfər kimi kəşfiyyatçıya isə onların həmişə ehtiyacları olacaqdı.

Barat müəllim şimallı dostları ilə Zəfərin məsələsini müzakirə edən zaman, ona bu işdə çox ehtiyyatlı olmağı tapşırdılar, Zəfərin adi adam olmadığını dəfələrlə, xüsusi tərzdə vurğuladılar. Ancaq o, bununla razılaşa bilmirdi, heç razılaşmaq fikrində də deyildi. Üzdə biruzə verməsə də, qəlbən şimallılardan incidi də. "Bunlara bax, gör kimin tərəfini saxlayırlar. Ömrüm boyu bunlara xidmət etdim, bütün tapşırıqlarını sözsüz yerinə yetirdim. Bir sözlərini iki eləmədim. Həyatımı, ailəmi, nəyim varsa hamısını ölüm riski altına qoydum. İndi bunların mənə qarşı etdiklərinə necə haqq qazandırım. Görünür qocalmışam, daha lazım deyiləm bunlara. Gör məni kiminlə dəyişdilər. Rus köpək uşaqları."

Ona təsir edən heç də Zəfərin birdən-birə ortaya çıxması deyildi. Əslində Zəfər nə göydən düşmüş, nə də yerdən çıxmışdı, rusların təhsil verib uzun illər yetişdirdiyi bacarıqlı, uzaqgörən, öz işinə məsuliyyətlə yanaşan, verilən tapşırıqları uğurla və vaxtında yerinə yetirməyi bacaran, ağıllı kadr idi. Bir gün geri qayıdacağına hələ də böyük ümid bəsləyən Rusiya xidmət orqanları, onu incik salmaq istəmirdilər. Barat isə bunları tam əksinə başa düşür, zaman keçdikcə həm Zəfərə, həm də rus-

lara nifrəti artır, öz planını ləngimədən yerinə yetirmək istəyirdi.

Artıq o, özlüyündə Zəfəri fiziki cəhətdən məhv etmək qərarını vermişdi, ancaq hər dəfə qurduğu planlar boşa çıxdıqca, əsəbləşirdi. Sanki hər dəfə onu hansısa qoruyucu mələk xilas edirdi, belə olduqda isə Barat daha da əsəbləşir, quduz it kimi ətrafındakıları gəmirirdi. O, bu günə qədər apardığı əməliyyatlarda uğursuzluğa düşməmişdi. Hər hansı tapşırığa başlamamışdan əvvəl, əməliyyatı kiçik detallarına qədər dəfələrlə təklikdə analiz edər, zəif nöqtələri üzə çıxararaq aradan qaldırar, həlledici anda qəfil hücumla işini bitirərdi. Əksər əməliyyatlarda tək işləməyə üstünlük verərdi. Öz işində tələsməyi və iz qoymağı sevməz, qarşısındakının kim olmasından asılı olmayaraq sağ buraxmazdı. Əməliyyata cəlb etdiyi casuslardan ikinci dəfə istifadə etməz, əməliyyatdan sonra onları bacardıqca uzağa göndərər, əgər lazım olsa, hətta aradan götürərdi. Bu onun ən çox sevdiyi əməliyyat üsulu idi. Bu xüsusiyyətlərinə görə ona şimallı dostları "Yalquzaq" ləqəbi vermişdilər.

Hələ Mərkəzi Komitədə adi işçi olan zaman, aparatdan məsul işçilərdən birindən dövlət əhəmiyyətli məlumatın iz qoymadan oğurlanaraq mərkəzə çatdırılması lazım idi. Bu iş Baratdan əvvəl bir qrupa tapşırılmış, üç ay keçməsinə baxmayaraq müsbət nəticə olmadığına görə iş dayandırılmış və ona həvalə edilmişdi. Əməliyyatın məsuliyyətini və vacibliyini nəzərə alaraq, ona köməkçilər təklif olundu, lakin o, etiraz etdi. Üç gündən sonra məlumatı mərkəzə təqdim edərkən hamı onun bacarığına heyran qalmış və xüsusi mükafatla qiymətləndirmişdilər.

Çox keçmədi o, gənc mütəxəssis kimi MK-də şöbə müdiri vəzifəsinə irəli çəkildi və neft sənayesinə rəhbərlik etmək ona həvalə edildi. Belə bir məsuliyyətli vəzifəni daşımaq nə qədər çətin olsa da o, bu işin öhdəsindən uğurla gəlir, hətta mütəmadi olaraq verilən tapşırıqları da yerinə yetirməyə vaxt tapırdı. Ən əsası isə o, gördüyü işlərdən heç vaxt şikayət etməz, bu işləri xüsusi bacarıq və zövqlə edərdi.

Sovet İttifaqının dağılması onun üçün "göydən düşmə" oldu. Rusiya xüsusi xidmət orqanlarının başı özlərinə qarışdı. O, MK-da tutduğu vəzifədən istefa verərək bizneslə məşğul olmağa başladı. "Şimallı dostları" da onu daha əvvəlki kimi narahat etmirdilər, sanki unudulmuşdu...

YEDDİNCİ FƏSİL

Qara Volqa "QAZ-31" Moskvanın tıxac olmayan küçələrindən keçib, Nevski küçəsində yerləşən kiçik malikanəyə yaxınlaşdı. Son zamanlar idarə kimi bu malikanədən istifadə edirdilər. Diqqəti cəlb etməyən, hündür hasarla əhatə olunmuş malikanənin həyətinə girdikdən sonra belə, sıx ağacların əhatəsində bina görünmürdü. Birmərtəbəli, altı otaqdan ibarət və böyük zirzəmi onların işinə yaradığı üçün bura Nikitanın çox xoşuna gəlirdi. Damda yerləşən kameralar vasitəsiylə ətrafa tam nəzarət etmək mümkün idi. Buna baxmayaraq damda hər pəncərənin qarşısında silahlı keşikçilər dayanır, malikanənin ətrafında da bütün həyət boyu altı nəfər bütün günü müxtəlif işlərlə məşğul olan silahlı keşikçilər olurdu.

Bir ilə yaxın idi ki, onun rəhbərlik etdiyi qurum təhlükəsizliyi nəzərə alaraq Lubyanka küçəsindən bura köçmüşdülər. Nikita üç il idi ki, daxili və xarici casuslarla əlaqələndirmə şöbəsinə rəhbərlik edirdi. Əvvəllər bu şöbələr başqa idarələrin tərkibində idi. Büdcəyə qənaət etmək adıyla bir çox idarələri ləğv etdilər, bu iki idarəni isə işçilərin sayını azaltmaqla birləşdirərək yeni şöbə yaratdılar və yeni yaranmış idarəyə rəhbərliyi ona həvalə etdilər. İdarədə keşikçilərlə birlikdə iyirmi iki nəfər işçi vardı və onlar hər biri cədvəl üzrə təyin olunmuş ayrı-ayrı vaxtlarda işə gəlir və həmin cədvəl üzrə də işdən gedirdilər. Bu üsul onların və binanın az nəzərə çarpmasından ötəri idi.

O, geniş həyətdə maşından düşdü, həyət boş idi, sanki burada heç kim yox idi. Nikita kabinetə getmədi, şəhərin səs-küyündən sonra bir az bu sakit həyətdə gəzib dolanmaq istədi. Şam, küknar ağacları arasında xeyli gəzdi, həyətdəki gözətçilər hərə bir işlə məşğul idilər, onu görüb daha da canfəşanlıq etməyə başladılar. O, çox fikirli idi. Buna görə də onlara heç fikir də vermədi.

Təcili Bakıya adam göndərməli idi. Artıq Azərbaycan müstəqilliyini elan edəndən sonra Rusiyanın təsir dairəsindən çıxmaq üzrə idi. Hakimiyyət orqanları Rusiya hakimiyyət dairələrini saymır, apardıqları xarici siyasəti müstəqil yürüdür, BMT-də və başqa nüfuzlu təşkilatlarda onların mövqeyindən çıxış etmirdilər. Əksinə, keçmiş İttifaq dövlətlərindən bəzilərini öz ətrafına yığıb Rusiya əlehinə işlər aparır, onlara qarşı bloklara qoşulmağa meyl edirdilər.

Hələki müdaxilə etmək, onları "başa salıb düz yola" qaytarmaq, gec deyildi. Elə buna görə də Sovetlər İttifaqı zamanı yalnız Moskvaya məlum olan məxfi agent və casuslardan istifadə etmək, onları sözün həqiqi mənasında işə salmaq lazım idi. Baş idarədə belə bir göstəriş alan kimi dərhal müavini Anastasiya İvanovnaya Qafqazda, xüsusən də Azərbaycanda və paytaxt Bakıda olan məxfi agentlərin siyahısını hazırlamağı tapşırmışdı. İlk yadına düşən isə "Yalquzaq" ləqəbiylə bütün Sovetlər İttifaqındakı məxfi şöbələrdə "nömrə bir" sayılan Barat Əbilov oldu. Amma onunla neçə illər idi ki, əlaqə kəsilmişdi. Nikita onu "işə salıb" bu əməliyyata qata bilsə idi, əməliyyatın tam yarısını udmuş kimi idi. O, Azərbaycanda hakimiyyət orqanlarında işləyən məxfi agentləri hələlik kənarda saxlamaq fikrində idi.

Siyahı təqdim olunanda o, hər bir agentin şəxsi işi ilə ətraflı tanış oldu, çox götür-qoy etdikdən sonra qərarını verdi. Bakıda keçiriləcək əməliyyatı aparmaq üçün yeganə namizəd "Yalquzaq" idi. Nikita Volski təcili onun kordinatlarını əldə etməyi müavini Yevgeniya Nikolayevnaya tapşırdı. Ondan başqa ikinci bir namizəd hələlik yox idi. Onunla əlaqəni kəsdiklərinə görə əvvəlki idarə rəislərini qınadı da. "Yalquzağın" kordinatlarını Bakıdakı agent vasitəsi ilə əldə etdikdən sonra, yanına iki nəfər öz adamlarını göndərməyi qərara aldı.

Nikita əməliyyatı detallarına qədər fikirləşdi, əgər "Yalquzaq" razılaşmazsa, ona təsir planını da hazırladı. Kabinetə qayıdıb bacarıqlı çekist kimi tanınan mayor Mixail Korçenkonu yanına çağırdı. Əməliyyatı ona tam şəkildə başa salıb özü ilə inandığı, ehtibar etdiyi bir nəfər də götürməyi tapşırdı. Yerindən qalxaraq, sabah saat onda onları gözləyəcəyini dedi.

Ertəsi gün Mixail Korçenkonu və onun özü ilə birlikdə getmək üçün seçdiyi Dmitri Rıbkini qəbul edib onlara bir daha göstərişlərini verdi, "Yalquzağ"ın təcrübəli çekist olduğunu başa saldı və maksimum ehtiyatlı olmağı tapşırdı. Mixail və Dmitri Bakıya onlar üçün alınmış biletləri və hazırlanmış sənədləri götürüb idarədən çıxdılar, onlar Bakıya birbaşa reyslə yox, Alma-Atadan uçmalı idilər. Sənədlərində də Qazaxıstan vətəndaşı olduqları göstərilirdi.

Nikita köhnə çekist idi, hansısa bir hiss, ona bu əməliyatın uğursuz olacağı haqqında siqnalı dayanmadan göndərir və bu onu çox narahat edirdi. Artıq getdiklərindən iki gün keçməsinə baxmayaraq, onlardan xəbər yox idi. Nikita həmin gecə səhərə qədər yata bilmədi.

Səhər tezdən Mixailin yalnız ona məlum olan nömrəsinə zəng vurdu, sönülü olduğu üçün danışa bilmədi. Sonra Bakıdakı agentlə əlaqə yaratdı, bu işi nəzarətdə saxlamağı tapşırdı. Günorta saat birdə ondan məlumat aldı ki, "Mixail Korçenko və Dmitri Rıbkin bir gün əvvəl "Araz" otelində üç günlük otaq kirayələyib, harasa çıxıblar və bir daha geri qayıtmayıblar, hara getdikləri barədə isə hələlik məlumat yoxdur." Artıq ona hər şey aydın idi. Əlavə iki nəfəri yenidən onların dalınca göndərməyi planlaşdırdı. İdarəyə çatan kimi milliyyətcə qazax olan kapitan Raxmon Altunbayevi və milliyyətcə avar olan və azərbaycan dilində təmiz danışan baş leytenant Maqamed Sultanmuradovu yanına çağırdı, vəziyyəti olduğu kimi onlara başa saldı, təcili Bakıya uçmalarını tapşırdı. Lakin o, bilirdi ki, "Yalquzaq" üçün bu iki nəfər də kifayət etməyə bilər.

SƏKKİZİNCİ FƏSİL

Keçmişinin üstündən qara xətt çəkmək istəyərkən, təzə açdığı "Aypara" restoranına iki qeyri-adi müştəri gəldi. Onlar hər ikisi hündürboy, idmançı görünüşündə idilər. Əyinlərində "Adidas" firmasına məxsus qalın idman geyimi vardı. Onlardan biri gənc idi, digərindən fərqli olaraq üst geyimini boğazına qədər bağlamışdı. Nisbətən yaşlı olanın gicgahına dən düşmüş, üzündə qırışlar yaranmağa başlamışdı, qırx beş yaşı olardı. Görünür, o daha təcrübəli idi. Yəqin ki, tapşırılan əməliyyata da, o başçılıq edirdi. Barat onu haradansa tanıyırdı. Kənardan onları diqqətlə izləyən qoca "agent", qabaqcadan özünün burada olmadığını və gecə on ikidə gələcəyini özünə sadiq olan restoranda işləyən qarsona dedi və onlara xidməti də elə onun özünə tapşırdı.

Onlar çöldə söyüd ağacının altında oturub yemək sifariş etdilər, qarson gedəndən sonra, aralarında nəsə danışdılar, gənc masadan qalxdı və ətrafı gözdən keçirməyə başladı. Üzbəüz yerləşən kabinetləri açaraq yoxladı. Banket üçün nəzərdə tutulan böyük pəncərələrlə əhatə olunmuş zalın qapısını açıb dayandı, sağ əlini sol qoltuğuna apararaq nəyisə yoxladı, ətrafına boylanıb içəri daxil oldu. Bir neçə dəqiqədən sonra o zaldan çıxdı. Kimsənin olmadığını görərək tələsik yerinə qayıtdı. Üst geyiminin yaxası açıq idi. Düz onların üstündə, böyük, güzgülü pəncərələrin arxasından onların hər addı-

mını izləyən Barat səhv etməmişdi, çağrılmamış qonaqlar onun təxmin etdiyi adamlar idilər və yəqinki, onun arxasınca gəlmişdilər. O, ehtiyat üçün seyfdə saxladığı "Parabellum" tipli pistoleti cibinə qoydu. Telefonu götürüb kiməsə zəng etdi, təcili yanına – Ayparaya gəlməsini dedi.

Bu müddətdə yaşlı qonaq cəlb etmədən ətrafını gözdən keçirməyə imkan tapdı, üç dəfə güzgülü pəncərənin arxasında dayanıb onları nəzarətdə saxlayan Barata tərəf baxdı. O, söyüd ağacının kölgəsində oturaraq öz intuisiyasının hesabına güzgülü şüşənin arxasından onu hiss edən ortayaşlı, yaraşıqlı qonağı haradansa tanıyır, yaddaşını nə qədər aşağı yuxarı vərəqləsə də, yadına sala bilmirdi, həddən artıq tanış olan bu cizgiləri haradasa görmüşdü.

Qarson tələsik məcməyidə salatları və çörəyi gətirdi, nə içəcəklərini soruşdu və getdi. Onlar öz aralarında nəyisə müzakirə edirdilər və deyəsən içərilərində bir az yaşlı olan o birisiylə razılaşmırdı. Barat onların nə barədə danışdığını eşitmir, hərəkətlərindən nəyisə başa düşməyə çalışırdı. Bəli, "şimallı dostları onu unutmamış, hətta ona hədiyyə də göndərmişdilər."

Seyfdə saxladığı siqarlardan birini götürdü, zərli alışqanla yandırdı, ətirli tüstünü ciyərlərinə çəkib havaya üfürdü. Gözlərini uzun illərdən sonra qəfildən peyda olan və onun təbirincə heç də xeyrə gəlməyən bu qoluzorlu adamlardan çəkmədən, bir çox məsələləri aydınlaşdırmaq istəyirdi.

O, ümumiyyətlə, siqaret çəkən deyildi, amma arabir çətinliyə düşəndə və çox fikirli olanda onun üçün Kubadan gətirilmiş bu siqardan birini yandırar, tüstü-

nü havaya buraxaraq baxışları ilə onu təqib edər, siqar sona çatanda öz qərarını verərdi. Əksər hallarda verdiyi qərarlar düzgün olardı. Barat onların belə qəfil gəlişini gözləyirdi, bilirdi ki, "köhnə tanışları" onu rahat buraxmayacaq. "Deməli, məni izləyirmişlər, həmişə nəzarətdə saxlayırmışlar, belə olmasaydı, təzəcə açdığı restoranın yerini belə əminliklə tapa bilməzdilər. Bu it uşaqları adamın meyidindən də əl çəkmirlər."

Divardakı saata baxdı, saat yeddini göstərirdi. Ramiz indilərdə gəlməli idi. O, yeganə adam idi ki, Barat ona tam ehtibar edirdi, onunla tanış olduğu günü xatırladı.

Barat Moskvada Ali Partiya məktəbini bitirdikdən sonra təyinatla Bakıya göndərdilər. Nərimanov rayon komsomol komitəsində işə başladı. Lakin bu iş onun heç xoşuna gəlmirdi. Bütün günü kağız-kuğuzla oynayıb idarədəki qadınların dedi-qodusuna qulaq asmaq onu bezdirmişdi.

İşini tezliklə dəyişmək istəyirdi ki, mərkəzdən ona xüsusi tapşırıq verildi. SSRİ-də bütün türmələrdə yatan gənclərlə praflaktiki iş aparmaq üçün dövlət komissiyası yaradılmalı və bu komisiya gənclərin kommunist partiyasına olan rəğbətinin artırılması üçün onlarla görüşlər keçirməli, türmə və təcridxanalardan azad həyata qayıtmasına şərait yaratmalı idilər. Baratı bu komissiyanın tərkibinə salmışdılar.

O, ilk görüşlərini Bayıl türməsindən başladı. Elə burada da Ramizlə tanış oldu. Ona on bir il iş kəsmişdilər, hələ doquz il türmə həyatı qarşıdaydı. Onun dosyesini oxudu, yaşadığı məhəlləyə getdi. "Zavağzalnıda" umumi həyətdə özünü onun keçmiş əsgər yoldaşı kimi

təqdim edərək, onunla görüşmək istədiyini dedi. Qonşular iki il əvvəl onun heç nədən tutulduğunu, hal-hazırda Bayılda yatdığını, yazıq anasının bir il sonra dünyasını dəyişdiyini, anasından başqa onun heç bir qohumunun olmadığını dedilər. Məhəllənin ağsaqqalı Ağabala dayı onun haqqında belə dedi: "Onun uşaqlığı mənim gözlərimin qarşısında keçib. Körpəlikdən haqqı nahaqqa verən uşaq deyildi. İki-üç məhlə o tərəfdə avaralar, tanımadıqları bir qıza sataşıblar, o qızı heç Ramiz də tanımırmış. Qız Ramizdən kömək istəyib, o da əlacsız qalıb, onlarla sözləşib. Bir gün sonra onu davaya çağırıblar, deyilənə görə onlar yeddi-səkkiz nəfər olublar, aralarında idmançıları da olub. Amma küçə döyüşlərində onun kimisi yox idi, heç yüz il sonra da olmayacaq. Rəhmətlik atasından da beş baş irəli idi. Əzrayıla can verən oğul deyildi." Ağabala kişi əlindəki təsbehi oynadaraq Ramiz haqqında çox danışdı, əgər Barat onun sözünü kəsib tələsdiyini deməsəydi, daha çox danışacaqdı.

Barat həmin gecəni yata bilmədi, onun haqqında çox düşündü, planlar qurdu. Belə bir adam gələcəkdə ona çox lazım ola bilərdi. Təkbaşına beş nəfəri ölümcül hala salan, sonra könüllü olaraq milis orqanlarına təslim olan Ramizlə ilk görüşdən söhbətləri tutdu. Üç gün müddətində onun bağışlanması haqqında bütün sənədləri hazırladı və komissiya sədrinə təqdim edərək, onun bağışlanması haqqında vəsatət qaldırdı.

Qarson yeməkləri və içkiləri masanın üstünə düzdü. Masanın üstündə lazım olmayanları əlindəki sininin içinə yığdı, yerə düşən salfetləri götürdü, bir daha masaya göz gəzdirdi, hər şeyin qaydasında olduğuna əmin olduqdan sonra getmək istəyərkən yaşlı "qonaq" onu

saxladı. İti, mavi gözlərini onun gözlərinə dikib sınayıcı baxışlarla, sanki düz cavab verməsinə əmin olmaq üçün dedi.

– Bağışlayın, siz burada təkcə işləyirsiniz? Biz sizdən başqa burada ikinci adam görmürük, deyəsən buranın həm müdiri, həm də xidmətçisi sizsiniz, elədirmi?

– Yox əlbəttə. Mən qarsonam, yəni xidmətçiyəm, müdirimiz harasa gedib. Gedəndə dedi ki, soruşsalar gecə on ikidə gələcəyəm.

– Niyə məhz on ikidə?

– Bilmirəm. Amma o, dəqiq adamdır. On iki deyibsə, deməli burada olacaq. Sizə başqa nəsə lazım deyil ki?

– Çox sağ olun, nə istəsək var, yaxşı qulluq edirsiniz. Bağışlayın müdiriniz hər dəfə harasa gedəndə sizlərdən birinə nə zaman qayıdacağı haqqında məlumat verir, yoxsa bu gün əlahiddə bir gündür?

– Yooox, bu gün bir dostu zəng eləmişdi ki, bura gələcək, onunla görüşmək üçün. Onlar danışarkən mən eşitdim.

– Hə, əlbəttə, müdir adamdır, yəqin ki, dostları da çox olar. Bağışlayın, mən sizin vaxtınızı deyəsən çox aldım. İnanın ki, sizinlə danışmaq mənim üçün necə də xoşdur. Sanki öz doğma adamımla danışıram. Axı mənim atam da, Bakılı olub, deməli, mən də azərbaycanlıyam, hətta dilinizi bilməsəm belə. Sizin müdirin adı necə oldu.

Qarson bir anlıq duruxdu. Müdirin adını desin və ya deməsin bilmədi, vəziyyətdən çıxmaq üçün dedi.

– Üzr istəyirəm, onun adını biz bilmirik, hamımız ona müdir deyirik. Həm də mən burada təzə işçiyəm, hələlik çoxlarını tanımıram. İndi isə məni bağışlayın, işim çoxdur.

– Əgər mümkünsə bizə göbələk də gətirin, ocaq üstə kababını.

Qarson masadan uzaqlaşdı. Əslində, onların məqsədi ocaq üstə göbələk kababı yemək deyildi, birincisi vaxt qazanmaq, ikincisi isə qarsondan daha artıq məlumat toplamaq idi. Qarson başa düşmədən, səhv edərək müdirin dostuyla telefonda danışdığını və bu gün görüşəcəklərini dedi. Müdirin "dostu" təsadüfən bunların "Yalquzaq" ovuna çıxdığını xəbər vermək istəyən "agent" ola bilərdi. Mixail bunu düşündü, lakin bu barədə Dmitriyə heç nə demədi.

Barat qarsonu yuxarı çağırdı, nə barədə söhbət etdiklərini soruşdu, bütün məlumatları alandan sonra ona bəzi tapşırıqlar verib yola saldı. Bu zaman həmişə bağlı olan arxa qapı yalnız ikisinə məlum olan parolla döyüldü. Gələn Ramiz idi. İndi ikinci mərtəbədə görünməyən şüşənin arxasında iki nəfər oturub arzu olunmaz qonaqları müşahidə edirdilər. İki restoran xidmətçisi, onların yaxınlığında əmrə müntəzir kimi dayanmışdılar. Barat Ramizə işarə edərək kabinetdən çıxdı, arxa qapıdan böyük zala keçdi, diqqətlə hər tərəfi axtarmağa başladı. Zalın ortasında qoyulan böyük güldanın içindən şimallı "dostlarının" sürpriz olaraq göndərdiyi hədiyyəni tapdı. Bu son model, kənardan idarə olunan, həcmi kiçik və çəkisi az, dağıdıcı qüvvəsi həddən artıq böyük olan partlayıcı idi. Gücü bu restorandan iki-üç dəfə böyük ərazini əhatə edən obyektləri dağıtmağa bəs edərdi. O, bu partlayıcıdan istifadə etməsə də, iş prinsiplərini yaxşı bilirdi. Onu elektrk mənbəyindən – batareyadan ayırdı və arxa otaqlardan birində gizlətdi.

Geri qayıdarkən "qonaqlarının" yerlərində olmadığını görüb narahat oldu, güzgülü şüşənin arxasından hara mümkün idisə baxdı, xidmətçilər də gözünə dəymirdi, ayaqyolunun qapıları açıq idi. Getdiklərini zənn edib, yolüstü mətbəxə keçdi. Mətbəxdə aşpaz və onun köməkçisindən başqa kimsə yox idi. Aşpaza bir neçə tapşırıq verib gəldiyi yolla geri qayıtdı. Ramiz hər dəfə onunla görüşəndə onların hər ikisinin sevdiyi – ortaq yeməkləri olan pamidor yumurta cığırtması və qatıqlı yarpaq dolması yeyərdilər. İndi də mətbəxə dönməkdə məqsədi özlərinə məxsus sifarişi vermək idi. Həyətə çıxıb Ramiz haqqında düşünməyə başladı.

DOQQUZUNCU FƏSİL

Min doqquz yüz səksən səkkizinci ildən sonra Qarabağda vəziyyət getdikcə daha da kəskinləşməyə başladı. Barat artıq bir neçə dəfə Şuşaya, Xankəndinə və Xocalıya mərkəzin xüsusi tapşırığını yerinə yetirmək üçün səfərlər etmişdi. Əlbəttə ki, bu səfərlərin hamısı Moskvada yerləşən mərkəzin gələcəkdə bu regionda kimin hakimiyyətdə olmasından asılı olmayaraq, öz planlarını həyata keçirmək üçün nəzərdə tutulmuşdu. Çünki, Mixail Qorbaçovun SSRİ-də hakimiyyətə gəlişindən sonra İttifaqda "yenidənqurmanın" gələcək planlarından biri də Qarabağın Azərbaycandan qoparılaraq ermənilərə verilməsi idi və ermənilər addım-addım bu planı hakimiyyətdə olan ermənipərəst qüvvələrin vasitəsi ilə həyata keçirirdilər. Bundan əlbəttə ki, Sovet KQB-sinin də xəbəri var idi və onlar da ittifaqın yeritdiyi siyasətin həyata keçməsi üçün var qüvvələri ilə çalışırdılar. Yerlərdə olan hakimiyyət və xüsusi xidmət orqanları isə birbaşa Moskvaya tabe idi və onun diktəsini yerinə yetirirdilər. Yerli agent və casuslar ordusu isə ölənə qədər öz missiyalarını həyata keçirməli idilər.

Elə bu ərəfədə Barat, min doqquz yüz doxsan ikinci ilin fevralında mərkəzdən yeni bir əməliyyat keçirilməsi üçün tapşırıq aldı, əməliyyatın çətin olduğunu nəzərə alaraq Ramizi də özü ilə götürdü. Onlar gecə saat üçdə Əsgəran istiqamətindən mövqeləri keçərək Xankəndiyə

yollandılar. Havanın yağışlı olması hər ikisini yormuşdu. Buna baxmayaraq inadla yollarına davam edirdilər. Xankəndiyə az qalmış ermənilər onları pusquya saldılar, atışmasız ötüşmək istəsələr də alınmadı. Birtərəfi qalın kolluqlarla əhatə olunmuş xəndəkdə daldalanıb xeyli atışdılar. Amma düşmən çox olduğuna görə müqavimət mənasız idi.

Barat təslim olmaq təklifini deyəndə Ramiz qəti olaraq etiraz etdi, buradan sağ çıxmaq isə qeyri mümkün idi. Ermənilər onların daldalandığı xəndəyi üzük qaşı kimi mühasirəyə almışdılar, tez-tez təslim olmalarını təklif edirdilər. Barat və Ramiz – hər ikisi gözəl bilirdilər ki, buradan qurtuluş yoxdur, ya təslim olmalıdırlar, ya da bu xəndək onların məzarı olmalıdır.

Çox keçmədi ki, düşmən iki zirehli texnika – "BMP-2" gətirib xəndəyə yaxın yerdə yerləşdirdi və onların güclü projektorları vasitəsi ilə xəndəyi işıqlandırmağa başladılar. Patron da tükənmək üzrə idi, nəsə fikirləşmək lazım idi. Elə bu zaman Ramiz qolundan yaralandı, vəziyyət daha da ağırlaşdı.

Barat vəziyyəti belə görüb aradan çıxmağı qərara aldı. O, dostunu ağır vəziyyətdə atıb qaçdı. Ermənilər onu tutmaq istəyərkən Ramiz onların ikisini yerə sərdi. Baratı əsir düşməkdən qurtaran Ramizi əsir götürüb Xankəndiyə apardılar. Bir neçə günlük sorğu-sualdan və işgəncələrdən sonra onu Xankəndi yaxınlığında yerləşən "Manuçarovun daçasına" gətirdilər. Burada ondan başqa da çoxlu əsirlər vardı, sorğu-sual və işgəncə isə daha çox və dözülməz idi. O, əməliyyat barəsində onsuz da heç nə bilmədiyinə görə suallara

susaraq cavab verirdi. Belə olduqda ermənilər daha da quduzlaşır, ona görünməyən əzablar verirdilər.

Belə günlərin birində onu yenə də sorğu-suala aparan zaman içəridəki iki erməni onu tanıdı.

– Ara sən Roma deyilsən? Sənin ananı... Bizi tanımadın ara. Mən Jorayam, bu da Qarikdir ara. Əskəran polkunda qulluq edirik, bir azdan Əskəran polkundan Lənkəran polkuna keçəciyik, amma ay yazıq, sən onu görməyəcəksən. Hı hı hı hı.

Ramizin nifrət dolu, qəzəbli baxışlarını görüb diksindi, amma özünü tez də ələ alıb oradakılara onun haqqında məlumat verə-verə əllərinin arxadan necə bağlanmasını yoxladı.

– Ara birdən çaşıb bunu nəzarətsiz qoyarsınız. Masab haqqı iki bu qədər əli silahlı adamınız olsa belə, hamınızı qırar eli. Biz bunun necə dalaşdığını çox görmüşük. Vurduğu adam o dünyalıq olur ara. Ara Ramiz... Baxın, mən deyirəm, əllərini ikiqat kəndirlə bağlayın. Bir dəfə biz on nəfər idik, amma bu tək, bizim hamımızı döydü, mənim bax burama necə vurmuşdusa üç gün qanını kəsə bilmirdik ara, – deyə qaşında olan çapığı göstərdi. Izahat alan iki rus zabitinin yanında onun alnına var gücü ilə bir yumruq vurdu. Ramiz yıxılmadı, Qarik əlindəki odun parçası ilə arxadan onun başına güclü bir zərbə endirdi. Ramizin gözləri qaraldı, ildırım vurmuş qocaman palıd kimi silkələndi, müvazinətini saxlamaq istədi, bacarmadı, üçüncü zərbədən sonra arxası üstə yerə düşdü. Başından axan qanın fışıltılı səsini eşidirdi, qorxaq ermənilərin onu necə təpiklədiklərini hiss edirdi.

Jora və Qarik Bakı ermənilərı idilər, Ramiz onları xatırlayırdı, tez-tez onların məhəlləsi şəhərin başqa məhəllələrinin üstünə gedər, məhəllədəki yaşıdları ilə dalaşardılar. Bir gün də Ramizgilin məhəlləsinə gəlmişdilər. Məhəllələrindən beş nəfər cavan onlarla "razborkaya" çıxdılar. Ramiz onlardan beş, altı yaş kiçik olmasına baxmayaraq əksəriyyət yaşıdları ondan çəkinirdi. O, irəli çıxıb məhəllənin uşaqlarına qarışmamağı tapşırdı.

– Nə deyirsiz, bir-bir gəlirsiz, yoxsa hamılıqla?...

Jora həmin o günü yadında yaxşı saxlamışdı. Ramiz həmin davada onların hamısını döymüşdü... Belə davalar çox olurdu Bakı məhəllələrində.

Son üç gündə onu yəqin ki, Jora və Qarikin təklifi ilə ayaqlarından asaraq döyürdülər. Sutkanın iyirmi saatını başı aşağı qalırdı, qalan dörd saatını isə sorğu-sual edirdilər, sorğu-sual edənlərin içərisində ruslar daha çox idi və başçıları da rus mayoru idi. Bir neçə dəfə o biri əsirlərə görk olsun deyə onu açıq havada, yağışın, qarın altında ayaqlarından asaraq, o biri əsirləri məcbur edirdilər ki, onu döysünlər, təhqir etsinlər, tabe olmayanları isə özləri döyürdülər.

Bu gün də həmin günlərdən biri idi, sadəcə forma dəyişmişdi. Yenə də onu ayaqlarından asdılar, əsirləri ondan on metr aralıda sıraya düzüb daşla onu vurmalarını dedilər. Hər başa dəyən daşlara görə, iki tikə arasında donuz piyi olan çörək, bədənə dəyən daşlara görə bir tikə donuz piyi olan çörək, ətraflara dəyən daşlara görə bir piysiz tikə çörək veriləcəkdi. Dəyməyən hər bir daşa görə isə onlardan bir kötək zərbəsi almalı idi hər bir əsir. Həmin gün Ramizə bir dənə də olsun daş dəymədi, amma əsirlər yamanca kötəkləndilər.

Artıq gücü tükənmişdi, buna baxmayaraq erməni əlində ölmək ona çox ağır gəlirdi, bunu heç cür özünə bağışlaya bilmirdi. Əgər buradan hansısa bir möcüzə ilə qurtara bilsə idi, bütün qalan ömrünü, bu vəhşi itlərlə mübarizəyə həsr edəcəkdi.

Bir gün əvvəl iki nəfər əsiri yaxınlıqdakı kəndə kiminsə evində işləməyə aparmışdılar, əsirlər qaçmaq istəmişdilər, onları axtarıb taparaq güllələdilər, sonra da meyidlərini həyətdə asaraq qalan əsirlərə ibrət olsun deyə göstərirdilər ki, belə fikirlərə düşməsinlər. Əsirlərə verdikləri yalan məlumatlarda bildirirdilər ki, Kürün cənub tərəfi Xəzər dənizinə qədər olan ərazilər bütünlüklə ermənilərin əlindədir və bu yaxınlarda onları da orada olan tikinti işlərinə cəlb edəcəklər.

Ramiz, bu günə qədər heç kimdən çəkinməmişdi, ölümlə göz-gözə olduğu vaxtlarda belə başını dik tutmuş, əyilməmişdi. İndi isə vəziyyət tam başqa idi. Artıq həyatdan əlini üzmüşdü, yaşamaqdan bezmişdi, bədənindəki ağrıları da, daha hiss etmirdi. Sanki bir daş parçası idi, atılmışdı evin küncünə. Günün hansı vaxtı idi bilmirdi. Çöldə avtomat səsi eşidildi, hay-küy qalxdı. "Yəqin yenə də ya qaçan var, ya da bu it uşaqlarının hansınınsa ad günüdür və ya ölüm günüdür, onun əvəzində yenə kimisə güllələyirlər" deyə düşündü. Son üç ayda belə hadisələrin çox şahidi olmuşdu Ramiz.

Hər kəs bu dünyaya öz prizmasından baxır və elə düşünür ki, hamı elə onun özü kimidir. İnsanları yaradılışından bu günə qədər saysaq, hesablanması mümkün olmayan bir rəqəm alınar, lakin onların heç biri digərinə bənzəmir. Ola bilər ki, kimsə bir başqasına zahirən oxşasın, amma bu oxşarlıq onun tam eynisi olmaq demək

deyil. İnsanlar xarici görünüşü ilə bir-birindən seçildiyi kimi, batini ilə də fərqlənir. Bir ailənin əkiz övladları, eyni evdə böyüməsinə və eyni məktəbdə təhsil almasına baxmayaraq hiss olunacaq dərəcədə həm görünən, həm də görünməyən tərəfləri ilə, əks qütblər kimi birbirindən fərqlənirlər. Böyük bir ağacda minlərlə yarpaq, yüzlərlə meyvə olduğu halda, iki eynisini tapmaq mümkün deyil. Ya rəngi, ya forması, ya da ölçüləri ilə bir-birindən kəskin surətdə fərqlənirlər. Bizi əhatə edən kainat da beləcə, tam təkrarsızdır.

ONUNCU FƏSİL

Zəfər qərargahdan məlumat aldı ki, ermənilər tutduqları hərbi və mülki əsirləri Xankəndi yaxınlığında "Manuçarovun daçasında" saxlayırlar. O, dərhal xəritəni və "daçanın" planını əldə edib diqqətlə yoxladı. Təcili olaraq onların xilas olunmaları üçün plan hazırladı. Bir gediş planı və üç qayıdış. O, həmişə belə edərdi, keçirəcəyi hər bir əməliyyat üçün, əsas plandan başqa, iki və ya üç əlavə plan da hazırlayardı.

Mayor bütün əməliyyatlara özü ilə birlikdə götürdüyü Tərlanı çağırıb ona siyahı verdi və hazırlaşmalarını tapşırdı. Bir daha keçəcəyi mövqeyə gələrək qarşıdakı düşmən mövqelərini müşahidə etdi. Artıq ötən gecə istehkamçılar minalanmış sahədə keçid açmışdılar. Hazırladığı plana uyğun hərəkət edə bilsəydilər, sabah artıq "daçada" olmalı idilər.

Günəşli bir gün idi. Günün ikinci yarısında günəş şüaları düşmən mövqelərinin üstünə düşəcəkdi. Bundan istifadə etmək lazımdı, günəş batana yaxın isə onlar artıq, nəzərdə tutulmuş nöqtəyə çox yaxın olacaqdılar. Düşündüyü kimi də hərəkət etdi. Saat üçdə onlar artıq heç bir maneə olmadan düşmən mövqelərini keçərək, Əsgəran yaxınlığında gizlənmiş və qaranlığın düşməsini gözləyirdilər. O, qrupu iki hissəyə bölmüşdü, bütün planları hamıya aydınlaşdırdı. Birinci plana əsasən, özü bir qrupla içəri girməli, o biri qrup isə ehtiyatda qalaraq

hər hansı kənardan gələn köməyin qarşısını alaraq aradan götürməli idi.

Əsirlərin içində qadınların, uşaqların və yaşlıların olması istisna deyildi və bu da əməliyyatı tez bitirməyə mane olan mümkün amillərdən idi. Hava qaralan kimi, hərəkətə başladılar. "Daçanın" yanında hər kəs tapşırıldığı kimi öz yerini tutdu, o qədər belə əməliyyatlarda olmuşdular ki, danışıqsız bir-birini başa düşürdülər.

Zəfər özü ilə üç nəfər götürərək hündür hasardan içəri keçdi, ikisi onunla birlikdə binanın içərisinə daxil oldular, biri işə həyətdə qalıb qapıdakı üç əli silahlı erməni əsgərlərini nəzarətdə saxladı. Binaya daxil olanlardan biri qapıda dayandı, iki nəfər içəriyə daxil oldu. İçəri keçərkən zirzəmiyə gedən yolu işarə ilə qapıda dayanana göstərən mayor, addım səslərini eşidib qapının arxasında gizləndi. Erməni zabiti qapını açıb dəhlizə keçdi, dabanı ilə qapını bağlayan zaman qarşısındakını görüb özünü itirdi. Ağzını açıb qışqırmaq istəyirdi ki, ani bir zərbədən arxası üstə düşdü, ikinci zərbə onu uydurdu.

Mayor, özü ikinci mərtəbəyə qalxdı. Güllə səsi gəldi, avtomat şaqqıldadı. Onlar içəri girəndən sonra qapıda dayanan Şahin iki erməni əsgərinin pilləkənlərlə yuxarı qalxdığını görüb, hər ikisini səssizcə aradan götürmək istəyərkən onlardan biri macal tapıb atəş açа bildi. Güllələrdən biri Şahinin sol qoluna dəydi, ikisi isə sol ayağını yalayıb keçdi. Şahin onların hər ikisini zərərsizləşdirə bildi, ilk növbədə atəş açan əsgəri sərrast atəşlə susdurdu, digərini isə tərksilah edərək qollarını bağladı. Bir neçə dəqiqədən sonra yuxarını "təmizləyən" mayor birinci mərtəbəyə düşdü, Tərlan artıq birinci mərtəbəni "təmizləmişdi".

Onlar zirzəmiyə gedən pilləkənlə aşağı düşdülər. Tərlan dərhal bıçaqla Şahinin kitelinin qolunu kəsdi, yara o qədər də ağır deyildi, güllə sümüyü yalayıb keçmişdi. Xoşbəxtlikdən arterial və venoz qan damarları ziyan çəkməmişdi. Çantasından spirt və pambıq çıxarıb yaranı yudu, sonra qanaxmanı kəşmək üçün məlhəm qoyub sarıdı. Bu müddət ərzində mayor zirzəmidə olan əsirləri dəhlizə çıxardı. Otuz bir nəfər vardı, bunların əksəriyyəti qadın idi.

– Kim qalıb, əgər bilirsinizsə deyin? Hamı buradadırmı?

Kimsədən səs çıxmadı, bir qadın ona yaxınlaşıb çox zəif səslə dedi.

– Allah sizdən razı olsun qardaş, sizi bura bizim dualarımız ...

– Dua vaxtı deyil bacı, əgər heç kim qalmayıbsa gedək. Vaxt itirmək olmaz, duaları yolda gedə-gedə edərik.

Mayor qadının sözünü əsəbi halda kəsdi. Lakin qadın əl çəkmədi.

– Qardaş niyə əsəbləşirsən, dünən axşama qədər bir nəfər də bizimlə vardı, bu əclaflar onu tək saxlayırdılar, bizim otağa salmırdılar, daha çox əzab verirdilər, eşitdiyimizə görə o da kəşfiyyatçıdır, neçə gündür onu səhərdən axşama kimi ayaqlarından asıb incidirlər. Amma indi bilmirəm buradadır yoxsa yox, yazıqda güc də qalmayıb daha, bu gün sabahlıqdır, bir az əvvəl inildisini də eşidirdik.

Zəfərin təpəsindən tüstü qalxdı, başı hərləndi, gözləri dumanlandı. Yaxşı ki, qadın bunu vaxtında dedi, əgər indi yox, bir saatdan sonra desəydi, Allah bilir necə

olacaqdı. O, çöldə olanlarla əlaqə saxladı, hər şey qaydasında idi. Vaxt itirmək olmazdı, Tərlana göstəriş verib, özü içəri keçdi. Bütün otaqları bir də yoxladı. Sonuncu otaqda dəmir qapı kilidlə bağlı idi. Tələsdiklərinə görə bu otağa baxmamışdılar, qapını qırıb içəri girdi. Qaranlıq dar döşəməsiz otaqda güncdə qaraltı gördü. Ramizin qollarını və ayaqlarını açdı. Onlar "daçadan" çıxandan iki saat sonra ermənilər duyuq düşüb, bütün mövqelərinə xəbər verdilər. Mayor radioda onların nə danışdığını eşidir və başa düşürdü.

Artıq bir neçə saat idi ki, onlar dayanmadan gedirdilər, Ramizin ağırlığı onu təmiz əldən salmışdı. Düşmən duyuq düşdüyü üçün, ehtiyat plandan istifadə edirdilər. Bu isə onların yolunu daha da uzadırdı. Bu yerləri ovcunun içi kimi tanyırdı, hər cığırına, hər daşına bələd idi. Səhərə az qalırdı, gündüz hərəkət etmək olmazdı, gizlənmək üçün yer tapmalı idi. O, çiynində ağır yük dərin dərədə gözdən itdi.

Gecə qaranlıqda əvvəlcə Ramiz üçün yer hazırladı, o hələ də özünə gəlməmişdi.

– Hə, necəsən cənab kəşfiyyatçı, bir az dincələk, yəqin ki, axşama qədər sən də özünə gələrsən, hələ daha çətin yolumuz qarşıdadır.

Sonra onun yanında özünə yer tutdu. Onları tapmaq üçün gərək kimsə təsadüfən onları tapdalayaydı ki, görəydi, əks təqdirdə iki metrəlikdən görmək mümkün deyildi.

Qaranlıq olmasına baxmayaraq, Zəfər bir daha ətrafı yoxladı, sonra yerinə qayıdaraq kürəyi üstə uzandı və gözlərini yumdu. Düz iki saatdan sonra oyanmalı idi, artıq neçə illər idi ki, özünə bunu vərdiş elətdirmişdi.

Sanki saat idi, beynində bu sistemi tətbiq etmiş və bu günə qədər elə olmamışdı ki, bu vərdiş onu aldatsın.

Düz iki saatdan sonra O, yuxudan oyandı, hava işıqlanmışdı, uzandığı yerdə silahını yoxladı, ətrafa göz gəzdirdi, dinlədi. Dərədən axan suyun səsindən başqa heç nə eşidilmirdi. Başının altına qoyduğu çantadan durbini çıxarıb ətrafa daha diqqətlə baxdı. "Manuçarovun daçası" görünmürdü. Yalnız bundan sonra Ramizə tərəf döndü, bütün gecəni çiynində daşıdığı bu qəribə məxluqu süzdü. Bədən quruluşuna görə insana bənzər meymunu xatırladan bu varlıq haradansa çox tanış gəlirdi. "Axı o da kəşfiyatçıdır" deyə düşündü, pıçıltı ilə soruşdu.

– Yaxşılaşmısan?

Ramiz, qarillaya məxsus yumru, qara gözlərini yumub açdı, bununla da yaxşıyam demək istədi.

– Adın nədir?

O, başını azca yuxarı qaldırdı, çətinliklə də olsa, başa düşülməsi mümkün olmayan xırıltılı səslə – Ramiz – dedi.

Zəfər onun nə dediyini başa düşmədi, amma ikinci dəfə də soruşmadı. Çantasından su və ağrıkəsicidən hazırlanmış məhlulu çıxartdı, ona uzadıb dedi.

– Üç qurtum iç, artıq olmaz.

O, uzun, tüklü əlini uzadıb qabı götürdü, üç dəfə qurtum-qurtum içdi və geri qaytardı. Zəfər adətən belə çətin əməliyyatlara gedən zaman həmişə üstündə ilk yardım üçün nəzərdə tutulan hər şeyi götürərdi və əlavə olaraq keçmiş kəşfiyyatçılardan öyrəndiyi ağrıları azaldan, güc və enerji verən təbii, dərman bitkilərindən ibarət xüsusi hazırlanmış qatqılardan da istifadə edərdi.

Saat yeddidə o biri qrupla əlaqə saxlamalı idi, onlar da haradasa, yaxınlıqda olan meşələrin içində idilər, hələ vaxta beş dəqiqə qalırdı. Xankəndi tərəfdən iki helikopterin havaya qalxdığını gördü, düşmən onları axtarırdı. Radionu açıb düşmənin danışıq tezliyini axtarıb tapdı, dinləməyə başladı. Düşmən ətrafda hər tərəfə axtarış qrupu göndərmişdi və onlarla əlaqə yaradırdılar. Nə danışdıqlarını Zəfər yaxşı başa düşürdü

O, Ramizə diqqətlə baxdı, onu xilas etdiyi üçün qürurlandı, daxilində bir rahatlıq hiss etdi, ancaq ürəyində hansısa bir hiss onun kəşfiyyatçı olmadığını deyirdi. "Hər kimdisə, azərbaycanlıdır və bir kəşfiyyatçı zabit kimi mənim borcum, onu xilas etməkdi" deyə düşündü. Ona tərəf dartınıb yatmasını dedi. Kim bilirdi, hələ onları qarşıda nələr gözləyirdi.

Axşam günəşin qürubunu gözləyirdilər, hava qaralmağa başlayan kimi yollarına davam etməliydilər, çiskin yağış yağmağa başlamışdı. Artıq Ramiz özü yeriyə bilirdi, Zəfərin yükü azalmışdı, onlar o biri qrupa çatsınlar deyə bacardıqca sürətlə gedirdilər. İki dəfə təyin olunmuş vaxtda əlaqə tezliyinə girməsinə baxmayaraq, Tərlangildən bir xəbər tuta bilməmişdi. Narahatçılığı təkcə onlardan idi. Sol tərəfdə itlərin hürüşməsi və çaqqalların ulaşması eşidilirdi, burada hansısa yaşayış məntəqəsi olmalı idi. Yolun palçıqlı olması onları əldən salmışdı. Bir az dincəlmək lazımdı. Onlar sağa dönüb sıx meşənin kənarında dayandılar. Axşamdan başlayan yağış, hələ də yağırdı.

Üçüncü gün idi ki, onlar gündüz gizlənərək gecə yol gedirdilər. Nəhayət ki, Tərlangillə əlaqə yaratmaq mümkün oldu. Onlar qarşı tərəfdə dağın ətəyindəki

meşədə gizlənə bilmişdilər. Bu gecə düşmən mövqeyini keçmək lazım idi, artıq hamı əldən düşmüşdü, əsəblər belə gərginliyə dözmürdü. Düşmən isə bu məğlubiyyəti qəbul edə bilmir, onları tapmaq üçün hər daşın altına baxır, hələ də axtarışı davam etdirirdilər.

Ramiz üç aylıq əsirlikdən sonra özünə gəlməyə başlamışdı. Bu üç ayda əsirlikdə başına gələnlərin hamısını Zəfərə danışdı, Barat haqqında isə heç nə demədi. Onunla haqq-hesab çəkməyi özünə saxlamışdı. Lakin Zəfər kimi bir əks kəşfiyyatçıdan belə sadə üsulla nəyisə gizlətmək mümkün deyildi. O, Ramizin əsas hədəfi gizlətdiyini başa düşmüşdü, amma buna görə onun üstünə getmədi.

Həmin gecə Zəfər Ramizlə birlikdə düşmənin diqqətini tamamilə başqa bir səmtə yönəltmək məqsədi ilə hərəkətə keçdilər. Düşmən mövqeyinə basqın edərək, iki əsgərini girov götürdülər, tərk silah edərək özləri ilə bərabər cəbhənin şimal istiqamətinə apardılar. Düşmən diqqətini onlara yönəldərkən Tərlan öz qrupu ilə düşmən mövqelərini keçərək ən yaxın hərbi hissəyə daxil oldu.

ON BİRİNCİ FƏSİL

Yusif öz kabinetində oturub dərin fikrə getmişdi. O, bu gün baş vermiş hadisənin oxşarını ancaq xarici filmlərdə görmüşdü, real həyatda, belə bir meqapolisdə, kameraların hər tərəfdə quraşdırıldığı, daima nəzarətdə olan bir ofisdə belə bir hadisənin baş verməsi onu tamamilə çaşdırmışdı. Bunu edən hər kim idisə, bundan daha betərini edə bilərdi. Əgər ofisə girib çəkinmədən qaz bombasını quraşdırıb rahat çıxıb getmişdilərsə, istəsə idilər daha çox ziyan vura bilərdilər. Deməli nişangahda şirkət yox, Zəfər idi, məqsəd onu aradan götürməkdi, başqa ziyan vurmaq istəməmişdilər. İşə başlayarkən Sevda onun kabinetinə getməsəydi indi yəqin ki, sağ idi. "Yazıq Sevda", deyə köks ötürdü. İndi onun Sevdadan olan iki yaşlı Fidanı anasız böyüməli idi. Körpəlikdə yetim qalmış Sevdanın niskilli həyatının davamını, onsuz da atası ola-ola atasız böyüyən Fidan yaşayacaqdı. Bu böyük faciəni fikirləşdikcə özünü günahkar sayırdı, bu günə qədər etdiklərinə görə xəcalət çəkirdi, həmişə onun üçün əlçatmaz olan Sevdanın, onun ruhunun və atalıq edə bilmədiyi doğma balası Fidanın qarşısında. O bu gündən sonra Fidana daha çox vaxt ayırmalı, onun gələcək həyatının normal qurulması üçün əlindən gələni əsirgəməməli idi. Bir ata kimi kənardan olsa belə, daima onu diqqət mərkəzində saxlamalı, körpə ürəyinə yetimliyin iz salmasına yol verməməli idi.

Deyirlər, zaman bütün yaraların məlhəmidir. Yenidən Sevda ilə keçirtdiyi günlər gözləri önündə canlandı. Nə qədər əzablı və iztirablı günlər olsa da bu onların birlikdə yaşadığı həyat idi və Yusif bütün həyatını, onunla keçirtdiyi günlərlə fikirləşmədən dəyişərdi.

Yusif Sevda ilə ailə qurmaq istəyirdi, lakin atası bu izdivacın əlehinə olub, o qızı evində gəlin görmək istəmədiyini qəti şəkildə bildirdi. Atasının xasiyyətinə yaxşı bələd olan Yüsif və ailə üzvləri bu söhbətin üstə bir daha qayıda bilmədilər. Xaraktercə zəif olan Yusif, möhkəm xarakterli atasına qarşı gedə bilmədi. Əslində, bu izdivac heç Sevdanın da ürəyindən deyildi. O, Yusiflə yaxın olduqca, onu ailə həyatında daha yaxından tanıdıqca qəlbən ondan uzaqlaşır və gələcək həyatını onunla bağlamağı ağlına belə sığışdıra bilmirdi. Elə buna görə də, Bakıya qayıtdıqdan bir neçə gün sonra atasının fikrini bildirmək üçün gələn Yusifi rədd etdi və bir daha onun arxasınca gəlməməsini qəti şəkildə bildirdi.

Lakin zaman heç də onun xeyrinə işləmədi. Bir müddət sonra hamilə olduğunu bilib, nə edəcəyini, onu tanıyanlara xüsusən də, nənəyə və Məsuməyə nə cavab verəcəyini düşünmək onu əldən salmağa başladı. Günbəgün böyüyən qarnını onlardan necə gizlədəcəkdi? Ümumiyyətlə, bu mümkün idimi?...

Hər şeyi başa düşən Məsumə bir gün yoxa çıxdı, səhər dərsə getdi, axşam qayıtmadı. Onun otağına girən Sevda masanın üstündəki Məsumənin xətti ilə yazılmış kağızı oxudu. "Məni bağışla. Bir daha görüşmək istəməzdim. Məsumə". Bununla da o, gözlədiyi ilk zərbəni aldı, ilk itirəcəyini itirdi, günahının ilk bədəlini ödədi.

Hər ötən saat onun həyatını daha da dözülməz edirdi, sanki qaranlıq dairənin içində idi və bu dairə getdikcə daralırdı. Hamilə olduğunu eşidəndən sonra Yusif bir neçə dəfə də onu yola gətirmək üçün gəldi. Lakin heç nə alınmadığını görüb, evdə olan qulluqçu vasitəsi ilə kənardan nəzarət etməklə kifayətləndi. Məsumə gedəndən sonra, nənə əziyyət çəkməsin deyə bir qulluqçu tutmuşdular.

Dörd ay sonra atasının təkidiylə Yusif heç zaman üzünü görmədiyi imkanlı ailədən olan bir qızla evləndi. Bu evlilikdən neçə illər keçməsinə baxmayaraq, onlar körpə səsinə həsrət idilər...

İndi Sevdanın yoxluğunda kabinetində oturub keçmişi vərəqləyən Yusif, baş verənlərin ən böyük günahkarı kimi yalnız özünü görürdü və artıq heç nəyi geri qaytara bilməyəcəyini də yaxşı bilirdi. O, bilirdi ki, Sevda ilə bağlı xatirələri, onun ruhu, heç bir zaman atasını və ilk növbədə onun özünü rahat buraxmayacaq. Əmin idi ki, işlər onun planlaşdırdığı kimi getsə idi, atası onların evliliyinə razılıq versə idi, indi bütün bu hadisələr də baş verməzdi. İndi başlarına gələn hər uğursuzluqda Sevdanı və heç bir günahı olmayan, atalı ikən atasız böyüyən Fidanı düşünürdü, ona elə gəlirdi ki, həyatı onlar tərəfindən lənətlənmişdir.

* * *

Sevda həmin o müdhiş gecədən sonra bütün günü sakitləşə bilmədi. Yuxudan oyanarkən alkaqolun təsiri azaldığından bədənində bir ağırlıq hiss edirdi, sanki onu bütün gecə ərzində döymüşdülər. Bu günə qədər belə halda olmamışdı. Canında şirin bir ağrı vardı.

İçindəki ağırlıq da başqa cür idi. Əvvəlcə nə baş verdiyinin fərqində deyildi. Yerinin içində gərnəşdi, yanında Yusifin çılpaq yatdığını görüb diksindi, ilan vurmuş kimi yerindən tullandı. Yataqda özünü lüt görəndə az qaldı ki, bayılsın. Mələfəyə bürünüb çarpayıdan düşdü. Döşəküzü qan içindəydi. Nəyin baş verdiyini yavaş-yavaş anlamağa başladı, vanna otağına qaçdı, ayaqlarının arasında, baldırlarında qurumuş qan ləkələri qalmışdı. Ürəyi sıxıldı, gecə nə baş verdiyini xatırlamağa başladı, etdiyi əməlin iyrənc olmasındanmı, yoxsa gecə içdiyi alkaqolun təsirindənmi öyüməyə başladı. Az qalırdı ki, mədəsi ağzından bayıra çıxsın.

Güzgüdə özünə baxdı, ona elə gəldi ki, başqasının, hansısa yad bir qadının bədənini görür, əvvəlki mərmər kimi parıldayan bədəndən əsər-əlamət yox idi. Duşu açıb yuyundu.

Yusifə bərk acığı tutmuşdu. Bədəninə su dəydikcə ayıldı. Ötən gecə baş verən hadisələr bütün təfərrüatı ilə gözləri önündə canlandı, tutduğu işin necə utanc gətirən əməl olduğunu anladı, xəcalət çəkdi. Hamamdan çıxdı, çarpayıda yatan Yusifi görərkən yenidən əsəbləşdi, üstünə atılıb parça-parça etmək istədi. Yusif isə öz tüklü, kök və eybəcər bədənini yatağın üstünə sərmiş, bir il səbrlə gözlədiyi, yuxularında belə toxunmağa cürət etmədiyi Sevdadan aldığı ləzzətdən sonra şirin yuxusunun dadını çıxarırdı.

Hər şey Sevdanın yadında idi. O, Yusifi zorla yatağına çəkmiş, özü onu öpüşlərə qərq edərək, ehtiraslandırmış, soyundurmaq istəyərkən müqavimət göstərmək əvəzinə ona kömək etmişdi.

Yusif onun qolları arasından çıxaraq arxası üstə çarpayıda uzanarkən özü onun üstünə qalxmış, qoynuna

sığmayan döşlərini onun sinəsinə sürtərək ehtiraslandırmış və yenidən arxası üstə uzanaraq içindəki atəşi söndürmək üçün istəyinə qul olmuşdu. Günahkar elə o, özü idi. Artıq onun həyatı dəyişmiş, bütün arzuları alt-üst olmuşdu. Bir litr çaxıra dəyişmişdi öz paklığını, bakirəliyini. İndi o, daha heç kimə lazım deyildi.

Çarpayıda oturub hönkürdü, göz yaşları ilə günahını yuyurmuş kimi ağladı. Dərdini deməyə, köksündəki qubarı bölüşməyə yaxın, doğma adam axtardı.

Qapını açıb qonaq otağına keçdi, divanda oturdu, taleyindən, nənəsinin dediyi kimi alnına yazılan yazıdan gileyləndi. Kəndləri üçün darıxdı, dağları kimi vüqarlı, havası kimi təmiz dərdindən ölən oğlanları düşdü yadına. Hər cəhətdən Yusifi arxada qoyan kənd oğlanlarını saymamışdı. Kövrəldi, hönkür-hönkür ağladı. Heç zaman ağ duvaq, gərdək, gəlinlik paltarı ona qismət olmayacaqdı. O, indi başa düşdü ki, bu həyatda onun kimilər üçün xöşbəxtlik qapıları heç zaman açılmır, taleh üzlərinə gülmür, hamıya verilən şanslar onların başı üstündən keçir, hoppanıb tutmaq istəyərkən ayaqları burxulur, arxasınca qaçan zaman büdrəyirlər, "Ağ atlı şahzadə" əvəzinə, qara vəhşi ayı düşür qismətlərinə.

Yusif qapının səsinə oyandı. Sevdanın qonaq otağına keçdiyini gördü. Gərnəşdi, ayağa durub geyindi, gözləri qanlı döşəkağına sataşdı, içindən xoş hərarət keçdi, əhvalı düzəldi. Gecə ehtirasın əlində əsir olan Sevda, onu parçalamaq istəyirdi. Onun qurduğu plan baş tutmuş, kokteylə qatdığı toz şəklində olan həb öz effektini vermişdi. O, əvvəlcədən qurduğu planın baş tutduğunu bayram edirdi. Lakin qızın tez oyanıb baş verən hadisənin təsirindən özünə nəsə edəcəyindən qorxaraq yatmazdan əvvəl otaqda olan bütün iti əşyaları tullamış,

qapı və pəncərələrin yaxşı bağlandığını bir daha yoxlamışdı.

Qonaq otağına keçəndə Sevda əlləri ilə üzünü qapayaraq ağlayırdı. Onun yanında oturub könlünü almaq istədi, fikrindən daşındı. "Deməli, heç nədən şübhələnməyib. Bir az ağlayıb sakitləşəcək, əgər şübhələnsə idi, bəlkə də məni yatdığım yerdə parçalayıb öldürmüşdü," deyə düşündü. Qızın xasiyyətinə yaxşı bələd idi. Soyuducunu açıb su götürdü, sərin Borjomi daxilinə yayılaraq sərinləşdirdi.

Sevda onun üzünə baxmadan yataq otağına keçdi. Yusif telefonu götürüb səhər yeməyi sifariş etdi, pəncərənin qarşısında dayanıb dağın döşü ilə göz işlədikcə uzanıb gedən meşəni seyr edərək gələcək planlarını götür-qoy etməyə başladı. Qayıdan kimi Sevda ilə evləndiyini valideynlərinə deyəcəkdi, artıq onların ailəsi qızı tanıyırdılar. Evdə anası, belə bir gəlininin olacağına sevinir, bacısı Nigar, öz tələbə yoldaşı haqqında ağız dolusu danışır, dil boğaza qoymurdu, atası isə – son söz onun olmasına baxmayaraq susurdu. Aralarında isti münasibətlərin olmasına baxmayaraq, Yusifə elə gəlirdi ki, Sevda onun üçün əlçatmazdır. Elə buna görə də qıza yazığı gəlməsinə baxmayaraq, dünən gecəki planı əvvəlcədən düşünərək həyata keçirdi. "İndi daha başqa yolu qalmaz, özü mənim dalımca sürünər," deyə qızdan qisas alırmış kimi düşündü.

Qapı döyüldü, qarson üstündə səhər yeməyi olan araba ilə içəri daxil oldu. Yeməkləri masanın üstünə düzüb getdi. Yusif yataq otağına keçdı. Sevda çarpayıda üzü üstə uzanmışdı. Bir anlıq dünənki gecə xəyalında canlandı, o gecəni yenidən yaşadı. O, həmin gecə aldığı ləzzəti, heç zaman unutmayacaq, son nəfəsinədək xa-

tırlayacaqdı. Onun həyatında ayrı-ayrı millətlərdən çox qadınlar olmuşdu və tez də unudulmuşdular. Sevda isə tamam fərqli idi.

Qızın yanında çarpayının üstündə oturdu, əlini sol tərəfdən onun çiyninə qoydu, kimsənin eşitməsindən qorxurmuş kimi pıçıldadı.

– Sevda, əzizim, həyatım, niyə belə narahatsan? Niyə belə edirsən? Məgər biz bir-birimizi sevmirdik? Hər şey yaxşıdır, özünü bu qədər üzmə...

Sözü ağzında qaldı, qız hönkürdü, daha da yanıqlı və bərkdən ağlamağa başladı, sanki, ötən gecənin yasını saxlayırdı.

– Sevda, biz indi daha da mehriban olmalıyıq, həyatım! Mən artıq bütün işləri yoluna qoymuşam, onsuz da bu il evlənəcəkdik. Qayıdan kimi bu məsələni həll edacəyəm. Buna görə bu qədər əzab çəkmək nəyə lazımdır.

O, qızı bu vəziyyətdən çıxarmaq üçün ağlına gələn gözəl sözlərin hamısını dayanmadan bir nəfəsə deyirdi. Əlini qızın kürəyində gəzdirdi, əks reaksiyanı görməyincə ürəkləndi, daha yaxına gəlib onun qollarının açıq yerlərini öpdü, saçlarını tumarladı, incə əllərini öz toppuş əlləri arasına alıb kobud barmaqları ilə ovxaladı. Ağzını qulağına yaxınlaşdırıb pıçıltı ilə dedi.

– Kaş biləydin, səni necə sevdiyimi... Dur, səhər yeməyi soyuyur, bir tikə yeyək.

– Sən get, mən istəmirəm – Sevda soyuq, quru səslə cavab verdi.

– Sənsiz?... Heç boğazımdan su da keçməz. Tərslik eləmə, dur gedək.

– Yaxşı, get gəlirəm.

O, qapını açıb qonaq otağına keçdi, masanın üstündə yeməklərin yerini dəyişdirdi, doğranıb qızardılmış çörəyin üstünə yağ çəkdi, fincanlara çay süzdü, qənd atdı. Sevda yataq otağından çıxdı, başını yuxarı qaldırıb onun üzünə belə baxmadan masaya yaxınlaşdı. Hər ikisi susurdu, yemək bitənə qədər heç biri danışmadı. Qızın burnu və gözləri qızarmış, dodaqları şişmişdi, sifət cizgiləri də dünənki deyildi. Bir gecənin içində necə də dəyişmişdi. İndi Sevda əvvəllər olduğu kimi şıltaq qıza yox, ətrafında olan kişilərdə ilk baxışdan ehtiras oyadan vulqar qadına bənzəyirdi. Bəlkə də Yusifin gözlərinə belə görünürdü.

O, heç nə yemədi, bir fincan çayı qurtum-qurtum zorla içdi, baxışlarını yuxarı qaldırmadan durub yataq otağına tərəf getdi. Divanda oturan Yusif arxadan onu diqqətlə süzdü. Bir gün əvvəl yeriyərkən sanki ayaqları yerə dəymir, havada süzürdü. İndi isə ayaqlarını birbirindən aralı qoyaraq, qadınlara məxsus yerişlə addımlayırdı, arxası da nəzərə çarpacaq qədər böyümüşdü. Bəlkə də ona belə gəlirdi.

Sevda yataq otağına keçib qapını arxadan bağladı. Çarpayının üstünə üzü üstə uzanaraq indiki vəziyyətini analiz etməyə başladı. Daha ağlaya bilmirdi, sanki gözlərinin suyu qurumuşdu. İndi, Yusif onun üçün hər şey idi, öz kobud bədəni, eybəcər fiqurası ilə. "Ağ atlı şahzadə" onun cildinə girib Sevdanın həyatına əbədi olaraq gəlmişdi, dünənki o müdhiş gecədə əlində ağ gürcü çaxırı və bir bakal kokteyil ilə birlikdə...

"Daş düşəydi o günə, həmin günə ki, o, Nigarın ad gününə getdi. Daş düşəydi o günə ki, həmin gün Yusiflə tanış oldu. Qara gələydi o gün ki, onun Gürcüstana getmək təklifini qəbul etdi, onunla birlikdə bu otelə

gəldi. Kaş gəlməyə idi o gecə, hansı ki, bir butulka çaxır onun ağlını başından aldı, mənliyini ayaqlar altına atdı. Açılmayaydı o səhər ki, oyananda özünü bu halda gördü." Sevda bu fikirlərlə özünü qınayır hələ də hansısa bir möcüzənin baş verəcəyinə, yenidən əvvəlki halına qayıdacağına inanırdı.

Ayağa durdu, paltar dolabının qarşısındakı böyük güzgüdə özünü gördü, diksindi. Sanki güzgünün qarşısındakı o özü yox, tam başqa qadın dayanmışdı. Bir gecənin içində necə də dəyişmişdi. Əllərini bədəni boyu gəzdirdi. Bədəni, əvvəlki şuxluğunu itirmiş, geyilmiş, nimdaş paltara bənzəyirdi. Dərisi bir az boşalmış, bir az parıltısı azalmışdı. O, özünü belə təsəvvür edə bilmirdi, güzgüdəki əksdə sanki, başqa bir qadın idi və onunla üzbəüz durub yad, dünənə qədər ona məxsus olmayan baxışlarla onu süzürdü.

Nəhayət ki, özünü ələ aldı, gələcək həyatını düşünməyə başladı. İndi çox şey Yusifdən asılı idi. O, ailəsinin, xüsusən də hər işi yüz ölçüb bir biçən, suyu belə üfürərək içən, soyuq, buz kimi baxışları ilə qarşısındakının daxilini görən, əzazil, qəddar atasının razılığını almalı idi və tezliklə toy edib evlənməli idilər. Əlbəttə, düşündüklərinin hamısı olmalı idi, özü də tezliklə, çünki gözləməyə nə vaxt, nə də imkan yox idi. Sevda yaxşı başa düşürdü ki, indi həllini tapmayıb ötən hər saat, onun xeyrinə yox, ziyanına işləyir və belə kritik məqamlarda zaman, çox şeyi həll edir.

"Birdən uşağa qalsam..." Bu fikir ağlına gələndə az qaldı ki, havalansın, yox bu məsələni gecikdirmək olmazdı. Bunların hamısını o, Yusifin özü ilə danışmalı, münasibətlərə aydınlıq gətirməli idi. Amma necə? İndiki halda o, Yusifin üzünə belə baxa bilmirdi. Özünü onun

yanında günahkar sayır, gecə axmaqlıq edib onu da işə saldığı üçün xəcalət çəkirdi. Axı onun da həyatda yaşamaq üçün planları, arzuları vardı, gələcək ailə həyatının necə qurulması, onu daha çox narahat edirdi.

Vanna otağına keçdi, əl-üzünü yudu, güzgüyə baxmadan otağa qayıtdı. Sifətində və bədənindəki dəyişikliklər onu qorxudurdu.

Qərara gəldi ki, Yusifin yanına getsin, dünən gecə baş verənlərə görə üzr istəsin, ona yalvarsın, bağışlamasını və qayıdan kimi başlarına gələn bu müsibəti nə qədər mümkündüsə tez həll etməyi desin. Axı necə? Tapdanmış olsa belə qüruru imkan vermir, həya onu boğur, vicdanı sıxırdı. Ən böyük zərbə onun özünə dəymişdi, olanlardan sonra hələ üstəlik kimdənsə üzr istəməyi, qalan qürurunu da yenidən ayaqlar altına atmağı, mənəviyyatını qara qəpiklik etməyi ağlına sığışdıra bilmirdi. Qarışıq bir-birinin əksi olan fikirlər ağlını kütləşdirir, düzgün qərar verməyinə mane olurdu. Otaqda var-gəl edir, bir yerdə qərar tuta bilmirdi.

Qapı sakitcə döyüldü, tıqqıltı səsinə diksindi və bir az da sevindi. Divardakı saata baxdı, artıq üç saatdan yuxarı idi ki, bu otaqda tək idi.

İstəyirdi ki, Yusif içəri girsin, təsəlliverici sözlər desin, onu oxşasın, tumarlasın. Axı indi bu onun haqqı idi, qanundan kənar olsa belə onlar evlənmişdilər və qızın da onun nəvazişlərinə böyük ehtiyacı vardı. Barmaqlarının ucunda qapıya yaxınlaşdı, açmağa tərəddüd etsə belə iradəsini topladı, açdı. Yusif günahkarcasına dayanıb baxırdı. Sanki ən əziz adamını itirmiş, həyatında ən böyük müsibət baş vermişdi.

Baxışları toqquşdu, sanki otaqda şimşək çaxdı. Bir müddət sükutla bir-birini süzdülər, dilləri yox, duyğuları danışdı. Yusif tutduğu işə görə çox peşman olmuş,

ömrünün bəlkə də ən kobud səhvini etmiş kimiydi. Lakin o, əmin idi ki, qayıdandan sonra bu işi yoluna qoya biləcəkdi, nəyin bahasına olursa-olsun. Təkcə atasının ağır xasiyyəti onun qarşısını kəsir, hətta yüzlərlə kilometr aralıda belə onu rahat buraxmırdı.

Ona elə gəlirdi ki, atası onun hər addımını izləyir, qayıdan kimi etdiyi əməllərə görə onu sorğu-sual edəcək, qınayacaq, hesabat tələb edəcək, bəlkə də bu gün etdikləri ona çox baha başa gələcəkdi. Nə olursa olsun, bu işə heç kimin, hətta atasının belə qarışmağa ixtiyarı yox idi, bu onun öz həyatı idi və buna o özü qərar verməli idi. Belə qarmaqarışıq fikirləri başından kənar edib, Sevdanın üzünə baxdı və yorğun sifət cizgilərindən başa düşdü ki, o da, belə fikirlərin təsiri altında əzab çəkir.

– Sevda, əgər mümkündüsə məni bağışla, sənə çox əzab verdim. Biz bura istirahətə gəlmişdik, mənim günahım üzündən istirahətimiz gözümüzdən gəldi. Bir gecənin ləzzətinə qurban verdik hər şeyi, özümü bağışlaya bilmirəm.

O, kövrəldi, gözləri doldu, danışa bilmədi. Sevdanın ona yazığı gəldi, başını onun ciyninə qoyub için-için ağladı. Ona təsəlli vermək, bu kövrək insanın qəlbini ovutmaq istədi, öz dərdini unutdu. Onun ağlamağı Yusifi ayıltdı, könlünü almaq üçün səhərdən fikirləşdiyi sözləri birnəfəsə yağdırmağa başladı.

– Biz indi eyni adamıq, xöşbəxtliyimiz də, bədbəxtliyimiz də eynidir. Sakitləş, indi bir-birimizi qınamağın, günahlandırmağın yeri yoxdur. Ağlamaqla, dərd çəkməklə heç nəyi əldə edə bilmərik, göz yaşı heç nəyi həll etmir Sevda. Görünür, qismətimiz belə imiş, bəxtimiz, taleyimiz belə yazılıbmış. İndi elə etməliyik ki, bu işimizdən kimsə xəbər tutmasın. Şəhərə qayıdan-

dan sonra, sakitcə hər şeyi yoluna qoyarıq. Bir də ki, nə dəyişib ki, əvvəlki adamlar deyilikmi? – Çiyinlərindən tutub qızı özündən araladı, ərklə: – Sevda xanım, bəsdir daha ağladın. Gedək, bir tikə yemək yeyək, yaman acmışam. Tez ol, əynini dəyiş, yoxsa bu görünüşlə bizi restorana buraxmazlar. Hə, yadımda ikən deyim, qayıdanda Tbilisidə dayanıb bir az əyin-baş alarıq. Deyirlər orada çeşid daha çox olur.

O, qonaq otağına keçdi. Sanki, Sevdaya yeni ruh verildi, səhərdən onu üzən fikirlər yoxa çıxdı, yüngülləşdi, dünən gecə başına gələn müsibət adiləşdi, sanki belə də olmalı idi. İndi o, bayaqdan axtardığı söykənə biləcəyi dayağı, dərdini bölüşə biləcəyi adamı tapmışdı. Bu hiss qızı o qədər ruhlandırdı ki, qapının yarıaçıq qalmasına belə fikir vermədi. Onun verdiyi əmri dərhal və sözsüz yerinə yetirmək üçün dolabı açdı, ən çox sevdiyi və Yusifin də çox xoşladığı paltarını idman çantasından çıxardı.

Güzgünün qarşısında durub, soyunmağa başladı. Hər şeyi təzə geymək istədi, əyilib dolabda təzə alt paltarını götürdü, çarpayının üstünə qoydu, əynindəkini çıxartdı. Lüt halda güzgünün qarşısına keçdi, özünü başdan ayağadək süzdü. Gözəlliyi gözlərini qamaşdırdı, qadın olmasına baxmayaraq özünə vuruldu. Özünü ilk dəfə görürmüş kimi utandı, çarpayının üstündən paltarını götürmək üçün döndü və qarşısında Yusifi gördü. Özündən asılı olmadan içini çəkdi, əlləri ilə sinəsini qapadı, gizlənməyə yer axtardı, ancaq gec idi. Yusifin güclü və əzələli qolları onun çılpaq bədəninə hər tərəfdən sarılmışdı. Yüngül hərəkətlə onu fırladıb qollarının üstünə qaldırdı.

Bir az sonra, onlar çarpayıda gecə olduğundan daha çılğın vəziyyətdə idilər. Təkcə alkaqol çatmırdı...

ON İKİNCİ FƏSİL

Zəfər iki ay idi ki, "Alfa" şirkətində işləyirdi. İşə başladığı ilk gündən kiminsə onu izlədiyini duyurdu. Kəşfiyyatçı intiusiyası onu heç vaxt aldatmırdı, bilirdi ki, o nə qədər ki, yaşayır, nə qədər ki, sağdır onu qarabaqara izləyəcəklər. Lakin o, böyük bir düzənlikdə harın ovçuların tələsinə düşən ov olmaq istəmirdi, çünki o, əsl kəşfiyyatçı idi.

Ömrünün beş ilini xaricdə bir çox dövlətlərin kəşfiyyat orqanlarına qarşı keçirmiş, on ilini isə Qarabağda rus və erməni işğalçılarının kəşfiyyat orqanlarına qarşı əməliyyat qrupunun tərkibində olmuş, son üç ildə isə bu qrupun rəisi olaraq fəaliyyət göstərmişdi.

Müharibə onun həyatında silinməz izlər buraxmış, çox əziyyətlər çəkmişdi. Üç dəfə yaralanaraq hərbi hospitalda müalicə aldıqdan sonra yenidən xidmətə qayıtmış, öz sevdiyi işinə davam etmişdi. İki min birinci ildə öz xahişi ilə ordudan tərxis olunmaq üçün yazdığı müraciətinə, xidmətlərini və səhhətini nəzərə alaraq komandanlıq müsbət cavab verdi. O, ordu sıralarından tərxis olunaraq mülki həyata qayıtdı. Elə bilirdi ki, həyatının çətin günləri arxada qaldı, sən demə hər şey elə bundan sonra başlanırmış.

Ora, cəbhə idi, düşmənin kim olduğu bəlli idi, hər şey səndən, bacarığından, biliyindən, təcrübəndən, ağlının itiliyindən, intiusiyanın gücündən asılıydı. Həyati təhlükənin çox olmasına baxmayaraq, sağ qalmaq şansı

da böyük idi. Bilirdin ki, sən vurmasan, səni vuracaqlar, ən yaxın dostun, elə sən özün və bir də həmişə üstündə gəzdirdiyin silahın idi. Riskli və maraqlı həyat onun çox xoşuna gəlirdi. Burada isə, düşməni tanımaq ən vacib şərt idi. O, həm səninlə bir küçədə hərəkət edən adam, qəfildən üstünə şığıyan maşın, binanın üstündən qopub düşən tikinti materialı və sairə ola bilərdi. Küçədə isə hər gün minlərlə adamla rastlaşırdı. Axı küçədə gəzənlərin hamısını düşmən saymaq olmazdı.

Zəfər rus, ingils, fransız dillərində gözəl danışır, alman və italyan dillərini isə başa düşür, danışıq formasında bilirdi. Qarabağ müharibəsində isə erməni dilini öyrənməyə başlamışdı. Ümumiyyətlə, onun üçün dil öyrənmək elə də çətin deyildi. Bilirdi ki, mülki həyatda da onunkimilər üçün iş tapmaq asan olur. Tərxis olandan sonra bir çox səfirliklərə və Xarici İşlər Nazirliyinə müraciət etdi. Bəzilərində imtahandan da keçdi, amma hələlik işə qəbul haqqında səs-soraq yox idi. Xarici İşlər Nazirliyində imtahandan sonra müsahibə zamanı ona bildirdilər ki, onun kimi kadrlara böyük ehtiyacları var, amma indiki vəziyyətdə onu işə götürə bilməyəcəklər.

Beləliklə, bir il keçdi, artıq ruhdan düşür, getdiyi qapıların üzünə bağlanması indiyə qədər öyrəndiklərinin və həyatda topladıqlarının mənasız olduğunu düşünürdü. Bir müddət özünə qapıldı, kimsəylə görüşmək belə istəmədi, onsuz da çox danışmağı sevmirdi, özünə qapılandan sonra isə daha da qaradinməz oldu. Danışdıran olmasa idi həftələrlə susardı. Evdən çıxar, saatlarla küçə və parklarda mənasız halda dolaşıb, axşam yorğun halda qayıdardı.

Lakin hər an izləndiyini, kiminsə nəzarəti altında yaşadığını hiss edirdi. Arabir ona elə gəlirdi ki, ondan daha təcrübəli bir qrup onun ovuna çıxıb. Bir gün evlərinin qarşısında yolu keçən zaman "Jiquli" markalı maşının onun üstünə şığıması, onu maksimum ehtiyatlı olmağa vadar etdi.

Belə günlərin birində dənizkənarı bulvarda qağayıları və dənizi seyr etdiyi zaman kiminsə ona yaxınlaşdığını hiss edərək geriyə fırlandı. Uzaqdan Rusiyada hərbi məktəbdə bir kursda oxuduğu tələbə yoldaşı Natiqin ona tərəf gəldiyini gördü. Məktəbi bitirdikdən sonra onlar görüşməmişdilər. Uzun illərin ayrılığından sonra qucaqlaşdılar, hal-əhvaldan sonra yaxınlıqdakı kafelərdən birinə getdilər. Hər ikisi qayğılı idi.

Zəfər hərbi məktəbdə əlaçı idi, çoxlu xarici dil bildiyi üçün, təyinat veriləndə, onu əks kəşfiyyata götürdülər. Natiq isə Vladiqafqaza getdi, iki il işlədikdən sonra xüsusi əlaqələrini işə salıb Bakıya dəyişildi və Dövlət Təhlükəsizlik Komitəsində işə başladı. İndi polkovnik idi və Zəfər Azərbaycana gəldikdən sonra onu həmişə nəzarətdə saxlamışdı.

Zəfər döyüşdə yaralandığı zaman, Natiq, hərbi hospitala ən yaxşı həkimləri göndərmiş, müalicənin gedişi haqqında mütəmadi maraqlanmışdı. Amma bütün bunları elə etmişdi ki, nəinki Zəfərin, hətta ətrafdakıların da xəbəri olmamışdı. Zəfər türmədə yatanda belə içəridəki əlaqələrini işə salıb onun çox əziyyət çəkməsinə imkan verməmişdi. Onun "ovu"na çıxanların haqqında da məlumatı var idi və onların kimliyinin araşdırılması üçün kiçik qrup yaradaraq tezliklə tapılmasına göstəriş də vermişdi. İndi isə Zəfərin belə pessimist bir hala düş-

düyünü görərək üzə çıxmağı lazım bilmişdi. Natiq, bunların heç birini ona demədi. "Bilməsə yaxşıdır", – deyə fikirləşdi. Bu gün də burada rastlaşmalarını tam təsadüfi hal kimi dəfələrlə qeyd etdi. O, Zəfəri hələ tələbəlik illərindən tanıyır və onun xətrini çox istəyirdi. Zəfər onun suallarına qısa və dolğun cavab verir, çox dərinə getmirdi.

– İşləyirsən bir yerdə?

– Yox. Mənim kimisini kimdi işə götürən? Olan-olmaz ağlımı da müharibədə itirmişəm. Kimə lazımam daha.

– Niyə elə deyirsən? Sənin kimilərə hələ çox ehtiyac olacaq. Mən sənə demək istəmirdim, yəqin ki, nə vaxtsa özləri xəbər verəcəklər. Sən tərxis olduğun gündən bizim idarənin işçisisən. Boş yerə özünə əziyyət verib iş axtarma, onsuz da tapa bilməyəcəksən.

Zəfər çaşıb qaldı, "bəs niyə mənə demirlər, axı mən əllərimi hər şeydən üzmüşdüm, lazımsız bir adam olduğumu fikirləşirdim... Yox, sağ olsunlar ki, unutmayıblar, deməli, hələ lazımam", – deyə fikirləşdi.

Sovet rejiminin dağılması və onun xələfi Rusiya, possovet məkanında olan, yenicə müstəqillik əldə edən respublikalar üçün əməlli-başlı başağrısına çevrildi. İşsizlik, aclıq, müharibə kimi qlobal problemlər yaratdı, onların inkişaf etməsinə var gücüylə mane olmağa çalışdı. Bununla da ruslar başqa millətlərə sübut etmək istəyirdilər ki, onlarsız yaşaya bilməzlər.

Daxildə olan ruspərəst qüvvələrin və rusların yüz illərlə yetişdirdiyi casusların hesabına bu işin öhdəsindən layiqincə gələ bilirdilər. Yerli bürokratlar hər vəchlə xalqı sıxır, onsuz da ehtiyac içində olan kütləni daha da

uçuruma sürükləyirdilər. Sovet düşüncəsini, yaşayış tərzini – sosializm təfəkküründü birdən-birə kənara qoyub, kapitalizm adı altında xalqı talan etmək, keçmişdən nə vardısa hamısını dağıdaraq məhv etmək, xalqın – yenicə yaranmış müstəqil dövlətin əmlakını dəyərdəyməzinə sataraq varlanan "partokratlar" və onların sülalələri haqqında heç bir cəza tədbirləri görülmürdü. Hakimiyyət orqanları öz işlərindən başqa hər bir işlə məşğul olurdular. Hakimiyyətsizlik bütün possovet ölkələrində hökmranlıq edirdi.

Zəfər də başqaları kimi bu xaosdan istifadə edə bilərdi, lakin millətin belə ağır vaxtında, torpaqların işğal olunduğu bir zamanda onun seçdiyi yol yeganə yol idi ki, özünə, millətinə, dövlətinə, vətəninə hörmət edən, qeyrətini çəkən hər kəs bundan başqa yol seçə bilməzdi. Zəfər istəsə idi belə başqa cür ola bilməzdi. Bunu Natiq də gözəl bilirdi.

– Heç olmasa, başımı qatmağa bir iş tapa bilsəydim. Evdə boş-bekar oturmaqdan lap zara gəlmişəm, çox darıxıram.

Onlar xeyli söhbət etdilər, tələbəlik illərindən, sonrakı həyatlarından, ailələrindən... Tələbəlik illərində olduğu kimi zarafatlaşdılar, deyib güldülər. Bu qısa zaman kəsiyində az da olsa keçmiş – qayğısız günlərini yada salıb, yenidən yaşadılar. Vaxtın necə keçməsindən xəbərləri olmadı.

On gündən sonra Zəfər Natiqin göndərişi ilə "Alfa" şirkətinə işə çıxdı və üç ay işləmişdi ki, kabinetində onun üçün nəzərdə tutulan növbəti sui-qəsd oldu. Şirkətdə Yusifdən sonra nüfuza malik olan Sevda xanım təsadüfən onun əvəzinə bu sui-qəsdin qurbanı oldu.

Bu doğrudanmı təsadüf idi, yoxsa qurulan planın əsas hissəsi beləydi? Bəlkə, bu sui-qəsd elə onların ikisi üçün nəzərdə tutulmuşdu? O, hələlik bu sualların qarşısında özü üçün optimal cavabı tapa bilmirdi. Bir gün əvvəl kabinetindəki işığın xarab olması, Ramizin ona stolüstü lampa verməsi, Sevda xanımın ölümündən sonra, Zəfər otaqda olduğu zaman müdirin işığı yandırması, bunlar hamısı təsadüf idimi?

Deməli, Yusifin də bu otaqda işığın xarab olmasından xəbəri yox idi, hətta xəbəri olsa belə, qapını açıb qaranlıq otağa daxil olan adam özündən asılı olmadan – instikt olaraq işıqı yandırmalıdır. Zəfər bunları düşünür, düşündükcə nələrin baş verməsi, bu hadisələrin arxasında kimlərin dayanması ona aydın olmağa başlayırdı. Lakin öz şübhələrini birdən-birə üzə çıxara bilməzdi, sübuta yetirmək lazım idi, bu isə hələlik tezdi, tələsməklə yalnız onları duyuq salmaq olardı.

O, işə çıxdıqdan bir neçə gün sonra artıq ofis işçilərini – müdirdən süpürgəçiyə qədər hamısını araşdırmış, demək olar ki, onlar haqqında lazım olan məlumatları toplaya bilmişdi. Araşdırdığı adamların əsasən müdir, müavinlər, şöbə rəisləri və ilk növbədə katibə kimi işləyən, lakin şirkətin bütün işlərinə burnunu soxan Sevda xanım idi ki, birinci gündən bütün məsələləri, katibə olmasına baxmayaraq, onunla müzakirə etməyi tapşırmış və bununla da onu özünə ram etmək istəmişdi.

Zəfər isə buna elə də məhəl qoymur, iş zamanı ortaya çıxan məsələləri bilavasitə müdirin özü ilə həll edir, o yerində olmayanda isə özü qərar verirdi. Sevda xanım bir neçə dəfə aralarındakı münasibəti yumşaltmaq istəsə də, Zəfər ona bəhanə verməmiş, həmişə rəsmiyyəti qoruyub

saxlamışdı. Bir də kənardan daima şirkəti nəzarətdə saxlayan, şirkətin bütün işlərinə bilavasitə nəzarət edən, heç kimə məlum olmayan çuğulları vasitəsiylə hər şeydən xəbərdar olan, Sovet rejiminin "Yalquzağ"ı, – müdirin atası Barat Əbilovu daima öz nəzarətində saxlayırdı ki, onu da hələ Ramizi Xankəndidə əməliyyat zamanı qoyub qaçan vaxtdan tanıyırdı.

Bu ofisdə Sevda yeganə adam idi ki, Baratdan çəkinmir, öz bildiyini edirdi. Barat da yeganə oğlunun xətrinə dəyməmək üçün onun bütün şıltaqlığına göz yumurdu. Lakin Zəfərin "Alfa"ya gəlişindən sonra yayılan dedi-qodular onu daha çox narahat etməyə başlamışdı.

Təxminən bir ay əvvəl olardı ki, Zəfər sənədləri imzalatmaq üçün müdirin yanına getdi, qapı bağlı idi, dönüb öz kabinetinə getmək istəyərkən onu nəzərləri ilə müşayiət edən Sevda, qarşısına çıxıb ona xüsusi əda ilə salam verdi.

– Zəfər müəllim, salam. Nə lazım idi sizə?

– Salam. Yusifə imzalamaq üçün bu sənədləri verəcəkdim, eybi yoxdur, sabah verərəm.

– İstəyirsinizsə, verin mənə, mən catdıraram.

– Yox, sağ olun. Mən bir daha bunları yoxlayaram, sonra çatdıraram.

Zəfər dönüb kabinetinə keçdi, bu günə qədər Sevda heç kimin sənədini Yusifin kabinetinə aparmamışdı. O, istədiyi vaxt işə gəlir, istədiyi vaxt da gedirdi, kimsə ona gözün üstdə qaşın var deyə bilməzdi. O isə hamının işinə qarışardı, hətta Yusifin də. Müdir isə ona heç nə deməz, iki il əvvəlki münasibətlərinin bərpa olunması üçün onun şıltaqlıqlarına göz yumardı. Ancaq, nə etsə də o münasibətlərin kordinatları belə görünmürdü.

Zəfər işə başlayandan Sevdanın yatmış duyğuları oyandı, bir daha "Ağ atlı şahzadəni" əlindən buraxmaq istəmədi. Nəyin bahasına olursa-olsun onu əlində saxlamaq, başına gələn müsibətləri arxada qoyaraq öz xəyali dünyasının qəhrəmanı ilə yeni həyata başlamaq, yeni dünya qurmaq istəyirdi. Elə bir dünya ki, təkcə özünə və ona məxsus olsun. Bu istək Zəfərə qarşı getməyin qarşısını kəsir, onun hər sözünü özünə pozulmayan qanun kimi qəbul edirdi. Zəfərin ehtinasızlığı, Sevdanı saymaması qəlbini incidir, qürurunu ayaqlar altına atırdı. Buna baxmayaraq bu qaradinməz, keçmiş hərbiçi öz vüqarlı duruşu ilə onu məftun edir, anbaan doğmalaşdırır, daha da əzizləşdirirdi.

Onun ehtinasız şəkildə kabinetinə keçdiyini görən Sevda hirsindən qışqırmaq, onu təhqir etmək istədi, birtəhər əsəblərini cilovlayıb, heç kimdən çəkinmədən onun arxasınca getdi. Örtülmüş qapını açmaq istəyərkən əli havada qaldı, dəstəyi sıxıb otağa keçə bilmədi. Qorxdu. Qorxdu ki, qapını açıb bir ömür yaratdığı xəyali dünyasını məhv edər, ofisin hər tərəfində quraşdırılan kameralar, hər tərəfdə meydan sulayan çuğullar ondan canlarını qurtarmaq, müdirin gözünə girmək üçün birinin üstünə beşini qoyub çatdırar, Zəfərə bir xətər yetirərdilər. Gücü çatmadı qapını açmağa, əlləri yanına düşdü, Yusifə olan nifrətini boğduğu kimi, Zəfərə olan məhəbbətini də dəfn etdi ürəyinin dərinliyində.

O, iki il idi ki, Yusifi ürəyindən qoparıb atmışdı, ona nifrət edirdi. Hər dəfə balaca Fidanı bağrına basıb əzizləyərkən, Yusif öz tüklü, kobud, iyrənc vücudu ilə gözləri önünə gəlirdi, belə anlarda Sevda hətta yazıq körpəyə də nifrət edirdi. Ona ömrünün qara günü,

həyatının ən böyük günahı, bir gecənin ehtirasından yaranan varlıq kimi baxır, sonra təkliyə çəkilib göz yaşları quruyana qədər ağlayardı, sakitləşəndə yenidən onu bağrına basar, ana nəvazişi ilə oxşayardı.

Zəfər işə başlayan gündən Sevdada olan dəyişikliyi görməmək mümkün deyildi. Əvvəllər ənlik-kirşandan demək olar ki, istifadə etməyən Sevda, indi saatlarla güzgünün qarşısından çəkilmir, bahalı ətirlərdən gündə bir neçə dəfə istifadə edirdi.

Üç ay öncə işə gec gəlib tez gedər, kefi istəyəndə ümumiyyətlə, gəlməzdi. İndi isə hamıdan əvvəl gələr, Zəfərin kabinetinə girər, masanın üstünü səliqəyə salar, otağın havasını dəyişər sonra öz otağına gedərdi. Sanki, qız Yusifin yox, Zəfərin katibəsi idi. Onun belə etməsi Yusifi qısqandırır, Zəfərə qarşı kinini artırırdı. Buna görə də inanılmış adamlarına onlara nəzarət etməyi tapşırmışdı. Bunu ofisdə hamı bilirdi, hətta Zəfərlə Sevda da.

Günlər keçir, Sevda Zəfəri unutmaqdansa, ona daha çox bağlanırdı, alışan duyğularına su çilədikcə yanğın daha çox genişlənirdi, daha çox görmək, daha çox baxmaq, səsini, təmasını duymaq istəyirdi. Amma bu istək təkcə baxıb görməklə kifayətlənmir, daha irəli getmək, daha yaxınlaşmaq istəyirdi. O, elə düşünürdü ki, Zəfər ona məxsusdur, xəyallarının qəhrəmanı indi peyda olub və onu batıb getdiyi bataqlıqdan, çirkab dolu həyatdan xilas etmək üçün gəlib.

Bir gün Zəfər işdən sonra dənizkənarı bulvar yaxınlığındakı evinə baş çəkmək, həmişəki kimi bir az dincəlib, sonra yaşadığı evə getmək istədi. Maşını yol kənarında saxlayıb mənzilə qalxdı, kofe dəmlədi, vanna otağına keçib əl üzünü yudu, mətbəxə keçmək istəyərkən qapı-

nın zəngi çalındı. Kim ola bilərdi, axı bir ildən çox olardı ki, bu evə ondan başqa kimsə gəlmirdi.

Evi təzə alanda ailəvi gəlib baxmışdılar, sonra qərara gəlmişdilər ki, həyat yoldaşının işlədiyi və uşaqlarının oxuduğu məktəb köhnə evlərinin yanında olduğu üçün, hələlik köhnə evdə yaşasınlar. O, gündən bu günə kimi onun özündən başqa heç kəs bu evin qapısını belə açmamışdı. Bir də ki, ailədən kimsə gəlmək istəsəydi yəqin ki, zəng edərdi. Son zamanlar ona qarşı edilən sui-qəsdlər, onu ehtiyatlı olmağa məcbur edirdi.

Barmaqlarının ucunda qapıya yaxınlaşdı, gözlükdən baxdı, heyrətdən yerində qurudu. Ofisdə "Leyli və Məcnun" dramı ilə hamının dilində gəzən, son zamanlar onun özünün də biganə qala bilmədiyi, gözəlliyi baş fırladan Sevda xanım qapının arxasında dayanaraq, açılmasını gözləyirdi.

Zəfər özünü itirdi, bir anlıq nə edəcəyini bilmədi, bəlkə heç qapını açmasın, hər kim olsa da Yusifin adamı idi Sevda. Aralarında heç nə olmasa belə, onun qulağına çatsa...

Yusif Sevdanı ona qısqanmasına baxmayaraq, hələ bir dəfə də bu barədə söz salmamışdı, çəkdiyini ürəyində çəkirdi. Bəs qapını açmasa bu Sevdaya qarşı ən azı hörmətsizlik olmazdımı? Bilirdi ki, Sevda onu sevir və bu sevgi yolunda hər bir əzaba hazırdır.

Qəlbini alt-üst edən iki duyğuların təsiri altında çabalayırdı Zəfər. Qapı ikinci dəfə döyüləndə kişilik hissi üstün gəldi, qəlbindəki hansısa hissin təsiri ilə əlləri özündən asılı olmayaraq irəli uzandı və bütün duyğularını kənara atıb, qapını açdı. Sevda, məsum bir mələk kimi günahkarcasına dayanmışdı, hər ikisi susurdu,

əslində isə, hər ikisi danışırdı, dilləri ilə deyil, duyğuları ilə danışırdılar. O, bir addım geri çəkildi, qadın içəri keçib qapını örtdü. Lakin bu duyğular bir anlıq oldu, Sevdanın içəri keçib, qapını örtməsi ilə, sanki bu duyğular da qapının arxasında qaldı. Zəfərin daxilində daha güclü bir hiss oyandı və bu hissin təsiri, onu bir neçə il öncə apardığı əməliyyatlara qaytardı.

Qarabağda nə qədər qeyrətli azəri qızlarının düşmən əlinə keçməsinlər deyə özlərinə etdikləri suiqəsd gözlərinin önündə canlandı. Yadına qardaş dərdinə dözə bilməyib ağır xəstəlikdən sonra, dünyasını dəyişən Şəfəq düşdü. Bu hislərin təsiri onun sifət cizgilərini də dəyişdi. Dönüb mətbəxə tərəf getdi.

Sevda onda olan dəyişikliyi gördü. O, Zəfəri elə bu cür, indi gördüyü kimi təsəvvür edirdi, başqa cür ola da bilməzdi. O, indi əmin oldu ki, illər boyu varlığında yaratdığı "Ağ atlı şahzadə" elə Zəfərin özüdür. Bəli, yalnız onun şahzadəsi belə edə bilərdi. O, indi başa düşdü ki, Zəfər çox uca, əlçatmaz bir zirvədədir və o ucalıq ona necə də yaraşır. O ucalıq və müqəddəslik Sevdanı utandırdı.

Zəfər geniş pəncərədən dənizə baxır, sanki evdə ondan başqa kimsənin olduğunu da unutmuşdu. Sevdanı qəhər boğdu, özünü saxlaya bilmədi, hönkürdü. Öz acı taleyinə, qara geyinmiş qismətinə ağladı, bəlkə də, bu gün onu bu evə sürükləyən alovlu ehtirasın yasını saxlayırdı.

– Əgər bacarırsansa, məni bağışla, səni tanımadığım üçün, səni dəyərləndirə bilmədiyim üçün, səni başqaları ilə eyni tutduğum üçün...

Zəfər geri dönmədi, onun üzünə baxıb utandırmaq istəmədi. Qapının sakitcə örtüldüyünü eşitdi.

Bəzən ən güclü xarakterə sahib olan insan, duyğularının əsiri olur, istəmədən özünü qınayaraq onun dalınca gedir. Ürəyimizin istəyini bəzən həyatımız hesabına ödəyirik, ödəyəcəyimizin qiymətinə varmadan..., cılız və ötəri duyğularımız bizi əsir edərək, öz yedəyində arxasınca sürükləyir. Belə olduqda başımıza gələnləri qismətimizə düşən pay kimi qəbul edir, heç zaman oxuya bilmədiyimiz alın yazısının üstünə atırıq.

ON ÜÇÜNCÜ FƏSİL

Barat otaqdan çıxan kimi Ramiz çağrılmamış qonaqlarla məsələni təkbaşına həll etmək üçün mobil telefonunu çıxarıb qarsona zəng vurdu. Müdirin qonaqları yuxarıda gözlədiyini dedi və bildirdi ki, tələsik getməlidir, görüşmək istəyirlərsə, gəlsinlər.

Ramiz, "Aypara"ya gələn zaman kiminsə durbinlə oranı izlədiyini görmüşdü. Deməli, Barat onu boş yerə axtarmırdı. Divardakı saata baxdı, səkkizə iyirmi dəqiqə qalırdı. Hamı üçün nəzərdə tutulan qapını aralı qoyub səssiz dayandı. Uzun illərin təcrübəsindən bilirdi ki, onlar yuxarı qalxmadan öncə, hər iki qarsonu aradan götürməlidilər, sonra müdirin otağına gəlib haqq-hesabı kəsməlidilər. Düşündüyü kimi də oldu, pilləkənin ayağında, hər iki qarson aradan götürüldü, onları kabinetlərin birinə atıb, iti addımlarla yuxarı çıxdılar.

Qapı açıldı və onlar hər ikisi – qabaqda Dmitri arxasınca da Mixail sanki heç nə olmayıbmış kimi içəri daxil oldular. Pəncərənin qarşısındakı fırlanan arxalı kürsüyə doğru gedən Dmitri kimsənin olmadığını görüb cəld geriyə fırlandı, qarşısında kötük kimi ortaboylu adamı görüb özünü itirdi. Mixail artıq döşəmənin üstündə divara söykənmiş, yarıoturaq vəziyyətdə uzanmışdı. Dmitri təəccüblə qarşısındakı, qarillanı xatırladan adamı süzür, onun uzun qollarına, yoğun biləklərinə, əzələli çiyinlərinə baxır, hər hansı bir artıq hərəkətin nə

ilə nəticələnəcəyini təsəvvür edirdi. Sanki qarşısında möhkəm divar dayanmışdı. O, əllərini sinəsi bərabərinə qaldırıb, özündən asılı olmadan rus dilində eyni sözləri tez-tez təkrar edirdi.

– Sakit ol, sakit ol, sakit ol...

– Otur! Artıq hərəkət etsən, o birindən də pis hala düşəcəksən, – Ramiz xırıltılı, kəskin və çox hökmlü səslə dedi.

Amma deyəsən Dmitri oturmaq fikrində deyildi, qarşısında olan qarilladan necə yaxa qurtarmağın yolunu axtarırdı. Kim idi bu adam? Axı onlara təsvir olunan və fotoşəkli göstərilən adam bu deyildi. Bəlkə onlar ünvanı səhv salmışdılar, başqa obyektə gəlmişdilər? O, özü tək başına olsaydı, bəlkə də belə səhvlərə yol verə bilərdi, amma Mixail... Onun səhv edəcəyini heç düşünmək belə istəmirdi. Çünki Mişa həddən artıq təcrübəli çekist idi. Belə əməliyyatlar onunçün adi, gündəlik bir iş idi. Amma, bir neçə dəqiqə olardı ki, döşəmənin üstündə uzanmışdı. Dmitrinin ağlı, bacarığı, təcrübəsi, intiusiyası, bütün hissetmə, duyma orqanları bir-birini əvəzləyərək dayanmadan işləyir, amma hələlik çıxış yolunu tapa bilmirdi. Birdən həmin xırıltılı səs onu diksindirdi və daha kəsin halda əmr etdi.

– Sənə dediklərimi başa düşmədin? Otur!

Verilən komandanın məğzini anlamamışdı ki, qarşısındakı "Qarilla"nın bir hərəkəti ilə ayaqları yerdən üzüldü, ağır bədəni arxası üstə döşəmənin üstünə düşdü, bütün daxili orqanları silkələndi, sanki daxilində zəlzələ baş verdi, ikinci zərbə onu hərəkətsiz hala salaraq söndürdü.

Ramiz sakitcə dolabı açıb kəndir götürdü, əvvəlcə Mixailin, sonra isə Dmitrinin qollarını arxada bağladı, heç nə olmamış kimi masanın arxasına keçdi. Masanın üstündəki ağ vərəqdə böyük bir aypara və ayparaya doğru yönəlmiş durbin şəkli çəkdi. Altında öz imzasını – boyük "R" hərfini yazdı. Fırlanan kürsünün üstündə oturub asta-asta sağa-sola fırlanaraq, onların özlərinə gəlməsini gözlədi. Saat səkkizi göstərirdi.

Məlum parolla qapı döyüldü, sonra açarla açıldı. Barat qapıda dayanıb təəccüblə içəridəki mənzərəyə baxırdı. Ramiz yox idi, yalnız iki nəfərin istifadə etdiyi gizli qapı açılarkən, hamının istifadə etdiyi ümumi qapı bağlandı. Masanın üstündə olan şəklə baxdı, gülümsədi. Kürsü hələ də fırlanırdı.

Ramiz pilləkənlərlə birinci mərtəbəyə düşdü, cib telefonunu çıxarıb kiminləsə çox qısa danışdı, cibinə qoyub kabinetdəki qarsonları ayıltdı və gəldiyi kimi də getdi. Güzgülü şüşənin arxasından bunu seyr edən qoca çekistin dodaqları qaçdı. "Yalnız o, – hələ uşaqlıqdan küçə döyüşlərində ad qazanan "küçə döyüşlərinin kralı" – belə edə bilərdi" deyə fikirləşdi.

Sonra tələsmədən yerdə huşsuz halda uzanan çağırılmamış qonaqların hər ikisinin üstünü yoxladı, ciblərində nə var idisə, hamısını masanın boş olan siyirməsinə boşaltdı. Onların sənədlərinə baxdı, səliqə ilə siyirmənin bir küncünə qoydu. Mixailin cibindən çıxan qeydiyat kitabçasını vərəqlədi, lazımlı bir məlumat olmadığını görüb yerinə atdı. Dmitrinin cibindən çıxan üstündə qırmızı düyməcik olan balaca qara, qutuya bənzər əşyanı diqqətlə gözdən keçirdi. Bu şimallı "dostlarının" uzun illərin ayrılığından sonra ona sürpriz

olaraq göndərdikləri partlayıcını kənardan idarə etmək üçün pult idi.

Barat Mixailn özünə gəldiyini görüb ona yaxınlaşdı, istehza ilə onu süzdü, hələ də onu harada gördüyünü xatırlaya bilmirdi. Kürsüdə oturmasına kömək etdi, özü də masanın arxasındakı kürsüdə oturub ona diqqətlə baxaraq özünə gəlməsi üçün bir az da vaxt verdi.

– Həyatınız sizin öz əlinizdədir, yaşamaq istəyirsinizsə, hər şeyi mənə danışmalı, yalan deməməlisiniz. Əgər suallarıma məni qane edən düzgün cavab versəniz, kimsə sizə toxunmayacaq, azad olunacaqsınız. Əks təqdirdə hələ bu günə qədər görmədiyiniz əzablar sizi gözləyir. Birinci sualım: – O, dayanıb qarşısındakını diqqətlə süzdü, dediklərinin ona necə təsir etdiyini yoxlayırmış kimi baxdı, astadan, səsinin tonunu qaldırmadan dedi.

– Adınız, soyadınız, haralısınız?

– Mixail Korçenko, Volqaqraddanam.

– Siz məni tanıyırsınız?

– Xeyr, tanımıram, biz görüşməmişik – o, bu sözləri deyərkən hətta alındıda, çünki, o, Baratı tanıyırdı, amma Zinatov onun Baratla tanış olması barədə danışmamağı dəfələrlə tapşırmışdı.

– Bakıya gəlməkdə məqsədiniz, sizi kim göndərib, ünvanı haradan və kimdən götürmüsünüz və məni niyə izləyirsiniz?

Korçenko duruxdu, qarşısındakı bu qoca canavar yerin altını da bilir, üstünü də. Ona yalan danışmağın mənası yoxdur, yalan danışmaqla yalnız, onun dediyi kimi, işgəncələrin sayını və rəngarəngliyini artırmaq olar. Bu tapşırığı alanda ona hər şeyi başa salmışdı Ni-

kita, birinci dəfə deyildi ki, buna bənzər əməliyyatlara rəhbərlik edirdi. Bakıya səfəri ərəfəsində idarənin rəisi Nikita Volski onu şəxsən qəbul etmiş, "Yalquzaq" haqqında geniş məlumat verərək, maksimum ehtiyatlı olmağı dəfələrlə tapşırmışdı."O, doğrudan da yalquzaqdır, hələ heç bir əməliyyatı uduzmayıb, əlinə keçəni parçalayır, keçməyəni öldürür. Onun verdiyi işgəncələrə dözmək, hər çəkistə "qismət" olmur." İndi həmin o "Yalquzaq"la üz-üzə oturmuşdu, onun pəncəsindən necə qurtarmağın yolunu fikirləşib tapmaq lazım idi.

– Biz sizi izləmirik, qalanını isə özünüz daha yaxşı bilirsiniz.

O, qəzəbli baxışlarla Korçenkoya baxdı, səsini qaldırdı, əsəbi şəkildə ayağa qalxaraq onun yanında dayandı. Korçenko bu qoca casusun haqqında çox eşitmişdi, onun nəyə qadir olduğunu yaxşı bilirdi. Onu aldatmaq sadəcə mümkün deyildi.

– Suala aydın cavab ver, təkrar etməyi sevmirəm.

Onun yalnız vəhşilərə məxsus baxışlarından Mixailin damarlarında qanı dondu, ürəyi qəfəsdəki quş kimi çırpındı, düşündü ki, bu an onun boğazını öz iti dişləriylə gəmirəcək, qanını bu otaqla bir edəcək. Onun iti dişlərini boğazında hiss etdi, dərisi göynədi. Nə var idisə, düzünü deməyi qərara aldı.

– Bizi bura Nikita Volski göndərib, ünvanı və lazım olan hər şeyi onun vasitəsi ilə əldə etmişik, məqsədimiz sizi onunla görüşdürməkdir. – "Çapıq" ləqəbli Nikita Volskini Barat yaxşı tanıyırdı, təcrübəli çekist olduğunu da bilirdi, bir neçə dəfə birlikdə əməliyyatlarda iştirak etmişdilər. Hələ bir dəfə anlaşılmazlıq nəticəsində Lefortova türməsinə də düşmüşdülər.

Amma verilən cavab görünür onu qane etmədi, sifətini turşutdu. "İşə bax, mənimlə görüşmək istəyirlər, neçə illər gecəm-gündüzüm olmayıb, yağışın-qarın altında, ac-susuz, yuxusuz, istirahətsiz bunlara işlədim. Mənə kömək edib ayağa qaldırmaqdansa, dişimlə dırnağımla uzun illər yığdığımı da, mənə çox görürlər. Mənimlə görüşmək üçün "hədiyyəli" iki heyvan göndərirlər. Satqın it uşaqları." O, hədiyyə deyəndə güldana qoyulmuş partlayıcını nəzərdə tuturdu. Mixailin yalandan uydurduğu cavab onu nəinki qane etməmiş, hətta əsəbləşdirmişdi də. Masanın ətrafına fırlandı, onun yanına çatıb heç nə demədən ayağa qaldırdı, gizli qapıdan aşağı düşdülər, binanın zirzəmisində kiçik, dar otaqlardan birinin qapısını acıb onu içəri saldı.

– Yaxşı-yaxşı fikirləş yoldaş Korçenko, hələlik vaxtın var, məni aldatmağa çalışma. Unutma ki, bura giriş var, çıxış isə yalnız mənim istəyimlədir.

Qapını örtüb, açarla bağladı. İçəri yarıqaranlıq, rütubətli, dar otaq idi. Hər tərəf betondan tökülmüş divarlarla əhatə olunmuşdu. Qalın ikiqat dəmirdən düzəldilmiş qapı bu eskizi tamamlayırdı. Bütün bunlar ona ilk dəfə təhlükəsizlik orqanlarında işə başladığı Lefortova həbsxanasını xatırladırdı. Yaxşı yadındaydı, elə ilk dəfə Baratla da orada görüşmüşdü.

Barat onu içəri saldıqdan sonra yenə həmin yolla kabinetinə qayıtdı, Dimitri hələ də özünə gəlməmişdi. O, kürsüdə oturub onların sənədlərini bir daha yoxladı. İyirmi yeddi yaşlı bu yekəpər rus balasını Ramizin necə bu hala salmasını təsəvvürünə gətirib gülümsədi. "Bunlar da deyir, biz təhlükəsizlik idarəsində işləyirik. Bizim vaxtımızda tam başqa cür idi, getdikcə insanlarla

birlikdə idarələr də cırlaşır.”

Bu zaman Dmitri qımıldandı. Barat ona tərəf baxmadan:

– Hə, özünə gəldin, deyəsən yaxşısan, – dedi.

Dmitri heç də yaxşı deyildi, başı, bədəni ağrıyır, sanki onu dayanmadan bir neçə nəfər döymüşdü. Boynunu ovxalamaq istədi, qolları arxasında möhkəm bağlanmışdı, başını qaldırıb Mixailin uzandığı yerə tərəf baxdı, onu görməyincə yağlı bir söyüş söydü. Bayaqkı “qarilla” yox idi, onu başqa hündürboy, normal bədənli, bir az beli donqarlaşmış adam əvəz edirdi. Söyüşü eşidən kimi ayağa durub ona yaxınlaşdı, sağ ayağı ilə sol tərəfdən qabırğasına güclü bir təpik vurdu. Ağrı o qədər şiddətli idi ki, az qaldı ki, huşunu itirsin, nəfəs ala bilmirdi.

– Donuz oğlu donuz, sənə mədəni olmağı, özündən böyüklərin yanında söyüş söyməməyi öyrətməyiblər məgər?

Sonra qayıdıb yenidən masanın arxasına keçdi, hansısa kağızları eşələdi, sanki Dmitrinin özünə gəlməsi üçün vaxtı uzadırdı. Nəhayət ona baxmadan sakit, amma çox hökmlü səslə Dmitriyə xəbərdarlıq edirmiş kimi dedi.

– Ayağa qalx, kürsüdə otur. Verdiyim suallara düzgün cavab versən, işin bir az yüngül olacaq, yox məni incitsən mən də səni incidəcəyəm. Aldatmağa cəhd etmə, yalan danışanları sevmirəm. Onsuz da mən artıq hər şeyi bilirəm. Başa düşdün?

Dmitri hər şeyi yaxşı başa düşürdü, amma beynində nə qədər götürqoy edirdisə yenə də çaşqınlıq içindəydi. “Bəs Korçenko hardadır? Bu qoca canavar onu harada gizlədib. Nə soruşub ondan, görəsən Mişa nə cavab

verib.” Dmitri gözəl bilirdi ki, Mixail sağdır, qoca onu öldürə bilməz, çünki öldürəndən sonra, cavab vermək də var. Rusiya kimi bir dövlətin çekistini öldürmək təkcə özünün yox, bu dünyada nəyin varsa hamısının üstündən qara xətt çəkmək kimidir. Bu qoca yaxşı bilməli idi, bilməli idi ki, biz, heç nəyi unutmuruq, illər keçsə belə unutmuruq. Axı o özü də onlar kimi İttifaq dönəmində xüsusi xidmət orqanlarında işləmiş adamdı. O, bunları bir an içində beynindən keçirib ayağa qalxmaq istədi, qolları bağlı olduğundan yerdə çabalayıb birtəhər dizləri üstünə qalxdı.

– Nə etsən də, məndən sənə lazım olan heç nə eşitməyəcəksən. Bizə nə etsən əvəzini beşqat alacaqsan, unutma ki, biz ruslarıq, bizə qarşı gələnləri tez-tez yada salırıq. Korçenko haradadır?

Barat bu inad uşağın ağlına gələni danışdığını görüb ayağa qalxdı, dolabı açıb bir neçə kəlbətin çıxartdı, bir-birinin dalınca stolun üstünə düzüb, sakit səslə özüylə danışırmış kimi dedi.

– İndi dəqiqləşdirərik, görək sən doğru danışırsan, yoxsa yalan.

Sonra nə fikirləşdisə dolabda saxladığı beysbol ağacını götürdü, masanın üstünə qoyub Dmitriyə baxdı, yenidən kürsüyə yaxınlaşdı.

– Sənə sonuncu dəfə deyirəm, bir də təkrar etməyəcəyəm. Suallara düzgün və dolğun cavab versən, həyatını satın almış olacaqsan. Əks halda bu zopa sınana qədər döyüləcəksən. Sənə aydındır hər şey? – bir az fasilə verdi, sanki sözlərinin təsirini yoxlayırmış kimi diqqətlə qolları bağlı yekəpəri süzdü və sonra davam etdi.

– Adın, soyadın. Bakıya nə vaxt, haradan və nə məqsədlə gəlmisən?

Dmitri fikirləşdi ki, bu qoca "Yalquzaq" onsuz da hər şeyi bilir, əl-qolu bağlı onun qarşısında inadkarlıq etmək sadəcə axmaqlıq olar, boş yerə bir neçə beysbol kötəyi yemək heç də ürəyincə deyildi. Ona görə də bacardıqca döyülməkdən qaçmaq məqsədi ilə suallara düzgün cavab verməyi qərara aldı. Axı qarşısındakı da adi adam deyildi.

– Dmitri Rıbkin, dünən Alma-Atadan uçmuşuq, sizə yeni əməliyyat tapşırığı gətirmişik.

Cavab qane etməsə də Barat kəskin reaksiya vermədi.

– Hansı əməliyyat tapşırığı?

– Onu sizə özləri deyəcəklər.

– Başa düşmədim? Əgər özləri deyəcəkdilərsə, o zaman sizi niyə göndərirdilər?

– Bizi, sizin kordinatları tapmaq üçün göndəriblər.

– Siz mənim kordinatlarımı necə tapa bildiniz, özləri dediyin kimlərdir? Bir daha sənə xəbərdarlıq edirəm, məni aldatmağa çalışma, onsuz da alınmayacaq. Sizi mənim arxamca göndərən yəqin ki, mənim haqqımda kifayət qədər məlumat verib, əlavə olaraq deyirəm ki, mən sənin yaşında olanda sən yəqin ki, proyektdə də yox idin. Diqqətli ol, suallara düzgün cavab ver.

Suallar çoxaldıqca daha dərinə getdyini anlayan gənc casus, nə qədər yalan danışsa da yaxasını qurtara bilməyəcəyini yaxşı başa düşür, amma bildiklərini deməklə özünü və məxsus olduğu məxfi idarəni ifşa etmiş olurdu. Buna görə də bütün variantlardan istifadə edərək suallardan yayınır, bacardıqca döyülməmək

üçün vaxtı udmaq istəyirdi. Heç kimin adını çəkmədən biz, siz, onlar kimi ümumi ifadələrdən istifadə edərək məxfiliyi qorumaq istəyirdi.

– Bu bizim peşəmizdir. Siz onlarla görüşəndə əlavə nə lazımdısa biləcəksiniz.

– Bəs bu nədir? – deyə o süyürmədən götürdüyü qırmızı düyməcikli qara pultu ona göstərdi və ona baxaraq pultla oynamağa başladı, sol əlində isə ağır dəmir parçası vardı. Baş barmağını qırmızı düymənin üstünə qoyanda Dmitri özündən asılı olmadan "Dayan, ona toxunma" deyə qışqırdı. Ona elə gəldi ki, qoca casus əlindəkinin nə olduğunu bilmədən, qırmızı düyməciyi sıxacaq və bütün restoran bir göz qırpımında onlarla birlikdə havaya sovrulacaq. Barat sol əlindəki ağır dəmir parcasını döşəmənin üstünə atdı və düyməciyi sıxaraq ucadan "part" deyə qışqırdı. Dmitri başını aşağı əyərək bütün bədəni ilə masaya sıxıldı. Döşəməyə düşən dəmirin səsindən diksindi. Amma düşündüyü kimi partlayış olmadı, Barat qəhqəhə çəkərək düyməni bir neçə dəfə sıxdı. Dmitri düşdüyü şokdan özünə gələndə artıq gec idi.

– Görürəm mənim dediklərimi başa düşməmisən. Səni ətraflı başa salmaq lazımdır. Sən və sənin rəislərin bir yandan mənə əməkdaşlıq təklif edirsiniz, o biri yandan isə mənim cavabımı bilmədən məni məhv etmək istəyirsiniz. Sizinlə başqa dildə danışmaq lazımdır, o dili mən yaxşı bilirəm, neçə illərdir ki, mən o dildə danışıram sizin kimi dil bilməzlərlə.

Masanın üstündəki beysbol ağacını götürüb əlində samballadı, hərlənib onun arxa tərəfinə keçdi və var gücü ilə sağ ciyninə endirdi. Zərbənin gücündən Dmitri

yerə yıxıldı, sağ çiynində sümüyünün qırıldığını zənn etdi, ağrıdan huşunu itirdi. Özünə gələndə yarıqaranlıq, dar, kiçik otaqda beton döşəmənin üstündə arxası üstə uzandığını gördü. Ayağa qalxmaq istəmirdi, elə bilirdi ki, ayağa dursa, "Yalquzaq" haradansa çıxıb onun üstünə atılacaq və onu parçalayacaq. Lakin kürəkləri beton döşəməyə elə yapışmışdı ki, artıq betonun soyuğunu öz daxilində hiss edirdi. Ayağa durmaq istəyirdi ki, qapıda səs eşitdi, düşündü ki, yəqin "Yalquzaq"dır, onun ayılmasını yoxlamaq üçün gəlib, cəld gözlərini yumdu, hələ də özünə gəlmədiyini zənn etsin deyə. Qapı açıldı, yarıqaranlıq otağa kimsə daxil oldu, onun başına qara torba keçirdi, sonra onu çiyninə alıb, sakitcə zirzəmidən çıxdı və qaranlıq küçədə dayanmış maşının arxa qapısından içəri atdı. Maşın sürətlə uzaqlaşdı...

ON DÖRDÜNCÜ FƏSİL

Axşam saat səkkiz olardı. Zəfər Müdafiə Nazirliyi tərəfindən ona verilən evdə, işdən sonra vanna otağından yenicə çıxmışdı ki, telefonu zəng çaldı. Ramiz idi, çox qısa danışıb əlaqəni kəsdi. Süzdüyü çayı içə-içə kiməsə mesaj göndərdi. Telefonu masanın üstünə qoyub pəncərədən dənizə açılan mənzərəni seyr etməyə başladı.

Axşamın alatoranlığında dəniz çox sakit görünürdü, uçuşan qağayılar sanki bir-biriylə yarışırdılar. Zəfər arabir işdən sonra bu evə baş çəkər, bir-iki saatdan sonra, ailəsiylə birgə yaşadığı köhnə evlərinə gedərdi. Bu gün də həmin günlərdən biri idi. Titrəmə rejimində olan telefon məlumat gəlməsi haqqında siqnal verdi. Telefonu götürüb məlumatı oxudu və yenidən nəsə yazdı, hələ iki saat istirahət edə bilərdi.

Saat onda o biri küçədə qəzet köşkünün yanında qara "H-1" dayanmışdı. Zəfər arxada oturub ünvanı dedi. Qara "H-1" Bakının qaranlıq küçələrində dövrə vuraraq ünvana tələsirdi. Artıq iyirmi dəqiqədən sonra onlar həmin ünvanda gözləyirdilər. Maşında ondan və sürücüdən başqa, iki maskalı səxs də var idi.

Ramiz "Aypara"dan çıxan kimi Zəfərə zəng vurdu, rus casusları barədə məlumat verdi. O, Baratın çağırışıyla bura gələrkən kiminsə restoranı durbinlə izlədiyini gördü. Bu barədə də Zəfərə məlumat verdi. O, cavan, iyirmi beş yaşında, idmançı görünüşlü oğlan idi, ilk

növbədə onu aradan götürmək lazım idi. Görünür, təcrübəsizlikdən müşahidə üçün daha uyğun yer tapa bilməmişdi. Hələ yaşayış olmayan hündürmərtəbəli binanın qarşı tərəfində tullantı kimi qalaqlanmış tikinti materiallarının yanında durmuşdu. Ramiz ona yaxınlaşarkən elə bil nəsə şübhələndi, lakin özünə güvən hissi geri çəkilməyə mane oldu.

– Qardaşoğlu, yandırmağa bir şeyin var?

– Çəkən deyiləm dayı...

Sözü ağzında qaldı, kifayət qədər yaxınlaşmış "dayı" sözünün ardını deməyə imkan vermədi, yüngül, lakin gözləmədiyi zərbədən huşunu itirdi, "dayı" onu çiyninə alıb "Aypara"nın yaxınlığında olan yarımçıq qalmış tikintinin ikinci mərtəbəsinə gətirdi. Telefonunda Zəfərin adını tapıb ismarıc yazdı və burada oturub Baratın getməyini gözlədi.

* * *

"Aypara"nın bütün işçiləri getdi, Barat əvvəlcə Mixail Korçenkonu, sonra isə Dmitri Rıbkini ayrı-ayrı olmaqla zirzəmidəki otaqlara apardı. Özü yenidən kabinetə qalxdı. O, bu gün evə getməməyi qərara almışdı. Çox xoşuna gələn kabinetində fırlanan kürsüdə oturub bu hadisədən sonrakı planlar haqqında düşünməyə başladı.

O, rus kəşfiyyatının sakit durmayacağını, yenidən öz casuslarını göndərəcəyini, məqsədlərinə nail olana qədər ondan əl çəkməyəcəklərini bilirdi. Bu iki nəfər ilk "qaranquşlar" idi ki, ittifaq dağılandan sonra yeni bir dönəmin, yeni bir mərhələnin başlanması xəbərini gətirmişdilər.

Bu günə qədər onun xidmət etdiyi təşkilat dünyanın tən yarısını öz hökmü altında saxlayan böyük bir imperiyaya xidmət edirdi. İndi isə o imperiyanın dağılmasına baxmayaraq ona varis olan Rusiya, Sovet İttifaqından ona miras qalan əvvəlki iddialarından əl çəkmək istəmir, yenə də öz dağıdıcı xarakterini ortaya qoyaraq ətrafında yerləşən, yenicə müstəqillik əldə edən Azərbaycan kimi dövlətləri öz təsiri altında saxlamaq istəyirdi. Qırmızı imperiyanın xələfləri hələ də köhnə arzularla yaşayır, tez-tez eyforiyalara qapılaraq öz ideyalarını ətrafdakı müstəqil dövlətlərə qəbul etdirməkdən ötrü bir zaman onun da çalışdığı casus ordusundan bu gün də istifadə edirdilər.

Barat isə bunu heç cür qəbul edə bilmirdi, baxmayaraq ki, artıq bir neçə dəfə belə əməliyyatların iştirakçısı olmuşdu. Yaşının ötməsinə baxmayaraq, bu gün öz müstəqil vətəni üçün hər şey etməyə hazır idi. Sovet casus məktəbi ona çox şey öyrətmişdi, kifayət edərdi ki, öyrəndiklərinin yarısını milləti və müstəqil vətəni üçün etsin. Yetərdi ki, ona dəyməsinlər, bu günə qədər min bir əziyyətlə topladıqlarına toxunmasınlar.

Barat kürsüdə asta-asta sağa sola fırlanaraq dərin fikrə getmişdi. Bu günlərdə ona məxsus olan, oğlunun işlətdiyi "Alfa" şirkətinin ofisində keçirdiyi kiçik, lakin çox uğursuz əməliyyat onu narahat etməyə başlamışdı. "Deməli, o, nəyisə gözdən qaçırmışdı, nəyisə düzgün hesablamamışdı, nəticədə isə tamamilə günahsız olan, bu işlə heç bir əlaqəsi olmayan, katibə dünyasını dəyişmişdi." Dəfələrlə etdiyinə baxmayaraq, həmin əməliyyatı bir daha bütün detalları ilə beyninin süzgəcindən keçirməyə çalışdı. Hər şey onun düşündü-

yü kimi idi, əslində, heç bir uğursuzluq olmali deyildi, ancaq, Zəfəri hansısa gözəgörünməz bir qüvvə qoruyurdu. Artıq bu neçənci dəfəydi ki, onu ölümün caynağından qurtarıb, Baratın planlarını alt-üst edirdi.

Həmin gün nahar fasiləsinə az qalmış Barat çox zaman olduğu kimi şirkətin ofisinə getdi. Adəti üzrə nəzərə çarpmadan yolun əks tərəfində dayanaraq, kənardan ofisi müşahidə etdi. Sakitçiliyin hökm sürdüyünə əmin olandan sonra yolu keçib pilləkənlərlə ofisin qarşısındakı böyük meydançada dayandı. İçəridə çaxnaşma düşdüyünü hiss edirdi, bir dəqiqə keçməmişdi ki, ofisin təhlükəsizlik xidmətinin rəisi, keçmiş polis polkovnik-leytenantı Abdulla Rəhimov tələsik onun yanına gəldi. Onlar əl verib salamlaşdılar, sonra geniş meydançada asta addımlarla var-gəl edərək ümumi olaraq şirkət haqqında danışdılar. Təhlükəsizlik xidmətinin rəisi bir gün əvvəl şirkət sahibinin ona verdiyi tapşırığı can-başla yerinə yetirdiyini bildirdi, şirkətdə kuryer kimi çalışan və həm də elektrik işlərinə nəzarət edən Ərəstunu üç günlük Yusifin razılığı ilə şəhərdən uzaqlaşdırdığını dedi. Baratın razılıqla başını yellədiyini görüb məmnun oldu.

Barat özünə lazım olan əlavə bəzi detalları aydınlaşdırdı, Yusifin indicə harasa getdiyini öyrəndi, əslində yolun o biri tərəfindən müşahidə edən zaman Yusifin getdiyini görmüşdü. Barat bir daha bu işlər barəsində üçüncü adamın bilməməsini xatırlatdı. Abdulla incik baxışlarla ona baxdı.

– Sizinlə etdiyim heç bir söhbəti ikinci adamla müzakirə etmirəm.

Əslində, doğrudan da belə idi. Onlar hələ cavanlıqdan bir-birini yaxşı tanıyırdılar, uzun müddət ayrı-

ayrı idarələrdə bir yerdə işləmişdilər. Baratın tanıdığı Abdullanın açа bilmədiyi qapı, keçə bilmədiyi sədd yox idi, "daşdan pul çıxarırdı", çox bacarıqlı adam idi. Yaşından çox cavan görünən, cüssəli və yaraşıqlı olan Abdulla, Daxili İşlər Nazirliyindən təqaüdə çıxandan sonra etdiyi pis əməllərə tövbə edərək haqqın yoluna qayıtdı, İranda – Məşhəd şəhərində İmam Rzanın qəbrini ziyarət edərək, Məşədi Abdulla oldu. Ətrafındakılar bu "Məşədi"yə xüsusi hörmət bəsləyirdilər.

Baratın təklifi ilə, "Alfa" şirkətində təhlükəsizlik meneceri kimi işə başlayanda, pul müqabilində gördüyü işləri günah kimi qəbul etmirdi. Allah qarşısında etdiyi günahları və onun müqabilində qazandığı pulları beynində fırladaraq "halallaşdırırdı". Aldığı məvacibdən başqa, o, hər gördüyü işə görə Baratdan əlavə pul da alırdı. Bu məbləğ onun gördüyü işə görə dəyişirdi və aylıq məvacibindən düşünülməz dərəcədə çox olurdu. Dünənki işə görə isə şirkət sahibi gözləmədiyi məbləğdə əliaçıqlıq etmişdi.

Onlar giriş qapısından geniş dəhlizə daxil oldular. Barat ondan ayrılıb birinci mərtəbədə dəhlizlə getdi və Ramizin kabinetinin qarşısında dayandı, qapı açıq idi. Ramiz əl telefonu ilə kiminləsə danışırdı, Baratın qapıda dayandığını görüb danışığı kəsdi və ona yaxınlaşdı.

– Nəqliyat menecerinin otağında işıq xarab olub, yəqin ki, xətdəndir. Bizim elektrik dünən Yusif müəllimdən icazə alıb rayona gedib, üç gündən sonra qayıdacaq, başqa elektirik də tapa bilmirəm.

– Hələlik masaüstü lampa ver, ya da ki, üç gündür də-ə, bir təhər yola versin, çox da dağa-daşa düşmə. İşıqdı da düzələr, elə şeylərin fikrini çəkmə. Bir də ki,

kəşfiyyatçı adamdır, onun üçün qaranlıq daha yaxşıdır. Elə deyilmi? – deyə qımışaraq Ramizə baxdı.

Son zamanlar Ramizdə baş verənləri Barat duymuşdu, xüsusən Zəfər haqqında danışan zaman söhbətdən yayınmaq istəyini onun bütün hərəkətlərindən açıq-aşkar oxumaq olurdu. Zəfər haqqında deyilən hər bir kobud söz Ramizə toxunurdu, bilirdi ki, Baratın Zəfərdən xoşu gəlmir, həmişə onların üz-üzə gəlməsindən, nə vaxtsa baş verəcək konfliktdən qaçırdı. Əslində isə bu, Zəfərin ona verdiyi birinci və qəti tapşırıq idi ki, onu "Manuçarovun daçasında" kəşfiyyatçı bilərək əsirlikdən azad etdikdən sonra başına gələnləri danışan Ramizə vermişdi. Ona görə də Baratın dediklərinə sadəcə əhəmiyyət vermədi. Barat onda olan bu dəyişikliyi artıq hiss etmişdi, lakin xarakterinə və təcrübəsinə uyğun olaraq susur, hər şeyi dəqiqləşdirmək istəyirdi. Ramizi yaxşı tanıyırdı, "zənnimcə onun kimi adamlar heç vaxt satqın ola bilməz" deyə düşünürdü. O, yaxşı başa düşürdü ki, Ramizdən ona ziyan gəlməz.

* * *

Ramiz əsirlikdən sonra üç il Zəfərin yanında qaldı, onunla birlikdə bir çox əməliyyatlarda iştirak etdi, can borcu olan bu adamın etimadını qazandı, verdiyi bütün tapşırıqları sözsüz yerinə yetirməklə ona olan sədaqətini sübuta yetirdi. Dəfələrlə ölümlə üz-üzə gəldi, amma hər dəfə şans onun tərəfində oldu. O, həm də çox böyük şücaət göstərərək, öz xilaskarını bir neçə dəfə çətin vəziyyətdən çıxartdı. Günlərin birində Zəfərin kefinin kök vaxtında ona yaxınlaşdı.

– Komandir, sənə bir söz demək istəyirəm.

– Buyur, eşidirəm.

– İstəyirəm... bir əməliyyata getmək üçün mənə icazə verməyinizi xahiş edirəm.

Gözlərindən heç nə yayınmayan Zəfər bunu çoxdan gözləyirmiş kimi onun qoluna girdi, yaxınlıqdakı ağacın kölgəsinə çəkildilər. Təcrübəli kamandir çox qayğılı görünürdü.

– Səni başa düşürəm. Ötən hər gün belə bir müraciət edəcəyini gözləyirdim, bilirdim ki, sakit dayanmayacaqsan. Onların verdiyi əzabları unutmaq mümkün deyil. Get, uşaqlardan kimi istəyirsən götür, hazırlaşın.

– Əgər icazə versəniz, bu əməliyyata mən tək gedərdim.

– Yo-ox..., sən deyəsən əməliyyata yox, ova getmək istəyirsən. İndi bu dağlara bahar gəlib, ov etmək qadağandır. Məgər bilmirsən? – deyə əlini onun çiyninə qoyaraq zarafat etdi, qayğılı baxışlarla başdan ayağadək süzdü. – Yaxşı, bir şey fikirləşərik.

O gündən iki həftə keçməsinə baxmayaraq hələlik bir xəbər yox idi. "Axı mən hərbçi deyiləm, niyə Zəfərdən icazə almalıyam? Torpaq da mənim, düşmən də. Haqq-hesab çəkmək istəyən kimdənsə icazə almaz." Belə fikirlərlə bütün günü özünü yorur, hey düşüncələrə dalırdı. Bizlərdə gərək ki, belə deyiblər, "Vuran oğul dayısından soruşmaz. Axı mənim heç yerli-dibli dayım da olmayıb, nəyi gözləyirəm?"

Artıq son qərarını verdi, sabahdan öz planı üzrə hərəkət edəcək, üstündə nə vardısa hamısını təhvil verib gedəcəkdi. Əslində onun üstündə təhvil veriləsi də heç nə yox idi, əyin-başdan tutmuş silaha qədər nə vardısa hamısı əməliyyatlarda əldə etdiyi qənimətlər idi. Ertəsi gün üçün öz qərarını verib yatağına uzandı, lakin yata

bilmədi, geyinib hazırlaşdı, bir kölgə kimi gecənin qaranlığına qarışıb yox oldu.

Getdi, amma evə yox, bir də ki, evdə kimi var idi ki, onu gözləsin, bu dünyada tək- tənha idi. Əvvəlcə Jora və Qariklə haqq-hesab çəkməli, sonra əgər sağ qalardısa birbaşa şəhərə – Bakıya qayıdıb Baratla "söhbət" etməli idi. İtirəcəyi heç nə yox idi, təkcə canı idı ki, ona görə də Zəfərə borclu idi.

Birdən-birə özünə yazığı gəldi. Dünyada təklikdən böyük dərd yox idi, o da onun həyatında yurd salmışdı. Gözlərini bu dünyaya açandan təkcə anasını görmüşdü, türmədən çıxarkən onu da itirdiyini görəndə daxilində nəyinsə əbədi qırıldığını hiss etdi. O gündən bu dünyaya, həyata, ətrafındakılara qarşı qəlbindəki bütün hislər yoxa çıxdı, xüsusən də mərhəmət hissi. Könlü bir daha açılmadı, üzü bir daha gülmədi Ramizin.

O gecə Zəfər də yata bilmədi. Orta boylu, kötük kimi möhkəm, xarici görünüşcə qarillanı xatırladan, daxilən sadə, saf, təmiz olan, inandığı adamın yolunda canından keçməyə hazır olan bir adamdan ayrılmaq, ona çətin gəldi. Ramizin özünəməxsus görkəmi, yerişi və duruşu vardı, sərbəst dayananda əlləri dizindən aşağı düşərdi. Yoğun şalbanı xatırladan tüklü qolları, əzələli çiyinləri, enli kürəyi və onun üstündə dayanan yumru, boyunsuz başı, sifətində qara yumru gözləri, yastı burnu vardı. Meşədə qəfildən qarşına çıxsaydı elə bilərdin ki, əsl qarillanın özüdür. Normal insana məxsus olmayan gücə malikdi, çevik və cəld idi. Bir zərbəsi kifayət idi ki, qarşısındakı yerə sərilsin, həm də çox səbrli və ağıllı idi. Əsl kəşfiyyatçıya layiq xüsusiyyətlər onun xarakterində cəmləşmişdi.

ON BEŞİNCİ FƏSİL

Səhər tezdən Ramizi görmək üçün əraziyə çıxdı, qərargahın ətrafında gəzişdi. Hər gün erkən onu idman edən görərdi, bu gün isə gözə dəymirdi. Xeyli gözlədi, nədənsə darıxdı, onun otağına tərəf addımladı, həyətə çatarkən dayandı, dabanları üstə fırlanaraq geriyə – qərargahın həyətinə qayıtdı. Sanki nəyisə itirmişdi, gözlərini onun yatdığı evin pəncərəsindən çəkmədən bir siqaret yandırdı, tüstünü acgözlüklə ciyərlərinə çəkib havaya üfürdü. Yenidən onun qaldığı evə tərəf getmək istədi, lakin ayaqları onu öz qaldığı evə apardı. İçəri keçib arxası üstə çarpayıya uzandı, gözlərini tavana dikib fikrə getdi. Fikirləri o qədər qarışıq idi ki, nə haqda düşünürdü özü də bilmirdi. Beləcə çarpayının üstündə nə qədər uzandı bilmədi, günəşin şüaları gözünə düşəndə ayağa durdu. Otaqdan çıxmaq istəyərkən adəti üzrə dönüb otağa baxdı, dolabın üstünə qoyulmuş silahı görəndə qışqırmamaq üçün ağzını tutdu, bu Ramizin silahı idi, altında da məktub qoymuşdu.

"Komandir salam!

Bu həyatda yeganə minnətdar olacağım adam sizsiniz. Bu gün yaşadığım üçün sizə borclu və minnətdaram, yaşda kiçik olsanız da, həmişə böyüklük etdiniz mənə. Bu hərəkətimi saymamazlıq kimi qəbul etməyin. Bəzi işlərim var ki, onları başa çatdırmalıyam, ona görə də getməliyəm, qorxdum ki, sizə

deyəm icazə verməyəsiniz. İki həftə öncə dedim, kimi istəyirsən özünlə götür, dediniz. Bu iş isə mənə aiddir, şəxsi işimdir, heç vaxt istəməmişəm ki, kimsə mənim yükümü daşısın. Bu məktubu oxuyanda artıq mən uzaqlarda olacağam. Əgər sağ qalsam, sizin yanınıza qayıdacağam. İmkan olsa görüşərik. Salamat qalın. Haqqınızı halal edin.

Qəlbində sizə böyük hörməti olan R."

Zəfər ilk dəfə idi ki, belə vəziyyətə düşürdü, əsəbdən bütün bədəni uçunurdu. O, hansı yollasa, gecənin hansısa vədəsində onun otağına gəlmiş, yazdığı məktubu və silahını masanın üstünə qoyaraq gəldiyi kimi də yoxa çıxmışdı. "Gecə qapı cəftəylə bağlanmışdı, səhər otaqdan çıxanda da cəftə bağlı idı. Ramiz bu otağa necə girmişdi? Axı o özü də çox sayıq yatırdı, hər hansı kiçik hənirtiyə belə oyanırdı. Onun gəlişini niyə duymamışdı?" Otaqda özündən asılı olmadan anlaşılmaz hərəkətlər etdi, yumruqlarını sıxıb otaqda sürətlə var-gəl etməyə başladı, sanki qaçırdı otağın bu başından o başına. Dərindən nəfəs aldı, əlindəki məktubu kiçik masanın üstünə atdı, bütün gücünü toplayıb yumruğunu masanın üstünə endirdi, var səsiylə qışqırdı, sanki pələng nərə çəkdi...

* * *

Bu üç ayda yamanca öyrəşmişdi ona, hey çalışırdı ki, bu qaradinməz, qapalı adamı kəşf eləsin, onun qəlbindəki hissləri oxusun, içindəkiləri aşkar etsin, öyrənsin. Cəld otaqdan bayıra çıxdı. Kənardan ona fikir verən olsaydı, nəyinsə baş verdiyini düşünərdi. Növbətçini çağırıb tez Tərlanı tapmasını tapşırdı, özü

isə sürücünü çağırtdırıb ən yaxın mövqelərdən məlumat toplamaq üçün yola düşdü.

Günortaya yaxın hərbi hissənin həyətində maşından düşərkən çox yorğun görünürdü, bütün mövqelərdə olmuşdu, gecə növbəsində dayanan əsgər və zabitlərdən Ramiz haqqında nəsə bir məlumat almaq ümidi ilə sorğu toplamışdı, amma gördüm deyən yox idi. O, bilirdi ki, Ramiz uzaqda deyil, düşmən mövqelərini keçib, içəridə bir neçə kilometrdən sonra gizlənib, axşamın düşməyini gözləyir. Özünə acığı tuturdu, iki həftə əvvəlki söhbətlərini xatırladı, deməli, o hələ də Ramizi yaxşı tanıya bilməmişdi. Onun müraciətini iki həftə ləngitmək olmazdı. Bütün günahlar bilavasitə onun özündə idi. Elə bu fikirlərin təsiri altında otağına yollandı, içəri yenicə girmişdi ki, qapı döyüldü.

– Gəl.

Qapı açıldı, Tərlan içəri keçib hərbi salam verdi. O, Tərlanın üzünə baxaraq dərin fikrə getmişdi. Bu gün Ramizin getdiyi kimi onun da nə vaxtsa gedəcəyini düşünürdü və elə indi onun üzünə baxaraq həmin günləri təsəvvür edirdi, belə halda onlara, xüsusən də özünə yazığı gəlirdi. Necə də öyrəşmişdilər bir-birilərinə.

Həyat belədir, heç nə əbədi deyil, bu gəlimli-gedimli, son ucu ölümlü dünyada hər şey müvəqqətidir. Qalan yalnız xatirələrdir və bu xatirələr hər kəsin ömür dəftərində bir cür qeyd olunur, əksər xatirələr şəxsi dəftərlərdə qalaraq, elə o ömürlə də bağlanır, bəziləri isə dəftərlərdən kitablara köçürülür, gələcək nəsillərə ötürülür.

– Çavuş Əhmədov əmrinizlə gəlmişdir.

Tərlanın səsi onu xəyallardan ayırdı.

– Hə ə, Tərlan, otur – deyə ona əli ilə yer göstərdi, sonra papağını çıxarıb masanın üstünə qoydu, sakit və təmkinlə yerinə keçdi, siyirməni çəkib nəyi isə axtardı və birdən Tərlanı indi görürmüş kimi təəccüblə üzünə baxdı.

– Komandir, məni axtarmısınız, gəldim ki, maşınla harasa getmisiniz, əgər gecikmişəmsə, bağışlayın.

– Yoox, gecikməmisən, mənim işim çıxdı... Səni bir məsələyə görə çağırmışdım.., Ramizə görə. Mənə catan məlumata görə, o hərbi hissəni tərk edib. Bu barədə məlumatın var?

– Xeyr cənab komandir, heç bir məlumatım yoxdur. Sadəcə...

Zəfər onun sözünü yarımçıq kəsdi.

– Rəsmiyyəti burax, elə fikirləş ki, əməliyatdayıq, araşdırma apar, bildiyin hər şeyi detalları ilə ətraflı danış. Ola bilməz ki, o getsin, bu barədə kiminsə xəbəri olmasın, axı biz peşəkar kəşfiyyatçılarıq, adi bir adamın bizim aramızdan səssiz-küysüz yoxa çıxması... bu nə deməkdir? Ordunun görən gözü, vuran əli, döyünən ürəyi, düşünən beyni kəşfiyyatdır. Gecənin birində hər hansı bir adam bu qurumun içində sərbəst hərəkət edirsə və ona bizlərdən birimiz mane ola bilmiriksə buna nə ad vermək olar? Axı mən demişdim onu nəzarətdə saxlayın, bəlkə düşmən kəşfiyyatı olardı... Bizim hamımızın qollarını arxadan bağlayıb... Növbətçi və keşikçilərlə söhbət elə, bu gecə keşikdə olanların rəisinə deyərsən ki, mənim yanıma gəlsin. Bütün məlumatları toplayıb mənə raport verərsən. Sonra izahat aldığın hər kəsi yanıma göndərərsən – dayanıb onun üzünə baxdı – hər şey

aydındırsa, gedə bilərsən. Bir də Qasımova de, yanıma gəlsin.

Tərlan sanki birdən ayıldı, ona tapşırılan işin məsuliyətini indi başa düşürmüş kimi cəld ayağa qalxaraq rəsmi qaydada ucadan dedi:

– Oldu cənab mayor, icazə verin gedim.

O, başı ilə razılıq verdi. Tərlan getdi.

Qasımov onun şəxsi heyətlə iş üzrə müavini idi, araşdırmaları yaxşı bacarırdı, əslində ona tapşıracaqdı bu işi. Zəfər bilirdi ki, Ramizdə kəşfiyyatçıya məxsus bütün keyfiyyətlər var, onunla bir yerdə bir neçə əməliyyatda olmuşdu, o el arasında deyildiyi kimi kəşfiyyatçı kimi doğulmuşdu. Fiziki cəhətdən fövqəladə güclü, cəld, səbirli və təmkinli olması ona kəşfiyyatçı kimi böyük üstünlük verirdi. Amma bütün bunlara baxmayaraq o, peşəkar kəşfiyyatçıların arasında bu gecə etdiklərini edə bilməməli idi. Gecənin hansısa vədəsində onun otağına necə girməsi, hələ də Zəfərə qaranlıq idi, bunu yalnız onun özündən soruşandan sonra dəqiqləşdirəcəkdi.

Zəfər elə həmin gecə Tərlanı üç nəfərlə birlikdə xüsusi təlimat verərək onun dalınca göndərdi. Nədənsə Ramizi itirmək ona ağır gəlirdi. Heç Ramizin getdiyinə görə də məsələni çox şişirtmədi, çünki onun bacarığına bələd idi, bir neçə əməliyyatda onunla birlikdə olmuşdu.

O, Ramizi əsirlikdən qurtarandan sonra onun haqqında bütün məlumatları topladı, üç il türmə həyatını, türməyə qədər və sonrakı həyatını araşdırdı. Eyni zamanda Barat haqqında da məlumatları topladı. Baratın hələ heç kimə məlum olmayan qaranlıq tərəflərini də öyrəndi. Bu işdə ona, hazırda Rusiya xüsusi xidmət

orqanlarında yüksək vəzifədə çalışan, milliyətcə tatar, tələbə və xidmət yoldaşı Renat Zinatovun böyük köməyi oldu.

Barat Xankəndi yaxınlığında Ramizi qoyub aradan çıxandan sonra, birbaşa Bakıya gəldi, elə həmin gün Moskvaya uçdu. Şöbə rəisinin qəbulunda olub əməliyyatın uğursuzluğu barədə məlumat verdi, onlardan Ramizin buraxılmasına kömək etmələrini xahiş etdi. Şöbə rəisi dərhal məsələni yuxarı rəislərə məruzə etdi, Ramizin əsirlikdən azad olunması üçün komissiya yaradıldı və bu komissiyaya sədrlik polkovnik Zinatova tapşırıldı.

Zinatovun bir neçə dəfə ermənilərlə əlaqə saxlamasına baxmayaraq onlar belə bir əsirin olmadığını israr etdilər, lakin onun ciddi şəkildə təkidindən sonra bir daha axtaracaqlarını dedilər. İki aylıq nəticəsiz axtarışdan sonra polkovnik Zinatov Xankəndidə yerləşən rus qoşunlarının komandiri polkovnik Zarviqarovla şəxsən telefonda danışaraq məsələni ona bildirdi.

Amma on gün keçməsinə baxmayaraq heç bir nəticə əldə olunmadı, Ermənistan hakimiyyət dairələri və orada olan rus hərbi birləşmələri özlərini tamamilə ərköyün uşaq kimi aparır, heç bir sorğuya lazım olan cavabı vermirdilər. Laxlamış Rusiya hakimiyyəti və satılmış ordu birləşmələri isə onların nazı ilə oynayır, pul müqabilində ermənilərin mövqeyindən çıxış edirdilər.

Min doqquz yüz doxsan ikinci ilin yanvarında Fransada Paris yaxınlığında qeyri-leqal təlim düşərgəsi yaratmış "ASALA," erməni terrorçu təşkilatının iyirmi dörd nəfərlik təlim keçmiş üzvünü başda mayor Aşin Simonyan olmaqla Xankəndiyə göndərdi. Simonyan Qara-

bağda yerləşən, SSRİ vaxtında Dördüncü Ordu hissəsinə tabe olan üç yüz altımış altıncı alayın, indi isə Qarabağda yerləşən bütün hərbi hissələrin komandanı sayılan və demək olar ki, erməni terror təşkilatından başqa heç bir quruma tabe olmayan polkovnik Yevgeni Zarviqarova nağd otuz altı min ABŞ dollarını, tanışlıq üçün "hədiyyə" verdi. Bununla da, onu erməni terror təşkilatlarının quluna çevirdi. O gündən Qarabağda yerləşən rus qoşun hissələri, fəallığını artırdı, bütün əməliyyatlarda iştirak edərək Azərbaycan torpaqlarını çətinlik çəkmədən kəndbəkənd, şəhərbəşəhər işğal etməyə başladı.

Başı hakimiyyət uğrunda iqtidar-müxalifət davasına qarışan Azərbaycan hakimiyyət orqanları isə hələ də Rusiyanın təsiri altında olan bacarıqsız komandirlərin komandanlığı altında heç nə edə bimirdilər. SSRİ-nin Dördüncü Ordu hissələrində – Zaqafqaziya korpusunda isə erməni təbliğat maşını Azərbaycan əlehinə fəal işləyirdi.

Rüşvətxorluğa görə, iyirmi üçüncü diviziyanın komandiri general-mayor Boris Budeykin, Yevgeni Zarviqarovun məsələsini korpus komandanlığı qarşısında qaldırdı, onu, zabit şərəfinə xəyanətə görə ittiham edərək ordu sıralarından qovulmasını tələb etdi. Lakin çökməkdə olan imperiyada artıq heç bir qanun işləmirdi. Əksinə, dünya terror təşkilatlarının birləşdiyi bir məkanda terrorçuların qanunları daha yaxşı işləyirdi.

Elə buna görə də min doqquz yüz doxsan ikinci ilin fevral ayının iyirmi dördündə göstərdiyi "xidmətə" görə Rusiya müdafiə nazirliyi tərəfindən polkovnik Yevgeni Zarviqarova general-mayor hərbi rütbəsi verildi. Yeni yaranmış Rus dövlətində, erməni lobbisi rus şovinistləri

ilə birlikdə öz çirkin ideyalarını həyata keçirirdilər.

Polkovnik Zinatov öz şəxsi kanallarını işə salıb tələbə yoldaşı hələ Sovet vaxtından üç yüz altımış altıncı alaydakı 2270 saylı hərbi hissəsində əks kəşfiyyatın rəisi polkovnik Vladimir Sevelyevə zəng vurub kömək etməsini xahiş etdi. Yalnız bundan sonra Ramizin axtarışına polkovnik Sevelyev tərəfindən göstəriş verildi və iki rus zabitinə əsirlərin hüquqlarının müdafiəsi adı altında, əsir düşmüş Ramizin tapılması haqqında xüsusi göstəriş verildi. Bunlar ermənilər tərəfindən satın alınmış və bilavasitə alayın kəşfiyyat rəisi mayor V.Q. Hayriyana tabe olan kəşfiyyatçılar – baş leytenant S.V. Xrinxua və leytenant V.İ.Bondaryev idilər ki, onlar Xankədidə və "Manuçarovun daçası"nda Ramizdən izahat alandan sonra əsirlərə nəzarət edənlərə: "Öldürməmək şərti ilə bütün işgəncə növlərindən istifadə edə bilərsiniz." demişdilər. Lakin Ramizin bəxti gətirdi, onu Zəfərin kəşfiyyat qrupu xillas etdi.

Həmin gün baş leytenant Xrinxua mayor Hayriyanın təkidlə etirazına baxmayaraq, polkovnik Sevelyevə Ramizin tapılması və Manuçarovun daçasında saxlanılan əsirlərlə birlikdə olması haqqında raport verdi. Axşam olduğundan ona baş çəkməyi və yerini daha yaxın və münasib yerə köçürməyi sabaha təxirə salan polkovnik Sevelyev səhər saat səkkizdə "Manuçarovun daçası"na yola düşdü. Lakin qapıda dayananların olmadığını gördü, maşından düşərək silahını çıxarıb hazır vəziyyətə gətirdi, ətrafı diqqətlə nəzərdən keçirən təcrübəli kəşfiyyatçı bura basqın olduğunu başa düşdü, dərhal yaxınlıqdakı hərbi hissəyə həyəcan siqnalı verdirdi. O, həyəti keçib binaya daxil oldu, bütün otaq-

ları gəzdi, heç bir iz tapa bilmədi. Kimlərsə, çox təmiz işləmişdilər. Nə əsirlərdən nə də onları qoruyanlardan əsər-əlamət yox idi.

Burada əsasən işğal olunmuş kəndlərdən olan seçilmiş əsirlər saxlanılırdı ki, onların bəzilərinə həddən artıq, ölənə qədər işgəncə verilir, öləndən sonra boğazlarına kəndir keçirib maşınla sürüyüb dərələrin birinə atırdılar, bəzilərinə isə hansısa məqsədlə az işgəncə verilirdi. Bunlar əsasən gözəl qadınlar və erməni-rus qohumluğu hələ ki, təsdiqlənməyənlərdi ki, onları mənəvi cəhətdən sındırıb, gələcəkdə terror təşkilatının planlarını həyata keçirmək üçün hazırlayırdılar.

Polkovnik Sevelyev bilirdi ki, burada əsirlərə dünyanın heç bir yerində görünməyən işgəncələr verilir. O, əsirlərin işgəncə otağına keçdi, qurumuş qan iyindən nəfəs almaq olmurdu. O, otağın ortasınadək gəldi. Yerdə əsirlərin kəsilmiş barmaqları işgəncələrin müdhişliyindən xəbər verirdi. Dönüb birbaşa həyətə çıxdı.

Sevelyev Zinatovdan öyrənmişdi ki, onunla üzbəüz cəbhənin əks tərəfində tələbə yoldaşları, kursun əlaçısı, xüsusi kəşfiyyatçı bacarığına malik Zəfər Mirzəyev dayanır. Onun dəstxətinə bələd olduğu üçün Sevelyev inanırdı ki, bir gün onunla rastlaşacaq, hər yerdə Zəfərin izlərini axtarırdı, amma uzun illər keçmişdi, yəqin ki, o, nəyisə unutduğuna görə bu izləri tapa bilmirdi.

Zəfər isə kəşfiyyatçıların əksəriyyətindən fərqli olaraq iz qoymağı sevmirdi, bütün əməliyyatlarda təmiz iş görməyi sevirdi. "Onun kimi kəşfiyyatçı, dünyaya, yüz ildə bir dəfə gəlir. Bu yüzilliyin kəşfiyatçısı Zəfər isə, Azərbaycan tərəfində idi. Yəqin ki, bizim tərəfimizdə

olsaydı, indi Kremldə oturardı," deyə polkovnik Sevelyev düşündü. Zəfər haqqında bütün müəllimləri həmişə buna bənzər fikirlər deyərdilər.

Sevelyev cəbhədə – elə indi burada Zəfərlə üzbəüz gələrsə, nə edəcəyini, özünə necə bəraət qazandıracağını bilmirdi. Buna görə də artıq nə vaxtdan bəri hazırladığı raportu hərbi hissəyə qayıdan kimi lazımi orqanlara göndərməyi qərara aldı. Polkovnik erməni terror təşkilatları ilə birlikdə, Sovet ordusundan qalmış qoşun birləşmələrinin Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək fakt və sənədlərdə, – "agentura" vasitəsi ilə əldə etdiyi informasiyalarda olub keçənlərin şərhini verərək etiraf etdi.

"Mən bunları yazmaya bilmərəm. Hər şey gözlərim önündə baş verib. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmirəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə on doqquz səhifəlik məxfi arayışı həm Kremlə həm də Rusiya Müdafiə nazirliyinə, Baş kəşfiyyat İdarəsinin generallarına göndərdim. Oxuyun! – dedim. – Biz rusların zabit şərəfi, görün necə ləkələndi!"

Bununla da o, öz vicdanı və tələbə yoldaşı qarşısında insanlıq borcunu yerinə yetirmiş hesab etdi.

Elə həmin gün polkovnik Sevelyev Moskvaya tələbə yoldaşı polkovnik Zinatova Zəfərin onları qabaqladığını bildirdi. "O, hələ də bizim aramızda ən güclü kəşfiyyatçıdır", dedi. Polkovnik Zinatov Baratla əlaqə saxlayaraq Ramizin əsirlikdən Azərbaycan ordusu tərəfindən xilas edildiyini dedi.

Baratın bütün kanallarını işə salmasına baxmayaraq, Ramizdən səs-soraq çıxmadı, sanki iynə idi, gecə qaranlığında meşədə əlindən düşüb çör-çöp arasında itmişdi. Üç aylıq axtarışdan sonra əlacsız qalıb yenidən Zinatovun yanına getdi.

– O hələ də tapılmayıb? – deyə polkovnik təəccüblə soruşdu.

– Başa düşə bilmirəm, bu boyda dövlətin gücü çatmır ki, ermənilərdən bir nəfəri alsın? Yoxsa ermənilər idarə edir bu dövləti. – deyə Barat etirazını kobud şəkidə bildirdi. Agentin belə kobud rəftarı polkovnikə xoş gəlmədi, bu sözlərlə rusları təhqir etdiyini düşündü, yumruğunu qəzəblə masanın üstünə vurdu və Baratı kabinetindən qovdu.

– Ayağa qalx. Kabineti tərk elə. Mən sənin üçün ov axtaran tula deyiləm ki, bütün Qarabağda, bəlkə də Azərbaycan və Ermənistanda sənin "adamcığazını" axtarım. Rədd ol, gözlərimin önündən! Bir daha görməyim səni, qoca canavar.

Barat vəziyyətin belə hal alacağını gözləmirdi, heç nə deməyib acıqlı və pərt olmuş halda kabinetdən çıxdı və Ramizi də elə həmin hadisə ilə birlikdə ürəyinin ən dərin guşəsində dəfn etdi. İndiyə kimi can-başla xidmət etdiyi rus diktaturasına, onun kimilərindən istifadə edərək lazım olmayanda dabanları ilə başlarını əzən rus şovinizminə nifrət etdi. Evə qayıdıb onlarla əlaqəli nə vardısa, hər şeyi məhv etdi, keçirdiyi ağır sarsıntıdan yatağa düşüb uzun müddət xəstə yatdı.

Polkovnik Zinatov Baratı qovandan sonra, dərin fikrə getdi. "Əvvəllər, belə üsyançı agentləri tez də aradan götürərdilər, qulluq etdiyi quruma asi olmaq, bö-

yük günah sayılardı. Nə etməli? Hər şey dəyişir. Çinə, Hindistana, Afrikaya, Avropanın və Amerikanın bir hissəsinə hökmü çatan bir qurumun indi ermənilərə sözü keçmirdi. İndi agentlər də ərköyünləşib, bir cürə olublar" deyə düşündü. Harasa zəng vurub təcili olaraq, Azərbaycanda Zəfər Mirzəyevlə əlaqə yaradılmasına göstəriş verdi. İndiki zaman üçün bu çox vacib idi.

Ramiz üç ildən sonra Bakıya qayıtdı. Keşlə qəbristanlığında anasının qəbrini ziyarət edəndən sonra birbaşa Baratın yanına getdi.

ON ALTINCI FƏSİL

Zəfər sabahkı həftənin yekun iclasına hazırlaşırdı. Hərbi hissənin xüsusi şöbə rəisi Yaqubovun gəldiyini dedilər. O, Zəfərdən on yaş böyük idi, lakin buna baxmayaraq özünü heç də yaşlı kimi aparmır və heç vaxt hərbi geyimdə olmurdu. Sovet dönəmində də xüsusi xidmət orqanlarında xidmət etmişdi, Zəfərə xüsusi hörməti var idi. Otaqdan çıxıb onunla salamlaşdı, içəri dəvət etdi. Lakin Murad Yaqubov onun qoluna girib hərbi hissənin həyətində saxladığı maşınına doğru apardı.

– Mirzəyev, yəqin bilirsən ki, mənim sənə xüsusi hörmətim var, bu da yəqin ki, bizim ixtisasımızın eyni olmasından irəli gəlir. Axı biz hər ikimiz kəşfiyyatçıyıq, elə deyilmi?

– Əlbəttə, bilirəm.

– Gedək mənimlə, bir az söhbət edək. Olarmı?

– Olar.

Onlar maşına oturdular, Murad çox az hallarda maşını özü sürərdi. Görünür edəcəyi söhbəti kimsənin eşitməsini istəmirdi. Yolboyu heç biri bir kəlmə də olsun danışmadılar. Maşın torpaq yola dönüb bir neçə kilometr gedəndən sonra sırayla əkilmiş söyüd ağaclarının altında dayandı. Yaqubov başıyla ona işarə edib maşından düşdü. Onlar maşından xeyli aralanıb dayandılar. Bir neçə gün bundan öncə başlayan yağışlar indi da-

yanmasına baxmayaraq yenə də havadan yağış qoxusu gəlirdi.

– Mən düzgünlüyü və konkretliyi sevən adamam, onunçün də sənlə açıq danışacam. Yəqin ki, sən, məni daha yaxşı başa düşəcəksən.

O, bir anlıq dayanıb Zəfəri diqqətlə süzdü. Deyəcəyi sözlərin ona necə təsir edəcəyini öncədən təxmin edirmiş kimi daha müvafiq sözlər seçməyə çalışaraq:

– Sənin rus kəşfiyyat orqanları ilə hər hansı bir əlaqən varmı?

Zəfər sualdan çaşıb qaldı. Yoxsa, onu xəyanətdə günahlandırırdılar? İradəsini toplayıb dedi:

– Əlbəttə ki, yox.

Yaqubov sualın kəskin olduğunu başa düşdü, belə sualları yalnız vətən xainlərinə vermək olardı. Səhvini anladı və tez də sualların məğzini dəyişdi.

– Zəfər, suallar səni çaşdırmasın. Bəzi şeylər var ki, eləmək olar və yaxud da etmək lazımdır. Biz nə qədər desək də ki, müstəqilik, əlbəttə, bunlar hələlik masa üzərindədir. Müstəqil olmaq, bizim ən böyük və ülvi arzularımızdır, inan ki, ruslar da bunu həzm edə bilmir. Məsələn, silah-sursat baxımından biz hələlik ruslardan tam olaraq asılıyıq, əlimizdə olan bütün silahlar onların istehsal etdiklərıdir. Bu silahların güllə və mərmilərlə təmin edilməsi isə yalnız onlarla əməkdaşlıqdan keçir. Lakin zaman gələcək hər şey öz yerini tutacaq, nəinki ruslar hətta dünyanın ən güclü, super dövlətləri belə bu gün əldə etdiyimiz müstəqilliyimizlə, uğurlarımızla istəməsələr də, hesablaşacaqlar. Çünki, o zaman bizim heç bir dövlətdən belə asılılığımız olmayacaq. Özümüzün silah-sursat zavodlarımız olacaq. Ən güc-

lü silahları belə özümüz istehsal edəcəyik. Amma bəzi şeylər də var ki, nə bu gün , nə də gələcəkdə eləmək olmaz. Bunu birdəfəlik bilməliyik. Gör neçə ildən sonra müstəqilliyimizi qazanmışıq, ona xələl gətirən hər hansı bir hərəkət pislənməli, kim olursa olsun cəzasını almalıdır.

Murad danışdıqca Zəfər onun nəyə işarə etdiyini anlamır, təəccüblə onu süzür, amma sözünü kəsmək istəməyərək onun verdiyi "nəsihətləri" dinləyirdi. Başa düşürdü ki, o, öz sözünü demir, hardansa, kimlər tərəfindənsə qaralanmışdı Zəfər. Bəs bunlar kim ola bilərdilər və nə üçün? Əgər Xüsusi Şöbənin rəisi onun dalınca gəlibsə və əgər, onunla belə bir mövzuda söhbət aparırsa, bu heç də yaxşı əlamət deyildi. Zəfər siqaret qutusunu ona tərəf uzatdı, birini də özü yandırıb dərin bir qullab vurdu.

– Murad, kimlərsə ola bilər məni tanımasınlar, axı sən yaxşı tanıyırsan. Əgər məni adam öldürməkdə, oğurluqda və ya digər hansısa bir cinayətdə günahlandırsaydılar, bəlkə də haqlı sayılardılar, xəyanət arvad işidir, bizlik deyil. Xüsusən də söhbət Vətəndən gedirsə... – Zəfər danışığına ara verdi, əgər qarşısındakı bir şəxsiyyət kimi hörmət etdiyi polkovnik Murad Yaqubov olmasaydı, yəqin ki, onunla başqa cür danışardı.

– Zəfər, yəqin ki, bilirsən, mənim sənə olan münasibətimi... Sən indi polkovnik olmalı idin, komandanlıq tərəfindən iki dəfə rütbənin artırılması haqqında vəsatət qaldırılıb, sonuncu uğurlu əməliyyatına görə "Azərbaycan Bayrağı" ordeninə təqdimat göndərilməsinə baxmayaraq, təltif olunmanı saxlayıblar. Bunların hamısı mənim indi sənin danışdığım məsələyə görədir.

Mən sadəcə olaraq bütün bu məsələləri sənə çatdırmağı bir kəşfiyyatçı həmkar kimi özümə borc bilirəm, sənin təmizliyinə inandığım üçün bu addımı atdım ki, işini ehtiyatlı tutasan. Bir müddət əvvəl öz kanallarım vasitəsiylə bu işi kimsəyə demədən araşdırdım, tamamilə böhtandır. Lakin bunu sübuta yetirmək o qədər də asan deyil, böhtançının kimliyi də məlum deyil. İlanın başı elə bir yuvada gizlənib ki, o yuvanın ətrafına belə yaxınlaşa bilmirik. İndi Rusiya xidmət orqanları keçmiş KQB əməkdaşlarını özünə işləməyə məcbur edir, razılaşmyanları ya ifşa edir, ya da birdəfəlik aradan götürür.

Zəfər siqareti siqaretə calayır, nə qədər fikirləşsə də bu işin arxasında kimlərin dayandığını təxmin edə bilmirdi. Murad təmiz adamdı və dediyi sözlərin təmizliyinə heç bir şübhə yox idi. Bəs suyun mənbəyində oturaraq onu bulandıran kim idi? Onun nailiyyətləri kimi narahat edə bilərdi? Axı o, heç bir pis əməl etməmişdi və etmək fikrində belə olmamışdı, bu hoqqabazlıqlar nəyə görəydi? Kim idi ona rəqib və bu rəqabətdə məqsədi nəydi? Bu suallar hələlik onunçün bağlı olaraq qalırdı. Müharibənin ən çətin mərhələsində olduğunu hiss etməyə başladı, bu günə qədər yalnız döyüş haqqında fikirləşmək lazım idi, bu gündən sonra isə...

Onlar sağollaşıb ayrıldılar, Murad onu maşına dəvət etməsinə baxmayaraq, piyada qayıdacağını dedi. Yolun uzaq olmasına baxmayaraq Zəfər tək qalmaq, təklikdə özü özüylə baş verənləri araşdırmaq, aydınlaşdırmaq istəyirdi. Murad ayrılanda görüşlərinin nikbin sonluqla bitməsini bildirmək üçün gülümsünərək dedi.

– Özünü çox üzmə, burax zamanın ixtiyarına. Hər şeyi o həll edəcək.

Onlar ayrıldılar, doğrudan da zaman bütün dərdlərin məlhəmidir, o keçdikcə bulanıq sular durulur, arada kimin və nəyin olduğu aşkara çıxır, niyyətlər açıqlanır. Həyat gözləmədiyimiz sürprizlər yığımıdır. Yaşadığımız hər an nəyin baş verəcəyini dərk edə bilmirik, başımıza nə gələcəyi bizim üçün sual və məchul bir varlıq kimi qalır. Əgər bir an sonra başımıza gələcək hadisəni bilsə idik, yəqin ki, onların əksəriyyətinin bizə vuracağı ziyandan da ya qaça bilərdik, ya da ki, onun təsirini azaltmağa çalışardıq. Zaman həmişə bizi qabaqlayır, onun tərkində gedirik, əgər gedə biliriksə.

Zəfər yolboyu hər şeyi – Muradın dediklərinin hamısını bir daha analiz edirdi. Bir-birinin dalınca yoldan keçən maşınlar saxlayaraq, salamlaşır, əyləşməyə dəvət edirdilər, bununla da ona təfərrüatıyla düşünməyə imkan vermirdilər. Bununçün də o yoldan aralandı, cığırla dağın döşünə tərəf getdi. Dağın döşü yaşıl otlara bürünmüşdü, yamyaşıl idi. Yaşıl otların arasından boylanan rəngbərəng çiçəklər ona hər şeyi – bütün ağrı-acıları – hətta bu gün polkovnik Yaqubovla etdiyi söhbəti belə unutdurdu.

Bir neçə il əvvəl Şuşada gördüyü mənzərənin tam eynisi idi, təbiətin bu gün göstərdiyi əsrarəngiz gözəlliyi. Gözdolusu bu gözəlliyi seyr etsin deyə yaxındakı daşın üstündə oturdu. Xeyli vaxt idi burada xidmət etməsinə baxmayaraq bu təbii gözəlliyin fərqinə varmamışdı. Təbiət onun qoynunda olanların hamısından saf və təmiz idi, biz insanlar onu dağıdıb məhv etməyə daha çox meyilliyik, ondan fərqli olaraq içimizi – öz daxili aləmimizi həmişə qapalı saxlayırıq. Ətrafımızda olan hər şeyi, hər an dağıtmağa, məhv etməyə hazırıq, hətta

bunun gələcəkdə bizə necə baha başa gələcəyini bilə-bilə. Təbiət isə səxavətlidir.

Deyirlər söz vaxtına çəkər, bir neçə il əvvəl, min doqquz yüz doxsan ikinci ilin mart ayının əvəllərində Zəfər öz qrupuyla əməliyyata getmişdi. Onlar Tərtər istiqamətindən içəri daxil oldular, Xankəndidə əməliyyat planını yerinə yetirərək yenicə işğal olunmuş Kərkicahandan keçdilər. Kərkicahan yerlə-yeksan edilmişdi. Sanki burada bir neçə ay əvvəl yaşayış olmayıb, erməni vandalizmi və rus şovinistləri evlərin bünövrəsini belə məhv etməyə çalışmışdılar. Onlar təkcə kəndi yox, həm də kəndin qəbiristanlığını darmadağın etmişdilər. Sanki bu kəndin tarixindən qisas alırlarmış kimi, yüz illər boyu təbiətin istisinə, soyuğuna, şaxtasına əyilməyən baş daşlarını kürüyərək aparmışdılar. Uzun yol kəşfiyyatçıları əldən salmışdı.

Martın əvvəllərəriydi, ona elə gəldi ki, bu qaranlıq gecədə onlardan başqa oyaq adam olmaz. Kərkicahandan Şuşaya gedən ən qısa cığırla dörd nəfər dayanmadan irəliləyirdilər. Bu gecənin qaranlığı onları öz ağuşuna alıb Şuşaya tərəf aparırdı. Onlar iki qrupa bölünərək maneəsiz Şuşaya daxil oldular. Ön cəbhədə sanki kimsə yox idi. Bir neçə nəfər gözə dəyirdi, onlar da hərə öz işində idilər.

Əslində onlar Şuşaya bir-birindən xeyli aralıda olaraq ayrı-ayrı qruplar kimi daxil olmuşdular. Zəfər hər bir əməliyyatda olduğu kimi indi də hər şeyi bütün incəliklərinədək nəzərə almışdı. O, həmişə olduğu kimi əməliyyatı hazırlayanda onun nəticəsini öncədən bilirdi. Onda fitrən kəşfiyyatçı bacarığı var idi.

Hava işıqlaşana yaxın "Zapravkanın" yanından

keçərək "Tar sexi" istiqamətinə yollandılar. Burada "T-72 B" markalı Rusiya istehsalı olan üç tank dayanmışdı. Tankların ətrafında kimsə gözə dəymirdi. "Bu nədir, belə də torpaq qorumaq olar? Hamı yatır, yoxsa bunlar elə fikirləşirlər ki, müharibə ancaq gündüzlər olur?" deyə fikirləşdi. Tanklara az qalmış hər iki qrup birləşdi, dörd nəfər yollarını dəyişib şəhərin içərisinə tərəf döndülər. Elə bu zaman, sanki onların birləşməyini gözləyirmişlər kimi hər üç tankın güclü "projektorları" onları işıqlandırdı və kim isə rus dilində ucadan qışqıraraq, hökmlü bir səslə qulaq batıran sükutu pozdu. Rus dilində danışmalarına baxmayaraq, tələffüzdəki azəri ləhcəsi aydın hiss olunurdu.

– Dayan, əllər yuxarı! Siz mühasirədəsiniz, təslim olun.

Zəfər dayandı və sakitcə qalan üç nəfərə də dayanmağı əmr etdi. Həmin səs yenidən eşidildi.

– Silahları yerə atın. Cəld olun.

Başqa çıxış yolu yox idi, əmrə tabe olmaq lazım idi. Zəfər qarşıdakıların kim olduğunu bilirdi, onlarla döyüşməyəcəkdi, silahını çıxarıb yerə qoydu və yanındakılara da tərksilah olmağı əmr etdi. Tərlan nəsə demək istəyirdi ki, Zəfərin sakit, lakin qətiyyətli səsini eşitdi.

– Silahları yerə qoyun – sonra səs gələn tərəfə dönərək – Özümüzkülərik narahat olmayın.

Onlar hamısı tərəddüdlə olsa da silahlarını yerə qoydular. Həmin səs yenidən əmr etdi.

– On addım geriyə çəkilin. Hansı tərəfdən olmağınızı sonra araşdırarıq.

Onlar dördü də on addım geriyə çəkildilər. Elə bu zaman qaranlıqdan onlara tərəf silahsız hərbi səhra for-

masında üç nəfər yaxınlaşdılar. Onlardan ikisi yerdəki silahları yığıb geriyə qayıtdılar, biri isə kəşfiyyatçılara yaxınlaşdı, onların dördünü də diqqətlə süzərək Zəfərlə üzbəüz dayandı.

– İndi deyin görüm kimsiniz?

Zəfər hərbi salam verib, özünü təqdim etdi.

– Əlahiddə kəşfiyyat bölüyünün komandiri mayor Mirzəyev.

– Əfsanəvi kəşfiyyatçı!?... Doğrudanmı bu sizsiniz? Nəhayət, nəhayət ki, sizi görmək mənə qismət oldu.

Onlar birlikdə tankların dayandığı yerə gəldilər, burada İsmayıl, Elxan, Adil, Mirələm, Ədalət, Arif, Ağababa, Sərrac, Albert və Muradla görüşdülər, qucaqlaşıb hal-əhval tutdular. Sonra qərargaha yola düşdülər.

Qərargahda kimsənin olmadığını görüb tankçılarla birlikdə onların qaldıqları yerə getdilər, belə bir mehriban kollektivin olması Zəfəri sevindirdi. Belə döyüşçülərlə nəinki döyüşməyə hətta bir səngərdə ölməyə də dəyərdi. Zəfərlə Tərlan bu kollektivi yaxşı tanıyırdılar, belə ki, onlar əvvəllər – "Səbail Tank Taboru"nda bir yerdə xidmət etmişdilər. Əvvəlki günləri xatırlayıb xeyli söhbət etdilər.

Zəfər sonralar Şuşa haqqında düşünəndə bu uşaqlar düşürdü yadına. Onlarsız Şuşanı təsəvvür etmək, mümkün deyildi. Onlar, Şuşanın qəhrəmanlıq simvolu idilər, nə qədər ki, Şuşanı sevənlər olacaq, deməli onları da sevəcəklər, nə qədər ki Şuşa unudulmayacaq, onlar da yaddan çıxmayacaqlar. Ötən illərin ən əziz xatirələrindən biri də bu idi və heç zaman unudulmayacaqdı.

ON YEDDİNCİ FƏSİL

Barat Zinatovun yanından çıxandan sonra təsadüfən köhnə tanışı, əvvəllər onunla birlikdə "agentura"da çalışan indi isə özünün dediyi kimi Xarici Kəşfiyyat şöbəsində yaxşı mövqelərdən birini zəbt edən İsak Yakuboviç Şaydulin ilə rastlaşdı.

Şaydulin onu kabinetinə dəvət etdi, kofe süzdü, içə-içə hal-əhval tutdu. Söhbət əsnasında onun Zinatovdan və ümumiyyətlə, indiki kəşfiyyat idarəetmə üsullarından gileyli olduğunu başa düşdü və bu kartı əlindən buraxmaq istəmədi. Özünü qayğıkeş kimi göstərərək indiki rejimi xeyli qamçıladı və Zəfərin adını çəkmədən, bu rejimin ən bariz nümunəsi kimi Rusiyada Zinatov kimilərinin bu gün Azərbaycanda yetişdirildiyini, sabah isə Barat kimi ideal casusların belə bir adama tabe olaraq fəaliyyət göstərməsini qınadı. O, qarşısındakının reaksiyasını yoxlamaq üçün Zəfərin adını bilərəkdən çəkmədi. Gözlədiyi kimi Barat tez də reaksiya verdi.

– Necə? Deməli, bizim xəbərimiz olmadan hələ çox işlər görüblər?

– Əlbəttə, hələ necə işlər? Eşitsən məndən də artıq nifrət edərsən bunlara. Mən başqasından yox elə özümdən və ya səndən danışıram, kimdən əksiyik, məgər o vəzifələrdən birini biz tuta bilmərik? Azərbaycanda niyə səni yox, Zəfər Mirzəyevi axtarırlar? Çünki o Zinatovun tələbə yoldaşıdır. Məgər o səndən daha səriştəlidir?

Əlbəttə yox. Mən onu yaxşı tanıyıram, fərsizin biridir. Amma nə olsun?! Bunlara öz adamları lazımdır, öz ətraflarını yığırlar. Az da olsa ədalətli olsalar.., bunların gözlərini qohumbazlıq, yerlibazlıq, dostbazlıq daha nə bazlıq, bilmirəm bağlayıb. Gör bunlar özlərini tam yerləşdirəndən sonra nələr edəcəklər? Məgər sən ömrünün sonuna kimi "gizli agent" kimi qalmalısan?

O, danışa-danışa qarşısındakını diqqətlə və hiyləgərcəsinə süzürdü, Barat pörtüb dayanmışdı, üsyançılara məxsus baxışlarla Şaydulinə baxır, Zəfərin kimliyini araşdırırdı. Müsahibi isə dayanmadan danışırdı, görünür "haqsızlığa" daha dözə bilmirdi.

Əslində isə, Şaydulinin məqsədi tam başqa idi. O, son zamanlar rastına çıxan hər kiçik təsadüfdən istifadə edərək ətrafını möhkəmlətmək istəyirdi. Bunun üçün Sovet İttifaqının "Yalquzaq" ləqəbli casusu indi onun üçün göydən düşmə idi. Renat və Zəfərlə olan köhnə haqq-hesabını həll etməyin əsl vaxtı çatdığını düşünürdü.

Min doqquz yüz səksən beşinci ildə xidməti zərurətlə əlaqədar xaricə getməli idi. Bütün yoxlamalardan keçib hazır vəziyyətdə gözləyirdi, müsahibədən keçən zaman qarşısına bir sual işarəsinin qoyulduğunu gördü. Müsahibə götürən qoca "müəllim"dən bu sual işarəsinin nə olduğunu soruşdu, amma cavab ala bilmədi. Səhəri gün idarə rəisindən xahiş etdi ki, adının qarşısında olan sual işarəsinin niyə qoyulduğunu öyrənsin. İki gündən sonra məlum oldu ki, onun yerinə Zəfər Mirzəyev və Renat Zinatov gedir. Bu iki şəxsə elə o gündən ürəyində kin yarandı.

Sonralar Zəfəri görməsə də Renat sərv ağacı kimi gözlərinin qarşısında bitmişdi. Hara firlanırdısa ona ili-

şirdi. İki il əvvəl isə bir neçə şöbəni birləşdirərək Renatı rəis qoydular. Şaydulin var qüvvəsi ilə ona qarşı kampaniyaya başladı və bu ərəfədə Zəfərin də gətiriləcəyini eşitdikdən sonra, əks təbliğat kampaniyasının miqyasını genişləndirdi. Zəfərin hələ gəlməmişdən öncə, elə Azərbaycanda olarkən gözdən salmaq, onun nüfuzuna zərbə vurmaq üçün "Yalquzaq""dan yaxşısını tapa bilməzdi. Onun düşündüyü plan özünü döğrultmağa başlamışdı. O, Barata təlimat verərək Bakıya yola saldı.

Barat Bakıya qayıtdıqdan sonra, çox götür-qoy etdi, lakin bir qərara gələ bilmirdi. Nəhayət ki, yeni yaranmış Azərbaycan Müdafiə Nazirliyindəki generallarından biri ilə, hazırda yüksək vəzifədə işləyən "agentlə" məsləhətləşmək qərarına gəldi. Lakin onun qəbuluna düşməyin çətin olduğunu nəzərə alaraq, "agentura"nın keçmiş fəallarından sayılan və onu da yaxşı tanıyan, prezident aparatının məxfi idarəsində işləyən "Çopur" ləqəbli Fərrux Salamovla görüşdü. Salamov daxili telefonda "Yalquzağ"ın səsini dərhal tanıdı və gözlətmədən qəbul etdi.

– O-o-o! Xoş gördük sizi, görəsən günəş hansı tərəfdən çıxıb ki, siz bizi yad etmisiniz?

O dərhal əllərinin işarəsi ilə kabinetdə eşitmə qurğularının olmasını bildirərək mövzunu dəyişdi.

– Hə-ə. Barat, səndən nə əcəb, eşitdim uşağa toy edirsən, bizi yaddan çıxarma, birlikdə gör nə qədər çörək kəsmişik.

Barat işi anlamışdı, ona görə də söhbətin bu tərzdə fırlanması ona elə də təsir etmədi.

– Elə onunçün gəlmişəm. Dedim məndən bir-iki bayram böyüksən. Bəlkə bu işin ağsaqqallığını üzərinə

götürəsən. Bir gün boş vaxtın olanda bizə gəl, qız evinə elçiliyə gedək.

– Əşşi, təki xeyir iş olsun, vaxt tapmağa nə var ki?! Elə günü bu gün gələrəm, gedərik. Bir də, bir-birimizin xeyir-şərində olmasaq daha nəyə lazımıq axı?

Barat ayağa qalxdı, daha deyiləsi sözü yoxdu. Həmin gün, axşamüstü Fərruxla, Barata məxsus restoranda görüşdülər. Artıq ona məxsus kabinetdə yüngül yeməklərlə masa açılmışdı. Kabineti diqqətlə nəzərdən keçirən Fərrux, masa arxasında oturan kimi gileylənməyə başladı.

– Ay başına dönüm, imkan verirlər ki, yaşayaq? Hər tərəfə "diktafon" qoyublar, ürəyində danışsan da qeyd eləyir. Hələ yaxşı ki, bizim uşaqlar məni xəbərdar eləyiblər bu barədə...

Barat yemək əsnasında söhbətə başladı, heç nəyi gizlətmədi, hər şeyi olduğu kimi danışdı. Zinatovla və Şaydulinlə olan söhbətlərini olduğu kimi çatdırdı. Köhnə Sovet generallarının hərəsinin öz iddialarından, ayrı-ayrı qruplaşmalarda təmsil olunaraq mühafizəçi və qərbyönlü olaraq böyük dövlətlərə, xüsusən də İngiltərə, Almaniya, Fransa və Amerika kimi güclü dövlətlərə xidmət etmələri barədə geniş müzakirə apardılar. Zəfər və Ramiz haqqında isə Fərruxa heç nə demədi. Söhbətin sonunda Müdafiə Nazirliyindəki "agent"lə görüşməyi təşkil etməsi barədə ondan xahiş etdi. Salamov köhnə "agent"lərdən idi. "Yalquzağ"ın bu görüşə niyə can atdığını, hansı məlumatın ona çatdırılacağını nə qədər fikirləşsə də ağlına heç nə gəlmədi. Amma onun özündən də heç nə soruşmadı. "Yəqin, mərkəzin hansısa vacib bir məlumatını çatdıracaq" deyə düşündü.

– Onunla görüşmək elə də asan olmayacaq, amma çalışarıq nəsə edək.

Ayrılan zaman Barat bir daha bu görüşün imkan daxilində tez baş tutmasının vacibliyini xatırlatdı. Onlar ayrıldılar.

Ertəsi gün Barat yenicə işə gəlmişdi ki arıq, donqar belli bir kişi yaxınlaşıb Fərruxdan salam gətirdiyini dedi və ona məktub verdi. Gəldiyi kimi də sakitcə uzaqlaşaraq getdi, sanki kölgə idi, işıqda əridi.

Barat kabinetinə qalxıb məktubu açdı, general haqqında bütün məlumatlar burada öz əksini tapmışdı. Bu gün axşam saat səkkizdə Müdafiə Nazirliyinin generalı, – mərkəzin məxfi agenti – Bilgəhdəki bağına baş çəkməli idi, bağ isə xüsusi silahlı qrup tərəfindən qorunurdu. Barat həyatını riskə ataraq onunla bağda görüşməli idi. Onsuz da bütün həyatı qorxulu nağıllarda olduğu kimi riskdən ibarət idi. Bir anlıq özünə yazığı gəldi. Amma görüş onun fikirləşdiyi kimi çətin olmadı, Salamov hər şeyi qabaqcadan həll etdiyi üçün, başqa variantlardan istifadəyə ehtiyac qalmadı. "Deməli, agentura hələ də var gücü ilə işləyir", deyə "Yalquzaq" düşündü.

Axşam saat altıda Baratın kabinetinin qapısında boyu təxminən iki metrdən çox olan milliyətcə rus, səliqəli geyinmiş Arkadi Bıçkin dayandı. Baratla böyük ehtiramla görüşüb ona məsələni başa saldı.

Bıçkin generalın şəxsi cangüdəni, həm də onun ümumi qoruma dəstəsinin rəisi idi. Onlar Bıçkinin gəldiyi maşına minərək, generalın Bilgəhdəki bağına yola düşdülər. Şəhərin mərkəzindən xeli aralı məsafədə yerləşən bağ evi çox zövqlə tikilmişdi, ikimərtəbəli evin həyətində böyük bir hovuz, hovuzun içində cürbəcür rəngli balıqlar,

ətrafında isə müxtəlif ölkələrdən gətirilmiş cürbəcür ekzotik ağaclar əkilmişdi. Böyük bağda istirahət üçün hər bir şərait qurulmuşdu, bir neçə yerdə üstüörtülü "besedkalar" vardı ki, görünür "qonaqpərvər" general burada tez-tez "qonaq"larını qəbul edirdi. Arkadi, Baratı geniş zala apardı, oturub gözləməsini dedi, özü isə dərhal bayıra çıxdı.

Qədim üslubda və çox zövqlə bəzədəlmiş zal, tarixi filmlərdə gördüyü qədim Avropa saraylarını xatırladırdı. Zalın bir tərəfində onun bu vaxta qədər heç yerdə görmədiyi, çox qiymətli böyük soba vardı, sobanın ətrafında yumşaq divan və kreslolar qoyulmuş, ortada böyük masanın ətrafında xüsusi zövqlə düzəldilmiş stullar düzülmüş, divarda qədim saat asılmış, divarboyu uzanan rəflərdə divar kağızlarının rənginə uyğun kitablar düzülmüşdü ki, burada hər şey bir-birini tamamlayırdı. Barat sanki, nağıllar aləmində idi.

General onu çox gözlətmədi. Barat hələ oturmağa macal tapmamışdı ki, qapı açıldı, əvvəlcə Bıçkin, sonra isə general zala daxil oldular. Onlar köhnə tanışlar kimi görüşdülər. Generalın işarəsindən sonra, Arkadi zalı tərk etdi, onlar kiçik masa ətrafında qoyulmuş kreslolarda oturdular, gənc rus qızı qızılı məcməyidə içki və konfet gətirdi və tez də getdi. "Agentura burada da fəaliyyətdədir," deyə Barat düşündü. Yalnız qız gedəndən sonra, general Barata baxıb danışmasına razılıq verdi, özü isə kiçik qədəhlərə viski süzdü.

– İki gün öncə Moskvada Şaydulinlə görüşdüm, sizin kordinatları da, o verdi mənə. Qocaman bir dövləti dağıtdılar, indi kimin əlinə nə keçirsə özününkü sayır. Dünyanı qorxu altında saxlayan KQB, gör kimlərin

ümidinə qalıb. Zinatov kimi sərsəmlər, dağılmış KQB-nin yerində idarə açır, özü kimilərini başına yığaraq hamıya meydan oxuyur. Yaxşı ki hələ bu dağıntının qalıqları altında Şaydulin kimi başa düşənlər var, – deyə o, Moskvada olanların hamısını ətraflı şəkildə danışdı. Zinatovun ona qarşı soyuqluğunu, Şaydulinin daha yaxşı münasibətini, keçmiş KQB-də parçalanmanı, bir neçə qrupun yaranması haqqında geniş söhbət etdi. O, Baratın danışığından başa düşdü ki, onu mərkəzdə yaman incidiblər.

General təmkinlə ona qulaq asırdı, əslində isə özünü yaxşı dinləyici kimi göstərir, onun dediklərini bir-bir analiz edirdi. O, Zinatovu, Şaydulini və Sovet dönəmində fəaliyyətdə olan KQB-nin bir çox əməkdaşlarını çox yaxşı tanıyırdı, onlardan hər birinin nəyə qulluq etdiklərini də gözəl bilirdi, çünki onların əksəriyyəti onunla birlikdə oxuyanlar idilər və onun gözlərinin qarşısında pillə-pillə qalxmışdılar. O, hətta Baratın özünü də yaxşı tanıyırdı. Sovet casus məktəbinin ən uğurlu nümayəndələrindən biri olan əfsanəvi "Yalquzaq" haqqında eşitməmək mümkün deyildi. Tələbələrin əksəryyətinin bəlkə də ən böyük arzularından biri də, keçirdikləri əməliyyatlarda ad qazanmış "Yalquzaq", "Çopur", "Çolaq" və başqa casuslarla tanış olmaları olardı ki, bu gün general həmin o əfsanəvi "qəhrəmanı" öz dəbdəbəli bağ evində qəbul edərək bahalı içkiyə qonaq edirdi. Amma indi tələbəlik dövründən fərqli olaraq, heç də onunla tanış olmaq arzusundan irəli gəlməmişdi. Bu görüş, yaşının ixtiyar çağına çatan "Yalquzağ"a lazım idi, ən azı ürəyində illərdən bəri yığılıb dağa dönən dərdlərini boşaltmaq üçün. İki gün öncə onunla görüşən Şaydulin, Arkadi

Bıçkinlə əlaqə saxlayaraq generalın onu qəbul etməsini tapşırmışdı.

– Sizin fikirlərinizlə tam razıyam. Tarix sübut edib ki, bütün imperiyalar, zamanı gəlincə dağılır. Roma, Osmanlı, Ərəb, Monqol, çar Rusiyası və başqa imperiyaları buna misal göstərmək olar. Amma bunu Sovet İttifaqına şamil etmək olmaz, ən azı ona görə ki, bu imperiya deyil, sivil bir dövlət idi. Bu dövlətdə heç bir milli üstünlük yox idi, hamı bərabər idi və hamının bir adı vardı ki, bu da "Sovet vətəndaşı" idi. İki böyük qitəni əhatə edən, Qərbdən Şərqə, Şimaldan Cənuba qədər uzanan nəhəng bir Vətən – SSRİ. Dünya onun hökmünə baş əyirdi. İnsan qürur duyurdu belə əzəmətli ölkənin vətəndaşı olması ilə. Bu imperiya deyildi, bu İttifaq idi ki, onu qurmaq, qoruyub saxlamaq üçün nə qədər əziyyətlər çəkilmişdi, nə qədər qurbanlar verilmişdi, nələr edilməmişdi... İmperiyalar müharibə yoluyla dağıdılır, bizim nəhəng, sivil dövləti isə Qərbin bir başı xallı casusu dağıtdı. Əvəzində nə qazandıq? Müharibə, ölüm, aclıq, səfalət, azğınlıq, mənəviyyat pozğunluğu. Elə bir qüdrətli Vətən əvəzinə hərəmizə kiçik, lap uşaq oyuncağına bənzər Vətən verdilər, adam lap xəcalət çəkir. Dünənə qədər bir-birinə qardaş olan millətlər, bu gün bir-birinin qanına susayıblar. Bəli, ittifaqın dağılması bizi belə gözlənilməz sürprizlərlə üz-üzə qoydu. İstəsək də, istəməsək də bizim hər birimizin o dövlətin dağılmasında əlimiz var. Çünki bizim heç birimiz, öz işlərimizi vicdanla yerinə yetirmirdik. Hamımız, oğru idik və SSRİ ən böyük oğrular ölkəsi idi. Bəs bu gün necədir? Kənardan baxanlar elə düşünə bilərlər ki, hər şey əladır, lakin bunu mən sizə deyirəm, keçmiş "KQB"-nin zabiti, bu gün isə öz torpağı uğrunda heç nəyini əsirgəməyən Müdafiə Nazirliyinin

yüksək çinli generalı kimi tam məsuliyyəti ilə bütün dünyaya elan etməyə hazıram ki, əla heç nə yoxdur, daha da bərbad gündəyik və bu gedişlə hec bir zaman düzəlmək şansımız da yoxdur. Bu qədər torpaqlar itirmişik, hələ nə qədər itirəcəyik heç kimə məlum deyil, dövlət postunda oturan hər kəs, öz kreslosundan möhkəm yapışıb, sanki bu dövlət, bu torpaq yox, kreslo lazımdır ona. Başı çıxan, çıxmayan, hamı hara gəldi burnunu soxur. Müxalifət iqtidarı, iqtidarsa müxalifəti günahlandırır. Ətrafında beş on nəfər əli silahlı olan dövlətə rəhbərlik eləmək istəyir. Heç bir iş görə bilmirsən, ömründə bir gün belə hərbi xidmətdə olmayanlar özlərini general kimi aparırlar. Nədir axı bu? Belə bir xaosla uzağa getmək olmaz. Bu gün biz hamımız bir olmalıyıq, çəkici bir nöqtəyə vurmalıyıq, bütün qeyri problemləri təxirə salmalıyıq. Sizi inandırıram ki, belə hal təkcə bizdə deyil, bütün keçmiş İttifaq ölkələrində eyni situasiyadır, sadəcə olaraq məkan fərqi var. Bizə hal-hazırda dəmir əl lazımdır ki, hamını bir yerə yığsın, hər kəsə öz yerini göstərsin. Əks təqdirdə bu xaosdan çıxmaq şansımız sıfıra bərabərdir. – General danışığına ara verdi, qədəhlərə yenidən viski süzdü, görünür onun da ürəyi dolu idi, boşaltmaq üçün münasib bir həmsöhbət axtarırdı. Barat onun dediklərinin həqiqət olduğunu bilirdi, lakin onu da bilirdi ki, general heç də bütün bunları ürəkdən demir. O, hələ də "Böyük dövlətin" nostalji hisslərinin əsiridir, belə hallarda kiçik dövlətlərin daha böyük problemləri olur. Hər şey göz qabağında olduğu üçün, belə dövlətlərdə işləmək də çətin olur. "Oğrular ölkəsində" tərbiyə almış insanların islahı da çətin olur. Bir gün onun kimlərə qulluq etdiyini öyrənsələr, yəqin ki, ən azı öz zərli general paqonlarıyla həmişəlik vidalaşmalı olacaq. Onsuz da generalın bü-

tün bunları yaxşı başa düşdüyünü görür və öz hisslərini gizlədirdi. General qədəhi götürüb bir qurtum içdi, doğranmış şokoladdan ağzına atdı, Baratın üzünə baxaraq sağ əlini etiraz əlaməti olaraq yuxarıdan aşağıya doğru saldı – onsuz da xeyri yoxdur. Kimə deyəsən dərdini?... Desən belə başa düşəcəklərmi?... Nə isə. Hə, siz nə ilə bağlı görüşmək istəyirdiniz? Hər şeydən danışdıq sizin məsələ yaddan çıxdı.

Barat qədəhi götürüb bir qurtum içdi, tələsmədən şokoladdan da bir tikə ağzına atdı. O, generalın dediyi kimi heç də öz məsələsini yadından çıxarmamışdı, sadəcə təmkinini qoruyub ona diqqətlə qulaq asır, ilk dəfə üz-üzə gəldiyi müsahibini elə öz danışığından analiz edirdi. Bir anlıq ona elə gəldi ki, bütün bunlar hamısı böyük bir oyundur, kimsə lap yuxarıda, sonuncu lojada oturaraq bu oyunun təşkilatçısı və ən azartlı tamaşaçısı kimi, nəticəni əvvəlcədən bilərək oyuna tamaşa edir, onların necə də canfəşanlıqla, bir-biri ilə çarpışmalarını seyr edərək, hansının qaydalara əməl etdiyinə və ya etmədiyinə görə mükafatlandırır ya əksinə olaraq cəzalandırır. Əslində bu həqiqətən də belə idi, lakin Baratın bir ömür aldığı ateist tərbiyə və təhsil fitrən ürəyindən gələn bu səsləri qəbul etməyə imkan vermirdi. O, dünyanın böyük bir ümman kimi çalxalandığı zamanda, məcrasından çıxmış çayların qocaman kötükləri öndə gətirdiyi vaxtda, insanların bir-birinin qanına susadığı, kannibalistlərin kreslo – vəzifə uğrunda çarpışmalarının kulminasiya həddinin açıq-aşkar göründüyü bir məkanda göz açmışdı. Dünyanı gördüyü kimi dərk etmiş, dərk etdiyi kimi də qəbul etmişdi. İndi onunla üzbəüz oturan general da onun tam eynisi idi.

– Bu mənim şəxsi məsələm deyil, həm də bizi birləşdirən təşkilatın məsələsidir. Görüşümüzün əvvəlində mən sizə iki gün əvvəl Moskvada olduğumu dedim. Şəxsən İsak Yakuboviçin göstərişidir. Sizin tabeliyinizdə bizim işlərimizə mane olan bir nəfər var. Məlumata görə həddən artıq iddialı biridir. Onu aradan götürmək, ən azı isə ləkələmək lazımdır ki, çox irəli gedə bilməsin, çünki elə adamların irəli getməsi nə bizim quruma, nə də şəxsən sizin özünüzə sərf eləmir. – sanki kiminsə eşidəcəyindən ehtiyat edərək müsahibinə doğru əyilərək az qala pıçıltı ilə dedi. – Əgər dişin çürüyübsə, yaxşı olar ki, onu çəkdirib tullayasan, nə qədər müalicə etdirsən də bir gün yenə ağrıyacaq. Məsələni birdəfəlik həll etmək lazımdır.

General bir anlıq Baratla göz-gözə gəldi, onun gözlərindəki vəhşi parıltını gördü, damarlarında qanı dondu, ürəyinə qorxu doldu, bədənindən gizilti keçdi. "Deməli boş yerə "Yalquzaq" adı verilməyib buna", deyə düşündü. Ona elə gəldi ki, qarşısındakı qoca cəsus onun keçirdikləri hissləri duydu, ondan ayrılmaq məqsədi ilə tezcə soruşdu.

– Yaxşı, başa düşdüm. O kimdir?

– Onun haqqında bütün məlumatlar burda yazılıb, lazım olmadıqda məhv etməyiniz məsləhətdir.

General masanın üstünə qoyulan zərfə gözucu baxdı, hələ də "Yalquzağ"ın bayaqkı baxışlarının təsiri altında idi. Araya sükut çökdü, xeyli vaxt hər ikisi susdu, sanki deyiləsi sözləri bitmişdi. Barat ayağa qalxdı.

– Yaxşı. Əgər sözünüz yoxdursa, mən gedim.

General da qalxdı, qapıya qədər onu ötürdü.

ON SƏKKİZİNCİ FƏSİL

Yerinə uzanmasına baxmayaraq gözlərinə yuxu getmədi, artıq bir neçə gün idi ki, gözlərini yuman kimi Jora ilə Qariki görürdü. Əslində kinli adam deyildi, amma qarşısındakı həddini aşanda ona yerini göstərməkdən həzz alardı. Hələ uşaqlıqdan bu xasiyəti ilə yaşıdlarından fərqlənərdi.

Bir neçə dəqiqə yerində eşələndi, yerinə qor dolmuşdu elə bil, qərara gəldi ki, elə bu gecə onların arxasınca getsin, amma hara? Qarabağ böyükdü, indi onları haradan tapacaqdı? Joranın danışdıqlarını yenidən xatırlamağa başladı. Bütün danışdıqlarını beynində süzgəcdən keçirdi və birdən-birə üzünə işıq gəldi, sevincindən gülümsədi.

"Ara, sən Roma deyilsən? Sənin ananı... Bizi tanımadın ara. Mən Jorayam, bu da Qarikdir, ara. Əsgəran polkunda qulluq edırıx, bir azdan Əsgəran polkundan Lənkəran polkuna keçəcəyix, xa-xa-xa, amma ay yazıx, sən o günü görməyəcəxsən."

Daha dayanmaq olmazdı. Cəld yataqdan qalxdı, qaranlıq otaqda pəncərəyə yaxınlaşdı. Elə etməli idi ki, getdiyini kimsə görməsin, amma üstündəki silahı təhvil verməli idi, hərçənd ki, onu ötən əməliyyatlardan qənimət kimi götürmüşdü. "Steçkin" çox xoşuna gəlirdi.

Həyətdə kimsə gözünə dəymirdi. Pəncərəni azca açıb ətrafı dinlədi, hardasa at kişnədi, güllələr şaqqıldadı, itlərin səsi daha da çoxaldı. Yaxınlıqda səs-səmir yox

idi. Pəncərədən düşmək istəyirdi ki, qapı cırıltısı eşidib dayandı. Üzbəüz evin qapısı açıldı, çiynində zabit kürkü olan Zəfər qapıda göründü. Bir neçə dəqiqə eyvanda dayanıb ətrafı müşahidə etdi, sonra pilləkənləri enib həyətin o başında olan "ayaqyoluna" tərəf getdi. Ramiz insana məxsus olmayan bir çevikliklə pəncərədən düşərək onun otağına daxil oldu, tapançanı, güllə daraqlarını və yazdığı məktubu masanın üstünə qoyaraq tez də otaqdan çıxdı və kölgə kimi qaranlığa qarışdı.

Gecə ayın qaranlığında mövqeləri keçdi, sürətlə Əsgəran tərəfə getməyə başladı. Alayın yerini təxminən bilirdi, bundan əvvəlki əməliyyatların birində onun lap yaxınlığından keçmişdilər, səhərə az qalmış artıq Əsgəranda yerləşən alayın yaxınlığında gizlənmək üçün yer düzəldirdi.

Elə mövqe tutdu ki, buradan ətrafı müşahidə etmək daha asan və təhlükəsiz olsun. Tutduğu mövqenin bir tərəfi dərin dərəyə düşürdü, dərə isə keçilməz yamaclarla əhatə olunmuş qalın meşə zolağına qədər uzanıb gedirdi.

Onun yeganə çətinliyi silahsız olması idı, üstündə yalnız atasından ona yadigar olaraq qalan ov bıçağı idi ki, hələ türməyə düşməzdən əvvəl anası ona verərək kal səslə demişdi. "Oğul, bunu mənə gorbagor atan ölməmişdən əvvəl verdi ki, böyüyəndə sənə çatdırım. Başqalarının ataları onlara var-dövlət, mülk, malikanə qoyur, o gorbagorun da sənə qoyduğu yadigar bu olub, əvvəllər bu miras qalmışı sənə vermək istəmirdim, qorxurdum ki, əlindən bir xata çıxar. Amma bir neçə gündür ki, o gorbagor yuxumdan çıxmır, elə gözlərimi yuman kimi gəlir və "niyə mənim əmanətimi verməmisən"

deyir. Bu gecə isə əməlli-başlı üstümə gəldi, boğazımdan yapışıb boğurdu məni. Allaha and içirəm ki, əgər vaxtında əlindən çıxıb oyana bilməsəydim, bəlkə də öldürmüşdü məni. Özüm öz xırıltıma oyandım, oyanandan sonra da indiyə qədər boğazım ağrıyır. Nə dirisi bir gün verdi mənə, nə də ölüsü."

Ramiz atasını xatırlamırdı, heç atası da onun üzünü görməmişdi, hələ bir yaşı tamam olmamışdı atası türmədə dünyasını dəyişəndə. Anası ona aid nə olmuşdusa, hamısını məhv etmişdi, bir şəklini də saxlamamışdı. Ramizə isə onun haqqında ümumiyyətlə, heç nə danışmazdı, danışanda da ancaq nifrin tökərdi ona, nalayiq sözlərlə yad edərdi. Anasının dediklərinə görə çox əzazil, qəddar bir adam imiş, qonşuların və atasının tanışlarının danışığından isə çox mərd, hamıya əl tutan, kömək edən, əliaçıq və xeyirxah biri kimi yaddaşına həkk olmuşdu. Xüsusən, Ağabala dayının ağzından düşmürdü kişinin adı. Sonralar türməyə düşəndə atasının necə hörmət sahibi olduğunun şahidi oldu. Kriminal aləmdə bir sözünü iki eləyən olmamışdı onun, Mozdokdan Maqadanacan hamı tanıyırdı kişini. İllər keçməsinə baxmayaraq kişinin adı hörmətlə çəkilirdi.

Ramizin yadında idi, atası öləndən sonra arabir gecələr onlara yad adamlar gələrdi, qapını döyər, salamsız-kəlamsız içi dolu çantanı qapıdan içəri qoyaraq yoxa çıxardılar, anası da hər dəfə onları kobud söyüşlərlə təhqir edərdi və onların gözünə görünməyə Ramizə imkan verməzdi. Ana tək oğlunun gələcək taleyinin, atasının taleyinə bənzəməsini istəmirdi, bir gün hamıdan xəbərsiz baş götürüb oğlu ilə birgə bu şəhərdən hardasa uzaq bir vilayətdə gizlənmək istəyirdi, lakin son

zamanlar şiddətlənən xəstəliyi ona bu məqsədini həyata keçirməyə mane oldu. Bir də ki, hara getsin axı? İttifaqın hər yerinə onların əli çatırdı, dövlətdən fərqli olaraq, onlar hətta hər daşın altına bələd idilər.

Ramizin on yaşı olardı, gecələrin birində anası ağır xəstələnmişdi, o anasının yanında oturub təcili yardımın gəlməsini gözləyirdi. Qapı döyüldü, o cəld qapını açmaq üçün getdi. Amma qapıda təcili yardım yox, arıq, hündürboy, başdan ayağa qara geyinmiş, gözündə qara eynək, başında qara aerodrom şapka olan bir kişi, qara meşin çantanı içəri qoyub onun üzünə gülümsədi, sağ əli ilə onun saçlarını qarışdırdı və qapını bağlayıb getdi. Ramiz çantanı açdı və yerində quruyub qaldı, çanta ağzına kimi pulla dolu idi. Bayaqdan ayaq üstə dura bilməyən anası otağın qapısının ağzında dayanıb ona baxırdı. Anasının qəzəbli səsi onu düşdüyü vəziyyətdən qurtardı.

– Gətir o zibili bura.

Ramiz çaşıb qaldı, yəqin yenə anasının təzyiqi qalxmışdı, axı o harda zibil görürdü. O, çantanı özündən asılı olmadan bütün gücü ilə sinəsinə sıxıb dayanmışdı. Arvad ov üstünə şığıyan qızılquş kimi onun üstünə şığıdı, sinəsinə sıxdığı qara meşin çantanı alıb artıq on ilə yaxın dünyasını dəyişmiş ərini bu günə qədər heç kimdən eşitmədiyi söyüşlərlə yad edərək yataq otağına keçdi. Heç nə başa düşməyən Ramiz qapının ağzında donub qalmışdı. Yenidən qapı döyüldü, bu dəfə gələnlər təcili yardım briqadası idi.

Daha sonra başa düşdü ki, atasının yoxluğunda onların ailəsi daima kimlərinsə nəzarətində olmuş, anasının kobud rəftarına baxmayaraq, maddi yardım edilmiş-

di onlara. O gündən sonra atası həmin o gecəki kişinin qiyafəsindəki kimi yaddaşına yazıldı, hətta yuxularında da atasını elə o biçimdə – arıq, hündürboy, başdan ayağadək qara geyinmiş, başında qara aerodrom şapka, gözündə qara eynək olduğu halda görərdi. Amma bu yuxularda nədənsə həmişə özünü uşaq kimi görərdi, yuxuları da bir cür idi Ramizin.

O bütün gecəni yolda olduğu üçün bərk yorulmuşdu, hava işıqlaşana qədər bir az yatıb dincəlməli idi. Gizləndiyi yeri elə seçmişdi ki, buradan həm Əsgəran polkunun həyəti, həm də Əsgəran-Xankəndi yolu aydın görünürdü. Bu həmin yol idi ki, sovet vaxtında Ağdamdan Şuşaya, oradan da Laçına qədər uzanırdı. İndi ermənilər Əsgəranla Ağdam arasında bu yolu qazaraq Xoramurd kəndi yaxınlığında öz mövqelərini qurmuşdular.

Onun gizləndiyi yer ilə, şose arasında üç yüz metr məsafə olardı. Ondan əlli metr aşağıda sərin bir bulaq var idi ki, Ramiz bu yeri tapmazdan əvvəl o bulaqda su içib yuyunmuş, sonra bura qalxaraq özünə gizlənmək üçün yer düzəltmişdi. Hava buludlu idi, yəqin ki, səhər yağış yağacaqdı, dağların soyuğu yol gəlib tərləmiş Ramizi üşütməyə başlayırdı. Amma necə olsa yatıb dincəlmək lazım idi. Özünü yatmağa məcbur etdi.

Maşın səsinə oyandı, artıq səhər açılmışdı, çiskin yağış yağırdı. Dağın ətəklərində duman vardı. Boynundan asdığı durbinlə polka, sonra isə yola baxdı. "UAZ" markalı maşın şosedən bulağa doğru gələn torpaq yolla yeri eşə-eşə irəliləyirdi. Maşın bulağın yanında, hündür dağdağan ağacının altında dayandı, iki rus zabiti və iki yarıçılpaq erməni qızı maşından düşdülər. Zabitlərin bi-

rinin əlində araq şüşəsi var idi, görünür, onlar axşamdan başladıqları intim melodramı təbiət qoynunda davam etdirmək istəyirdilər.

O, bu zabitləri tanıyırdı. Bunlar həmin zabitlər idi ki, Ramiz əsir düşəndə əvvəlcə Xankəndidə, sonra da "Manuçarovun daçasında" izahat almışdılar ondan. "Guya əsirlərin hüquqlarını qorumaq üçün burdadılar, amma Jora ilə Qarik, onların gözünün qabağında məni döyərkən heç səslərini də çıxarmadılar, Xaçpərəst köpək uşaqları. Əlimə yaxşı keçmisiniz, indi mən sizə dünyanın neçə bucaq olduğunu göstərərəm. İndi görərsiniz özgə torpağına soxulmağın sonu necə olur."

O, təmkinli adam olmasına baxmayaraq, indi artıq özünə nəzarəti itirmək üzrə idi. İstəyirdi onların üstünə şığıyıb hamısını boğazlasın, meyitlərini dərənin dərin yerinə atıb qurda, quşa yem eləsin. Bəs sonra? Qayıdıb yenidən getsin Zəfərin yanına? Bəs Jora ilə Qarikdən əl çəksin? Yox bu mümkün deyildi, nə olursa-olsun o, həmin özgə həyətində yalmanaraq quduran it küçüklərinin cəzasını verməli idi. Onları başa salmalı idi ki, Azərbaycan torpağında yaşayıb, onun çörəyindən yeyib, suyundan içib və sonda nankor erməni olmaq olmaz. Ona görə də hələlik səbrini basdı, bu soyuqda gecədən içdikləri içkinin təsirindən çılpaqlanmış erməni fahişələri ilə pozğun rus zabitlərinin melodramının necə bitəcəyini gözlədi.

Zabitlərin hərəkətindən həddən artıq içdikləri bəlli idi, buna baxmayaraq yenə də dayanmırdılar. Sonradan adlarını öyrəndiyi leytenant Bondaryev qadınlardan birini qucaqlayaraq, bulaqdan bir az aralı olan dərəyə tərəf apardı. Qızdan aralanıb tapançasını çıxartdı, nəsə

deyərək göyə bir güllə atdı, güllənin səsinə yanındakı qadın diksindi, bu rus zabitinə şövq verdi. O, bərkdən gülərək havaya daha iki güllə atdı. Baş leytenant Xrinxua bulağın başından onlara tərəf gəldi və onun məzələndiyini görüb bərkdən dedi.

– Sənin ananı... sən yenə başladın? Sənə dedim axı az iç.

– Ox-x-x Saşa, Saşa... belə gözəl təbiətin qoynunda, belə bir qadın yanında, necə içməyim axı?

– Səs-küy salma, biz istirahət edirik.

O yenidən bulaq başına qayıtdı, əl-üzünü yudu və yanındakı qadınla maşına tərəf getdilər. Ramiz çantasını gizləndiyi yerdə qoydu, özü ilə kəndir və lazım olan bəzi şeyləri götürərək hiss olunmadan oradan çıxdı, sürünərək dərəyə endi. İndi onlarla arasındakı məsafə daha da azalmışdı, nə danışırdılarsa aydın eşidirdi. Qız rus dilində çox pis danışırdı, hətta tez-tez erməni sözlərindən də istifadə edirdi.

– Bəlkə maşına gedək, mənə soyuqdur?

– Yo-ox, olmaz, indi orada sənin rəfiqənin halı çox gərgindir, yəqin ki, onlar it kimi.., o öz gecəki borclarını qaytarır. Bəlkə sən də qaytarasan, hə-ə? İndi mən səni qızışdıraram – deyə kefli zabit onun qolundan tutub özünə tərəf çəkdi. Araq şüşəsini ona uzatdı, qadın şüşəni alıb başına çəkdi. Zabit onu arxadan qucaqladı, onsuz da dizlərindən çox yuxarı olan geyimini, bir az da yuxarı qaldırdı, qadın əyilərək əllərini yerə qoydu və onlar heyvani hisslərin təsiri ilə şəhvət aləminə yuvarlandılar.

Ramiz ovunun üstünə hücum edən pələng kimi bir göz qırpımında onların yanında idi, bir toxunuşla zabi-

ti yerə sərdi. Gecədən içdiyi içkilərin və zabitdən aldığı intim münasibətin təsirindən hələ tam ayılmayan qadın, qarşısındakı bədheybəti görüb özünü itirdi. Ramiz yavaşca onun boğazına toxundu, sonra hər ikisini dərəyə apardı, bir-birinə sarıyıb ağaca bağladı, maşının yanına qayıtdı.

Xrinxua ilə yanındakı qadın hər şeyi unudaraq, sanki yataqdaymışlar kimi lüt soyunaraq intim dünyanın xəritəsində son konturları cızırdılar. Ramiz maşının qapısını açarkən onlar elə bildilər ki, Bondaryev yanındakı qadınla birlikdə onlarla zarafat etmək üçün gəlib. Geriyə baxmadan söyüşlə onu qovmaq istədi.

– Volod, sənin ananı... Qapını bağla.

Lakin cavab gəlməyincə dönüb arxaya baxdı və gördüyü mənzərədən sanki bədəninə elektrik cərəyanı buraxılmış kimi titrədi. Qeyri-ixtiyari silahını axtardı, lakin güclü bir əl onun ayağından tutaraq sürüyüb maşından çölə atdı. Xrinxua onu tanımışdı, özünü müdafiə instiktinin köməyi ilə o cəld ayağa qalxdı, bir anlıq Ramizlə göz-gözə qaldılar. Gözlərindəki qorxu və həyəcan aydın hiss olunurdu, bilmirdi ki, qaçsın, yoxsa hücum etsin. Amma hər ikisi artıq gec idi. Onun sürətli və çox zəif toxunuşundan sonra huşunu itirdi və arxası üstə yerə yıxıldı. Ramiz maşının açıq qapısından içəri baxdı, bütün bu mənzərəni seyr edən lüt qadın donmuş vəziyyətdə əlləri ilə sinəsini tutub ona baxırdı. Uzun tüklü bir əl ayaqaltına düşmüş tapançanı götürdü, ona iyrənc bir varlıq kimi ikrahla baxıb xırıltılı səslə əmr etdi.

– Əynini geyin.

Qadın cəld və çaşqın vəziyyətdə paltarlarını axtarmağa başladı. Tələsik tapdığı paltarları geyinib əks

tərəfdəki qapıdan düşmək istəyirdi ki, həmin tüklü əl onun qolundan tutdu. Güclü barmaqlar onun qol sümüyünü elə sıxdı ki, az qaldı sümüyü sınsın. Qadın, müti vəziyyətdə tabe olmaqdan başqa bir çarə olmadığını görüb təslim oldu. Ramiz, maşının ön oturacağında olan iki qandalı və başqa lazımi əşyaları götürdü, qadının əlini yerdə uzanmış Xrinxuanın əlinə bağladı. Sonra yenidən maşına dönüb yük yerini yoxladı, oradan iki "AKMS" tipli avtomat silahı, xeyli patron və on iki əl qumbarası götürdü. Hamısını bir çantaya yığıb qadına verdi. Onları da dərəyə gətirib ayıltdı, dərənin içi ilə qalın meşəyə tərəf yola düşdülər.

ON DOQQUZUNCU FƏSİL

Üç saat yol getdikdən sonra Ramiz onları saxladı, yolun çətin olduğunu nəzərə alsaq, qadınlar daha hərəkət edə bilmirdilər. Onların hamısının qolları arxada bir-birinə bağlanmış və əlavə olaraq hamısı bir-birinə zəncirvari aralarında bir metr məsafə olmaqla bağlanmışdılar. Meşənin qalın olmasına baxmayaraq, gündüz hərəkət etmək riskli və qorxulu idi. Hər an kimlərəsə rast gəlmək olardı. Ramiz ağac və kolların sıx olduğu yerdə yenicə sığınacaq tapıb daldalanmışdı ki, iki saat bundan əvvəl eşitdiyi tanış quş səsini bir də eşitdi. Doğrudanmı, onu bayaqdan izləyirdilər? Bu siqnal Tərlana məxsus idi, əməliyyatlarda hamının diqqətini özünə cəlb etməyə bir işarə idi. Bəs indi görəsən nə üçün və kim tərəfindən verilirdi bu siqnal? Bəlkə onları başqa kimsə də izləyir?! Yenidən həmin quş səsi və lap yaxınlıqda qurdun uzun ulaması, artıq onda heç bir şübhə qoymadı. Tərlangil onun lap yaxınlığında idilər. Qurd səsi "boz qurd"a işarə idi ki, "əgər müqavimət göstərsən parçalanacaqsan" demək idi. O isə müqavimət göstərmək fikrindən uzaq idi. Hələ yolun birinci saatında onların işarələrini eşidib hətta sevinmişdi də. Birdən əsirlərin yanında iki nəfər maskalı peyda oldu, elə bildi ki, onu qara basır, silahını hazır vəziyyətə gətirdi.

– Silahı aşağı sal, bizik.

Bu Tərlanın səsi idi, onun bir necə addımlığında, yerə çökmüş vəziyyətdə oturmuşdu, sanki pıçıltıilə dedi, bu sözləri. Ramiz silahı aşağı saldı, onlar həmişəki kimi özlərinə məxsus tərzdə görüşdülər. Ramiz əsirlərlə birlikdə dərin dərə ilə meşəyə doğru irəliləyən zaman Tərlan maşını o ərazidən uzaqlaşdırmaq məqsədi ilə iki nəfər göndərmişdi. Onlar hadisə yerindən dörd kilometr aralıda maşını dağdan aşağı buraxmışdılar. Düşmən duyuq düşəndə onları başqa səmtdə axtaracaqdı. Ramiz hələlik özbaşına başladığı əməliyyatı başa çatdırmamışdı, Jora və Qarikin məsələsi həll olunmamışdı. Buna görə də o, əsirləri Tərlana verərək onların arxasınca qayıtmaq istəyirdi. Lakin Tərlan onunla razılaşmır, birlikdə getmələrini israr edirdi, amma onu fikrindən döndərə bilməyəcəyini də gözəl bilirdi. Sonda qərara gəldilər ki, Şahin özü ilə bərabər üç nəfər kəşfiyyatçıy ilə əsirləri mövqelərdən keçirsinlər, Tərlan isə Ramizlə birlikdə qalsın.

Onlar Əsgəran alayının yaxınlığında gizlənərək gecənin düşməsini gözləyirdilər. Hava qaralan kimi əməliyyata başladılar, Tərlan götürüləcək adamları tanımadığı üçün əməliyyatın bütün yükü Ramizin üstünə düşürdü. Alayda tam sakitçilik idi, görünür yoxa çıxan rus zabitlərindən hələlik məlumatları yox idi, bu isə onlara əməliyyatı aparmaq üçün böyük üstünlük verirdi. İndi ilk növbədə Jora və Qarikin hərbi hissədə olmasını öyrənmək lazım idi. Seçdikləri yer hərbi hissə ilə yaşayış məntəqəsinin arasında idi, bu da həm alayı, həm də hərbi hissədən yaşayış məntəqəsinə gedən yolu nəzarətdə saxlamağa imkan verirdi. Ramiz durbini yerə qoymur, nəsə tanış bir şey tapmaq marağı ilə elə

hey hərbi hissənin həyətini və Əsgəranın onlara tərəf olan hissəsini izləyirdi. Tərlan isə, arxası üstə uzanaraq, aydın səmada ulduzları seyr edir, xəyalən qurduğu, müharibədən sonrakı həyatının eskizlərini cızırdı.

Bu zaman bir erməni əsgərinin hərbi hissənin hasarını keçərək onlara tərəf gəldiyini görən Ramiz fitlə quş səsi çıxardı, əlli metr aralıda gizlənərək özünə mövqe tutan Tərlan başını qaldırıb ayın işığında alaydan onlara tərəf gələn əsgərə tərəf baxdı.

Görünür, əsgər hərbi hissəni özbaşına tərk edərək Əsgərana gedirdi. O, yoldan çıxaraq cığırla hərəkət etməyə başladı, cığır isə Tərlanın gizləndiyi yerin on-on beş metrliyindən keçirdi. Onun kürəyində içi dolu hərbi canta vardı. Yolun kolluqlar başlayan hissəsində bir anlıq duruxdu, elə bu zaman hərbi hissənin buraxılış məntəqəsindən bir maşın sürətlə Əsgərana tərəf getməyə başladı. Maşını görən əsgər onu görəcəklərini zənn edərək özünü kolluğa doğru atdı və Tərlanın mövqe tutduğu yerin lap yaxınlığında kolluqların arasında gizləndi. Maşın şosse ilə şütüyərək keçdi, gur işıqları ayın işığına qarışaraq ətrafı daha da işıqlandırdı. O keçəndən sonra, sanki ayın işığı zəiflədi, ətraf daha qaranlıq oldu. Ramiz maşını sona qədər izlədi, maşın Əsgəranın girəcəyində bir həyətə girib işıqlarını söndürdü. Tərlan əsgərin kolluqdan çıxmasını gözlədi, onu bir az da gizləndiyi yerdən irəli buraxdı, arxadan şığıyaraq onu yerə yıxdı. Onsuz da gecənin və kolluqların xofu ürkütmüş əsgərin səsi belə çıxmadı, o huşunu itirmiş halda yerə yıxıldı. Tərlan cəld onun qollarını və ayaqlarını, sonra isə yapışqanlı lentlə ağzını bağladı. Əsgərin özünə gəlməsi xeyli çəkdi. Çantası ərzaqla dolu olan əsgərin

nəhayət ki, dili açıldı. O, azəri türkcəsində təmiz danışırdı.

– Deyəsən özünə gəlmisən, bax sənə deyirəm, əgər verilən suallara düzgün cavab versən, səni öldürməyəcəyik, yox əgər bizi aldatsan, özün hər şeyi yaxşı başa düşürsən. Razısan?

O, başıyla razılıq işarəsi verdi.

– Onda de görək, sən kimsən və bu hərbi hissənin komandiri kimdir?

– Mən Samvel Marmaryanam, özüm də köklü Əsgərandanam, bütün ailəm hal-hazırda burada yaşayır. Hərbi hissənin komandiri əslində bir rus polkovnikidir, adını bilmirəm, amma idarə edən Artur Mkırtıçyandır. O, Qarabağ ermənisidir, bildiyimə görə əslən Kərkicahan tərəfdəndir, Sovet vaxtında uzun müddət türmələrdə yatıb və onun bir sözü nəinki burada, hətta bütün ermənilər arasında iki ola bilməz. Bütün hər şeyə o nəzarət edir.

– Deməli, sizin qeyri-leqal komandiriniz Mkrtıçyandır? O indi haradadır, saat neçədə işə gəlir, neçədə işdən gedir?

– O, nəinki bizim, hətta bu ərazidə yerləşən bütün hərbi hissələrin qeyri-leqal komandiridir. Əslində o, hərbi hissələrə çox az halda gəlir, harada yaşadığını da biz bilmərik. Hər hərbi hissədə onun adamları var və onlar vasitəsiylə nə baş verirsə hamısını öyrənir. Bizim hərbi hissəyə də iki nəfər adam təyin eləyib, onlar hər şeyə nəzarət edirlər. Təyin etdiyi adamlar yerli ermənilərdən ola bilməz, Rusiyadan, Fransadan, Livan və Amerikadan ən azı Bakıdan olan ermənilər olmalıdır

ki, onlar da xüsusi qəddarlığı ilə seçilirlər. Biz öz aramızda onlara "Arturun oğulları" deyirik.

Bayaqdan Tərlanın sorğu-sualına qulaq asan Ramiz hiss elədi ki, Əsgəran alayında "Arturun adamları" elə məhz Joray ilə Qarikdir.

– Bəs Jora və Qarik kimlərdir?

– Bizdəki "Arturun oğulları" elə onlardır. Onlar Bakı ermənilərindir. Mkırtıçyan hər şeyi onlara tapşırıb, bu iki nəfər onun gözləri və qulaqlarıdır. Hərbi hissədə nə olursa və kimdən xoşları gəlmirsə, dərhal beşini də üstünə qoyub Artura çatdırırlar. O isə ağıla gəlməyəcək dərəcədə qəddar və amansızdır. Onlardan hələ kiminsə razılıq etdiyini eşitməmişəm. Özləri isə nə istəyirlərsə, onu da edirlər, heç kim onlara gözün üstdə qaşın var deyə bilməz. Bir ara mənə də ilişmək istəyirdilər, yaxşı qurtardım.

– İndi onlar haradadırlar, bilmirsən?

– Bir az əvvəl qırmızı "Niva"da gedən onlar idi. – Əli ilə Əsgəranı göstərdi. – Burada, Əsgəranda bir evə gedirlər. İki bacının yanına. Qızların anası da bunların hesabına az qalıb ki, bütün Əsgəranı özünə qul eləsin, hətta eləyib də, arvad elə bil bu zonanın hərbi qarnizonunun rəisidir, bunlardan istifadə edərək kiçik evini əsgərlərin və yerli camaatın hesabına yenidən tikdirib malikanəyə çevirib, hasarı qala divarlarını xatırladır.

– Ev neçə mərtəbəlidir?

– İki mərtəbə , üstü mansard.

– O evdə daha kimlər olur, yəni silahlı əsgər və yaxud da cangüdənlər? – deyə Ramiz daha da dəqiqləşdirdi.

– Gecə onlardan başqa heç kim olmur, gündüz isə lazım olarsa, qapıda işləmək üçün əsgərlər gedirlər. O

evin bütün işlərini bizim əsgərlər görürlər və ora lazım olan hər şey hərbi hissədən gedir.

– Hər şey deyəndə nəyi nəzərdə tutursan? – deyə Tərlan soruşdu.

– Ərzaq, geyim, yatacaq, siqaret və içkilər. Siqaret və içkiləri komandirin hesabına gətizdirirlər onlar üçün.

O, bütün suallara heç nəyi gizlətmədən cavab verirdi, indi hər şey aydın idi. Əməliyyatın əsas hissəsinə başlamaq olardı, bundan münasib vaxt ələ düşməyəcəkdi. Tərlan qarşısındakı erməni əsgərinin səmimiliyinə inanmışdı, o bütün suallara düzgün cavab vermişdi, əslində Qarik və Joranın etdiklərinə görə onlardan qisas almaq istəyirdi.

– Bax, indi biz gedəcəyik, sən elə burada yatacaqsan, iki saat müddətinə biz bura qayıdacağıq, əgər bizi aldatmamısansa, səni açıb buraxacağıq, yox əgər əksinə olsa bizdən incimə.

O, and içərək heç nəyi yalan demədiyini bildirdi, onu buraxmalarına görə yalvardı, lakin bunların hamısı əbəsdi, Ramiz artıq öz işini planlaşdırmışdı və belə yalvarışlar ona təsir edə bilməzdi. O, ehmalca Samvelin boğazına toxundu, o bir anlıq titrədi, sonra dərin yuxuya getmiş kimi yatdı. Ramiz Samveli sürüyüb kolluğun qalın yerinə apardı. Onu gizlətdikdən sonra hər ikisi sanki bir biri ilə yarışırmışlar kimi bayaq "Niva"nın dayandığı qapıya doğru qaçdılar. Doğrudan da həyətin hasarı çox hündür və ərazisi həddən artıq böyük idi. Ramiz və Tərlan evin arxa tərəfinə fırlandılar. Arxa tərəfdə yerin relyefinə uyğun olaraq hasar nisbətən aşağı idi və iki böyük bir ağac hasara çox yaxın idi, ağacların budaqları hətta hasardan həyətə keçmişdi.

Hər iki kəşfiyyatçı insana xas olmayan cəldliklə ağaca dırmaşdılar, qalın budaqlar arasından həyətin bir hissəsini müşahidə etmək mümkün idi. Həyətin və otaqların işıqları yanırdı, yəqin ki, evdəkilər hələ ki yatmamışdılar. Onlar bir-birinə baxdılar, vaxt isə gözləmirdi.

İndi onlar üçün hər an, çox, daha çox qiymətli idi. İndi zamanın ötən hər saniyəsinin böyük əhəmiyyəti vardı, kəşfiyyatçıların həyatında belə şeylər çox olur. Bir də baxırsan ki, bir saat və ya bir gün bir ilə yaxud da daha böyük bir zaman qədər uzun olur, yaxud da əksinə, günlər bir an qədər qısa olur ki, o zaman kəsiyi həyatın həlledici amilinə çevrilir. Zamanı qiymətləndirmək, onu dəyərləndirmək kəşfiyyatçı üçün ən mühüm amillərdəndir, vaxtında atılan addımın, edilən hərəkətin pik nöqtəsində gələcəyin xöşbəxt anları, yoluna dikilən həsrətli baxışların sevinci, ruhunun, mənəviyatının azadlığı dayanır və elə bu səni, gələcək günlərində döyüşdən döyüşə aparır. Bu həyatda sənin olan hər anın böyük əhəmiyyəti var, onu itirməklə bəzən özünə məxsus olan hər şeyi itirmiş olursan. Tərlanla Ramiz indi ağacların qalın budaqları arasında olaraq həmin anları yaşayırdılar. Həlledici addımı atmaq vaxtı idi.

Onlar budaqlardan sallanaraq hasarın üstünə düşdülər, hündür hasardan həyətə enib evə tərəf qaçdılar, divarın dibi ilə qaçarkən Tərlanın ayağı divara maili söykənmiş dəmirə ilişdi, o bütün bədəni ilə üzü üstə yerə dəydi. Zərbə qəfil olduğu üçün çox güçlü alındı, içində sanki zəlzələ baş verdi, bütün daxili orqanları titrədi. Lakin gözləmək olmazdı, onlar hərəsi ayrı istiqamətlərdən evin ön tərəfinə keçdilər.

Evin girişinin sağ və sol tərəfində adam boyu qədər qalxmış gül kolları əkilmişdi. Şüşələri görünməz qatla örtülmüş qırmızı "Niva" evin giriş qapısından bir neçə metr aralıda daş döşənmiş həyətdə dayanmışdı, maşının "kapotunun" üstünə Ermənistanın bayrağı boya ilə çəkilmiş, sağ və sol tərəf güzgülərin yanında kiçik erməni bayraqları sancılmışdı.

Tərlan Ramizə dayanmasını işarə edərək maşına yaxınlaşdı, maşın boş idi. Bu vaxt ərzində Ramiz evin qapısını yoxladı, qapı içəridən bağlı idi, bu isə onların işini bir az çətinləşdirirdi. Evin içərisinə bir yol tapmaq lazım idi, səhərə qədər burada gözləmək olmazdı, lakin evdəkilərin səsləri kəsilmirdi, görünür hələ yatmamışdılar, saat birə on beş dəqiqə qalırdı.

Nəhayət ki, saat ikinin yarısında evdə səs-küy kəsildi, içəridə işıqlar söndü. Bu müddət ərzində onlar qapının sağ və sol tərəflərində gül kollarının arasında gizlənmişdilər. Onlar yarım saat da gözləyib işə başladılar. Tərlan bayaq ayağına ilişən uzun lingi gətirdi, Ramiz linglə səs salmadan pəncərənin dəmir barmaqlıqlarının bir tərəfini qaynaq yerlərindən qırdı, barmaqlıqları aralayıb pəncərəni açdı, hər ikisi dəhlizə daxil oldular. O, bunu o qədər səliqəli və cəld elədi ki, Tərlan hətta ürəyində "elə bil uşaqlıqdan küçədə böyüyüb, peşəkar oğru olub" deyə fikirləşdi. Həyətin işığı dəhlizi də işıqlandırırdı. Onlar dəhlizlə gedir, sağ və sol tərəfdə yerləşən otaqların qapılarını astaca aralayaraq içəri baxırdılar. Tərlan ikinci otağın qapısını açan zaman çarpayıda kiminsə yatdığını gördü, astaca içəri keçib çarpayıya yaxınlaşdı. Otaq həyətdən düşən zəif işıqla alatoran idi. Tək bir nəfər olduğu üçün qızların anası olduğunu

düşündü. Otağa nə qədər ehtiyatla girməsinə baxmayaraq qadın oyandı, yerində dikəlib ona baxdı, bu zaman Tərlan əlindəki fənərlə onun üzünü işıqlandırdı. Qadın dəhşətdən açılmış gözlərini bu çağırılmamış qonağa dikib nə edəcəyini bilmirdi. O, çarpayıdan ayağa qalxdı, bir neçə addım atıb müvazinətini itirdi, bütün bədəni ilə döşəmənin üstünə düşdü. Tərlan dərhal qadının əllərini, ayaqlarını və ağzını yapışqanlı lentlə bağladı və cəld qapını açıb dəhlizdən Ramizin girdiyi otağa geçdi.

Tərlan otağa girəndə zəif işıqda lüt qızın döşəmənin üstündə arxası üstə uzandığını və lüt bir kişinin Ramizin qarşısında dizləri üstə dayandığını gördü. Ramiz demək olar ki, işini bitirmişdi. Fənərlə diz üstə çökənin üzünü işıqlandırdı. Onun gözlərində dəhşətlə bərabər qorxu və yalvarış vardı. Ramiz ona yaxınlaşıb sağ əli ilə boynundan tutdu, uzun, kobud barmaqlar öz işini görməyə başladı, sanki Qarikin boynu məngənənin arasında idi.

– Jora hardadır?

O, ağrıdan qıvrılaraq qalın qaşlarının işarəsi ilə ikinci mərtəbəni göstərirdi. Ramiz onun boynunu buraxıb üzünə tüpürdü, bir addım geri çəkilb ona samballı bir təpik vurdu. Qarik dizləri üstə dayana bilməyib yerə yıxıldı və ağrının təsirindən qıvrılmağa başladı.

– Satqın köpək uşaqları, bir azca çətinliyə düşən kimi bir-birini "baqaja" qoyurlar. Amma imkan əllərində olanda adamın qanını içirlər. Qadın, kişi, uşaq, qoca bilmirlər.

Ramiz başı ilə Tərlana işarə edib cəld yuxarı – ikinci mərtəbəyə qalxdı. Çox keçmədən pilləkənlərlə döyərək aşağı düşürdüyü Joranın iniltili səsi gəlirdi. Düşdüyü vəziyyəti anlayan Jora ona yalvarır, "Axı biz hər ikimiz

Bakıdanıq ara" deyirdi. Onun əlləri açıq idi. Onların olduğu otağın qapısına çatanda Ramiz ona tutarlı bir zərbə vurdu. Joranın piyli bədəni titrədi, müvazinətini saxlaya bilmədi, tappıltı ilə üzü üstə yerə gəldi.

Əməliyyatın əsas hissəsi başa çatmışdı, indi təkcə qalırdı ən yaxın mövqelərin birindən o biri tərəfə – bizim tərəfə keçmək.

Onlar danışdıqları kimi etdilər, Tərlan Qarikin paltarlarını geyindi, Ramiz arxada əsirlərlə birlikdə oturdu. Saat üçdə Əskərandan çıxaraq Ağdama tərəf getməyə başladılar. Xoramurda gedən yolda iki yoxlama məntəqəsini keçdilər, xoşbəxtlikdən onları kimsə saxlamadı.

Görünür, yoxlama məntəqəsində olanlar maşını tanıyırdılar, özlərinə artıq baş ağrısı olmasın deyə tələsik yolu maneələrdən təmizləyirdilər, onlar hətta maşına yaxın gəlməyə belə qorxurdular. Yalnız sonuncu mövqeyi keçərkən silahsız bir əsgər yola tərəf qaçdı, yəqin ki, buranın sonuncu – döyüş mövqeyi olduğunu xəbər vermək istəyirdi. Lakin Tərlan ona fikir vermədi gəldiyi sürətlə də irəli şığıdı, bir az irəlidə yolun üstünə betonlar qoyulmuşdu.

Yolun bir tərəfi dərin uçurum, digər tərəfi isə qazılmış xəndək idi, uçurum tərəfdə bir maşının zorla keçə biləcəyi qədər yer vardı, amma buradan gecə vaxtı keçmək çox böyük risk tələb edirdi, dərin dərəyə yuvarlanmaq təhlükəsi böyük idi. Lakin ikinci – alternativ variant da yox idi. Tərlan bunların hamısını bilə-bilə yolun sol tərəfindəki təhlükəli yeri seçdi. Maşının sürətini azaldaraq uçurumun kənarına yaxınlaşdı, beton pilitələri sürtərək o biri tərəfə keçə bildi. Bu ana qədər ermənilər

bir güllə belə atmırdılar. Yalnız oranı keçəndən sonra sanki onlar nə baş verdiyini anlayaraq atəşə başladılar. Amma artıq gec idi. Qarşı tərəfdən onlara sərrast atəşlə cavab verildi. Dağılmış asfalt yolla sürətlə irəliləyən "Niva" dağın arxasında görünməz oldu. Bir neçə kilometr qabaqda Zəfərgil onları qarşılamaq üçün çıxmışdılar.

O gün xüsusi bir gün idi, Ramizin heç zaman yadından çıxmayacaqdı. O, ilk dəfəydi ki, sanki öz doğma adamı ilə görüşməyə can atırdı, anası dünyasını dəyişəndən sonra bu hislərin ləzzətini də yadırğamışdı Ramiz. İndi isə Zəfəri görmək üçün tələsirdi.

Həyatda elə duyğular var ki, onları sonradan qazanmaq olmur, bu duyğular insanın fitrətində olmalıdır və bunlar insana ana bətnində olarkən verilir. Sonradan qazanılmış olsa belə, bu duyğular fitrətdə olduğu kimi olmur. Yaradana, Vətənə, Anaya, el-obaya, nəhayət ki evinə, ailənə olan bağlılıq, sevgi, məhəbbət – bütün bunlar hamısı insanın fitrətində olmalıdır. Bu Rəbbimizin biz insanlara verdiyi ən böyük hədiyyədir.

İYİRMİNCİ FƏSİL

General Baratı qapıdan ötürüb geri döndü, bayaq oturduğu kürsünün yanında dayandı, masanın üstündəki məktuba baxdı, amma əlini uzadıb məktubu götürməyə özündə cəsarət tapmadı. Hələ də Baratın qurd baxışlarına bənzər iti və vahiməli baxışlarının təsiri altında idi.

Viskini götürüb qədəhi doldurdu və birnəfəsə başına çəkdi. Yalnız bundan sonra masanın üstündəki məktubu götürdü, səliqə ilə yapışdırılmış yerindən açmağa başladı. Məktubun içərisində iki foto şəkil və kiminsə haqqında yığılan dosye vardı. Şəklə diqqətlə baxdı. Bu əfsanəvi kəşfiyyatçı kimi tanınmış polkovnik-leytenant Zəfər Mirzəyevin şəkilləri idi. Təxminən üç ay əvvəl onun rütbə və "Azərbaycan bayrağı" ordeni almaq üçün təqdimatına o özü də imza atmışdı. Artıq Zəfər növbəti rütbəsini almışdı, amma orden üçün təqdimat Ali Baş Komandana göndərilmişdi və yaxın günlərdə yəqin ki, təqdim olunacaqdı. General bu təqdimatları görəndə hətta sevinmişdi də. Çünki o Zəfəri əvvəlcədən tanıyırdı, onun necə kəşfiyyatçı olduğuna bələd idi, onun haqqında Rusiya xidmət orqanlarının fikirlərini dəfələrlə eşitmişdi.

Əgər generaldan soruşsaydılar ki, Azərbaycan Ordusunda əks kəşfiyyatın banisi kimdir o fikirləşmədən Zəfər Mirzəyevi göstərərdi. Zəfərin ordumuzdakı xidmətləri hədsiz dərəcədə çox idi. Ən əsası, o, yeni ya-

ranmış orduda kəşfiyyat məktəbini yaratmışdı və hər bir kəşfiyyatçı onun üslublarından istifadə edərək böyük nailiyyətlər əldə edirdilər. İndi isə general öz imzasını təkzib etməli, bu günə qədər fəxr etdiyi bir adamın üstündən qara xətt çəkməli idi. Onun fikrincə belə bir işi tutmaq üçün gərək vicdanı tamamilə unudub, ən böyük vicdansız olaydın.

Zəfər haqqında bir xatirəni heç zaman unutmayacaqdı.

"Min doqquz yüz doxsan üçüncü ilin iyun ayının əvvəlləri idi. Qoşunlarımızın böyük ruh yüksəkliyi ilə irəli getdiyi zaman rus "KQB"-si öz agenturası vasitəsi ilə təxribatlar törətməyə başladı. Vətənin təhlükədə olması, işğaldan azad olunmuş torpaqların yenidən işğal altına düşmə etimalının yüksək olması, yalnız özünü düşünən, ağac qurdu kimi milləti, dövləti öz içərisindən yeyən bir qrup "sapı özümüzdən olan baltaların" – milli düşmənlərin baş qaldıraraq erməni dəyirmanına su töküb, düşmənlə birləşməsi, Azərbaycanı istər siyasi, istərsə də hərbi meydanda tək qoyması idi. Çox ağır günlər idi.

Müdafiə Nazirliyində olan sağlam fikirli zabit heyəti böyük itkilər hesabına azad olunmuş torpaqları itirmək istəmirdilər. Lakin ikinci böyük şəhər olan Gəncədə hərbçilər qiyam qaldıraraq mərkəzi hakimiyyətə tabe olmaqdan imtina etdilər. Özlərinə tabe olan könüllülərdən ibarət qoşun hissələrini ön cəbhədən geri çəkərək mövqeləri boşaltdılar.

Bakıda mərkəzi hakimiyyət başını itirmişdi. Dövlətdə xaos hökm sürürdü. Cəbhədəki vəziyyət isə heç də ürəkaçan deyildi. Ağdərə uğrunda qanlı döyüşlər gedirdi. Hərbi hissələrdə tabeçilik azalmış, əsgərlərin döyüş

ruhu aşağı düşmüşdü. Bundan istifadə edən düşmən, böyük qüvvə ilə hücuma keçdi. Düşmən hücumlarının qarşısını almaq, ordunun özünə gəlməsi üçün vaxt qazanmaq lazım idi.

Müdafiə Nazirliyində təcili müşavirə keçirdik. Mənim təklifimlə hamı razılaşdı, çünki həmin zaman üçün ən yaxşı təklif idi. Təcili planın hazırlanması və yerinə yetirilməsini də mənə həvalə etdilər. Müşavirədən sonra səhərə qədər yatmayıb planı hazırladıq, hər şey xəritə üzərində öz əksini tapmışdı. Səhər saat beşdə hazır planı polkovnik Vaqif Nuriyevlə Ağdamda yerləşən "N" saylı hərbi hissəyə göndərdik.

Əməliyyat bundan ibarət idi. Xankəndi ilə Ağdərə arasında – Sırxavənd kəndinin yaxınlığında sıldırımlı dərənin üstündə körpü vardı ki, onu partlatmaqla erməni-rus qoşun birləşmələrinin, xüsusən də hərbi texnikanın Xankəndidən Ağdərəyə dislokasiyasını ləngitmək olardı. Lakin bizdə olan məlumata görə, körpü ruslar tərəfindən çox güclü mühafizə olunurdu. Sovet dönəmində dəmir betonla salınmış körpünün həddən artıq dözümlü olmasını da bilirdik və buna görə də hər şeyi nəzərə alaraq, partlayıcı maddələri artıqlaması ilə hesablamışdıq. Ümumi olaraq əməliyyata otuz iki saat vaxt ayırmışdıq.

O zaman mən artıq bu əfsanəvi kəşfiyatçı barədə hər şeyi bilirdim. Onu bir daha yoxlamaq və eşitdiklərimə inanmaq üçün bu əməliyyatın ona tapşırılmasını təklif etdim. Əməliyyatın çətinliyini nəzərə alaraq əlavə iki nəfər də onunla birlikdə getməsini qərara aldıq. Bununçün də gecə ikən minalanmış sahədə keçid açdırdıq. Keçidin açıldığı mövqedə və ora yaxın ərazilərdə hər

ehtimala görə xüsusi hazırlanmış dəstələr yerləşdirdik ki, hər hansı fövqəl halda onlara kömək etmək mümkün olsun.

Lakin mən bilirdim ki, bunların hamısı artıq işlərdir. Bilirdim ki, mənim tanıdığım Zəfər bunlarsız da öz işinin öhdəsindən layiqincə gələcək. Mən elə həmin gün Yevlax şəhərində Zəfərlə görüşdüm. Əgər yanılmıramsa həmin vaxt o, baş leytnant idi.

Bu hündürboy, şux geyimli, iti və zəhmli baxışlı, idmançı görünüşlü cavan kəşfiyyatçı ilə mənim ilk görüşüm idi. Kabinetə girən kimi hərbi salam verdi, biz iyirmi dəqiqə səmimi söhbət etdik. O təkidlə, onunla gedən iki nəfərin öz əsgərlərindən olmasını istəyirdi. Lakin mən hazırlanmış planda dəyişiklik etmək istəməyərək, israrla təyin olunmuş adamların gedəcəyini dedim. Sonda razılaşdıq. Nazirliyin iki əməkdaşı – polkovnik Əmrah Abdullayev və mayor Zaur Bayramov Ağdamda təyin olunmuş yerdə Zəfər Mirzəyevlə görüşdülər. Əməliyatın yerinə yetirilməsinə polkovnik Abdullayev rəhbərlik edirdi, əslində isə bütün məsuliyyət Zəfərin üzərində idi. Mən Bakıya qayıtdım.

Onlar həmin gecə təyin olunmuş yerdən əməliyyata başladılar. Bizim üçün bu əməliyyat çox vacib idi. Ona görə də hər addımlarından xəbərimiz olması üçün onları xaricdən gətirilmiş yüngül, dözümlü və ötürücük qailiyyəti yüksək olan radiostansiyalarla təmin etmişdik. Lakin onlar əməliyyata başlayan kimi əlaqəmiz kəsildi. Yalnız on bir saatdan sonra Zəfər tamamiylə başqa bir xəttlə bizimlə əlaqə yaratdı və əməliyatın uğurla yerinə yetirildiyini xəbər verdi və yenidən əlaqəmiz kəsildi. İki gündən sonra qayıdan nazirliyin əməkdaşları –

polkovnik Abdullayev və mayor Bayramov nazirliyə gələrək izahat verdilər, əməliyyatın uğurlu keçdiyini, baş leytnant Zəfər Mirzəyevin düşmən pusqusunda qəhrəmancasına həlak olduğunu bildirdilər. Əlbəttə ki biz hamımız çox pis olmuşduq.

Lakin ürəyimə dammışdı ki bu iki zabit nəyisə gizlədirlər, onlarla ayrı-ayrılıqda söhbət etdim, amma başqa bir yenilik əldə edə bilmədim, hansısa bir hiss mənə bu iki zabitin nəyi isə gizlətdiklərini deyirdi, həqiqətən çox pis olmuşdum. Axşama təyin olunan iclasa da gedə bilmədim.

Kabinetdən çıxıb piyada "Şəhidlər xiyabanı"na oradan da dənizkənarı bulvara getdim. Nazirliyin qapısında yavərim maşını gətirməyini soruşdu, etiraz etdim, qəti olaraq onun da geri qayıtmasını, məni tək buraxmasını əmr etdim. Tək qalmaq, ətrafımdakılardan uzaqda, heç bir əlaqənin, yalanın, riyakarlığın olmadığı bir dünyada olmaq istəyirdim, iki gün əvvəl şəhid olmuş, ruhu cənnətdə, bədəni düşmən əsirliyində olan Zəfərlə söhbət etmək istəyirdim. Sanki dünyam qaralmışdı, göylər uçub başıma tökülmüşdü, çox darıxırdım, elə bil havam çatmırdı.

O günə kimi, siqaretin nə olduğunu bilmirdim, birdən-birə siqaret çəkmək istədim. "Azneft" meydanında kioska yaxınlaşıb siqaret və alışqan aldım, dənizin kənarına gəlib bir siqaret yandırdım, acı tüstünü ciyərlərimə çəkib havaya üfürdüm, öskürək məni boğdu. Sanki əziz bir adamımı itirmişdim. Onunla Yevlaxda etdiyim iyirmi dəqiqəlik söhbəti bəlkə iyirmi dəfə ürəyimdə götür-qoy etmişdim və hər dəfə də niyə onun öz yetişdirdiyi kəşfiyyatçılarla getməsinə icazə

vermədiyimə görə özümü qınayırdım. Sanki özümdən küsmüşdüm.

Ağacın altındakı taxta oturacağa yaxınlaşıb oturdum və ikinci siqareti yandırdım. Hava isti olduğu üçün bulvarda adam az idi. Siqaretdən bir neçə qullab vurub kötüyünü yerə atdım, dabanımla əzdim və başımı qaldırarkən qarşımda onu gördüm. Deyəsən, mənim ağlım qaçırdı, ya da ki, qarabasma idi. Gözlərimə inana bilmirdim, inanmırdım ki, bu gün ölüm xəbərini eşitdiyim bu adam mənim qarşımda dayanıb. O, hərbi salam və raport verdi, mən hətta onun səsini də eşidirdim. Oturduğum yerdə sanki daşa dönmüşdüm. Ayağa durmaq istəyirdim, ayaqlarım beynimin göndərdiyi siqnallara tabe olmurdu, ağzımı açıb nəsə demək, nəsə danışmaq istəyirdim, sanki ağzımda dilimin yerinə ağır daş parçası idi, tərpədə bilmirdim. Əgər Zəfər doğrudan da həlak olmuşdusa, bəs indi necə gəlmişdi mənim yanıma? Bəlkə, mən onun dünyasına getmişdim? Əlimi başıma, sifətimə çəkdim, gözlərimi ovxaladım. Yox mən həmişəki halımda idim. Bilmirdim sevinim, yoxsa kədərlənim, bütün hisslərim, duyğularım donmuşdu, şok vəziyyətində idim. O, mənim haldan-hala düşdüyümü görür və özümə gəlməyimə mane olmaq istəmirdi. Qarşımda fərəqət vəziyyətində dayanıb üzümə baxıb gülümsəyirdi. Xeyli vaxt bu vəziyyətdə qaldım, nəhayət özümə gəlib əlimlə ona yanımda oturmağı işarə etdim, bu vəziyətdən çıxıb ona tərəf döndüm və sonradan mənə məntiqsiz görünən, ağlıma gələn suallar verməyə başladım.

– Zəfər nə yaxşı gəldin, nə vaxt gəldin, necəsən, məni necə tapdın?

– Sağ olun cənab general, bir saat olar şəhərə çatdığım. Sizin yanınıza – nazirliyə getmişdim, yavərinizlə daxili telefonla danışdım, dedi ki siz çıxmısınız və yəqin ki bu gün olmayacaqsınız. Həm də dedi ki, çox dilxor, pis əhval ruhiyədə olmusunuz. Hətta cib telefonunuzu da unutmusunuz. Sizi tapmağım isə tam təsadüf oldu. Mən hər dəfə boş vaxt tapanda buraya – dəniz kənarına gəlməyi xoşlayıram, dəniz məni sakitləşdirir, çox şeyi qısa müddət də olsa unutdurur, sanki qəlbimin yaralarına məlhəm qoyur. İndi də həmin günlərdən biri kimi bura gəldim və sizin də burada olduğunuzu gördüm.

Mən onun ölüm xəbərini gətirən zabitlər haqqında hələlik heç nə demək istəmirdim. Ancaq orada baş verən hər şeyi təfərrüatı ilə bilmək istəyirdim. Bayaqdan keçirtdiyim həyəcandan tərləmişdim, həm də hava isti idi. Dəsmalla tərimi sildim, yadıma düşdü ki bu gün səhər yediyimin üstündəyəm, ayağa durdum.

– Gedək bir yer tapıb nəsə yeyək, həm də danış görək orada nə baş verib? Əməliyyatı necə keçirdiniz, pusqudan necə çıxdınız?

Biz bulvar boyu yanaşı addımlayırdıq, mən arabir bu gənc, lakin həddən artıq bacarıqlı zabitə baxıb qürur duyurdum. Nə yaxşı ki ordumuzda belə zabitlər var idi. O məndən bir azca hündür idi. Yolboyu hər ikimiz susurduq, "Sahil" kafesinə çatıb, içəri girdik, ikinci mərtəbədə dəniz tərəfdə olan masaların birində oturduq, kafenin ikinci mərtəbəsində bizdən başqa heç kim yox idi. Qarsona sifarişimizi verəndən sonra üzümü ona tutub dedim.

– Hə cənab baş leytenant, indi bütün təfərrüatı ilə danış, mən hər şeyi bilmək istəyirəm.

– Üzr istəyirəm cənab General, əvvəlcə bilmək istəyirəm burada nə baş verib. Bizim əməliyatımız barədə...

Mən onun sözünü kəsdim.

– Yox, əməliyyat barədə, onun keçirilməsi, yerinə yetirilməsi barədə söz ola bilməz, sadəcə olaraq orada baş verənləri əvvəldən axıra kimi bilmək istəyirəm. Səninlə birlikdə gedən polkovnik Abdullayev və mayor Bayramov düşmən puskusuna düşdüyünüzü və pusqudan çıxandan sonra səni tapa bilmədiklərini deyiblər. Qabaqcadan deyim ki, mən onlara inanmadım, bir də hər ikisi ilə təkbətək söhbət etdim, lakin onlar dediklərinin üstündə durub, izahatlarına heç nə əlavə etmədilər.

Zəfər fikirli halda masanın üstündə olan furjerlərdən ikisinə "Badamlı" süzdü, birini mənim qarşıma qoydu. Sudan bir qurtum içib danışmağa başladı.

– Cənab general orada baş verənləri tam təfərrüatı ilə bilmək istəyirsinizsə, o zaman söz verməlisiniz ki, mənim danışdıqlarım aramızda qalacaq və etdiyimiz söhbətdən sonra mənimlə gedən o iki zabitə heç nə deməyəcəksiniz. İzahatımı da yəqin ki, onların dediyi kimi yazacağam.

Heç kimin bilmədiyi bir məqamın olduğunu fikirləşib başımla razılıq verdim.

– Yevlaxda görüşümüz zamanı mən sizdən xahiş etdim ki, öz əsgərlərimdən iki nəfər götürüm, lakin siz təsdiq olunmuş heyətdə dəyişiklik olmayacağını israr etdiniz. Bunların hamısını yaxşı başa düşürdüm, amma Ağdamda mənimlə gedən zabitləri görəndə hansısa bir hiss, onların bu əməliyyatda ancaq mənə mane olacaqlarını deyirdi. Çünki onların heç biri o günə qədər heç bir

əməliyyatda iştirak etməmişdilər. Bu əməliyyatın uğurlu alınmaması üçün başlıca amil ola bilərdi. Ona görə də biz başlanğıc mövqedə kiçik bir toplantı keçirdik və mən onlara qarşıdakı çətinlikləri aydınlaşdırdım. Təklif etdim ki, onlar elə burada oturub gözləsinlər, mən tək gedərək əməliyyatı yerinə yetirib qayıdım və birlikdə geriyə dönək. Əvvəl onlar razılaşmadılar, belə olduqda bunun əksini təklif etdim. Yəni əməliyata onlar birlikdə və ya tək gedir mən onları gözləyirəm. Lakin onlar yenə də razılaşmadılar. Məntiqlə düşünəndə görünür ki, mən düz təklif vermişəm. Lakin bu inad zabitlər Nazirin əmrini əsas tutaraq hər üçümüzün bu əməliyyatda iştirak edəcəyini israr edirdilər. Belə olduqda mən hərəkət planını tərtib etdim, vəziyyəti nəzərə alaraq, elə başlanğıc nöqtədən ayrı-ayrı istiqamətlərdə hərəkətə başlayacağımızı bildirdim.

Bu zaman qarson sifarişləri gətirdiyi üçün söhbətinə ara verdi. Onun söhbət etdiyi müddətdə mən susurdum, nəsə deyib onun fikrini yayındırmaq istəmirdim. Sudan bir qurtum içib davam etdi.

– Yalnız bundan sonra polkovnik Abdullayev mənim təklifimlə qismən razılaşdı, mayor Bayramovla ikimizin getməsini təklif etdi. Amma açıq-aşkar görürdüm ki, qarşıdakı çətin əməliyata getmək onların heç birinin ürəyincə deyil. Mən yenə də razılaşmadım və onların ikisinin birlikdə getməsini təklif etdim. Nəhayət ki, mən dediyimə nail ola bildim. Onlar gecəgörmə cihazı vasitəsi ilə məni müşaiyət edəcəkdilər. Şərtləşdik ki, əməliyat başa çatdıqdan sonra elə burada görüşək. Lakin bu formal bir sövdələşmə idi, bu günə qədər olduğum heç bir əməliyatda eyni yolla hərəkət etməmişəm.

Partlayış üçün lazım olan hər şeyi bir daha yoxladım, bilərəkdən əlaqə üçün sizin verdiyiniz radio ötürücünü onların yanında saxladım, üstümdə olsaydı belə ondan istifadə etməyəcəkdim. Elə həmin gecə körpüdə və körpü ətrafında hazırlıq işlərimi gördüm. Patlayışı düşmənə daha artıq ziyan vurmaq üçün qeyri-müəyyən vaxta saldım, bu hətta iki gün, üç gün və ya daha artıq vaxt çəkə bilərdi. Əlbəttə ki, bu əvvəlki planda yox idi. Onu da deyim ki, körpü ruslar tərəfindən güclü mühafizə olunurdu və əgər biz üçümüz birlikdə getsə idik, əməliyatın baş tutması sual altında ola bilərdi. Özüm üçün aralıda gizlənmək üçün yer düzəltdim, bu elə bir yer idi ki, buradan çıxmadan hər tərəfi müşahidə edə bilirdim və lazım olan zaman elə buradan körpünü havaya sovura bilərdim. Beləliklə, dincəlmək üçün hələ vaxtım çox idi, amma yatmaq olmazdı, yatmaqla fürsəti əldən qaçıra bilərdim. Bilirdim ki düşmən relyefi nəzərə alaraq, gündüz hərəkət etməyə daha çox üstünlük verəcək və bu mənim düşündüyümdən daha tez, yəni maksimum sabah baş verməli idi. Səhər saat səkkizə on beş dəqiqə qalırdı, körpüdə canlanma müşahidə etdim, sonra bir ağ "Niva" sürətlə mühafizəçilər üçün nəzərdə tutulmuş körpünün sağ tərəfində yerləşən kiçik evin qarşısında dayandı. İki nəfər düşüb evə daxil oldular. Sonra yol boyu əllərində qırmızı bayraq olan silahlı mühafizəçilər yolboyu düzülməyə başladılar. İyirmi dəqiqə sonra Xankəndidən gələn hərbi texnika karvanı körpüyə yaxınlaşırdı. Karvan dörd "T-72" markalı tank, yeddi "BMP-2", iki ədəd hava hücumundan müdafiə məqsədi üçün nəzərdə tutulan "Şilka", üç ədəd üstü əsgərlə dolu "Ural" markalı maşından ibarət idi. Karvan

körpüyə yaxınlaşdıqca həyəcanım artırdı. Neçə saat idi ki bu anı gözləyirdim, əgər partlayış baş tutmasaydı, çəkdiyim əziyyət hədər olacaqdı. Karvan kifayət qədər normal hərəkət etməsinə baxmayaraq, sanki dayanmışdı. Nəhayət ki, karvan nəzərdə tutduğum yerə çatdı və mən bayaqdan əlimdə tutduğum pultun düyməsini sıxdım. Düşündüyüm kimi olmadı, partlayış nədənsə gecikirdi, elə bildim ki, ümumiyyətlə, baş verməyəcək. Lakin birdən-birə körpü bütünlüklə toz dumanına büründü, sonra güclü səs dalğası dağları silkələdi. Əvvəlcədən planlaşdırdığım kimi dərhal sığınacaqdan çıxıb dərin dərəyə tərəf qaçdım, çünki gecikmək olmazdı. Bu qısa zaman kəsiyindən maksimum istifadə etməli idim. Toz dumanı çəkiləndə mən artıq dərin dərəni keçib meşəyə çatırdım. Dönüb körpüyə tərəf baxdım, hərbi karvandan əsər-əlamət yox idi. İki gün meşə ilə şimala doğru getdim, bilirdim ki partlayış yerindən kifayət qədər aralıdayam. Vəng kəndinin yanından keçərək öz mövqelərimizə yaxınlaşırdım. Artıq bu yerlərə yaxşı bələd idim, öz tərəfimizə haradan keçəcəyimi də yaxşı bilirdim. Axşamın düşməyini gözləməli idim."

Zəfər sözünü bitirib dayandı, mən ona bir neçə sual verəcəkdim, amma yeməyimiz soyuyurdu.

– Yemək soyuyur, sonra davam edərik.

Hər ikimiz dadlı pomidor-yumurta cığırtmasına girişdik. Yeməkdən sonra mən ona heç bir sual vermədim, çünki artıq hər şey mənə aydın idi.

– Deməli, heç bir pusqu filan olmayıb, sənin öldüyünü düşünüb canlarını qurtarmaq üçün özlərindən uydurublar bunu. Əclaflar! – deyə özüm-özümlə danışırmışam kimi dedim.

Zəfər bir daha bu söhbətin öz aramızda qalmasını xahiş etdi. Mən başımı razılıq olaraq tərpətdim, onunla razı olduğumu bildirdim.

* * *

General əsəbləşdi, dosyeni oxumadı, kağızları masanın üstünə atıb gərgin vəziyyətdə kürsüyə yayxandı, başını arxaya söykəyib gözlərini yumdu. "İlahi, yaratdığın biz insanlar, gör nələr edirik, bir-birimizi didib parçalamağa, ətimizi qiymə-qiymə doğramağa, ətrafımızdakıları diri-diri yeməyə hazırıq. Nədir bu? Paxıllıq? Həsəd? Axı nə ad verək buna? Adam əzab-əziyyət çəkir, gecə-gündüz qarın, yağışın, istinin, soyuğun qabağında.., aylarla sevdiklərini görmür, doyunca qarnına çörək yeməyə, su içməyə vaxt tapmır..., qazandığı isə yalan, böhtan, şər... hər şeyi adi bir marağımıza qurban veririk, sonra da əllərimizi sənə doğru açaraq, bağışlanmaq istəyirik. Budurmu bizə bəxş etdiyin humanizm, vətən, insan sevgisi?" deyə düşündü. Sonra kağızları səliqə ilə büküb məktuba qoydu. Yenidən Baratın canavar baxışları yadına düşdü, əti ürpəndi, ikrah hissi ilə başını buladı. Sonra masanın görünməyən yerinə bərkidilmiş duyməni basdı, sanki divar aralandı bayaqkı qəşəng rus qızı zala daxil oldu. Bu generalın Moskva ilə əlaqələndiricisi, çox cəsur və bacarıqlı agent Natalya Savçenko idi ki, bayaqdan divarın əks tərəfində oturub zalda baş verənləri izləyir, eşidir və qeyd edirdi. General məktubu ona uzatdı, qız gəldiyi kimi də yoxa çıxdı.

Evdə qərar tuta bilmədi, həyətə çıxdı. Həyətdəki keşikçilər bir-birinə qarışdı. Yaxınlıqdakı "Besedkada" oturan Biçkin cəld ayağa duraraq ona yaxınlaşdı,

öskürərək yanında olduğunu bildirmək istədi. Lakin general elə bir halda idi ki, sanki heç nə eşitmir və heç nə görmürdü. Geniş həyətdə bu başdan o başa var-gəl edərək özü ilə danışırdı.

– İnsan nə qədər vicdansız olmalıdır ki, belə işlərə razılıq versin? Allah adamın başına daş tökər, getdiyi yerdə daşa döndərər, yerə batırar, belə haqsızlığı götürməz. Mən Azərbaycan ordusuna gələndən nazirlikdə işləyirəm, soyuqda qızdırıcı, istidə kondisioner qoşuram. Dövlət mənə komfortlu maşın verib, ikisini birdən. Biri özümə xidmət edir, digəri ailəmə. Zəfər isə gəldiyi gündən çöllərdədir. İndi isə küçənin əyyaşı durub ona böhtan atır. Budurmu onun kimilərə verdiyimiz qiymət?

O, deyinə-deyinə həyətin bu başından o biri başına gedir, sanki həyətin uzunluğunu ölçürdü. Həyətdəkilərdən heç kim bu günə qədər onu bu halda görməmişdilər. Adətən təmkinli olan, əksəriyyət işlərdə başqalarına örnək kimi görünən, qəlbindən keçənləri heç vaxt dilinə gətiməyi xoşlamayan general, indi sanki özünə həmsöhbət, dərdini bölüşməyə, məsləhət almağa adam axtarırdı. Hər dəfə bağa gələndə gecəni burada keçirirdi, Dövlətin ona bağışladığı bu bağ onun çox xoşuna gəlirdi. Birdən yerində dayanıb Arkadini yanına çağırdı.

– Maşını hazırlayın, şəhərə qayıdacam.

Maşın sürətlə şəhərə tərəf şütüyürdü. O, birbaşa nazirliyə getməyi göstəriş verdi. "Yalquzaq"la etdiyi söhbət onu çox məyus etmişdi.

"Barat Sovet rejiminin yetişdirdiyi kadr idi, "KQB"-nin ən güclü agentlərindən sayılırdı, lakin onun aldığı tərbiyə və təhsil bu gün belə olmasına heç də bəraət

vermir. Sovet rejiminin dağılması ilə nə qədər Sovet tərbiyəsi görmüş qeyrətli oğullarımız Azərbaycanın müstəqilliyi və bütövlüyü uğrunda fikirləşmədən canlarından keçdilər. Axı o kimdən artıqdır. Elə mən özüm... İttifaq dağılanda "KQB"-nin polkovniki idim. İttifaq dağılan kimi yenicə müstəqil olmuş Azərbaycana Müdafiə Nazirliyinə yüksək vəzifəyə göndərildim. Amma bu günə qədər Vətən faktoru olan yerdə başqa bir şey haqqında düşünmədim. Müstəqilliyimizə xələl gətirən heç bir işə qol qoymadım və bundan sonra da bu heç zaman olmayacaq. Əksinə, Rusiya kimi böyük dövlətlərdən Azərbaycanın mənafeyi üçün istifadə etmək bizim hamımızın borcudur. Barat kimi ünsürləri isə artıq aradan götürməyin vaxtı çoxdan çatıb."

Yolboyu Baratın canavara bənzər baxışları gözləri önündən çəkilmədi, sanki boz bir yalquzaq maşının arxasınca yorulmadan qaçır, onu təqib edirdi. İlk dəfə idi ki, Barat kimilərlə bir təşkilatda xidmət etdiyinə görə xəcalət çəkirdi. Amma belələri olmasaydı, yəqin ki, yaşamaq da mənasını itirərdi. Zəfər kimi təmənnasız min əzabla qarşılaşan və bunu özlərinə vətəndaşlıq borcu sayan Vətən oğullarının sayəsində bu gün Vətən torpaqları qorunur, müdafiə olunurdu. Barat kimi casusların qarşısının alınması, Vətənə daha ağır zərbələrin vurulmasına imkan verilməməsi lazım idi. "Amma yaxşı ki onlar da var. Olmasaydılar bəlkə də dünyanın mizanı pozulardı." deyə düşündü general.

İYİRMİ BİRİNCİ FƏSİL

General dərin fikrə getmişdi. Dünən "Yalquzaq"la etdiyi söhbət hələ də beynini məşğul edirdi, bütün gecəni yata bilmədi. Nazirlikdəki kabinetində oturub masaya dirsəklənmiş, başını əlləri arasına alıb donmuşdu. Xəyallar onu on beş il əvvələ aparmışdı.

Həmin gün Kəlbəcərin işğalı zamanı xeyli silahsız mülki əhalı düşmən tərəfindən əsir götürülmüşdü. Bütün əlaqələrini işə salmasına baxmayaraq əlindən heç nə gəlmirdi. Rusiyanın havadarlıq etdiyi ermənilər heç kimi, hətta lazım olanda rusları belə eşitmirdilər.

Mülki əhalini isə əsirlikdən və düşdükləri mühasirədən qurtarmaq lazım idi. Belə çətin bir zamanda o özü, Zəfərin dalınca getdi. Tərtərdə Zəfərlə görüşdü. Bu görüş heç də rəsmi xarakter daşımırdı, onun şəxsi təşəbbüsü idi, daha doğrusu general bu görüş haqqında başqa bir kimsənin bilməsini istəmirdi. Onunçün də Zəfərlə adi bir çayxanada görüşdülər. Bu onun Zəfərlə ikinci görüşü idi. Bu qorxmaz, gənc mayorun bacarığına inanırdı general. Ümumi hal-əhvaldan sonra, dərhal mətləbə keçdi.

– Ümumi vəziyyət haqqında sənə geniş məlumat vermək fikrində deyiləm. Bugünkü durumu hamıdan yaxşı bilirsən. Hakimiyyət iflic vəziyyətindədir, dövlət strukturlarında hərc-mərclik baş alıb gedir, kimdənsə kömək ummağın yeri yoxdur. Bu çox ağır bir vəziyyətdir, mütləq mühasirədəkilərə və əsir düşənlərə

kömək etmək lazımdır, bu gün bu millətin bizdən başqa güvəndiyi ikinci bir qüvvə yoxdur. Mən sənə və səninlə birlikdə döyüşənlərə güvənib gəlmişəm. Dünən gecikmişik, bu gün gecikirik, sabahsa daha gec olacaq, zaman bizi gözləmir Zəfər. Nə fikirləşirsən bu barədə?

– Bizim borcumuz Dövləti və onun vətəndaşlarını qorumaqdır. Siz nə əmr etsəniz onun yerinə yetirilməsinə borcluyuq. Hal-hazırkı vəziyyət doğrudan da çox acınacaqlıdır. Qarabağ problemi ruslar üçün bir oyundur və bu oyunu ermənilər ruslardan istifadə edərək udmaq istəyirlər.

– Bəli bizim dövlət öz siyasəti ilə rusları kənarda saxlaya bilmədi, əslində bu heç mümkün də deyil, çünki ruslar hələ də bizim müstəqil dövlət olmağımızı həzm edə bilmirlər. Əvəzində isə torpaqlarımız işğal altına düşür. Rusiya bu gün bölgədəki hegemonluğundan istifadə edərək ətrafındakı suveren ölkələrin dövlətçilik hüquqlarını tapdalayır, dünya isə hələlik buna göz yumur. Nə isə. Bizim işimiz siyasət deyil, Dövləti qorumaqdır. Mən sizə əmr etmək fikrində deyiləm, bu bizim hamımızın qeyrət borcudur. Bir şeyi unutmayaq ki, əgər ölüm gəlirsə, biz də onu layiqincə qarşılamağa hazır olmalıyıq. Elə bu gün düşmən arxasına keçmək lazımdır.

Zəfər hər şeyi yaxşı başa düşürdü, vaxt itirməyin mümkünsüzlüyünü, onların ziyanına olmasını bilirdi. Amma uğurlu əməliyat üçün xəritə və relyef nəzərə alınmaqla plan hazırlanmalı idi, bununçün də ən əsası vaxt lazım idi, vaxt isə yox idi. General yalvarışlı baxışlarını onun üzünə dikib ondan cavab gözləyirdi. Zəfər bu gərginliyi aradan qaldırmaq məqsədi ilə ayağa qalxdı, sağ əlini qulağına qaldırıb uca səslə dedi.

– Oldu cənab General.

General yaxınlaşıb onu qucaqladı, deyəsən bir az da kövrəlmişdi.

– Özünü qoru Mayor! Sən hələ bu ölkəyə çox lazım olacaqsan.

Onlar qucaqlaşıb ayrıldılar. Zəfər təcili olaraq hərbi hissəyə qayıtdı. Yolda olarkən artıq əməliyyat planını hazırlamışdı. Hərbi hissəyə çatan kimi həyəcan siqnalı verdirdi. Əməliyata lazım olan bəzi şeyləri götürmək üçün otağına tərəf getdi. Yolda Tərlanla qarşılaşdı. Lazım olan tapşırıqları verib otağa keçdi. Əynini dəyişib tez də çıxdı, artıq şəxsi heyət sırada onu gözləyirdi. O, qısa, lakin dolğun məlumat verdi. On dörd nəfər ən təcrübəli, inandığı əsgərləri seçərək ayırdı, onlara çətin bir əməliyata hazırlaşmaq əmrini verdi. Tərlanı və əlavə iki nəfər çavuşu yanına çağırıb təlimatlandırdı, özü maşına oturub hərbi hissədən çıxdı. Düşmənin arxasına geçmək üçün nisbətən zəif yeri tapmaq lazım idi, bu, əməliyyatın uğurlu alınması üçün vacib şərtlərdən biri idi. İki saatdan sonra yenidən hərbi hissəyə qayıtdı.

Əməliyyat üçün ayırdığı on dörd nəfər tam hazır vəziyyətdə onu gözləyirdi, özü on beşincisi idi bunların. Zəfər kənardan onları ayrı-ayrılıqda hər birini müşahidə etdi. Bu əsgərlərin hər biri onunçün əziz və doğma idi, bu günə kimi nə qədər əməliyyatlarda olmuşdu bunların hər biri ilə. Onların bu səviyyəyə çatması üçün nə qədər əziyyət çəkilmişdi, indi onlar hər biri tam hazırlıqlı kəşfiyatçı idilər. Xüsusən Tərlan, o gün nədənsə ona daha əziz gəldi, sanki doğma qardaşına baxırdı.

Tərlan demək olar ki, onunla yaşıd idi. Azərbaycan Neft Akademiyasını bitirdikdən sonra bir neçə il neft sənayesində işləmişdi. Min doqquz yüz doxsan birinci

ildə könüllü olaraq Azərbaycan Ordusuna yazılmışdı. İlk xidmətinə "Səbail Tank Taboru"ndan başlamış, onlarla birlikdə Malbəyli və Quşçular kəndinin müdafiəsində olmuşdu. Bir neçə ay sonra yeni yaranmaqda olan "Əlahiddə Kəşfiyat bölüyü"nə keçərək Zəfərlə bir yerdə xidmətini davam etdirmişdi. O gündən bu günə kimi saysız-hesabsız əməliyyatlarda iştirak edərək kəşfiyatın sirrlərinə tam yiyələnmişdi.

Zəfər Tərlanın ailəsini də tanıyırdı. O, elitar ailənin tək oğlu idi, bir bacı və bir qardaş. Tərlan ailənin ilki və sevimlisi idi. Atası Sabit müəllim uzun illər Sovet dönəmində Azərbaycan SSR-in Mərkəzi Komitəsində işləmişdi, İttifaq dağılandan sonra da yeni yaranmış müstəqil Azərbaycan dövlətində, Prezident Aparatında işləyirdi. Anası Xavər xanım Bakı məktəblərindən birində tarix müəlliməsi idi. Bacısı Şəfəq Tərlandan on yaş kiçik idi, qəlbi onunla döyünür, onunla nəfəs alırdı. Tərlan da bacısını çox istəyirdi. Bacısı hər dəfə ona: "Sən mənim ən uca zirvələri fəth edən Tərlanımsan" deyərdi. Əvəzində isə Tərlan bacısının saçlarını tumarlayıb "Sənsə zülmətləri öz nuru ilə məhv edən Şəfəqsən, sən təkcə mənə yox, bu dünyada bütün bəşəriyyətə lazımsan."

İllər necə də tez keçdi, xöşbəxt anlar bir göz qırpımında geridə qaldı, sanki ildırım çaxdı, gecənin bir aləmində, bir an içində hər tərəfi işıqlandırdı, yenidən zülmət çökdü bu dünyaya. Deyirlər pis günün ömrü az olur, sən demə xoş günün ömrü nə qədər uzun olsa belə daha qısa görünür. İnsan həyatı təzadlarla doludur, birbirini əvəz edən yaxşı və pis günlər ömrü gözəlləşdirir, həyatın mənasını, yaşamaq həvəsini artırır, onu stimullaşdırır. Lakin həyatda bağlandığın, sevdiyin nəyisə,

kimisə birdəfəlik itirəndə... Tərlan da öz ailəsi üçün belə bir qiymətli varlıq idi və öz gedişi ilə ətrafında olan hər kəsin sinəsinə çalın-çarpaz dağ çəkdi.

Zəfər o günü yadına salmaq belə istəmirdi. Hər dəfə o gün yadına düşəndə bütün varlığı alt-üst olurdu, bu dünya və bu dünyada nə vardısa hamısı boş bir xəyal topasına dönürdü. O gün, həyatında çox sevdiyi, etibar etdiyi Tərlanı itirmişdi, bu itki bir soyun kəsilməsinə, bir ailənin dərdli faciəsinə çevrilmişdi. Zəfər bu faciədən sonra tamamilə qaradinməz oldu və ona elə gəlirdi ki, ürəyi olan hər kəs belə bir faciənin şahidi olsaydı nəinki onun kimi qaradinməz olar, hətta lal olub bütün həyatı boyu danışmaqdan imtina edərdi. Baxmayaraq ki, Tərlan şəhid olmuşdu və bizim inanclara görə şəhidlər ölmür, dirilik dünyasında – cənnətdə əbədi yaşayırlar. Rəbbimiz onları öz ruzusu ilə mükafatlandırır və əbədi dünyada – heç nəyə ehtiyacları olmadan yaşadır. Zəfər bunların hamısını yaxşı bilirdi, lakin Tərlanın özündən sonra ailəsinə qoyub getdiyi faciənin dəhşəti onun qaradinməz olmasına səbəb olmuşdu. Zəfər üçün bu inanclar şərti xarakter daşıyırdı. Baxmayaraq ki, hələ Sovet rejiminin dini qadağan etdiyi zamanlarda onların ailəsində babası və nənəsi həmişə ibadətlə məşğul olmuş, uzun qış gecələrində vərəqlərinin rəngi saralmış "Quran" kitabını oxuyaraq, yaradanın ən ali zümrə olaraq yaratdıqlarından – insanlardan nə istədiklərini onlara başa salırdılar.

Əlbəttə ki, biz insanların – görə biləcəyimiz və görə bilməyəcəyimiz nə varsa hamısının yaradılışa möhtac olduğunu bilirdi. Lakin böyük Yaradanın külli kainatda ən uca varlıq olaraq yaratdığı, bu yaradılış önündə təmiz, pak, daima Ona təmənnasız ibadət edib, tərifləyən

mələklərə – "Sizin bilmədiklərinizi o bilir" – deyərək, baş əyməyə məcbur etdirməsi, nəhayət ki, bacı və qardaşı bir-birinə sonsuz məhəbbətlə bağlayaraq, sonda bir ailənin faciəsini göz dağı kimi ortaya qoyması onun ağlının hüdudlarından kənarda idi. Dərindən anlamadığı bu mövzu, dərk edə bilmədiyi bir çox məsələlərin üstünə kölgə salır, sanki böyük bir ümmanda sahibsiz qayıq kimi taleyin ümidinə buraxırdı Zəfəri. Sovet psixologiyası – ateist tərbiyəsi qəlbinin ən dərin qatlarından baş qaldırıb bu kimi hallarda çıxış yolu tapmasına mane olurdu. Tərlanın ölümü təkcə onların ailəsinə ağır zərbə vurmadı, həm də onun həyatını alt-üst etdi.

Həmin gün dağlar, başqa cür idi, göylər, paramparça kimi görünürdü, hava da əvvəlki kimi deyildi, dərələr qara ağızlarını açıb insanları udmağa hazırlaşan yeddi başlı əjdahanı xatırladırdı. Sanki zülm ədalətə qalib gəlmişdi o gün, şər xeyiri üstələmişdi.

Azərbaycanda çox çətin anlar yaşanırdı o günlər, daxili çəkişmələr, xarici təzyiqlər gündən günə artırdı. Rusiyanın, İranın, Amerikanın, İngiltərənin və bir çox böyük dövlətlərin casus ordusu jurnalist, biznesmen və bankir kimi fəaliyyət göstərərək öz işlərindən başqa bütün işlərlə məşğul olurdular. Onlar hər yerdə idilər, – hakimiyyət dairələrində, güc nazirliklərində, səhiyyədə, təhsildə hətta Ordu sıralarında – kiçik və yüksək rütbəli zabitlər arasında, xalq kütlələri arasında idilər. Keçmiş "partakrat ordusu" bu gün casus ordusuna çevrilmişdi.

Daşnakların doğma ocaqlarından didərgin saldığı bir milyona yaxın məcburi köçkün dalğası, işğal nəticəsində gündən günə artan qaçqın problemi hər tərəfli təsirini göstərirdi. Rusiyanın səpdiyi müharibə toxumu anbaan rişələnib pis xassəli xərçəng xəstəliyi kimi

daha dərinlərə kök atır, yeni yaranmış müstəqil dövlətin başını qataraq göz açmasına imkan vermirdi. Agenturaların apardığı işlərin nəticəsi idi ki, iqtisadiyyat darmadağın olaraq bərbad günə düşür, ordu quruculuğu ləngiyir, bir komandadan olan hakimiyyət təmsilçiləri zaman keçdikcə bir-birinə düşmən kəsilirdilər. Bu illərdə ümid ancaq vətənini sevən, ona dəlicəsinə bağlı olan insanlara idi. Azərbaycanda isə belə adamlar kifayət qədərdi. Lakin ətrafdakı böyük dövlətlərə belə olması sərf eləmirdi, onun üçün də onlar hərtərəfli təlimatlandırılmış casuslarını burada, bütün zümrələr arasında yerləşdirərək öz çirkin ideyalarını bu millətin iliyinə yeridirdilər.

Böyük dövlətlər tərəfindən düşünülmüş surətdə qəbul etdirilən və bizə özümüzünkü kimi aşılanan daxili siyasət, milli mənəvi dəyərlərimizi alt-üst edirdi. Xalqa ianə ilə yaşamağı təlqin edir, "qacqın payı"adı altında gələcəkdə genefondumuza təsir edən ərzaqlarla milləti zəhərləyirdilər. Belə işlərdə Rusiya və İran dövlətləri ön cərgələrdə gedirdilər. Bu ölkələrdə yaşayan məkrli ermənilər, hakimiyyət orqanları ilə birlikdə belə çirkin planların həyata keçirilməsində mühüm rol oynayırdılar. Yeni yaranmış, başı ağır müharibələrə qarışmış müstəqil Azərbaycanda isə bunların qarşısını almaq üçün hələlik heç bir tədbir görmək mümkün deyildi.

Həmin gün onlar üç qrupa bölünərək düşmənin arxasına keçdilər. İkinci dəfə olmasına baxmayaraq Kəlbəcərin relyefi, təbiəti, təbii mənzərələri Zəfəri heyran etmişdi. Şiş uclu sıldırımlarla əhatə olunmuş dağlar, sanki bir-biri ilə bəhsə girərək, hansının daha məğrur, daha qorxunc, daha əzəmətli, daha uca olmasını ətrafdakılara numayiş etdirirdilər. Belə sıldırım

yamacların əhatəsində yaşıllıqlara qərq olmuş yaşayış məskənləri, buz bulaqlar onu görənləri heyran edirdi.

Qruplardan birinə – sağ cinahdakılara Tərlan, sol cinahdakilara Şahin, mərkəzə isə Zəfər özü başçılıq edirdi. Ətraf kəndlərdə mühasirəyə düşən əhalini xilas edə bildilər, erməni və rus qoşun birləşmələri yolları bağlayaraq onlara təslim olmaları haqqında ultimatum vermişdi. Yalnız bir neçə nəfərində ov tüfəngi olan camaat ölməyi üstün tutaraq təslim olmaqdan imtina edərək keçilməz dağlara sığınmışdılar. Çünki, təslimiyyətin sonunda, ən yaxşı variantda ağır əsirlik həyatı var idi ki, bunları da mühasirədə olanlardan hər kəs yaxşı bilirdi.

Dünyada heç bir məntiqə sığmayan, insanlığa xas olmayan, ilk insanlıq dövründən bu günə qədər heç bir müharibədə tətbiq olunmayan, əsirlərin yeni əzab və işgəncələrlə öldürülməsini onların əksəriyyəti müşahidə etmişdilər. Bunlar erməni və rus vandalizminin, əsirlərə verdiyi ağlasığmaz əzablar idi ki, nə ermənilər, nə də ruslar hələlik törətdikləri cinayətlərə görə heç bir məhkəmə qarşısında cavab vermirdilər. Dünyanın inkişaf etmiş xalqları – "İnsan hüquqlarının müdüfiə cəmiyyətləri" bunları görsə də, göz yumurdular. Artıq iki gün idi ki, onlar mühasirədə idilər. Təpədən dırnağa qədər silahlanmış düşmən bir neçə kəndin əhalisini son ümid yeri olan Yanşağa yığmışdı, bura son, bəlkə də əbədi mənzil idi.

Bir gün əvvəl kəndin üç dəliqanlısı – düşmənin on beş silahlı əsgərlərini pusquya salaraq tutmuşdular. Qorxunun təsirindən əllərində olan silahları ataraq qaçmağa üz tutan düşmənlərə aman verməyib hamısını bir birinə bağlamışdılar. İndi artıq onlar daha güclü idilər, on beş ədəd məhdud saylı patronu olan "AKM"-ləri vardı.

Rus ordusunun iştirakı və təlimatları ilə hərəkət edən erməni qoşunları Kəlbəcəri üç tərəfdən mühasirəyə almışdılar. O zaman Kəlbəcərin müdafiəsi çox zəif idi. Böyük bir ərazini – Kəlbəcər və Laçın rayonunun ərazilərini təkcə bir komplektləşməmiş, könüllülərdən ibarət hərbi hissə, pərakəndə halında olan yerli özünümüdafiə dəstələri və yerli polis qüvvələri qoruyurdu. Yerli əhalidən döyüşən nizami dəstələr yaratmaq olardı, lakin bunun üçün nə zaman, nə də hərbi sursat və ləvazimatlar yox idi. Elə-belə, gözdən pərdə asmaq üçün nəsə etmək mümkün olardısa da, bununla yalnız özümüzü aldada bilərdik ki, bu da yalnız ilk döyüşə qədər olardı.

Kəlbəcərin müdafiəsi o zaman ordumuzda olan çox bacarıqlı və vətənpərvər generala həvalə olunsa da, silah, sursat və hərbi texnika çatışmamazlığı üzündən bundan artığını etmək mümkün deyildi. "Casus ordusu"nu cilovlamaq, onları kənarlaşdıraraq, anbaan güclənən təxribatların qarşısını almaq mümkün deyildi.

Ermənistanla Azərbaycan arasındakı sərhədi otuz nəfərdən ibarət bölük qoruyurdu, əsas qüvvələr Laçın və Ağdərə istiqamətində cəmlənmişdi. Azərbaycan hakimiyyət dairələri dövlət sərhədinin pozulmayacağına ümid edirdilər. Lakin Laçın və Ağdərə istiqamətində hər dəfə məğlubiyyətə uğrayan düşmən qoşunları min doqquz yüz doxsan üçüncü ilin mart ayının iyirmi altısında müharibə elan etmədən Azərbaycanın dövlət sərhədini pozdular.

Rusların iki dağ piyada alayları və ermənilərin iki motoatıcı alayları dövlət sərhədinə məhəl qoymayaraq Kəlbəcərə hücum etdilər. Onların qarşısında yalnız otuz nəfər Milli Ordu əsgəri dayanmışdı. Güclərin və

peşəkarlığın ağlasığmaz dərəcədə qeyri bərabər olduğu açıq-aydın görünürdü. Lakin bütün bunlara baxmayaraq düşmən qoşunları bir qarış belə irəliləyə bilmədi. Yalnız aprel ayının birində və ikisində hərbi helikopterlərdən istifadə edərək ilk mövqeləri ələ keçirə bildilər. Rus-erməni qoşun birləşmələri, otuz nəfərin meyitinin üstündən keçərək Kəlbəcərə daxil ola bildilər. Onlar qarşılarına keçən hər şeyi dağıdırdılar. Onların keçdiyi yolların ətrafında azəri şəhidlərinin – qadın və uşaqlaın, qocaların, əlillərin cəsədləri səpələnmişdi. Kəlbəcərdə əsir və itkin düşənlərin sayı heç zaman dəqiqləşməyəcək.

Onsuz da relyef cəhətdən ətrafla əlaqəsi çətin olan rayonun əhalisi hər an ağırlaşan çox çətin vəziyyətə düşmüşdülər. Düşmən ağır silahlarla ətraf kəndləri vurur, addım-addım, anbaan şəhərə yaxınlaşırdı.

Xaraba qalmış kəndlərin əhalisi mərkəzə axışaraq bir tədbir görülməsini tələb edirdilər. Lakin hansı tədbir görüləcəkdi ki, Kəlbəcərdə yalnız yarı silahlanmış polis işçilərindən başqa silahlı heç kim yox idi. Düşmənin zirehli texnikası qarşısında kiçik çaplı silahlarla dayanmaq mümkün deyildi.

Azğın ermənilər kəndləri yandırır, əsir düşən əhaliyə dünyada görünməmiş işkəncələr verirdilər, kişiləri öldürür, körpələri analarının gözləri önündə süngüyə kecirirdilər. qocaları və yaşlı qadınları neftə batırılmış təkərlərə bağlayaraq od vurur, dağdan aşağı – mühasirədə olanlara tərəf buraxırdılar. Birdən-birə onlarla yanan və getdikcə alışan təkərlərin yaydığı qığılcım, onlardan gələn tükürpədən insan fəryadları adamın ağlını başından alırdı. Bütün bunlar yerdə qalanları qorxutmaq üçün edilirdi. Nə qədər qız-gəlin əsir düşməmək üçün özlərini qayadan atmışdılar. Dəhşətli

anlar bitmək bilmir, bir il qədər uzun çəkirdi. Boyük dövlətlərdən xüsusən də Rusiya və İrandan dəstək alan azğın erməni xalqı zaman keçdikcə daha da azğınlaşır, öz iyrənc ideyalarını həyata keçirirdilər.

Əslində Kəlbəcər işğal olunmadı, təslim edildi. Rusiyanın yerli əhalidən olan "cəsus ordusu" bir neçə ay əvvəl artıq bu "təslim aktını" hazırlamışdı. Sovet "KQB"-sinin hazırladığı plan həyata keçmək üçün hazır idi. Onların hətta şəhər rəhbərliyində, rayon güc strukturlarında, demək olar ki, hər bir kənddə peşəkar casusları və onlara işləyən adamları var idi. Mərkəzdən – Müdafiə Nazirliyindən, Prezident Aparatından, Milli Müdafiə Şurasından, Daxili İşlər Nazirliyindən Kəlbəcərin müdafiəsi üçün təyin olunmuş qrupların içərisində özlərini milləti sevən kimi göstərən, canfəşanlıqla hər işə burnunu soxmağı bacaran bu cəsuslar sonda sudan quru çıxaraq o zaman dövlət başında olan vicdanlı səxsləri günahlandıraraq, daha ali vəzifələri tutdular. Bu idi rusların yüz illər boyu dövlətçilikdə topladığı təcrübə, belə bir təcrübənin qarşısındasa yenicə müstəqillik qazanan, bu yolda hələlik ki, körpə uşaq kimi iməkləyən bizim kimi dövlətlər çox aciz idi. Rusiya öz imperiya maraqlarını təmin etmək üçün erməni xislətli millətləri də yüz illər boyu yetişdirmişdi və bu gün onlardan bir çox dövlətlərə qarşı ustalıqla istifadə edirdi.

Zəfər hətta bir neçə gün əvvəl Kəlbəcərin çətin günlərində yerli əhalini – xüsusən də qadın və uşaqları xilas etmək üçün köməyə gələn Azərbaycan "Helikopter"lərinin arasında ermənistanda olan rus bazalarından uçub gələn "Helikopter"lərin olduğunu da bilirdi. Onlar yerli əhalini – qadın və uşaqları xilas etmək adı ilə Ermənistanda olan rus bazalarına – gələcəkdə öz

çirkin əməllərini həyata keçirsinlər deyə əsir kimi daşıyırdılar.

Ruslar ermənilərlə birlikdə bu əsirlərin orqanlarını çıxararaq, donor kimi bu iyrənc dünyanın pullularına satırdılar. İyiminci əsrin sonunda, kosmosun fəth edildiyi bir zamanda rusların planlı şəkildə etdiyi bu cinayətlərə, özlərini sivil, demokrat adlandıran dünya dövlətləri də göz yumurdular. İnsan hüquqlarının müdafiəsi ilə məşğul olan dünya təşkilatları sanki insanlığa qarşı heç bir cinayət baş verməmiş kimi susurdular. Ona ən çox təsir edən isə dünya elminə, mədəniyyətinə töhfələr verən Azərbaycanın, bir dövlət, bir millət kimi bu dünyada təklənməsi idi.

Zəfər dünya tarixini xüsusən də "SSRİ tarixini" gözəl bilirdi. İkinci Dünya müharibəsində Azərbaycanın və azərbaycanlıların əvəzolunmaz xidmətlərini və ermənilərin satqın bir millət olaraq təkcə ruslara yox, bütün İttifaqda yaşayan millətlərə və Sovet hökümətinə xaincəsinə arxadan badalaq vurduqlarını gözəl bilirdi və bunu heç bir ağlı başında olan rus millətinin nümayəndəsi danmırdı. Son – həlledici anda isə ruslar ermənilərin tərəfində idi və sanki dünyanın ən qəddar faşizmi ilə mübarizə edirdilər kimi Azərbaycanın üstünə gəlirdilər. Bütün dünyada ermənipərəst qüvvələr birləşərək hər bir sahədə Azərbaycanı təkləmişdilər. Azərbaycanla sərhəd olan böyük dövlətlər, Rusiya, Türkiyə və İran hökumət dairələri qeyri-insani addımlar ataraq hətta həyati vacib məhsulların – ərzaq və dərman məhsullarının ölkəyə buraxılmasını belə əngəlləyirdilər...

Onlar yalnız dağ keçilərinin gedə bildiyi, aşağı baxarkən göz qaraldan sıldırım yamacların qoynu ilə uzandıqca uzanan cığırlarla, Daşkəsən istiqamətinə

irəliləyirdilər. Əksəriyyəti yaşlılardan qadın və uşaqlardan ibarət olan dəstə addım-addım irəliləyirdi.

Kəlbəcərdə olanlar onun necə çətin bir relyefə və gözəl təbiətə malik olmasını yaxşı bilirlər. Burada təbiət özü özünü tamamlayır. Lakin həyat, ölüm mübarizəsində heç bir gözəllik insanın qəlbini oxşaya bilmir, özünə cəlb etmir. Füsünkar gözəlliyi ilə cənnəti xatırladan bu torpaq, indi onun qoynunda yaşayanlar üçün əsil cəhənnəmə çevrilmişdi. Keçilməz yarğanlar, qarlı aşırımlar onların irəliləməsinə mane olur, hərtərəfli hazırlıqlı, təpədən dırnağa qədər hər cür müasir silahlarla silahlanmış, operativ düşmən qarşısında aciz edirdi onları. Bəlkə də təbiət bunu bilərəkdən edir, sakinlərin o yerləri tərk edərək yağı düşmənə təslim etməsini istəmirdi.

Düşmən onların şimal istiqamətinə hərəkət etdiyini bilirdi, iki gün əvvəl tərksilah edilərək əsir götürülmüş ermənilər xilas etmək üçün tədbirlər görülürdü. Mühasirədə olanların məhvi üçün qəddarlığıyla seçilən əlli nəfərdən ibarət dəstə hazırlanmışdı, hər an təhlükə gözlənilirdi. Zəfərin bundan xəbəri var idi. Qarşıdakı bəraəni aşmağa isə ən azı iki saat vaxt lazım idi. Camaatın içində olan silahlıları da cinahlara kömək üçün bölüşdürmüşdü. Yerli əhalidən olan, bu yerlərə yaxşı bələd olan adamları hər üç cinahda yerləşdirmişdi. Ən yaxın və təhlükəsiz yol Buzluğu aşmaq idi, lakin indiki anda, tərkibi qadın, uşaq və qocalardan olan dəstə ilə bu yolu keçmək mümkün deyildi. Onlar camaatla məsləhətləşəndən sonra ən yaxşı variantı seçdilər. Buzluğun altından keçib Daşkəsən istiqamətinə çıxmalı idilər. Sağ cinahda, bələdçi ilə birlikdə əlli metr öndə gedən Tərlan dəstənin dayanmasını bildirən işarə verdi. Qar-

şıda təhlükə vardı. Zəfər təhlükəni burada gözləmirdi, onun fikrincə düşmən daha yaxşı mövqe seçə bilərdi.

Həmin gün Zəfərin və orada iştirak edənlərin hər birinin həyatının tən yarısına bərabər idi. Elə bir qəhrəmanlıq səhnəsinin şahidi olmamışdı bəlkə də tarix. Möcüzələrin baş verdiyi yer idi bu dağlar, bu gün isə möcüzəni özləri yaradırdılar. Hər qaya, hər daş bu gün səngərə çevrilmişdi, bu gün bu silahsız insanların müdafiəsi üçün. Düşmənin sığındığı nə vardısa hər şey onların məhvi üçün çalışırdı, qayalar, daşlar, ağaclar onları gizlətmir, sanki Zəfərgili səsləyərək "bura gəlin, mənim arxamda düşmən gizlənib, öldürün onları" deyirdilər.

Həmin döyüş, Zəfərin ən uğurlu döyüşlərindən biri idi, dişindən dırnağınadək silahlanmış düşmənin otuz dörd nəfərinin meyitini qurd-quşa yem etdilər. Həm də ən böyük zərbəni aldı həmin gün Zəfər, Tərlan ağır yaralandı. Düşmənin qrantamyotdan açdığı atəş onun lap yanında partladı, irəliyə şığıyan Tərlanı geri atdı, qəlpələr onunla üzbəüz gələrək bədəninə doldu. Tərlana ilk çatan da Zəfər oldu, silahını yerə atıb onu qolları üstə aldı, bir az aralıda olan daşın arxasına apardı. O, qurşaqdan yuxarı al qan içində idi. Tərlan çabalayır, əynindəki paltarı çıxarmaq istəyir, son sözünü demək üçün ağzını açıb-yumur, amma bacarmırdı. Zəfər cibindəki bıçaqla onun paltarını kəsib çıxardı, sinəsini açdı, sinəsi parampарça idi, mərminin qəlpələri sinəsinə dolmuşdu. O, yenə də nəsə demək istəyirdi, Zəfər ona daha da yaxınlaşdı, amma onun ağzından sözlərin yerinə qan gəlirdi. Özündən asılı olmayaraq onu bağrına basdı.

– Sən yaşayacaqsan, Tərlan, yaşayacaqsan, özünü ələ al, qardaş!...

Amma daha Tərlan yox idi və bu günə qədər olduğu kimi, heç bir zaman olmayacaqdı. Zəfərgil bu gün buranı tərk edəcəkdilər, amma Tərlanın ruhu və qanı ilə al rəngə boyadığı torpaq, burada qalacaqdı. Onun ruhu əbədi olaraq bu torpağın keşikçisinə dönüb gələcək günlərdəki Zəfərləri gözləyəcəkdi.

Zəfər içindəki ağırlıqdan qurtarmaq üçün var səsi ilə, nərə çəkirmiş kimi qışqırdı. Onun səsi dərələrdə, dağların yamaclarında əks-səda verdi. Yanında yerli əhalidən olan yaşlı qocaya tərəf döndü, Tərlanı göstərib dedi.

– Bunu sənə tapşırıram, özünlə apar. Siz bu yerləri yaxşı tanıyırsınız, bunu bu alçaqların əlində girov qoymaq olmaz, əmican!

Daşın arxasından çıxmaq mümkün deyildi, hər tərəfdən güllə yağışı yağırdı. Zəfər güllələrə məhəl qoymadan, bir göz qırpımında daşın arxasından çıxdı, Tərlanın vurulduğu yerdə atdığı silahını götürüb düşmənin üstünə şığıdı. Ayağı göynədi, müvazinətini saxlaya bilməyib yaxınlıqdakı çalaya düşdü. İndi ermənilər ona daha çox yaxında idilər, lakin təsadüfən düşdüyü yer onu dolu kimi yağan güllələrdən qoruyurdu. Çaladan on-on beş metr aralıda olan ermənilərin səslərini eşidir, onların nə danışdığını başa düşürdü, onlar öz iyrənc dillərində yarı rus, yarı ermənicə bir-birini söyərək onun düşdüyü yeri vura bilmədikləri üçün çox əsəbiləşirdilər. Zəfərin dalbadal atığı iki əl qumbarası onların səslərini kəsdı, sanki göldə səs-küylə quruldayan qurbağaların arasına daş atıldı. Zəfər ayağa qalxmaq istədi, sol çiyni və sağ ayağı incidirdi. Lakin indi o vəziyyətdə deyildi ki, ağrıya məhəl qoysun. Ayağa qalxıb bayaq ermənilərin onları gülləbaran etdikləri yerə

getdi, yeddi nəfər erməni silahlılarının meyidləri dağın üstündə qalmışdı. Şahinlə Elçin də gəldilər. Elçin onu görüb tələşlə qışqırdı.

– Komandir, sən yaralanmısan!?

Yalnız bundan sonra ağrının şiddətini hiss etdi Zəfər, gözləri qaraldı, silahını yerə dirəyib yıxılmamaq üçün yerə çökdü. Elçin və Şahin dərhal işə başladılar. Artıq o huşunu itirmişdi, kimsə yanıqlı bir səslə ona laylay deyirmiş kimi bayatı oxuyurdu.

Əzizim ulu dağlar,
Çeşməli, sulu dağlar,
Burda bir Şəhid yatır
Göy kişnər, bulud ağlar.

Uzaqda, lap uzaqda başqa birisi onun səsinə səs verərək dərddən ağı deyirdi. Sanki bu elin dərdi hopmuşdu səsinə, yazıq elə bil nalə çəkirdi, Zəfərin yanında çoxlu sayda qəlpə yarasından torpağın üstündə uzanan Tərlan üçün ağı deyirdi yəqin. Yoxsa onun ağlı başından qaçmışdı. Həmin səs bayatının davamını deyirdi, bu dəfə lap yaxından gəlirdi səsi, sanki onun öz dilindən deyirdi. Görünür dərd adamı tapanda həmdərd olanların hamısını bir yerə yığır ki, bir-birini yaxşı anlaya bilsinlər.

Əslində ağlayan hər kəs öz dərdini ağlayır, ağlamaq qəlbdə yığılan qubarı göz yaşlarına çevirib özündən kənarlaşdırmaqdır, zaman-zaman yığılan mənfi enerjinin boşalmasıdır. Sanki göylər də ağlayırdı o gün. İnsan çox mürəkkəb varlıqdır, daxilində baş verən prosesləri heç bir elmi tədqiqatlar təyin edə bilməz. Kiçik bir bədəndə eyni zamanda minlərlə, milyonlarla proseslər

gedir. Tanımadığı hansısa naməlum bir adam Tərlan üçün ağı deyir, Kəlbəcər şəhidləri ücün ağlayırdı.

Əzizim zaman keçir,
Keçir, çox yaman keçir.
Canımdan can ayrılır
Dünyadan Tərlan köçür.

O, yaralandıqdan sonra huşunu itirdi və Elçinlə Şahinin bir neçə dəqiqə sonra qəhrəmancasına həlak olduqlarını bilmədi.

Zəfər sanki yuxuda idi, ölüm yuxusunda. Bu yuxular adi yuxulardan fərqli olur. Ölüm yuxusunda insanın ruhu tam azad olur, geyindiyi paltarı soyunub atan adam kimi ruh bədəni tərk edir və istədiyi yerə, istədiyi zaman gedə bilir. Bəlkə də Zəfər, yuxuda yox, Tərlangilin dünyasında idi. Elə bir dünyada ki, orada hər şey nəzarət altındadır, hər şey yerli-yerindədir. Nə barıt qoxusu var, nə də ölüm qorxusu. Orada yalnız əbədiyyət var, əbədi olaraq heç nəyə ehtiyac olmadan yaşamaq var. Kimsə kiməsə mane ola bilməz Orada, çünki Yaradanın öz nizamı, öz hökmü var Orada. Orada yalnız seçilmişlər yığılıb, Yaradanın izni ilə. Bu dünyada olan gözəlliklərin ən gözəli Oradadır və bütün bunlar yalnız Onlar üçündür. Ora Yaradanın yaratdıqlqrının hamısından üstün etdiyi Adəmin ilk düşdüyü, sonradan günah edərək qovulduğu, Adəm övladının isə bütün ömrü boyu çalışaraq qazandığı əbədi bir mükafatdır. Ora Cənnətdir.

İYİRMİ İKİNCİ FƏSİL

Tərlanı, Elçini və Şahini Goranboyda məsciddə yuduzdurdular, tabuta qoyaraq elə həmin gün Bakıya yola saldılar. Tərlanın cənazəsini şəhərə döyüş yoldaşları gətirdilər. Həmin gün onlar üç istiqamətə Bakıya, Yardımlıya və Qusara şəhid apardılar. Hərbi təcili yardım maşını bir neçə saata şəhərə çatdı. Artıq hərbi hissədən komissarlığa bildirilmişdi, komissarlıq da öz növbəsində yaxın adamlarının vasitəsi ilə ailəsinə bildirməli idi. İstirahət günü olduğu üçün komissarlıqda bu işi operativ görə bilmədilər, müəyyən səbəblərə görə gecikdilər. Komissarlıqda, Tərlangillə əlaqə nömrələrindən heç biri cavab vermirdi, nəhayət ki, dayısıgildən telefonu götürən oldu.

Tərlanın dayısı Ağakərimi bu ətrafda tanımayan yox idi. Kişi hələ gənc yaşlarından hörmət-izzət sahibi olmuşdu, bu ətrafda onun bir sözünü iki eləyən olmazdı. Bir həftə əvvəl bacısı Xavərə Kənana Şəfəqi almaq istədiyini deyəndə bacısı da bu işi Sabitlə və xüsusilə də Tərlanla danışmağı qardaşına məsləhət gördü. "Onsuz da onlar sənin sözünü yerə salmazlar, amma məndən incimə qardaş, onlardan əvvəl mən sənə heç nə deyə bilmərəm," dedi. Bu söhbət hələlik belə də qaldı. Düzdür, Xavər əri Sabit müəllimə dedi, hətta Şəfəqə də çatdırdılar, demək olar ki, hamı razı idi, təkcə qalırdı Tərlan. Əlbəttə ki, onun razılığı həlledici olacaqdı, hamı onun xasiyyətini gözəl bilirdi, belə işlərdə sakitcə hamı-

nı dinləyər, sonda isə öz sözünü deyər və elə deyərdi ki, bu sanki, hamı tərəfindən qəbul edilmiş qərar kimi səslənərdi.

Telefona dayısının oğlu Kənan cavab verdi. Kənan Tərlandan bir iki yaş kiçik olmasına baxmayaraq, hər ikisi bir-birinə çox bağlı cavanlar idi. Uşaqlıq və gənclik illəri bir yerdə keçmişdi. Xəbəri eşidəndən sonra az qala nitqi tutulacaqdı, telefonu yerinə qoyub hönkür-hönkür ağladı, sonra özünü toxtadıb bibisigilin nömrəsini yığdı. Hər gün bu vaxtlar telefonla Şəfəqlə danışardı, gələcək həyatlarını müzakirə edərdilər. Kənan inisitutu bitirən kimi orduya – Tərlanın yanına getməyi planlaşdırırdı. Şəfəq sanki telefonun yanında oturmuşdu, elə birinci zəngdən sonra telefonu açdı. Lakin Kənan onunla nə danışacağını bilməyib telefonu qapadı. Sonra telefon kitabçasından Sabit müəllimin iş yerinin nömrəsini yığdı. Həmişəki kimi katibə soyuq səslə cavab verib Sabit müəllimin harasa çıxdığını dedi. Kənan qızdan xahiş etdi ki, Sabit müəllim özünü təcili olaraq evə çatdırsın, özü isə əl-üzünü yuyub Tərlangilə yola düşdü. Amma bu xəbəri onlara necə deyəcəkdi bilmirdi. Heç olmasa Sabit müəllim və ya bibisi evdə olsaydı...

Amma bilirdi ki, günün bu saatlarında onlar çətin ki, evdə ola bilərdilər, təkcə Şəfəq evdə idi, axı bu xəbəri Kənan necə deyə bilərdi ona, necə deyə bilərdi ki, Tərlanı gətirirlər, həyətdə dayanan hərbi maşının içindəki tabut onun tabutudur. O tabutun içində daima deyən-gülən, zarafatlarından qalmayan Tərlanın cənazəsidir. Bunu Şəfəqə necə deyə bilərdi? Yox o gözləməliydi, gözləməliydi ki, bibisi və Sabit müəllim gəlsinlər, sonra bu ağır xəbəri onlara desin. Onların vəziyyətini təsəvvür

etdi, son zamanlar hər ikisi hövsələsiz olmuşdular, əvvəlki şuxluq heç birində qalmamışdı. Bir neçə ay bundan əvvəl Tərlan ağır döyüşlərdən sonra evə gəlmişdi. Q, çox arıqlamış, gözləri çuxura düşmüş, üzünü saqqal basmışdı. Amma yenə də şuxluğundan qalmırdı. Sabit müəllim oğluna fəxrlə baxır, lakin qəlbinin dərinliyində atalıq hissinin təsiri ilə az qala ona yalvarırdı.

– Bəlkə daha bəsdir oğul. Bəlkə daha qayıdasan!?

– Ata, az qalıb, müharibə tezliklə qurtaracaq, dünyanın böyük dövlətləri erməninin nazı ilə çox oynaya bilməzlər.

– Yox ay bala. Sən o it uşaqlarını tanımırsan. O qədər həyasız, o qədər murdar və alçaq millətdilər ki, istədiklərini qopartmasalar, sakit oturmayacaqlar. Onlardan yaxa qurtarmaq üçün gərək hamısını qırasan, bir də ki arxalarını böyük dövlətlərə söykəyiblər. Sən elə bilirsən ermənilərdir bu suyu bulandıran? Yox əlbəttə, ruslardır. Azərbaycan bu gün öz müstəqilliyindən imtina etsin, rus təbəliyini qəbul etməyə razılıq versin, gör onda nələr olacaq?

– Ata, hər şeyin əvvəli olan kimi, sonu da var. İndiki zamanda bu müharibə uzun müddətli ola bilməz. Tezliklə bitəcək.

Sabit müəllim daha heç nə demədi, oğlunun xasiyyətinə bələd idi. Onsuz da bildiyini edəcəkdi. Xəlvətə salıb üzündəki həmin ifadə ilə Kənana dedi.

– Ay bala Kənan, onun beynini müharibə aparıb, qorxuram qayıdandan sonra da bu küçələrdə uşaq kimi dava-dava oyunu oynasın. Özün bizim ailəni yaxşı tanıyırsan, bilirsən ki, pis dolanmırıq. Ev-eşiyimiz, vardövlətimiz, hörmətimiz var. Beşindən aşağıyıqsa, onun-

dan yuxarıyıq, nəyimiz varsa, bunundur. Söz verirəm ki, gələn kimi yaxşı işə düzəldəcəyəm. Həvəsdi, bəsdi ay oğul, bir dostumuz varsa, beş düşmənimiz var, düşməni üstümüzə güldürməsin, bala! Mən deyirəm, elə bil divara deyirəm, daşa bu qədər yalvarsaydım, bəlkə də daş, yolundan dönərdi, amma bu dönmür. Axı o, bizim yeganə oğul övladımızdır. Bir gün azmış bir güllə... – kişi sözünün ardını gətirə bilmədi, bir anlıq duruxub əlavə etdi. – o zaman artıq gec olacaq, həm özünü, həm də bizi bədbəxt edəcək. Bəlkə səni eşidər, necə olmasa tay-tuşsunuz. Onunla bir danış.

Kənan bilirdi ki, Tərlanı fikrindən döndərmək mümkün deyil, çünki onun seçdiyi yol ən düzgün və ən müqəddəs yol idi. O, bu barədə Tərlana heç nə deyə bilməzdi. Onunla bu barədə dənışmaq, qəzəbinə tuş gəlmək kimi idi. Amma içindən gələn hansısa bir duyğu Sabit müəllimə bəraət verir, hətta ona yazığı da gəlirdi. O bilirdi ki, Tərlan o tərəfdə olarkən onların ailəsindəki bu üç nəfər hər dəfə qapı döyüləndə, hər dəfə telefon zəng çalanda nələr çəkir. Son günlərdə isə belə vəziyyət sanki bu evin divarlarına hopub, havasına qarışaraq pis xəstəliklər kimi daha da şiddətlənirdi. Görünür ata hissiyatı, ana duyğusu hə şeyi öncədən hiss edirmiş. Axı onlar da başqa valideyinlər kimi oğul toyu etmək, şıltaq nəvələri ilə oynamaq istəyirdilər.

Maşın komissarlığın qarşısında dayananda növbətçi yenicə telefonu yerinə qoymuşdu. Artıq günün ikinci yarısı idi. Komissarlıqdan bir neçə əsgər və bir zabit onların qarşısına düşüb bələdçilik elədi. Maşınlar altıncı mikrarayonda – Tərlangilin yaşadığı binanın qarşısında dayananda artıq saat dördə işləyirdi. Həyətdə tam sakitlik idi, bir azdan burada qopan müsibətdən hələlik

kimsənin xəbəri yox idi. Tərlanın döyüş yoldaşları və komissarlıqdan gələn əsgərlər onun tabutunu maşından çıxarıb səkinin üstünə qoymaq istəyirdilər, lakin komissarlıqdan gələn mayor etiraz edərək, valideyinləri gələndən sonra onu maşından çıxarılacağını dedi.

Kənan bu fikirlərin təsiri altında nə zaman onların həyətinə çatdığını bilmədi. Aralıdan hərbi maşını onun ətrafına yığılan və getdikcə çoxalan camaatı gördü. Ürəyində dərhal "görəsən Sabit müəllim onların arasındadırmı?" deyə düşündü. Yığılan camaatı qınamaq olmazdı, əksəriyyətinin yaxınları cəbhələrdə idilər, hərbi maşın və əsgər görən kimi hamı maraqlanırdı. Addımlarını yeyinlədib hərbi maşına tərəf getdi. Amma deyəsən gecikmişdi. Qonşulardan biri şəhidin kim olmasını soruşdu.

– Ay bala mənim oğlum da əsgərdir, deyin görüm kimi gətirmisiniz?

– Tərlan Sabit oğlu Əhmədovu.

Şəfəq də hərbi maşını görüb balkona çıxmışdı. Qonşu arvad dönüb onların balkonuna baxdı və çılğın səslə ucadan bir qiyyə çəkdi. Heç kim belə olacağını bilmirdi.

– Vay yazıq bala, yazıq Tərlan. Xavər, evin yıxıldı, ocağın söndü Xavər! Vay! Vay! Vay!

Hələ nəyin baş verdiyini dərk etməmişdi, özünü evə, oradan da pilləkənlərə tərəf atdı. Pillələri üç-üç, dörd-dörd düşərək ayaqyalın özünü həyətə saldı. Qonşu arvad hələ də qiyyə çəkirdi. Şəfəq özündən asılı olmayaraq hərbi maşına yaxınlaşdı, əsgərlər onun qarşısını kəsmək istədilər, lakin onun qətiyyəti qarşısında geri çəkilərək yol verdilər. Maşının açıq qapısından üç rəngli bayrağa bükülmüş tabutu görüb dayandı, qeyri-ixtiyari var gücü ilə elə bir qiyyə çəkdi ki, səsi binalarda əks-

səda verdi. Hamı – hətta bayaqdan hay-küy salan qonşu arvad da səsini kəsdi, çünki bu səs qeyri-adi bir səs idi. Bu səs heç də Şəfəqin öz səsi deyildi, onun bütün varlığının səsi idi, dünyaya gəldiyi ilk gündən ömrünün son gününə qədər olan səs limiti idi, qoruyub bu günə qədər saxlamışdı və bu gün Tərlanın üç rəngli bayrağa bükülmüş tabutunu görən zaman son həddə qədər işlətdi və o gündən sonra bir daha onun səsini kimsə eşitmədi. İnsan orqanizmində nə varsa, hər bir şeyin limiti, yəni həddi, qədəri var. Sevincin, kədərin, gülməyin, ağlamağın hamısının həddi var. Həddi aşanları isə böyük bir əzab gözləyir.

– Tə-ərla-an!!!

Səs binalara dəyib əks-səda verdi, bütün Bakı, bütün Azərbaycan eşitdi limitini keçən, həddini aşan bu səsi.

İlahi, bizləri sən necə bir qüdrətlə yaratmısan ki, milyon illər keçsə belə özümüzü dərk edə bilmirik, nəyə qadir olduğumuzu, ağlımızın, zəkamızın nələri fəth edə biləcəyini xəyalımıza belə gətirə bilmirik. Axı biz kimik? Sənin yaratdığın zəlil bir varlıq, yoxsa bir-birinin qanına susayan vəhşi? Sənin lə əhd bağlayıb ömrünün sonuna qədər Sənə ibadət edərək rəhmətini qazanmaq üçün çalışan müdrik, yoxsa əhdinə vəfasız, lənətlərinə tuş gələn cahil, nadan bir zat? Sənə təslim olan müti bir qul, yoxsa bizimlə bərabər yaratdıqlarının üstündə hökmranlıq edən, ətrafdakıların haqqını tapdayaraq, onların qanını töküb təmtaraqlı həyat arzusunda olan iyrənc ət və sümükdən ibarət, nə etdiyini, nə edəcəyini bilməyən, burnunun ucundan uzağı görməyən kor bir zavallı? Bu qapalı dünyada üzümüzə açılmayan qapıların açarı, qarşımıza çıxan, ən çətin sualların cavabı Səndədir. Üzümü

Sənə tutub, Səndən istəyirəm bu suallarımın cavablarını. Biz kimik ya Rəbbim!?

Şəfəq qiyyə çəkib özündən getdi, yıxılmaq istəyərkən təzəcə onun yanına çatan Kənan onu tutub, səkinin üstünə oturtdu. Qonşulardan kimsə su gətirdi, qadınlardan biri onun üzünə su vurdu, kimsə təcili yardım çağırmağa getdi. Bir azdan Sabit müəllim, bibisi Xavər də gəldi. Tabutu yerə endirdilər. Şəfəq tabutu qucaqlayıb yanında daşın üstündə oturmuşdu. İri, ala gözlərindən sanki yağış yağırdı, amma səsi çıxmırdı. Xavər xanım özünə gələ bilmirdi, Kənanın anası Nabat və həkimlər onun başının üstündə idi. Ağakərim Sabit müəllimin yanında dayanmış, siqareti bir-birinin oduna yandırırdı. Hamının başı bu böyük müsibətə qarışmışdı. Onu "Şəhidlər Xiyabanı"nda dəfn etdilər.

Hüzn mərasiminin üçü günü xeyli adam gəlmişdi. Prezident Aparatından Sabit müəllimin iş yoldaşları, məktəbdən Xavər xanımın müəllim yoldaşları, qohumlar, tanışlar, məhlə adamları, Tərlanın döyüş və tələbə yoldaşları... Çox gurultulu məclis keçdi. Yeddisi günü də həmçinin, eşidən, bilən – hamı bu igid Şəhidin valideyinlərinə baş sağlığı vermək üçün axışıb gəlirdi.

Həmin gündən on gün keçirdi. Şəfəq bu müddət ərzində öz otağında qapanıb qalmışdı və bir kəlmə olsun belə, heç kimlə danışmamışdı. Onun həyatında baş verənlərdən heç kimin hətta valideyinlərinin belə xəbəri yox idi. Tərlanın ona hədiyyə kimi aldığı əşyaları, onun kitablarını, ona aid evdə nə vardısa hamısını masanın üstünə səliqə ilə düzmüşdü. Tərlan ilk dəfə hərbi geyimdə evə gələndə bacısı ila birlikdə çəkdirdiyi, sonradan Şəfəqin böyütdürüb çərçivəyə saldırdığı şəkli isə

masanın baş tərəfinə qoymuşdu. O Tərlanın yoxluğunu qəbul edə bilmirdi, elə bilirdi ki, günün birində qardaşı qapını açıb "Bax, sənin Tərlanın gəldi, Şəfəqim mənim. Sən təkcə mənə yox bütün bəşəriyyətə lazımsan. Sən olmasan yer üzündə səhər açılmaz, dünya zülmət içində olar" deyəcək, sonra isə gəldiyi kimi də çəkilib gedəcək. Şəfəq buna inanırdı, bilirdi ki, bu baş verəcək. Hətta yuxularında da bunu görürdü. Hər dəfə özünə söz verirdi ki, bu dəfə Tərlanı buraxmayacaq, əvvəllər olduğu kimi onunla birlikdə şəhərə çıxacaq, uzun yolları piyada gəzəcəklər. Yolun yarısında: "Mən yoruldum. Ayaqqabılarım ayağımı döyür. Gedə bilmirəm daha," deyərək bəhanələr gətirəcək. Tərlan isə onun başını aldadaraq: "Ora bax, tində taksilər dayanıb, taksi ilə gedəcəyik" deyəcəkdi. Beləcə tinlər bir-birini əvəz edəcək və onlar piyada sonuncu tinə – küçələrində olan tinə çatacaqdılar. Növbəti dəfə aldadıldığını görən Şəfəq: "Yenə də məni aldatdın?" deyib özündən on yaş böyük qardaşının üstünə qışqıraraq, onu vurmaq üçün dalınca qaçaçardı.

İndi isə donmuş lal baxışlarını çərçivədən ona boylanan qardaşının üzünə dikib, xatirələrlə yaşayırdı Şəfəq. Ətrafdan, ətrafdakılardan, hamıdan xəbərsiz, yavaş-yavaş şam kimi əriyir, ömrünün bahar çağında çovğun vurmuş çiçək kimi saralıb solurdu. Son on gündə bir dəfə də olsun güzgüyə baxmamışdı, əvvəllər onu tanıyanlardan hər biri ilə küçədə rastlaşsaydılar yəqin ki, onu tanıya bilməzdilər.

Xavər xanım da dalğın vəziyyətdə idi, heç cür özünü toplayıb ələ ala bilmir, ev-eşiklə, ailə ilə – Sabit müəllimlə, Şəfəqlə maraqlana bilmirdi. Sanki, dünya boşalmışdı onunçün, Tərlandan sonra daha heç kim yox idi

bu dünyada, elə bil bu evdə təkcə onlar ikisi yaşamışdılar indiyə kimi. Məktəbdən öz hesabına məzuniyyət götürmüş, bütün günü evdə qapanıb qalırdı, lakin belə olmayacağını başa düşüb heç olmasa başını qatmaq üçün işə çıxmağa qərara aldı. İndi Şəfəq onlar işdən gələnə kimi evdə tək olurdu. Nabat xanım hər gün valideyinləri olmadığı müddətdə onun yanında olurdu. Bu ailənin kədəri onu da büsbütün bürümüşdü.

Nabatla Xavər universitetdə bir qrupda oxumuşdular, məktəbdə əlaçı idi, şəkli şərəf lövhəsində idi. Onlar hələ tələbəlik illərindən rəfiqə idilər, sonralar taleh elə gətirdi ki, insitutu bitirdikdən sonra Xavərin qardaşı Ağakərimlə ailə qurdular. Lakin Nabat heç bir yerdə işləmədi, ömrünü ailəsinə həsr etdi. Çünki, Ağakərimin arvadı işəyə bilməzdi və bununla da onun diplomu evin arxivində müddəti keçmiş sənədlərin yığıldığı qovluğun içərisində illərlə toxunulmaz qaldı. Lakin o boş durmurdu, bütün günü boş olduqca dini kitablar oxuyurdu, heç kimin köməyi olmadan ərəb dilini öyrənmişdi. Ağakərimlə onun bir övladı olmasına baxmayaraq, Tərlan və Şəfəqin də böyüyüb boya-başa çatmasında, təlim-tərbiyəsində onun zəhməti çox idi. Körpəlikdən onun yanında olduqları üçün hər üç uşaq Xavəri ana, Nabatı isə "mama" deyə çağırardılar. Uşaqlar böyüdükcə bu iki ailənin son beşiyi və ən şıltağı olan Şəfəqə daha çox bağlanırdı, deyirlər qız üşağı özünü ətrafındakılara sevdirməyi bacarır. Nabat Şəfəqlə münasibətində bunun həqiqətən belə olduğunu görürdü. Nəhayət ki qərara aldı ki, gələcəkdə gəlin axtarmaq lazım olmayacaq, Şəfəqi öz evinə gəlin gətirəcək və bu barədə hələ illər əvvəl Xavərə də demişdi. Bu gün tələbəlik həyatının ən

dəyərli adamı olan Xavərin başına gələn müsibət sanki onun başına gəlmişdi. Körpəliyindən əziyyətini çəkdiyi Tərlan, bir daha onların arasında olmayacaqdı.

Bu gün, həmin müsibətin onuncu günü hər gün olduğu kimi yenə də səhər tezdən gəlmişdi Nabat, mətbəxdə səliqə-sahman yaratdıqdan sonra qonaq otağına keçdi. Hər şey əvvəlki düzümündə idi, güncdə qoyulan bahalı dolabın qarşısında Şəfəq xalçanın üstündə oturaraq qarşısındakı şəkil qovluğuna baxırdı. Qız elə bil balacalaşmış, dağılmış saçları çiyninə tökülmüşdü. Körpəliyindən doğma balası kimi sevdiyi Şəfəqi dərdli görmək ona ağır gəlirdi. Bu on gündə ikinci dəfəydi ki, onu görürdü. Birinci dəfə Tərlanın dəfni günü bir-birini qucaqlayıb səssiz-səssiz, yanıqlı hıçqırıqlarla ağlamışdılar, sanki hər ikisi dərdin ağırlığı altında əzilərək sinələrinə çəkilən dağın göynərtisini göz yaşları ilə ovudurdular.

Nabat otağın işığını yandırdı, qız dönüb ona tərəf baxdı. Nabat az qaldı ki, qorxudan qışqırsın. İlahi, insan on günün içində hansı hala düşərmiş, qardaş dərdi bu qızı necə hala salmışdı. Şəfəqin üz cizgiləri, baxışları, sifətinin əvvəlki görünüşü tamamilə dəyişmişdi. Bəlkə də başqa bir yerdə rastlaşsaydılar tanımazdı onu. Ürəyi dözmədi yaxınlaşıb illər öncə olduğu kimi nəvaziş göstərmək istədi. Sanki Şəfəq onun düşündüklərini hiss etdi və durub öz otağına getdi. Günortaya qədər Nabat özünə yer tapa bilmədi, mətbəxdən otağa, otaqdan mətbəxə keçdi. Nəhayət ki, öz evlərinə zəng edib Ağakərimlə danışdı, vəziyyəti olduğu kimi ona dedi və sonra əri gələnə qədər Şəfəqlə danışmağı qərara aldı.

Nabat otağa girəndə Şəfəq masanın qarşısında otu-

rub düzdüyü əşyalarla danışırdı sanki. Qapının açıldığını görüb arxaya döndü, anası qədər çox sevdiyi qadına hörmət əlaməti olaraq ayağa qalxdı, keçib çarpayının yanında dayandı. Nabat qızı başdan ayağadək dönə-dönə süzdü. "Aman Allah, bu qızın halına bax sən, elə bil indicə xortdayıb qəbirdən çıxıb" deyə düşündü. Sonra Şəfəqə tərəf gəldi, onu qucaqlayıb bağrına basdı.

– Özünü ələ al qızım, bu qədər üzülmək olmaz. Tərlan hamımız üçün əziz idi. belə etməklə sən ona da, valideyinlərinə də əzab verirsən, onları incidirsən, o sənin dərd çəkməyini istəməzdi axı. İndi ata-ananın təsəllisi təkcə sənsən.

Nabat xanım onu sakitləşdirmək üçün ağlına gələn bütün sözləri dedi, əlindən tutub çarpayının üstündə oturtdu əvvəllər olduğu kimi on gün daraq görməyən saçlarını tumarladı. Bu nəvazişdən Şəfəq kövrəldi, səssiz-səssiz ağladı. Nabat qızın çiyinlərindən tutub özündən araladı, incik halda dedi.

– Şəfəq qızım, indi onun ruhu bax bu otaqdadır, səni bu halda görüncə o da əzab çəkir. Bilirəm ki, sən onun əzab çəkməsini istəməzsən. Yadındadır Tərlan səni incitdiklərinə görə bizim məhəllənin uşaqlarını birbirinə qatmışdı. Qonşu Güloğlanın iki oğlunu al qanın içində evlərinə yola salmışdı. Hansını deyim bala? Sən ki bunların şahidisən. Niyə dinib danışmırsan qızım, bəlkə yalan deyirəm? Öz qulağımın şahidiyəm bala, Ağabalanın uşaqları Kənanla sənin xətrinə dəymişdilər, özləri də qaçıb evlərində gizlənmişdilər. Qapını açа bilməyən Tərlan daşla vurub onların pəncərələrini qırmışdı. Sonra sizi evə gətirib "sizə toxunanların əllərini kəsərəm" dediyini öz qulaqlarımla eşitmişəm. Yoxsa bunların hamı-

sını unutmusan? Niyə cavab vermirsən?

Nabat xanım danışdıqca Şəfəq o günlərə qayıdır, daha da kövrəlirdi. Lakin istəsə də cavab verə bilmirdi, çünki həmin o müsibətli gün nitqini itirmişdi, qorxurdu danışmağa, qorxurdu ki, danışmağa çalışsa ağlını da itirsin, yuxuları ərşə çəkilsin. Heç olmasa yuxularında onu görür, təsəlli tapırdı. Nabatsa əl çəkmir, verdiyi suallara cavab istəyirdi.

– Sən indi daha çox deyib gülməlisən qızım, valideyinlərinə görə, Tərlanın ruhu şad olsun deyə etməlisən bunu. Məgər görmürsən atan nə gündədir, anan hansı vəziyyətdədir. Axı sən uşaq deyilsən, qızım. Özünə fikir ver. On gün əvvəl səni görənlər indi görsələr tanımazlar. Xəbərin var özündən? İnan ki, onun ruhu da narahatdır. Belə olmaz mənim balam, Allaha da xoş gəlməz bu, inan mənə.

Şəfəq nə edəcəyin bilmirdi, əlləri ilə ağzını göstərdi, danışa bilmədiyini, nitqinin yoxa çıxdığını başa salmaq istədi. Nabat xanım heç nə başa düşməyib, qıc olmuş kimi onun üzünə baxırdı. Qız masanın üstündəki qələmi götürüb kağızın üstündə: "Mən danışa bilmirəm, mama. O gündən dilim tutulub, nitqimi itirmişəm" yazdı. Kağızı Nabat xanıma verdi. Qadın əvvəl heç nə başa düşmədi, kağızı bir neçə dəfə oxudu, yazının mənası ona aydın olanda yumaq kimi büküldü, söz tapmadı deməyə. Bilmədi ki, nə etsin. Oturduğu yerdə qollarını geniş açıb qızı bağrına basdı. Fəryad etmək istədi. Bir ailənin başına gələn bu müsibəti yuxarıya, lap yuxarıya bildirmək üçün bütün səsi ilə qışqırmaq istədi. Yox bu üsyan idi – onun öz mənliyinin ruhuna üsyanı, daxilinin xaricinə üsyanı, qəlbinin beyninə üsyanı, nəhayət ki, ya-

radılanın Yaradana üsyanı idi ki, bu günə qədər oxuduğu dini kitablardan bilirdi ki, bunu etmək olmaz.

Bəs nə etsin? İçini göynədən, qəlbində ağır qara daş kimi asılaraq bütün varlığını özüylə birlikdə yerin altına çəkən, büküb-büküb yumruq boyda edən, gör nə qədər insan sevincini, niskilə, kədərə bürüyən bu dərd yükünün altından necə çıxsın? El ilə gələn dərd, toy- bayramdır deyiblər, lakin bu toy-bayram bütöv bir ailəyə gələndə, bir evin çırağını söndürəndə, artıq əndazədən çıxıb dəli bir çay kimi bu ailəni ağuşuna alıb, daşlara, qayalara çırparaq aparanda... bunu da toy-bayram kimi qəbul etməli idilərmi? O bilirdi ki, onları sevərək yaradan heç də çəkə bilmədikləri yüklə yükləməz. Görünür, bu ailənin başında duranlar, onun məsuliyyətini çiyinlərində daşıyanlar – Sabit müəllim və Xavər xanım baş verənlərə yetərincə hazır idilər. Bəlkə də bunlar hamısı valideyn kimi onlar üçün çox çətin sınaq idi. Çünki yaradan öz yaratdıqlarının hər birini ayrı-ayrılıqda fərd olaraq yaratmış, bu dünyada ona bəxş etdiyi qalan nə vardısa hamısını ona sınaq üçün vermişdir və zamanı çatınca verilən hər bir şeyin sorumlusu etmişdir.

Nabatın dərk etdiyi qədər, bu da yaradanın yaratdığına sevgisindən qaynaqlanır, belə ki, O, öz yaratdığını azğınlıqdan, məsuliyyətsizlikdən qorumaq üçün onu məsuliyyətlə yükləyərək, ona hədlər qoymuşdur, bu hədləri aşanları isə ağır cəzayla "mükafatlandıracağını" vəd etmişdir. Bu fikirlərin altında əzilən Nabat xanım, nəyin daha düzgün, nəyinsə qeyri düzgün olduğunu qərarlaşdıra bilmir, Şəfəqin belə hala düşməyini, Yaradanın onlara, hətta bütün yaratdıqlarına qarşı haqsızlıq kimi qəbul edirdi. Bu son qərarının uca Rəbbinə qarşı üs-

yan olduğunu da başa düşürdü. Onun üçün də qəlbində etdiyi bu asiliyin bağışlanması üçün dərhal tövbə edərək Ondan bağışlanmaq dilədi.

Qapının zəngi onu belə qorxulu fikirlərdən ayırdı. Gələn Ağakərim idi, – Nabat ona adının qısaldılmış formasında , həm də hörmət əlaməti olaraq "Ağa", – deyə müraciət edərdi – həmişə olduğu kimi qaşqabaqlı halda qapıda dayanmışdı. Nabat xanım tanış olduqları o gündən bu günə qədər onun üzündə təbəssüm görməmişdi. Sanki həmişə nəyin haqqınasa düşünərdi. O, ağır addımlarla qapıdan içəri keçib özünəməxsus kobud səsi ilə evin sükutunu pozdu.

– Nə olub, ay qız, məni qaranəfəs çağırmısan bura?

Nabat xanım onu birbaşa mətbəxə apardı. Gördüklərinin hamısını bircə-bircə ağlaya-ağlaya başa saldı.

– Ağa, sən demə, Tərlanın dəfni günündən bu qız beləymiş. Heç kim bununla maraqlanmayıb, yazıq qız da o boyda müsibəti görüb, dərdini içəri salıb, kimsəyə deməyib. – Nabat xanım qeyri-ixtiyari olaraq, elə bil içində olan qəhərdən birdəfəlik qurtarmaq üçün hönkürdü və yalvarışlı səslə ərinə dedi – Ağa, bu uşağı təcili həkimə aparmaq lazımdır, yoxsa Şəfəqi də itirəcəyik.

O, əlləri ilə üzünü tutub kürsünün üstünə çökdü, əlavə nəsə deməyə gücü qalmamışdı. Ağakərimin zabitəli sifəti daha da ciddiləşdi. Mətbəxin ortasında daş heykəli xatırladan vücudu ilə gözlərini döşəməyə dikib dayanmışdı. Arvadının yanıqlı ağlaması və Şəfəqin bu hala düşməsi onu da kövrəltmişdi. O xeyli vaxt belə dayandı, sonra özünü toplayıb arvadına dedi.

– Haradadır Şəfəq?

Nabat irəli düşüb Şəfəqin otağına tərəf getdi, otağın qapısına çatanda yana çəkilib ərini irəli burax-

dı. Ağakərim qapını açıb çarpayının üstündə oturub gözlərini masanın üstündə olan əşyalara dikən Şəfəqə baxdı. Qız qapının açıldığını hiss edib ona tərəf döndü, dayısını görüb ayağa qalxdı. Ağakərim qarşısında dayanan, on gün ərzində ağlasığmaz dərəcədə dəyişən qızı başdan ayağadək süzdü. Qızın gözləri çuxura düşmüş, sifəti uzanmış, yanaqlarının sümükləri həddən artıq irəli çıxmış, çənəsi uzanmışdı. Qara kölgəylə əhatə olunmuş gözlərindən indiyə qədər görmədiyi, dəli adamlara məxsus görünüş, baxışlarında ətrafda olan hər şeyə qarşı qorxu vardı. Həddən artıq arıqlamış, dərisinin rəngi göyümtül boz rəngə çalırdı. On gün ərzində daraq dayməyən saçları bir-birinə qarışmış vəziyyətdə olaraq, bu görkəmi daha da qorxunc hala salırdı. Bu halı ilə dəhşətli filmlərdə olan obrazı xatırladırdı Şəfəq. Ağakərim xeyli vaxt yerində dayanıb bu mənzərəni süzdü, sonra irəli yeriyib həmişə olduğu kimi əlini onun pırtdaşıq saçlarına çəkdi. Sakit, sanki pıçıltı ilə dedi.

– Ay Allah!!!... Qızım, əynini geyin, qapıda gözləyirəm.

Sonra qapıda dayanan Nabata göstəriş verdi.

– Uşağa kömək elə geyinsin, özün də hazırlaş, aşağıda gözləyirəm sizi.

O qapıdan çıxıb pilləkənlərlə aşağı düşdü, Şəfəqin vəziyyəti ona çox pis təsir etmişdi. Dilinin tutulması isə heç də yaxşı əlamət deyildi. Pilləkənlərlə aşağı düşərkən ilk növbədə uşaqlıq dostu nevropotoloq həkim Orxan Zeynalov yadına düşdü. O, Respublika xəstəxanasında şöbə müdiri işləyirdi. Şəfəqi onun yanına aparmağı qərara aldı. Bir neçə dəqiqədən sonra Nabat Şəfəqlə birlikdə aşağı düşdülər. Ağakərim artıq taksi saxlatdırıb

onları gözləyirdi.

Orxan həkim onları xüsusi hörmətlə qarşıladı. Xəstəxanadan bir neçə həkim də çağırıb Şəfəqi diqqətlə yoxladılar, bəzi analizlərin verilməsini tövsiyə etdilər. Nabat Şəfəqlə həkimin çağırdığı tibb bacısı ilə birlikdə analiz vermək üçün getdilər. Orxan həkim qızın vəziyyətinin ağır durumda olduğunu Ağakərimə izah etdi.

– Sizdən gizlətmək istəmirəm, uşaq çox ağır vəziyyətdədir. Hətta onun yaşaması belə sual altındadır. Bu xəstəliklər çox ağır sarsıntı nəticəsində yaranır və qısa müddətdə biruzə verərək, əksəriyyət hallarda düyğu orqanlarını sıradan çıxarmaqla özünü göstərir. Qısa müddətdən sonra ağlın itməsinə – dəliliyə gətirib çıxarır və bu simptomlar qabarıq formada üzə çıxır. Belə xəstələrin yüzdə biri, o da ki, dərmanların köməyi ilə yox, orqanizmin güclü imuniteti nəticəsində yaşaya bilirlərsə də, ömürlərinin sonuna qədər psixoloji sarsıntıdan əziyyət çəkirlər.

Həmişə səbr və təmkini ilə dostlarına örnək olan Ağakərim, hövsələdən çıxdı, onun sözünü kəsdi.

– Orxan, mən bu uşağı ona görə sənin yanına gətirməmişəm ki, mənə həkim məsləhəti verəsən, nə etmək olar və harada, onu mənə de. Bilirsən ki, bu bacımın gözünün ağı-qarası olan yeganə övladıdır, həm də mənim oğlumun nişanlısıdır. Bunun sağalması üçün nə mümkündürsə, etməliyik. Sənli, mənli hamımız, əlimizdən nə gəirsə etməliyik, hətta heç nə gəlməsə belə, yenə etməliyik. Bu sənin həkim kimi, mənim isə dayı kimi, ikimizin birlikdə isə insan kimi borcumuzdur.

– Ağa, biz bu gün bir-birimizi tanımırıq ki, mən səni dağa-daşa salım. Əgər zərrə qədər işıq ucu olsaydı, onu

da deyərdim. Sənin imkanlarını gözəl bilirəm. Ürəyində xal qalmasın deyə elə bu gün bütün analizləri Türkiyədə Gülhanədə çox savadlı bir Hoca var, ona göndərəcəyəm. Sabaha ya da o biri günə cavab gələcək. Əslində belə xəstələri ora-bura aparmaq olmaz, onlara sakitlik lazımdır. Onların cavabları səni qane etməsə hara istəyisənsə apara da bilərsən.

Ağakərim, Orxan həkimə inanırdı, lakin bacısı qızını da taleyin ümidinə buraxmaq istəmirdi. Nə vaxtsa belə bir müşkül qarşısında aciz qalacağını təsəvvürünə gətirə bilmirdi. Həkimlə sağollaşıb dəhlizə çıxdı, uzun dəhlizdə var-gəl etməyə başladı. Bu ağır xəbəri Xavərə və Sabit müəllimə necə verəcəyini düşünürdü. Onlar bunu çəkə biləcəkdilərmi? Dəhlizin başında Nabatla Şəfəqi gördü, qız döğrudan da əriyib itirdi. Analizlərin cavablarını Nabatdan götürdü, sanki nə edəcəyini qərarlaşdıra bilmirmiş kimi bir müddət duruxdu, əlindəki kağızlara xeyli baxdı, dönüb Orxan həkimin otağına doğru getdi.

Bir az sonra onlar taksidə "Şəhidlər Xiyabanı"na gedirdilər. Orxan həkimin ciddi-cəhdlə tapşırmasına baxmayaraq Ağakərim, bacısı qızının sözünü yerə sala bilmədi, evə gəlmək üçün saxlatdırdığı taksini birbaşa Tərlanı ziyarət etmək üçün oraya sürdürdü. Nə bilmək olardı bəlkə də bu, bacısı qızının ondan dilədiyi son dilək idi.

İYİRMİ ÜÇÜNCÜ FƏSİL

Zəfər üç ay hərbi hospitalda yatdı, yaraları hələ tam sağalmasa da artıq hövsələsi tam daralmışdı. Bu müddətdə ona çoxları baş çəkdi, hərbi hissədən tez-tez yanına gəlirdilər. İki dəfə də general gəldi. Birinci dəfə gələndə onun vəziyyəti ağır olduğu üçün görüşə bilməmişdilər.

Birinci gün idi ki, Gəncə Hərbi Hospitalının ağır xəstələr üçün nəzərdə tutulmuş "reanimasiya" şöbəsinə yerləşdirmişdilər. General mundirin üstündən ağ xalat geyərək palataya daxil olanda Zəfər güclü ağrıkəsici dərmanların təsiri altında yatırdı. Elə həmin gün onun göstərişi ilə Zəfəri Bakıya – "Papanin"də yerləşən Hərbi Hospitala gətirdilər və "reanimasiya" şöbəsində onu təkadamlıq palatada yerləşdirdilər. Tərlanın dəfnindən və onların ailəsində sonradan baş verən müsibətdən onun xəbəri olmadı. Arabir özünə gələndə – dərmanların təsiri azalanda Tərlanın adını çəkir, qışqıraraq sayıqlayırdı. "Yox, yox. Sən ölə bilməzsən, ölməməlisən, Tərlan." Həkimlər onun bərpa olması üçün əllərindən gələni edirdilər. İki həftəlik olum-ölüm mübarizəsindən sonra nəhayət ki, gözlərini açdı. Olub keçənlərin hamısı yavaş-yavaş yadına düşməyə başladı və Zəfər o gündən bəlkə də dünyada ən böyük "qaradinməz" oldu.

Yanına gələnlərdən heç nə soruşmadı, qorxurdu ki, onlar Tərlan haqqında daha pis xəbər verərlər. Bütün günü bir tərəfi üstə uzanıb qalmaqdan, yanına gələnlərin

şablon sözlərindən bezmişdi. Gələnlərin çoxu qapıda dayanır, ya da içəri girərək onun yatmış olduğunu görüb qayıdırdılar. "Reanimasiya"dan iki gün idi çıxmışdı ki, tibb bacısı ona yaxınlaşıb Ramizin gəldiyini dedi. Zəfərin gözlərinə işıq gəldi, ayağa qalxmaq istədi, ağrının təsirindən yenidən yatağa düşdü. Pıçıltı ilə, iniltiyə bənzər səslə "buraxın gəlsin" deyə bildi.

Zəfər Ramizi belə halda görməmişdi bu günə qədər, sanki qocalmışdı Ramiz, birdən-birə yaşının üstünə neçə yaş gəlmişdi kim bilir, sifəti qəribə tərzdə əyilmiş, üzündəki qırışlar daha da dərinləşmiş, beli hiss olunacaq dərəcədə donqarlaşmışdı. Xırda, qara gözlərində olan parıltı sönmüş, payız leysanının yaratdığı bulanıq dərd, kədər ümmanına bənzəyirdi. Sanki, ətrafdakılardan bir bəhanə axtarırdı ki, hönkür-hönkür ağlasın. Bu daş qəlbli, həyatının əksər hissəsini əzablarla keçirən, kənardan baxan zaman hissiyatsız təsiri bağışlayan bu qarillaya bənzər adamı dərd hansı hala salmışdı, İlahi! Onu son dəfə görən hər kəs bu dəyişikliyi dərhal hiss edərdi.

Zəfər başını yastıqdan qaldırıb dərd dumanı kimi açıq qapıdan içəri keçən Ramizi diqqətlə süzdü. İndiki halda bəlkə də onun ən çox arzuladığı və inandığı adam idi bu. Bilirdi ki, ondan heç nəyi gizlətməyən yeganə insan odur, inanırdı ki, bu günə qədər bir kəlmə də olsun yalan danışmayıb və heç bir zaman da danışmayacaq. Amma heç danışması lazım da olmadı. Zəfər bütün gücünü toplayıb heç bir söz danışmadan, onun üzünə baxaraq lazım olan bütün informasiyanı aldı və dolmuş gözlərini yumub başını yastığa atdı.

Ramiz səssizcə onun çarpayısına yaxınlaşdı, sağ əlini iri ovucları arasına aldı, heç nə danışmadan beləcə xeyli vaxt qaldılar. Əlinin üstünə düşən göz yaşının təsirindən gözlərini açdı Zəfər. Bir damcı göz yaşı qaynar qurğuşun kimi onun əlini yandırdı, elə yandırdı ki, sanki əlini deşib oradan da yerə düşəcəkdi. Ramiz ağlayırdı, bu dünyada itirdikləri üçün ağlayırdı. Dünyaya ilk gəlişində görmədiyi atası üçün, min bir əzab əziyyətlə onu böyüdən, hər nazını çəkən, son anında belə həsrətində olduğu tək doğmasını – yeganə oğlunu görə bilməyən, yadların çiyinlərində son mənzilə köçən anası üçün, oba-oba, el-el işğal olunan torpaqların hər qarışı üçün, əsir düşən, illərlə olmazın əzablar içində qovrulan həmvətənləri üçün, düşünmədən canlarını qurban verən döyüş yoldaşları üçün ağlayırdı. İlk və son dəfə ruhunun ənginliyindən daxilinə axan göz yaşından ibarət şəlalənin bir damcısını saxlaya bilmədi içində. Çox sevdiyi insanların – Tərlanın, Şahinin, Elçinin yoxluğunda, Zəfərin yaralı halında, daxilindən püskürən vulkanı boğa bilmədi. Bir damcı göz yaşıyla illər boyu cilovlayıb saxladığı, heç kimə bildirmədən ürəyinin başında gəzdirdiyi dərd yükünü ata bildi. Bu onun ağlı kəsdiyi vaxtdan bu günədək birinci və sonuncu ağlamağı idi.

Deyirlər ağlamaq insanı sakitləşdirir, daxili stressdən çıxarır, dərd yükünü azaldır. Hər şey belədir, təbiətdə olduğu kimi. Güclü külək buludları qovur, bir yerə toplayır. Yağışın yağması ilə hər şey sakitləşir. Bu yağış güclü selə çevrilən leysan da ola bilər, aramla yağan çiskin də, hətta bir damla da ola bilər – Zəfərin əlinə düşən damla kimi... Bir də deyirlər ki, kişi ağla-

maz. Ağlamaq kişini qeyrətsiz edər. Kişilərin ağlamağı da Ramizin ağlamağı kimi olmalıdır, illərlə yığılan qubarı bir damlaya toplayaraq günün birində – özündən kənarlaşdırır. Zəfər Ramiz haqqında bundan başqa heç nə düşünə bilmirdi. Taleyin ona tuş gətirdiyi, "Manuçarovun daçası"ndan tanıdığı bu adamda yalnız yaxşı keyfiyyətləri görə bilirdi – daha doğrusu onda heç bir mənfi xüsusiyyətə təsadüf etməmişdi.

Onlar artıq heç nə danışmadılar, bir damla göz yaşı çox, daha çox mətləblərdən xəbər verdi.

İki gündən sonra general öz qəhrəmanına bir daha baş çəkdi. Hər gün həkimlərdən Zəfərin vəziyyəti haqqında məlumat alaraq onun bir neçə gün əvvəl özünə gəldiyini və "reanimasiya" şöbəsindən ümumi palataya çıxarılmasını eşidərkən çox sevindi, vaxt tapan kimi ona baş çəkməyi qərara aldı. General palataya girən zaman Zəfər qəbul etdiyi dərmanların təsiri altında yatırdı. O, Zəfərin çarpayısı ilə yanaşı olan çarpayının üstündə oturdu. Yanındakı şəfqət bacıları və baş həkimin müavini ayaq üstə dayanmışdılar.

– Siz işinizlə məşğul olun. Mənə görə narahat olmayın. Yalnız Məsud həkim burada olsa bəs edər.

Məsud həkimi uzun müddət idi ki, tanıyırdı. Onun işində məsuliyyətli olduğunu bildiyi üçün xahiş etmişdi ki, Zəfərin müalicəsinə şəxsən nəzarət etsin.

– Xəstənin yaraları o qədər də ağır deyil, əgər vaxtında hər hansı bir hospitala çatdırmaq mümkün olsaydı, ya da tibbi mütəxəssis tərəfindən yardım göstərilsə idi yəqin ki, hal-hazırda olduğundan daha yaxşı vəziyyətdə ola bilərdi. Xəstə hospitala çatdırılana qədər çoxlu qan itirib və elə bundan da ölə bilərdi. "Reanimasiya"da

yatdığı müddət ərzində onu yalnız ölümün caynağından ala bilmişik. Mən onun Gəncə hospitalına çatdırılan zaman hansı vəziyyətdə oluğu ilə maraqlandım. Göstəricilərə inansaq o indi yaşamamalı idi.., görünür hələ ipi qırılmayıbmış.

General susur, inandığı və etibar etdiyi həkimin danışdıqlarına qulaq asırdı. Məsud həkim indiyə qədər başına gələn buna oxşar hadisələrdən danışırdı.

– Bu yaxınlarda mən Sarıcalı hospitalında idim. Ora bir yaralı gətirdilər, adı, soyadı indi də yadımdadır. Həsənov Adil Bibiqulu oğlu, onu ömrümün sonuna qədər unutmayacağam. Güllə sifət nahiyəsində boşluğa dəymiş, sağdan girib soldan çıxmışdı, yarası çox yüngül idi, belə yaradan kiminsə ölməyi ağlasığmaz görünür. Amma yaralı uzun zaman atəş mövqeyində qaldığı üçün çoxlu qan itirmişdi. Yaralı bizə çatdırılanda dərhal bütün tədbirləri gördük, lakin həddən artıq qan itirdiyi üçün biz onu üç gündən artıq saxlaya bilmədik. Bilirsinizmi o mənim yadımda niyə qalıb? Mən bir neçə dəfə onun uzandığı yerdə namaz qıldığını müşahidə etdim, hətta ölüm ayağında belə onun öz əqidəsindən vaz keçmədiyini gördüm. Hər gün namaz vaxtlarında mən onun yatdığı palataya bir bəhanə ilə baş çəkirdim. Hər dəfə də Adil namazda olardı, təsəvvür edirsinizmi? Yaralı çarpayıda uzandığı halda namaz qılır, palataya girib çıxan həkimləri, tibb bacılarını və müxtəlif adamları duymadan, hiss etmədən yalnız onu yaradanla əlaqədədir. Bəlkə də yaşadığı ömrün hesabatını verirdi. Çox istəyirdm ki, o yaşasın, və müalicədən sonra onu görə bilim... Bilirsiniz elə şeylər var ki, bizə adi görünsə

də sonda gözlədiyimiz nəticəni əldə edə bilmirik. İnsanın yaşaması təkcə biz həkimlərdən asılı deyil.

Zəfər gözlərini açdı, təəccüblə yanındakı generala və Məsud həkimə baxdı. Ona elə gəlirdi ki, indi gördüklərini bayaqdan yuxuda görürdü. Hətta Məsud həkim Adilin adını çəkəndə də onu yuxusunda görmüşdü, çünki Adili o yaxından tanıyırdı. İlk dəfə Azərbaycan Ordusuna gələndə Səbail Tank Taborunda qulluq etmişdilər. O zaman Zəfər Səbail Tank Taborunda Kəşfiyat Bölüyünün komandiri, Adil isə həmin taborun birinci bölüyünün tağım komandirlərindən biri idi. Sonra Şuşada rastlaşdılar, daha sonra "Uzundərə"də bir yerdə xidmət etmişdilər. Onun ölüm xəbəri Zəfəri silkələdi, dərmanların təsiri altında yatmasına baxmayaraq ayıldı. "Həsənov Adil Bibiqulu oğlu – "Atam balası", "Balaşka" ləqəbli cəsur tankçı..." deyə düşündü.

Zəfər yaralandığı gündən indiyədək yalnız keçmişi xatırlayırdı. Uşaqlıq vaxtlarından, hərbi məktəbdə tələbəlik illərindən, xarici dövlətlərdə əks kəşfiyatda işlədiyi zamanlardan, daha sonra Qarabağda apardığı əməliyyatlardan ayrıla bilmirdi. Hospitalda keçirdiyi vaxtda o yalnız keçmişlə – xatirələrlə yaşayırdı. Görünür qəbul etdiyi narkotik tərkibli güclü ağrıkəsicilərin təsirindən irəli gəlirdi bu. Ona elə gəlirdi ki, ömrünün çox hissəsini burada hərbi hospitalda, onunçün ayrılmış bu kiçik hücrədə mənasız yerə keçirmiş, günlərlə yataqda uzanmaqdan bezmişdi. Hər dəqiqə bir saat, hər saat bir gün, günlər bir il qədər uzun keçirdi. Yanına çox adam gəlirdi, o isə gələ bilməyənləri arzulayırdı, o kəsləri gözləyirdi ki, hansı ki, heç vaxt yanına gələ bilməyəcəkdilər.

İnsan maraqlı varlıqdır, heç vaxt əlində olanlarla kifayətlənmir, həmişə nəsə istəyir, nəyisə arzulayır. Arzularsa tükənmək bilmir. Arzuların tükəndiyi yerdə Ölüm başlayır, əslində insan yarandığı gündən ona ən yaxın olan da elə odur, bu bəziləri üçün qorxulu, bəziləri üçün isə yaşam dəyişikliyidir. Bizim ölümümüz, ruhumuzun bədənimizi tərk etməsidir, Ruh bədəni tərk edir və öz aləminə – öz əbədi dünyasına çəkilir. Bizim bədənimiz – bütün orqanlarımız, istək və arzularımız ruhumuza məxsusdur və onun xidmətindədir. Uşaqkən böyüyüb yeniyetmə, gənc olmaq arzusu, gənc ikən kamilləşmək arzusu, saymaqla tükənməyən arzular... istəklərin, mübarizələrin bitmədiyi bu həyat, sonunda isə qazandığın əbədiyyət – Ruhun azadlığı. İstər kədərli olsun, istərsə də sevincli. Fərqi yoxdur, qazanc həmişə şirin olur. Çünki o sənin özünündür, sənə, yalnız sənə məxsusdur.

İYİRMİ DÖRDÜNCÜ FƏSİL

Zəfər üç ay hərbi hospitalda yatdıqdan sonra tam sağalmasa da böyük təkiddən sonra evə buraxıldı. Ertəsi gün o, Tərlangilə getdi. Sabit müəllimlə, Xavər xanımla görüşdü. Bu ailənin başına gələn müsibəti eşidərkən daha bir ağır zərbə aldı. Müharibələrə, onu törədənlərə, dəstək verənlərə nifrət etdi. Bir ailənin ocağı sönmüşdü. "Əziyyətlə övlad böyüdüb boya başa çatdır, həddi buluğa çatarkən arzuların ürəyində qalsın. Ən böyük dərd, övladın valideyn çiynində məzara getməsidir", deyə düşündü.

Zəfər bilirdi ki, insanların bu dünyada ən böyük problemi, Yaradanın onlar üçün nə hazırladığını bilməməsidir. Bir an sonra nə baş verəcəyini kimsə bilməz, gələcəkdə baş verən hər bir hadisə qeybdir və qeybi bilmək yalnız Ona məxsusdur. Odur, bizi yaradan, bizə təyin etdiyi qədər ömür verən, bizim bu dünyada ilk gəlişimizi və son gedişimizi təyin edən. Bizləri ən ali varlıq kimi yaradaraq, qalan bütün yaratdıqlarını bizə xidmət üçün yaratmış, düzgün yaşayış tərzini göstərən, bu dünyada etdiklərimizə görə əbədiyyətə gedən yolu göstərən kitab – "QURAN" göndərmişdir. Bu dünyada bizə verilən hər bir şey – hətta övladlarımız belə sınaq üçün verilib və bir Gün verilən nə varsa hamısı barədə sorğu-sual olacağı mütləqdir.

Bütün bunları bilərək Tərlanın və Şəfəqin yoxluğu ilə barışmaq istəməyən Zəfər, Sabit müəllimin ailəsində

baş verən əbədi sükutu başa düşürdü. İki övlad böyütmüş, hər ikisi ilə son üç ay ərzində vidalaşan valideynlər bəlkə də hansısa günahlarının bədəlini ödəyirdilər, bəlkə də bu dünyada ən böyük imtahandan, sınaqdan keçirdilər. İçi dərdlə, əzabla dolu kiçik ömür adlı zaman yığımının sonunda ağır bir imtahan, sorğu-sualların tükənmədiyi və heç nəyi gizlədə bilmədiyin bir "Gün"ün həsrəti – bu dünyada etdiklərinin hamısının hesab "Gün"ü.

Yaradan çox sevdiyi bəndələrini, hətta bizim aramızdan seçdiyi və bizi düz yola qaytarmaq üçün göndərdiyi elçiləri belə çətin sınaqlardan keçirmişdir. Bu sınaqların ən çətinlərindən biri də verdiklərini geri almasıdır. Hər şey Onun əlindədir, biz insanlar özümüz də bilmədən Onun bizim üçün təyin etdiyi missiyanı yerinə yetiririk. Onun iradəsindən kənarda heç nə baş vermir və verə də bilməz. Onun icazəsi olmadan bir yarpaq belə ağacdan düşmür, hər bir işdə Onun razılığı var.

Ailəsində baş verən müsibətdən sonra işdən çıxaraq bütün gününü ibadətlə məşğul olan Sabit müəllim, hər həftənin dördüncü günü, günün ikinci yarısında övladlarını ziyarət edir, cümə günlərini məsçiddə keçirirdi. Hər gün namazdan əvvəl və sonra Rəbbinə əl açıb övladlarının və özlərinin bağışlanmalarını diləyirdi.

Zəfər Tərlangildən çıxanda artıq hava qaralmışdı. O gecəyə, sutkanın şər qüvvələrinin cövlan etdiyi hissəsi kimi baxırdı. Yaradan, gecəni insanlar üçün istirahət etməyə yaratdı. Lakin şər qüvvələr belə vaxtlarda daha da fəallaşır. Onun üçün çox darıxdırıcı keçirdi bu günlər. Hərbi hissə üçün, əlahiddə taburda olan əsgərləri üçün darıxırdı. Amma yaraları hələ də tam sağalmamışdı,

iki gündən bir Hərbi Hospitala sarğılarını dəyişdirmək üçün gedirdi. Sabah yenə gedəcəkdi və bu onun son dəfə sarğı dəyişdirməsi olacaqdı.

Hər dəfə olduğu kimi Papanindən piyada İnqilab küçəsinin kəsişməsinə qədər getmək istəyirdi. Sarğılarını təzə dəyişdirdiyi üçün bitişməkdə olan yaraları göynəyirdi. Kəşfiyyatçı intuisiyasının köməyi ilə kimlərinsə onu izlədiyini hiss etdi, ani baxışla arxadan bir nəfərin gəldiyini gördü, küçə tamami ilə boş idi. Bir tin aşağıda – İnqilab küçəsi tərəfdə qara "Qaz-31" dayanmışdı. Hansısa bir hiss onu gözlədiklərini xəbər verirdi. Maşından bir az arlıda – səkidə bir nəfər dayanıb siqaret çəkirdi. Yolun əks tərəfində də iki nəfər öz aralarında söhbət edirmişlər kimi göstərərək dayanmışdılar. Zəfər dayandı, corablarını düzəltmək bəhanəsi ilə arxadakını görmək üçün aşağı əyildi. İndi artıq heç bir şübhəsi qalmadı ki, onlar hamısı bir qurupdandırlar və onu izləyirlər. Müqavimət göstərmək isə artıq idi. Yəqin ki, onlar silahlı idilər, lakin günün günorta çağında küçədə silah işlədə bilməzdilər. Yəqin ki, yaralı olmasaydı çəkinmədən onların üstünə gedər və onlar istəməsələr belə bir bəhanə ilə qeyri bərabər davaya girişərdi. İndi isə... Onlar yəqin ki, onu maşına otuzdurub harasa aparcaqdılar. Əllərini sallayıb onlara sakitcə təslim ola bilməzdi, hətta son nəfəsində olsaydı, belə edə bilməzdi. Çünki onun xarakterində təslim olmaq anlayışı yox idi. Vaxt qazanmaq üçün siqaret yandırdı. Birdən yolun əks istiqamətində taksi dayandı və Ramiz taksidən düşüb heç nəyə fikir vermədən yolu keçib onun yanına gəldi.

– Komandir, sizinlə görüşmək üçün dünən bura gəlmişdim, həkimlər dedilər ki, sarğı vaxtı sabahdır.

Amma onlar vaxtı gec demişdilər, həkimlərin dediyinə və mənim hesablamalarıma görə siz hələ sarğı otağında olmalı idiniz. Yaxşı ki, yola baxırdım, sizi gördüm. Görməsə idim bir də iki gündən sonra yenə bura gəlməyə məcbur idim.

– Yox, həkimlərdə günah yoxdur, bu gün mən tez gəlmişəm. Evdə oturmaqdan bezmişəm Ramiz, bu zibillər də sağalmır ki, qayıdım ora. Yaman darıxıram, heç bir səbəb olmadan ürəyim sıxılır. Əsəblərim korlanıb, hövsələm çatmır. Son əməliyyatlarda başımıza gələnləri analiz etdikcə əsəbləşirəm.

Zəfərin diqqəti onu izləyənlərdə idi, qarşıdakı siqaret çəkən, əlindəki siqaret qutusunu açıb kiminləsə danışdı və yolun gənarı ilə əkilmiş ağacların arasına girib yoxa çıxdı, eyni vaxtda onu izləyənlərin hamısı elə bil buxarlandılar. Qarşıdakı qara maşın da işə düşmədən İnqilaba tərəf getdi. Artıq izlənməyi barədə onda heç bir şübhə qalmamışdı. Onlar yolu keçib söhbət edə-edə "Gənclik" metrosuna tərəf getməyə başladılar. Bu dəfə Ramizin təsadüfi gəlişi onu xilas etdi. Görəsən onlar kim idilər?

Zəfərlə Ramiz bütün günü bir yerdə oldular, bayaqkı hadisə barədə Ramizə heç nə demədi. Onlar kafedə oturub yemək yedilər, keçmiş günləri yad edib xeyli danışdılar. Tərlanı, Elçini, Şahini yada saldılar. Onun baxışları uzaqlarda, səmanın ənginliklərində ilişib qalmışdı. Bu gün baş verənlər onu narahat edirdi, Ramizlə danışsa da fikri onların yanındaydı. Ramiz onun bu halını yaralı olmasıyla əlaqələndirir, onunçün də heç nə soruşmurdu. "Onlar kim idilər, məndən nə istəyirdilər. Əgər hakimiyyət orqanlarından olsaydılar... yox bun-

lar kiminsə sifarişini yerinə yetirən "reketlər" idilər və yəqin ki yenidən qayıdacaqlar." Özüylə danışırmış kimi dodağının altında, asta səslə dedi.

– Bir gün imkan tapıb Yardımlıya Elçini və Qusara Şahini ziyarət etməyə getmək istəyirəm. Hər ikisi mərkəzdən çox uzaqdadırlar. Gərək dəqiq ünvanlarını götürüm. Mütləq getmək lazımdır.

Onlar axşamüstü kafedən çıxdılar. Vədələşdilər ki, iki gündən sonra hospitalda görüşsünlər. Ramiz onu evlərinədək ötürmək istədi, Zəfər etiraz etdi. Onunla sağollaşıb kafenin qarşısındakı taksilərdən birinə oturdu. Maşın Tibilisi prospektinə çıxanda yol polisi onlara "dayanmaq" işarəsi verdi, sürücü maşını sağa çəkib saxladı. Ani bir vaxtda ağacların arasından üç nəfər qara maskalı adam çıxıb maşını əhatəyə aldılar. Onların üçü də, biri qabaqda, ikisi isə Zəfər ortada olmaqla arxada oturdular. Hərəsi onun bir qolundan tutmuşdular, sol qolundakı yara incitdiyinə görə Zəfər ufuldadı. Onlardan biri, sol tərəfdə oturan onun qolunu daha bərk sıxaraq dedi:

– Özünü yaxşı aparsan səni incitməyəcəyik, ağıllı ol!

Sürücünün yanında oturan qarşıdakı maşını göstərib ona əmr etdi.

– O maşının arxasınca sür.

Zəfər qara otuz biri görən kimi tanıdı, bu həmin maşın idi. İşin sonunu gözləməkdən başqa əlacı yox idi. Hələ tam bitişməmiş yaraları göynəyirdi. O sol tərəfdə oturana tərəf döndü və ağrıdan zarıya-zarıya dedi.

– Mümkünsə, əlimi bir az boşalt, qolum yaralıdır, onsuz da istəsəm də sizə heç nə edə bilmərəm.

Sol tərəfdəki onun qolunu bir az da sıxdı, Zəfər ağrıdan daha da inildədi. Qabaqda oturan iniltiyə dön-

dü, onun üzündəki əzab ifadəsini və artıq köynəyinin üstünə çıxan qanı görüb yəqin ki, ürəyi yumşaldı, acıqlı surətdə yoldaşına çəmkirdi.

– Qolunu burax, insan deyilsən, görmürsən qan axır?

Qabaqda "Volqa" arxada onların oturduqları "Jiquli" sürətlə küçələri arxada qoyub irəliyə doğru şütüyürdülər. Hər iki maşın Bakı-Sumqayıt yolundan Biləcəri enişinə döndülər. Qarşıdakı maşın dar küçələrin birində yolun sağında piyadalar üçün nəzərdə tutulmuş yerə çıxıb qəza işıqlarını yandırdı və sağ tərəfi divara yaxın olmaqla dayandı. Onların da maşını bir neçə metr arxada dayandı. "Jiquli"dəkilər sol qapıdan düşməli oldular.

Zəfər ani bir vaxtda bir daha belə imkanın əlinə düşməyəcəyini düşündü. Maşından düşdü və arxasınca düşən maskalını gözlədi. O başını yenicə qapıdan çıxarmaq istəyirdi ki, qapı zərblə başına dəydi, aldığı zərbədən huşunu itirən maskalı maşının arxa oturacağının üstündə huşsuz vəziyyətdə qaldı. Maşında onun solunda oturan, indi isə bir az aralıda dayanıb hələ nə baş verdiyini anlaya bilməyən maskalı, Zəfərin təpik zərbəsindən arxaya aşdı, ayağa durmaq istəyərkən ikinci daha qüvvətli zərbə onun sifətinə dəydi. Üçüncü maskalı sürücü tərəfdən düşdüyü üçün çətinlik çəkirdi, o maşından düşəndə artıq Zəfərin əlində ikinci maskalıdan götürdüyü tapança var idi. O, Zəfərin üstünə atıldı, ilk zərbə ilə tapançanı vurub yerə saldı, əlbəyaxa döyüş başladı, onlar bir anlıq göz-gözə dayandılar. Sifətində olan maskanın açıq yerindən iki, geniş açılmış, qəzəbdən parıldayan gözlər onu parçalamaq istəyi ilə yanırdı. Zəfər qarşısındakının yaxşı və təcrübəli idmançı olduğunu dərhal hiss etdi, ancaq belə döyüşlərdə yaxşı idmançı

olmaq bəs etmir. Küçə döyüşlərinin öz qaydaları var ki, gərək onlardan zamanında istifadə edə biləsən. Zəfər ona iki güclü zərbə vurdu, zərbələri qarşılayan maskali sağ ayağı ilə onun sol ayağında olan yaranın üstünə güclü bir zərbə vurdu. Zəfər, zərbənin gücünə və yaranın ağrısına dözə bilmədi, səndələyib yolun kənarında olan qum topasının üstünə yıxıldı. Maskalı özünü toplayıb, rəqibini yerdə yaxalamaq üçün üstünə gəldi. Zəfər sanki bunu gözləyirdi, sağ əlinə yığdığı bir ovuc qumu onun sifətinə çırpdı. Gözləri qumla dolan maskalı bir anlıq dayandı. Zəfər, qarşıdakının vaxt itkisindən istifadə edərək ayağa qalxdı, bütün gücünü toplayıb sağ ayağı ilə qarşısındakı maskalının cənəsinə aşağıdan yuxarıya doğru zərbə vurdu. Bu zərbə Zəfərin özünə məxsus idi və ona "ölüm zərbəsi" deyirdi. Bütün bədəni ilə göydə uçan maskalı, yolun ortasında asfaltın üstünə düşüb qaldı. Zəfər yerə düşən tapançanı götürdü, axsaya-axsaya qara "Volqa"ya tərəf getdi.

Sürücü maşını söndürməmişdi, güzgüdən arxada baş verənləri görürdü, indiyə qədər görmədiyi, hətta ağlına gətirə bilmədiyi səhnə ona ləzzət verirdi. Bu lovğa "qaqaşların" döyülməsi onun lap ürəyindən idi. Birdən güzgüdə qalib döyüşçünün əlində tapança onun üstünə gəldiyini görüb qaçmağı üstün tutdu, maşına sona qədər qaz verib sürətlə yerindən irəliyə doğru şütüdü. Hətta sağ tərəfinin ağaca sürtünməyinə də fikir vermədi. Zəfər əlindəki silahı yuxarı qaldırıb tuşladı, amma nədənsə atəş açmadı, əlini aşağı salıb geriyə, gəldiyi maşına doğru addımladı.

İndiyə kimi maşından düşüb bir az aralıda – ağacların arxasında gizlənib baş verənləri seyr edən "Jiquli"nin sürücüsü Zəfərə tərəf gəldi.

– Qardaş, bu nə iş idi, bizim başımıza gəldi, getdiyimiz yolla da imkan vermirlər ki, rahat gedək. Birinci dəfə deyil bu kimi hadisələrin şahidi oluram. Hələ sən yaxşı qurtardın. Milləti boğaza yığıblar, bir yandan erməni qırır, o biri yandan da bunlar, it uşaqları, it. Bir deyən yoxdur ki, ay bala, belə qolu zorlusan get Qarabağa. Görüm gedə bilirsən? Burda belində tapança fırlanmağa nə var. Get də, kişisən, get ora.

Kişinin ürəyi dolu imiş, nəfəsini dərmədən danışırdı. Zəfər onun dediklərini eşitsə də cavab vermək halında deyildi. Maskalıların silahlarını yığmağa başladı, başlarına keçirtdikləri qara maskaları çıxarıb üzlərinə baxdı. Maşının qapısını açıb içəridə huşsuz vəziyyədə olan maskalının da silahını götürdü, maskasını dartıb başından çıxartdı, sürüyüb, maşından çölə yolun içərisinə atdı.

– Sizdə klokdan, çantadan nəsə var?

Sürücü maşının yük yerindən parçadan olan çanta gətirdi. Zəfər, maskalılardan götürdüyü silahların hamısını çantaya yığıb arxa oturacağın üstünə qoydu, dönüb bir daha yolun ortasında uzanıb qalan quldurlara baxdı, ürəyi dözmədi, sürücünün köməyi ilə onları yolun kənarına çəkdi, maşın şəhərə tərəf yola düşdü. Artıq hava qaralmışdı, küçələrdə maşınlar seyrəlmişdi, bir azdan şəhər qaranlıq zülmətə bürünəcəkdi.

Zəfər artıq şəhərdə qalmağın onun üçün baş ağrısı olacağını bilirdi, indi hər addımda onu izləyəcəkdilər, nəsə bir çıxış yolu tapmalı idi, yaraları göynəyirdi. Sürücü yolda dil boşaza qoymurdu, hey nədənsə danışırdı, onun dediklərini eşitsə də fikri tamamilə başqa yerdə idi. Maşın Yasamalda evlərinin yanında dayandı.

– Sizə borcum nə qədərdir?

– Sizin mənə heç bir borcunuz yoxdur, sizin kimi oğlanlara canımı da qurban verərəm. Nə zaman sizə lazım olsam, qulluğunuzda hazıram. Mən çox vaxt sizi götürdüyüm yerdə dayanıram, belə də ki, oradakı taksilərin hansından "Taksi Elxan" soruşsanız məni tapa bilərsiniz, hətta o kafenin işçiləri də məni tanıyırlar.

Zəfərin yaraları incidirdi, taksi sürücüsünü çox dinləyə bilmədi, silahları yığdığı çantanı götürüb sağollaşdı.

– Sizin çantanızı da götürürəm, nə vaxtsa qarşılaşsaq qaytararam.

– Əlbəttə götürün, lazım deyil, sən allah, köhnə çantadır. – O duruxub yenidən sözünə davam etdi – Sizə kömək lazımdır? Evə qədər ötürüm? Axı siz yaralısınız, bəlkə mən lazım olaram, həkim-zad çağırmağa, bəlkə elə indi çağırım? İstəyirsinizsə, xəstəxanaya aparım sizi, nə deyirsiniz?

– Heç nə lazım deyil. Sağ olun.

Sürücü yenə nəsə demək istəyirdi, amma Zəfər qulaq asmayıb evə tərəf getdi. Binanın girişinə çatanda dönüb geriyə baxdı, sürücü hələ də getməmişdi. Ertəsi gün bütün taksi sürücüləri bu günkü hadisəni daha da dramatikləşdirib bir-birinə, hətta daşıdıqları müştərilərə belə danışmaqdan çəkinmirdilər.

Zəfəri belə vəziyyətdə görən həyat yoldaşı Pərvanə xanım tez uşaqları o biri otağa apardı, qəti tapşırdı ki, heç biri otaqdan çıxmasınlar. Sonra qayıdıb ərinin yanına gəldi.

– Bu nə haldır, dalaşmısan?

– Hə, sarğıdan çıxıb evə gəlirdim, "İnqilab"da iki nəfərin bir nəfəri vəhşicəsinə döydüyünü gördüm, araya girdim, mənə də bir neçə şapalaq dəydi. Eşitməmisən deyirlər həmişə araya girən çox döyülür?!

Zəfər üzünü turşudub ağlına gələn ilk fikri uydurdu, həyat yoldaşı onun yalan danışdığını başa düşdü, ancaq üzünə vurmadı. Ərinin xasiyyətini bilirdi. Bu halda ondan dəqiq heç nə öyrənə bilməyəcəkdi. Onun soyunmasına kömək etdi, sarğılarını açdı, yaralarını spirtli məhlulla yudu, yenidən sarğı qoyub bağladı. Ayağındakı və qolundakı yaralar göclü zərbənin təsirindən tikişdən açılmışdı, yəqin ki, həkim müayinəsinə ehtiyac vardı. Bədəninin başqa yerlərində də zərbə yerləri aydın görünürdü. O, ərinin gözlərinin içinə baxdı, sanki yalan danışdığını çatdırmaq istəyirdi. Zəfər baxışlarını gizlətdi.

– Elə indi yığış gedək anangilə, bir müddət orada qalarsınız. Mən sabah səhər, bəlkə də bu gecə hərbi hissəyə qayıtmalıyam. Vaxt itirmək olmaz, dur hazırlaş.

– Niyə, gecə vaxtı xeyir ola!? Səhəri gözləyə bilmərik? Bir də ki, birinci dəfə deyil ki, sənin getdiyin. Məgər sən həmişə gedəndə biz anamgilə gedirdik? Mənim və uşaqların məktəbə...

Zəfər onun sözünü kəsdi, acıqlı və qınayıcı baxışlarla arvadının üzünə baxdı, əlavə izahat vermək halında deyildi, sakit və qətiyyətli şəkildə dedi.

– Söz güləşdirmə, Pərvanə. Nə deyirəm onu elə. Məndən olsa sizi tamamilə uzaq bir yerə aparmaq istərdim, amma hələlik bura gedin, sonrasını fikirləşərik. Yaxşı olar ki, Rzaya zəng edəsən, gəlib sizi aparsın.

Pərvanə xanım heç nə demədən ayağa durdu. Di-

vanın üstündə qoyulan içərisində silahlar olan ağzı açıq çantanı görüb ərinə baxdı. Zəfər onun baxışlarından "bunlar nədir" sualını oxudu.

– Bunları hərbi hissəyə aparmalıyam. Sən bir az əldən iti ol. Uşaqlardan və özündən muğayat ol, bir müddət evə gəlməyin. Ola bilər ki, evi izləsinlər.

Bir az sonra Rza gəldi. O, Pərvanənin qardaşı idi. Sakit təbiətli adam idi. Nə işlə məşğul olduğu heç kimə məlum deyildi, amma yaxşı dolandığı göz qabağında idi. Kənddə və Bakı ətrafında böyük hörməti vardı. Onlar əslən Şüvəlanlı olmalarına baxmayaraq, "Sovetski"də yaşayırdılar. Rzagildə qalmaq hələlik ən etibarlı yer idi.

Zəfər ailəsini Rza ilə yola salıb özü evdə qaldı. Səhər tezdən hərbi hissəyə yola düşəcəkdi. Bir az sonra Bakı özünə məxsus küləkləri ilə zülmət küçələri ağuşuna aldı. Bütün gecəni səksəkə içində keçirdi, hər gələn səsə reaksiya verirdi. Qət etdi ki, əgər onlar evə hücüm etsələr, silahdan istifadə etsin. Silahları masanın üstünə düzdü. "PM"lərin üçü də təzə idi, onlardan zavod qoxusu gəlirdi.

Səhərin alaqaranlığında avtovağzalın yaxınlığında taksiyə oturub hərbi hissəyə yola düşdü. Bütün yol boyu onu izləyənlərin kimliyi haqqında düşünürdü. Hərbi hissəyə çatan kimi xüsusi şöbənin rəisi polkovnik Murad Yaqubovla söhbət etməyi qərara aldı.

İYİRMİ BEŞİNCİ FƏSİL

Ertəsi gün Zəfər briqadada Murad Yaqubovla görüşdü. Polkovnik onun səhhəti ilə maraqlandı.

– Salam cənab mayor, necəsiniz? Yaralarınız daha incitmir ki? İki gün əvvəl həkiminizlə əlaqə saxladıq sizin hələlik tam formada olmağınız üçün azı iki ay vaxt lazım olacağını dedi. Amma baxıram ki, maaşallah yaxşısınız.

Onlar görüşüb qucaqlaşdılar. Asta addımlarla zabitlərdən ayrılıb həyətin bir küncündə söhbət etməyə başladılar. Zəfər iki gün öncə başına gələnlərin hamısını ona danışdı. Onlar söhbət edə-edə briqadanın həyətindən çıxaraq, xeyli aralandılar. Zəfər həmin gün baş verənləri danışdıqca hər iki zabit gərgin anlar keçirirdi. İki cəbhədə döyüşmək hər halda çox ağır idi.

– Hə, bu qədər, cənab polkovnik. Mənim müalicəm belə yaddaqalan hadisələrlə öz pik nöqtəsində tamamlandı.

– Mirzəyev, elə fikirləşmə ki, onlar səndən əl çəkəcəklər? Bundan sonra onlar hər addımını izləyəcəklər, səni rahat buraxmayacaqlar. Sən hamıdan, ətrafında olan mülki vətəndaşlardan, sənlə çiyin-çiyinə döyüşən döyüş yoldaşlarından, hərbi geyimdə olan hər kəsdən, bu günə qədər sənə yaxınlıq edən hər bir adamdan uzaq olmalısan. Daha ehtiyatlı olmalısan, mən bütün kanallarım vasitəsi ilə nəsə öyrənməyə çalışacağam.

Hər hansı halda sən, özün üçün ən yaxşı cangüdənsən.

Polkovnik Yaqubov çox danışdı, hər şeyi öyrənmək istəyirdi. Bir neçə ay əvvəl Zəfərlə etdiyi söhbət yadına düşdü. Bu elə həmin söhbətin davamı idi. Onlar əvvəlcə gizli, sonra isə açıq-aşkar hücuma keçmişdilər. O, təxminən bilirdi daş hansı tərəfdən atılır. Əgər yenə də onlar idilərsə bu çox təhlükəli ola bilərdi və bu halda heç Murad özü də heç bir kömək edə bilməyəcəkdi.

Bir neçə ay əvvəl Zəfərin ruslarla əlaqələri haqqında dosyesinin yığılması tapşırılmışdı, onu Vətənə xəyanətdə günahlandıraraq ittiham etmək istəyirdilər. İki gün əvvəl isə paytaxtın özündə açıq hücuma keçərək, hətta yol polisinin köməyindən istifadə etməklə özlərinə məxsus silahlı qurum vasitəsi ilə aradan götürmək istəyiblər. Məqsəd eyni idi, motiv başqa. Onlar verilən tapşırığı yerinə yetirməyincə əl çəkmək fikrində deyildilər, bu eyni ilə Sovet "KQB"sinin qoyduğu qayda-qanun, getdiyi yol idi.

Polkovnik Yaqubov, artıq bəzi məqamlarda gecikdiklərini hiss edirdi. Ona görə də hərbi hissənin həyətinə qayıdan kimi Zəfəri öz maşınına dəvət etdi və rəsmi olaraq silahları ona təhvil verməsini dedi. Silahları götürdükdən sonra isə bu barədə briqada komandirinə məlumat verməsini tapşırdı. Onlar briqada komandirinin yanına gələrkən Müdafiə Nazirliyindən gələn xüsusi komissiya içəridə olduğu üçün qəbula düşə bilmədilər. Əslində onlar heç də Müdafiə Nazirliyindən deyildilər, gələn komissya Prezident Aparatında "Çolaq"ın göstərişi ilə təşkil olunmuşdu. Məqsəd briqadanı yoxlamaq yox, Zəfəri gizli silah saxlamaqda günahlandıraraq elə hərbi hissədən həbs etmək idi.

* * *

Bakıdakı uğursuzluqdan sonra özünə gələ bilməyən Barat dərhal hərəkətə keçdi. Zinatovun işə yaramayacağını başa düşərək, bu dəfə Şaydulinlə əlaqə yaratdı. İsak Yakuboviç Şaydulun Baratı telefonda dinləyib narahat olmamasını dedi və birbaşa "Çolaq"la əlaqə yaratdı. Məsələnin tezliklə həll olunmasını tapşırdı. "Çolaq" baş verən hadisələrin fonunda, onu rədd etmədi, mərkəzdə hakimiyət uğrunda gedən mübarizədə kimin qalib gələcəyi məlum deyildi, Şaydulinlə Zinatov hər ikisi hələlik böyük fiqur idilər və onların heç biri ilə münasibəti pozmaq olmazdı. Bütün bunları nəzərə alıb, "Çolaq," Fərrux Salamovu yanına çağırdı, Baratla görüşməsini, işi təfərrüatı ilə, diqqətlə öyrənməsini və məsələni köklü şəkildə həll etməsini tapşırdı.

– Bu iş barəsində mənə hərtərəfli məlumat verilməsini istəyirəm. Bütün vasitələrdən istifadə edin, lazım olsa ləvğ edin. Bizə qarşı olanlar, bizimlə deyil. Bu seçim onların özlərinindir.

Salamov çox sərt qərarın veridiyini anlayırdı. Deməli məsələ onun düşündüyündən də ciddi idi. O, Baratla bu barədə bir dəfə söhbət etmişdi, hətta Müdafiə Nazirliyinin səlahiyyətli şəxsini onunla görüşdürmüşdü. Bu təxminən beş ay əvvəl baş vermişdi. Amma məsələ həllini tapmayınca Barat daha yuxarılara əl atmışdı. İndi Zəfərin aradan götürülməsi ilə, "Çolağ"ın xüsusi tapşırığına əsasən, Salamov şəxsən özü məşğul idi. O, Zəfərin diri tutulub Corat ətrafında olan malikanəyə gətirilməsini göstəriş vermişdi. Əməliyyatı "Qardaşlıq"

cəmiyyətindəki, əlaqələndiricisinə tapşırmışdı. Özü Baratla birlikdə malikanədə Zəfəri "qarşılayacaqdılar".

Mərkəzin xüsusi tapşırığını yerinə yetirmək üçün Xankəndiyə gedərkən həmin o uğursuz əməliyyatdan sonra Zəfərə düşmən kəsilmişdi Barat. Ramiz ermənilər tərəfindən öldürülsəydi, bəlkə də bu qədər təsir etməzdi ona. O, dünyaya meydan oxuyan Sovet "KQB"sini ayağa qaldırmışdı, Qafqazda hər daşın altını yoxlatdırmışdı, ancaq Ramizi tapa bilməmişdi. İlk dəfə olaraq həmişə arxalandığı, güvəndiyi bir qurumun əslində çox zəif olduğunu, özünün yetişdirdiyi bir adamın qarşısında necə aciz qaldığını görürdü. Sovet rejiminin yetişdirdiyi "Yalquzaq" bunu heç kimə bağışlaya bilməzdi.

O, Ramizlə Zəfəri aradan götürmək istəyirdi. Bütün səylərinə baxmayaraq buna nail ola bilmirdi. Əsində Ramizi aradan götürmək onun üçün çox asan idi, ancaq nə qədər ki, o Zəfərin himayəsində idi bu mümkün deyildi. Ona görə də bütün qüvvəsini Zəfərin məhvinə yönəltmək qərarına gəldi. Hər dəfə etdiyi cəhdlər uğursuzluğa düçar olduqca, o daha da quduzlaşır və yeni həmlələr üçün məqam gözləyirdi. Cəbhədə buna nail ola bilməyən Barat, Zəfər hərbi hospitalda yatan zaman məqamın yetişdiyini düşündü və planı incəliklərinə qədər cızdı. Hər şeyin əla getdiyini və bir azdan Zəfərlə üzbəüz dayanacağını düşündüyü anda, uğursuzluq haqqında xəbər onu ildırım kimi vurdu. Zəfər üç nəfəri tərk silah edərək və ölümcül hala salaraq, bu dəfə də aradan çıxa bilmişdi. Başını əlləri arasına alıb kürsüyə çökdü. "Bu insan deyil, şeytandır" deyə bağırdı.

Ertəsi gün Zəfərin getdiyi taksi sürücüsünü tapdırıb Zəfərin yaşadığı ünvanı öyrəndi, günün günorta çağın-

da binaya yaxınlaşdı, binanın girişində telefon xətlərini kəsdi, üçüncü mərtəbəyə qalxıb kilidi sakitcə açdı və evə daxil oldu, kimsə yox idi. otaqları bir-birinə vurdu, ona lazım olan heç nə yox idi. "Yəqin ki, silahları da özü ilə götürüb, borc olsun sənə etdiklərin. Nə edə bilirsənsə et, bir gün etdiklərinin hesabını verəcəksən" deyə düşündü. Otağın ortasında ilan kimi qıvrılıb, fısıldadı. Sonra içəri girdiyi kimi də sakitcə çölə çıxdı. Amma nə qədər səssiz hərəkət etsə də üzbəüz qapıdakı qonşu qadın onun qapıdan çöldəki hərəkətlrini tam olaraq müşahidə edirdi.

Pərvanə xanım müəllimə yoldaşı olan Gülçöhrə müəlliməyə onların evindən göz-qulaq olmağı tapşırmışdı. Gülçöhrə xanım hər gələn taqqıltıya gözlüyə yaxınlaşır və onların qapılarına baxırdı. Baş verənlər onun gözləri qarşısında baş verdi. O, polisə zəng etmək istədi, telefon işləmirdi. Əynini geyinib yaxınlıqdakı polis idarəsinə getmək istədi. Yadına düşdü ki, Pərvanə müəllimə ondan yalnız kimlərin gəlib getdiyinə nəzarət etməsini xahiş etmişdi. Bir azdan otaqdan çıxan adamın acıqlı sifətini gözlükdən görəndə dəhşətə gəldi, üzündəki ovunu parçalamağa hazır olan heyvani görünüş onu qorxutdu. Qadın onun gedişindən uzun müddət sonra qapıda qalaraq özünə gələ bilmədi. O gündən sonra uzun müddət hər dəfə həmin epizod yadına düşəndə həmin qorxu və dəhşət canını bürüyür, varlığını titrədirdi. O, ertəsi gün Pərvanəyə bütün gördüklərini danışdı.

Sürücü əməliyatın pozulması xəbərini gətirən zaman Fərrux və Barat hər ikisi bir yerdə idilər, xəbər onlar üçün çox ağır oldu. Zəfərin bu dəfə də yaralı olduğu halda ən yaxşı üç nəfəri tərk silah edərək aradan çıxması heç də yaxşı əlamət deyildi. Daha hazırlıqlı əməliyyat

tədbirləri görülməli idi. Dərhal "Çolağa" məlumat verildi.

Zəfərin silahlarla birlikdə yoxa çıxması heç də yaxşılıqdan xəbər vermirdi, lakin vaxtında izə düşə bilsə idilər, elə həmin silahlar onun başına bəla ola bilərdi, onunçün də təcili hərəkətə keçdilər. "Çolaq" Zəfərin hərbi hissədə olduğunu öyrənən kimi komissiya yaradaraq hərbi hissələrin yoxlanılması haqqında qərar verdi. Əksəriyəti inanılmış adamları olmaqla bir qrup yoxlanışa hazırlandı, amma silahlar tapılmadı. Xüsusi şöbədə olan məxfi adamı vasitəsi ilə öyrəndi ki, silahlar artıq onlardadır və kimə məxsus olması barədə ciddi iş gedir. O, əməliyyatın dayandırılmasına göstəriş verdi və həmin gün hərbi prokurorluqda olan "agent"lə görüşdü.

Kəlbəcərin işğalı ilə əlaqədar, hərbi prokurorluqda cinayət işi qaldırılmışdı və Zəfər də həmin siyahıya əlavə olundu. Həmin gün yaralarının tam sağalmamasına baxmayaraq onu qarnizon prokuroluğuna çağırdılar və həbs etdilər.

İYİRMİ ALTINCI FƏSİL

Türmə həyatı o qədər də asan keçmədi, ömrünün ən gözəl çağına qara xal kimi həkk olundu o il yarım. Yaraları incidirdi, hələ tam sağalmamışdı, düşmənin bədəninə vurduğu yaralar yalan oldu ruhuna vurulan yaraların yanında, bu yaralar daha çox incitdi onu. Vətənə xəyanət damğası daha çox göynədirdi onu. İlk dəfə özünə nifrət etdi, qəlbinin dərinliyində özünü qınadı, ayağının altında yeri, başının üstündə göyü görməyincə, darıxdı Yaradanın ona bəxş etdiyi azadlıq üçün.

Atılan böhtanların ruhunu işğal etməsin deyə özü üçün mənəvi bir qala qurdu. Elə bir qala ki, nəinki ona böhtan atanlar, hətta özü belə istəsə hər hansı bir şübhə toxumunun ora düşməsi mümkün olmasın. Qışqırmaq, haray salmaq istədi, ancaq bunun heç bir xeyri olmayacağını başa düşüb yenidən qəlbində qurduğu qalaya çəkildi. Hərbi prokurorluq işçilərinin mənasız sorğu-sualları bezdirmişdi onu, "yaxşı ki vaxtında bu qalanı tikə bildim, yoxsa düşmənin işğal etdiyi, torpaqlar kimi, çoxdan əsir düşmüşdüm" deyə düşündü. Düşmənin güclü həmlələrində qaladan qopan hər kərpic onun ümidləri idi və son kərpic qopana qədər azadlıqda olacaqdı. Bədənindəki yaralar zaman keçdikcə sağalır, qəlbindəki yaralar isə daha da dərinləşirdi.

Belə günlərin birində, qəlbində son ümid işığının közərdiyi bir vaxtda – "ümid qalasının" darmadağın

olduğu bir zamanda yenidən sorğu-sual üçün qarnizon prokurorluğuna apardılar, onu dindirən baş müstəntiq uzun sükutdan sonra başını qaldırıb onun üzünə baxdı, heç nə soruşmadan ayağa durub, pəncərənin qarşısında olan elektrik çaydanından iki çay süzdü, yenidən yerinə qayıdıb, sözə başladı.

– Yaraların necədir, daha incitmir ki, Sizi? Nəzərinizə çatdırıram ki, sizin işi aparmaq mənə tapşırılıb – cavab gözləmədən sözünə davam etdi, görünür bu sözləri etdiyi söhbətə giriş üçün deyirdi – Biz sizin bütün xidmətlərinizi araşdırdıq. Həm Sovet dövründəki, həm də ondan sonrakı həyatınız nümunəvi vətənpərvər həyatıdır. Açığını deyim ki, şəxsən mən sizinlə fəxr duyuram və çalışacam ki, bəraət alasınız, sizin kimi kadrlara ehtiyacımız çoxdur. – O irəli əyilib kiminsə eşidəcəyindən qorxurmuş kimi pıçıltı ilə – oz aramızda qalsın, sizi xüsusi sifarişlə tutublar, kiminləsə şəxsi ədavətiniz yoxdur ki?

Zəfər danışmaq istəmirdi, bunun da planın növbəti hissəsi olduğunu düşünürdü. Sadəcə etiraz əlaməti olaraq başını bulamaqla kifayətləndi. Baş müstəntiq çox danışdı, onun inanması üçün dəridən qabıqdan çıxdı, ancaq dediklərinin effekt vermədiyini görüncə nəhayət dedi.

– Çayınız soyuyur, cənab mayor, için. Görürəm ki, siz onsuz da mənə inanmırsınız, amma inanın ki, mən doğru danışıram, başqa bir fikrim yoxdur. Məndən bir istəyiniz, xahişiniz yoxdur ki?

Zəfər soyumuş çayı başına çəkdi, başını bulayıb etirazı olmadığını bildirdi. Baş müstəntiq ayağa qalxdı, əlini ona uzadıb sağollaşdı.

– Bir az səbirli ol, tezliklə hər şey yoluna düşəcək.

Onlar birlikdə qapıya tərəf getdilər, qapıda onu hərbi polisin nümayəndələri gözləyirdi. Yenidən kamera həyatı, baş-başa qaldığı düşüncələri... İnsana ən böyük işgəncə onu ətraf mühitdən, doğmalarından təcrid etməkdir, son bir il üç ayda Zəfər bunu yaxşı anlamışdı. Keçirdiyi türmə həyatı, tanış olduğu adamlar, çətinliklə uyğunlaşdığı və hələ də uyğunlaşa bilmədiyi şərait ona çox şey öyrətdi.

İnsan bəzən tək qalmağı arzulayır, tək qalmaq üçün çox şeyi qurban verməyə hazır olur, ancaq türmə həyatında belə olmur, adı qədər ağır olur, bu həyatın hər bir anı. İnsan divarlara baxmaqdan divara, daşa dönür – əzaları daşlaşır, beyni, yaddaşı daşa dönür, qəlbi, baxışları da soyuyur, soyuq daş parçasına çevrilir. Daş qəfəsdə daş heykələ dönür insan, biganəlik canına, qanına hopur, laqeyidləşir İnsan. Qapılar kimi örtülür həyatı da, taleyi də... təkcə ruhu bu dünyada cövlan edir, əli çatmadığı, səsi yetmədiyi yerlərdə məskən salır. Həm də keçdiyi ömür yolunun hər anını dəfələrlə yenidən keçir, ömür kitabının hər səhifəsini vərəq-vərəq çevirir, nöqtəsinə, vergülünə qədər dönə-dönə oxuyur. Azadlıqda yadına sala bilmədiyi yaşanmış həyat epizodlarını təkrarən yaşayır, xəyalən o günlərin xatirələrində itib-batır.

Zəfər də hamı kimi yaşayırdı bu qapalı həyatı, niskilli günləri daha çox düşürdü yadına, bir də doğma Vətəni Azərbaycanın son yüz ildə başına gələn müsibətlər narahat edirdi onu. Azərbaycan tarixini gözəl bilirdi O.

"Bədxah düşmənlərin gözləri bu torpaqdan çəkilmir. Son yüz ildə tən yarısını itirmişik Azərbaycanın,

qorxurdu ki, bu gedişlə yüz ildən sonra bu adda dövlət yer üzündən silinə. İki böyük imperiyanın arasında bölündük, şimallı, cənublu olduq, param-parça etdilər Azərbaycanı. İrəvanın, Borçalının, Dərbəndin yaraları sağalmayıb hələ. Torpaqlar getdikcə özümüzü aldadaraq, yeni doğulan nəslə "Onlar yüz illərlə hazırlaşıblar" dedik. Düşmənlərimiz indiki davaya hazırlaşarkən biz nə etdik bu ötən yüz illərdə? Nəyi gözləyirik? Öz içimizdə günahkar axtardığımız bəs deyilmi? Bir-birimizə böhtan atıb zindanlarda çürütməyimiz yetməzmi? Bəlkə bu çətin, ağır günlərdə bütün narazılıqları bir tərəfə qoyaq? Bəlkə, bəs edər daha Azərbaycanı bölgələrə böldüyümüz? Bir yumruq kimi birləşmək zamanı deyilmi?!"

Bu fikirlər onun ruhunu əsir etmişdi məhbəsdə. Məhkumluğu heç cür qəbul edə bilmirdi, həm də ki, belə bir adla. "Vətən xaini" damğası ilə yaşamaqdansa, ölmək daha yaxşı olardı onun üçün. Axı hansı xəyanəti etmişdi və ya edə bilərdi ki, bu gün onun bədəlini ödəsin? İlk günlər nəsə bir yanlışlıq olduğunu düşünürdü, amma bu yanlışlığın belə uzun sürəcəyini ağlına belə gətirə bilmirdi. Bəzən meşşan təbiətli, özündən razı müstəntiqlər elə suallar verirdilər ki, hətta doğulduğuna, onlarla bir səmanın altında yaşadığına nifrət edirdi. Belə hallarda yalnız susmağa üstünlük verir, özünü sakitləşdirməyə çalışırdı.

İYİRMİ YEDDİNCİ FƏSİL

Barat həmin gecə evə getmədi, bir neçə saat əvvəl qarşıladığı şimallı "dostlarını" bir daha "ziyarət" etmək üçün bəlkə də bu dünyada ən çox sevdiyi kabinetinə qalxdı. Fırlanan kürsüsünə yayxanaraq gözlərini yumdu. Altımış beş yaşlı agent, fəaliyəti dövründə nələr görməmişdi. Həyatı kino lenti kimi gözlərinin önündən keçdi. Ömrünün çoxunu xidmət etdiyi bir qurum sonda onu bədəndə lazımsız orqan kimi kəsib atmaq istəyirdi. "Axı mən onlara bütün varlığımla xidmət etdim, onlar mənimlə bu cür rəftar edə bilməzlər. Bunu deməyə haqqım var, ən azı məni sərbəst buraxmalı, kömək eləmirdilərsə də, heç olmasa mane də olmamalı idilər. Bunlara bax hələ bir mənim arxamca killer göndərirlər. Həddi aşmaq olar, amma bu dərəcədə yox. Özləri kimi ağzından süd iyi gələn uşaqlarla məni qorxudurlar."

Ayağa qalxıb otaqda var-gəl etdi, seyfə yaxınlaşıb Kubadan onun üçün gətirilmiş ətirli siqarlardan birini götürdü, zərli alışqanla yandırıb tüstünü havaya buraxdı. Çox fikirli idi, bu işin sonunun heç də yaxşı olmayacağını bilirdi. Uzun illər xidmət etdiyi rus xüsusi xidmət orqanlarını yaxşı tanıyırdı, onlar heç nəyi bağışlamırdılar, gec ya tez yenidən onun arxasınca gələcəkdilər. Lakin bilmirdi ki, artıq iki gün əvvəl onun hər addımını izləmək üçün, onun da tanımadığı "Çolaq" ləqəbli agent öz cəsusunu restoranın ətrafında yerləşdirmişdi. Baratın hər

bir hərəkətinə nəzarət edən cəsus onun ətrafında fırlanır və hər an şah damarını kəsməyə hazır vəziyyətdə idi.

Nikita Volski "Yalquzağ"ın kordinatlarını Korcenkoya verəndən sonra Bakıdakı yalnız ona məlum olan gizli agentlə – "Çolaq"la əlaqə yaradıb lazım olan məlumatları verdi və Baratı tam nəzarətdə saxlayaraq hər addımını izləməyi tapşırdı. O, göndərdiyi bu iki bacarıqlı casuslara görə narahat idi.

"Çolaq" – Müzamil Qaraşov min doqquz yüz səksəninci illərin sonlarında Sovet "KQB"-sinin Azərbaycan SSR Mərkəzi Komitəsinə yerləşdirdiyi gizli casus idi. Onun mövcud olmasından yalnız Moskvada – mərkəzdə məlumat vardı. Qaraşov uzun müddət bir çox xarici ölkələrdə casusluq fəaliyəti ilə məşğul olmuş, hələ heç bir əməliyyatda uduzmamışdı. Tam məxfi olan bu casus əməliyyatın planını hazırlayarkən bütün detalları nəzərə alar, yüz ölçüb bir biçərdi. Elə bu astagəlliyinə görə də ona bu ləqəb verilmişdi. Bakıya gələndən sonra "Çolaq" demək olar ki heç bir əməliyyatda şəxsən iştirak etmirdi. Dəqiq planı hazırlayıb öz pullu agentləri vasitəsi ilə həyata keçirər, əməliyyatda iştirak edən, casusların əksəriyyətinin onun haqqında məlumatı olmazdı. Belə bir əməliyyat üsulu onu uzun illərdi ki, həbsxana divarlarından uzaq tuturdu.

Müstəqillik əldə olunandan sonra onu da bir çoxları kimi işindən uzaqlaşdırdılar, üç ay yarımdan sonra isə "vicdanla" və "məsuliyyətlə" işlədiyi üçün yenidən işinə bərpa etdilər, bu dəfə hətta daha məsuliyyətli bir işə. İndi, o, yeni yaranmış müstəqil dövlətdə prezident yanında Xüsusi Xidmət Orqalarına Nəzarət şöbəsinin rəisi idi.

O, Baratı yaxşı tanıyırdı, hətta Moskvanın tapşırığı ilə bir neçə əməliyyatda ondan istifadə etmişdi. Barat isə uzun illər Mərkəzi Komitədə birlikdə işləmələrinə baxmayaraq onunla həm də eyni təşkilatda çalışdığını bilmirdi.

Barat bayaqdan yandırdığı ətirli siqardan dərin bir qullab vurub, tüstünü havaya buraxdı, baxışları ilə burula-burula qalxan tüstünü izləyərək yenidən fikrə getdi. Bu işlərin sonunun necə olacağı ona çox maraqlı idi. Əsir götürdüyü "qonaqları" ilə bundan sonra necə rəftar edəcəkdi? Onları sərbəst buraxsın, yoxsa hələlik burada saxlayıb nəsə öyrənməyə çalışsın? Tutaq ki, saxlamaq istəsə, harada saxlasın? Burada – restoranın zirzəmisində?... Bəlkə dövlətə təhvil versin? Ən optimal gediş bu ola bilərdi, belə olduqda dövlət elitasında özünə hörmət qazanar, bəlkə də bu günə qədər etdiyi çirkin əməlləri ört-basdır edərdi. Belə olduqda, casuslar onun haqqında bildiklərinin az bir hissəsini hüquq mühafizə orqanlarına danışsalar necə? O zaman onu Vətənə xəyanət damğası ilə ömürlük həbsxanalarda çürütməyəcəkdilərmi? Yox bu ən təhlükəli yollardan biri idi və Barat heç vaxt belə addım atmayacaqdı. Düşündü ki, elə indi gedib onlarla söhbət edəcək, onları hərtərəfli başa salacaq sonra geriyə – Moskvaya yola salacaq və birdəfəlik ruhən azadlığa çıxacaqdı. Belə olduqda soyuqqanlı şimallılar inadkar uşaqlar kimi onu rahat buraxacaqdılarmı? Bu sayaq fikirlərlə özünü lap əldən salırdı, düşdüyü vəziyətdən çıxış yolu axtarırdı, qaranlıq otaqda qara pişik axtarırmış kimi.

Nəhayət əlindəki siqarı külqabına atdı və zirzəmidəki "qonaqlarına" baş çəkməyə getdi, ora çatanda ayaqları ağır daş parçası kimi yerə yapışdı, sanki onu il-

dırım vurdu, gördüyü mənzərədən dili tutuldu, bədəni əsməyə başladı. Tapancasını çıxarıb əlində hazır tutdu. "Qonaqlar" yerlərində yox idi, onları olduqları otaqların qapıları yarıaçıq vəziyətdə idi. Hər iki otağa bir daha diqqətlə baxdı, sanki onlar qeybə çəkilmişdilər. Zirzəminin hər tərəfini gözdən keçirdi, havalı adamlar kimi pilləkənlərlə yuxarı qaçdı, restoranın hər tərəfini bir daha yoxladı. Yenidən zirzəmiyə döndü, onlar yox idilər. Kimlərsə onu qabaqlamışdı, bəlkə də indi onun özünü qarabaqara izləyirdilər ki, tapşırılan əməliyyatı bitirsinlər. Tapançanı əlində hazır tutaraq məyus halda kabinetinə qalxdı.

Masanın üstündə Ramizin çəkdiyi şəklə gözü sataşdı, başını buladı, var gücü ilə yumruğunu masanın üstünə vurdu. Bu şəkillə Ramiz "Aypara"nın izlənildiyini deyirdi. Sovet casus məktəbinin "Yalquzağı" onu başa düşməmişdi. Bir az da Ramizə acığı tutdu. "Zalım oğlu elə bil mənimlə siçan-pişik oyunu oynayır. Bunu özümə açıq şəkildə deyə bilməzdi və ya sözlə yaza bilməzdi ki, səni izləyən var? Yoxsa mənim peşəkarlığımı yoxlayırdı? Deyəsən hamının zayı çıxır yavaş-yavaş." Deyə ağlından keçirtdi.

Bakıya göndərdiyi birinci qrupdan heç bir məlumat ala bilməyən Nikita Volski çox dilxor olmuşdu. İkinci qrupa hələlik gözləmə mövqeyində dayanmağı göstəriş vermişdi. Agentura vasitəsi ilə Mixail Korçenkonun və Dimitri Rıbkinin harada saxlandığını öyrənmək də hələlik bir nəticə vermirdi. Sanki belə adamlar heç olmamışdılar. Vəziyəti belə görən Daxili və Xaici Cəsuslarla Əlaqələndirmə şöbəsinin rəisi nə edəcəyini bilmirdi.

Nikita birinci qrupun dalınca ikinci qrupu da göndərdi. Vəziyyəti nəzərə alaraq onlara hələlik sakit

dayanmağı, bütün axtarışları saxlamağı tapşırdı. Yerli agentlərdən istifadə etmək lazım idi. Lakin İttifaq zamanında olduğu kimi heç bir xidmət orqanı öz əvvəlki işlərini bərpa edə bilməmişdi. Sovet zamanında dünyaya meydan oxuyan "KQB," sanki iflic olmuşdu, hətta İttifaqın daxilində olan keçmiş Respublikalarda belə hökmü işləmir, öz daxilində – Çeçenistanda, Dağıstanda və mərkəzdən uzaq vilayətlərdə hakimiyyətə nəzarət edə bilmirdilər. Böyük bir hissəsini "vorzakonlar" öz qanunları ilə idarə edirdilər.

Aparılan qeyri-düzgün siyasətin nəticəsində artıq Baltikyanı ölkələr demək olar ki, əldən çıxmışdı, doxsan faiz agentlər "KQB"-dən imtina edərək milliləşmiş, öz müstəqil dövlətlərinə xidmət edirdilər. Qalan on faiz isə lazım olduğu kimi hərəkət edə bilmir, ifşa olunmaqdan qorxurdular. Buna görə də ən kiçik əməliyyatların keçirilməsi üçün uzun zaman tələb olunur və əksər hallarda əməliyyatlar ümumiyyətlə, ya baş tutmur, ya da uğursuzluqla nəticələnirdi.

Azərbaycanda da demək olar ki, eyni vəziyyət idi. Rusiyanın ermənilərə qeyd-şərtsiz və bilavasitə kömək etməsi, onları silahlandırması, bir milyon azəri türklərinin ata-baba torpaqlarından didərgin salınaraq Azərbaycana pənah gətirməsi, iyirmi faiz azərbaycan torpaqlarının işğalı, qonşuluq prinsiplərinə əməl ediməməsi Rusiya və Azərbaycan arasında dərin bir uçurum yaratmışdı. Siyasətçilər, iyrənc oyunları ilə nəhəng bir imperiyanın süqutuna hökm verdilər və bu gün də öz çirkin əməlləri ilə Rusiyanı həmin məzara sürükləyirdilər. Bir qrup adam ölüm ayağında can verən Rusiyanın vampir sayağı qanını içərək onu daha da zəiflədirdilər. Nikita

bunları yaxşı başa düşür, lakin siyasi rıçaqları əllərində tutan, kimə xidmət etmələri özlərinə belə məlum olmayan dövlət məmurları ilə mübarizə apara bilmirdi, əksinə heç bir dövlət əhəmiyyəti daşımayan, yalnız özlərinə xidmət edən sifarişlərini yerinə yetirməklə onlara kömək etmiş olurdu.

Nikitanın səbri tükənir, əl-qolunu sallayıb oturmaqla nəyəsə nail ola bilməyəcəyini anlayırdı. Cib telefonunu çıxarıb artıq üç gün idi ki, Bakı ətrafındakı kəndlərin birində kirayə evdə qalan Altunbayevin yalnız ona məlum olan nömrəsini yığdı. Bu evi onlara Nikitanın göstərişi ilə "Çolaq" təşkil etmişdi. Telefonu açan Raxmon məlumat verdi

– Uşaqların yerini öyrənə bilməmişik, "Yalquzaq" o gündən bağ evinə çəkilib, evdən çölə çıxmır, ev tam nəzarətimizdədir, Maqamed yerlilərlə hal hazırda oradadır.

O, verdiyi məlumatları bitirib dayandı, Nikitanın tapşırıqlarını dinləyib danışığı kəsdi. O biri telefonu çıxarıb Sultanmuradova zəng etdi və təcili evə gəlməsini dedi. On beş dəqiqə sonra Maqamed bir nəfərlə gəldi. Raxmon onu həyətdə qarşıladı. Onlar həyətin bir küncündə böyük tut ağacının altında dayanıb xeyli söhbət etdilər, Raxmon Maqamedə Nikitanın dediklərini çatdırdı. Maqamed nəsə başqa bir nüansın olduğunu bildirib, bir az da gözləməyi israrla bildirirdi.

– Biz tələsməklə, hər şeyi baş-ayaq edə bilərik, "Yalquzaq" onsuz da bizim əlimizdədir, nə zaman istəsək aradan götürə bilərik, amma bəzi şeylər var ki, onun ləğvindən sonra bəlkə də heç vaxt öyrənə bilməyəcəyik.

– Mərkəz, "Yalquzağın" ləğvini əmr edib, sənsə hələ də onun nazı ilə oynamaq fikrindəsən. Onların

əlləri daha uzundur, daha çox məlumat əldə edə bilirlər, kənardan hər şey daha yaxşı görünür. Biz isə burada onların əmrini müzakirə edirik. Acınaqlı hal deyilmi? On il əvvəl belə hallar sadəcə mümkün deyidi. Bir də ki, bizim artıq vaxtımız yoxdur, işi bitirib imkan olan kimi geri qayıtmalıyıq.

Sonda onlar "Yalquzağ"ı tutub bura gətirməyi lazımi məlumatları aldıqdan sonra ləğv etməyi razılaşıb ağacın kölgəsindən evə tərəf gəldilər. Sultanmuradov gəldiyi maşınla geri qayıtdı.

Baratı tutmaq elə də çətin olmadı, sanki o bütün bunları gözləyirdi. Üç gün əvvəl, gecə baş verən o hadisə – onun əlinin altından iki ruc casusunun yoxa çıxması artıq onun bu yoldan uzaqlaşması üçün çox vacib mesaj idi. Bunu olduğu kimi qəbul edən "Yalquzaq" indi son olaraq öz boğazını gəmirməyi qərara almışdı. Təslim olmaq ona çox ağır gəlirdi. Onsuz da onu sağ buraxmayacaqdılar, sağ halda ələ keçirsələr belə, sonu ölümlə bitən işgəncələr gözləyirdi onu, bəlkə heç meyiti də tapılmayacaqdı.

Son olaraq oğlu Yusifə ismarıc yazdı. "Qeyri-müəyyən müddətdə olmayacağam. Məni axtarmağa çalışma, hər şey sənə əmanətdir."

Ertəsi gün yaxınlarından heç kimə məlum olmayan bu evə gəldi, telefonunu söndürüb bir tərəfə atdı, özü ilə birlikdə, tək-tənha qalıb ötən həyatını analiz etməyə başladı. Bilirdi ki, onun işlədiyi Sovet "KQB"sində belə hərəkətləri bağışlamırdılar, indi onun varisi olan Rusiya xidmət orqanları da eyni addımı atacaqdı. Hələlik onun vaxtı var idi ki, hər şeyi özü üçün aydınlaşdırsın, nə qədər ki, buraya çəkilmişdi onlardan uzaq idi. Amma bilmirdi ki, elə həmin gecə "Aypara"da, sevimli

kabinetində oturub düşünərkən, Ramizin "Lapa"nı aradan götürdüyündən bir az sonra, Nikitanın göndərdiyi ikinci qrupundan olan bacarıqlı "Maqa" onun hər addımını qarabaqara izləyərək, indi onun lap yaxınlığında pusquya yatmış pələng kimi son həmləsini etmək üçün həlledici məqam gözləyir. Əslində, Barat onun həmləsinə hazır idi və belə bir halda heç bir müqavimət göstərmədən təslim olmağı qərara almışdı. Bu yolu seçməklə o düşünürdü ki, bəlkə də ona məxsus olan hər şeyi – bu günə qədər onun nəyə xidmət etdyini bilməyən ailəsini, ömrünü verib qazandığı şirkəti, restoranları, oğlunu, qızını xilas etmiş olacaqdı. Lakin xilas edə biləcəkdimi? Ən azı Barat belə düşünürdü. Dövrünün yetişdirdiyi "Yalquzaq" artıq hər şeyin sona çatdığını hiss edirdi.

O, son qərarını vermişdi, tapançasını çıxarıb güllələrini boşaltdı, süyürməni çəkib patronları ora atdı, boş "Parabellum"u masanın üstünə qoydu, sanki vəsiyyətini yazırmış kimi kağız-qələm götürdü, yazıb tapançanın altına qoydu. Sonra özünə təzə dəyişək paltar götürüb yuyunmaq üçün hamam otağına keçdi. Bütün paltarlarını təzə götürmüşdü, sanki kəfən əvəzi geyinəcəkdi. O, öz canavar xisləti ilə ölümün yaxınlaşdığını hiss edirdi və onu bu günə qədər yaşadığı kimi də qəbul etməyə hazırlaşırdı. Hamam otağınnda xeyli ləngidi, hiss edirdi ki, bu anlar həyatının son akkordlarıdır, sanki suyun altında dayanıb bu günə qədər etdiyi günahların təmizlənməsini istəyirdi.

Barat hamam otağına girəndən bir az sonra heç kimə və heç zaman rəhm etməyi sevməyən "Maqa" hasardan aşaraq evin yarıaçıq qapısından dəhlizə daxil oldu. Hər ehtimala görə sağ əli qoynunda olan "Steçkinə" ən yaxın məsafədə idi. Hamam otağından su səsinin gəldiyini eşi-

dib qapının yanında divara qısıldı, silahını əlində hazır tutub, qapını açıb qəfildən içəri girmək, "Yalquzağ"ı elə hamamda tutmaq istədi. Lakin bunun tələ olacağını düşünüb fikrindən yayındı, o biri otaqları yoxlamaq üçün ehtiyatla irəli getdi. Mətbəxtdə masanın üstünə qoyulmuş "Parabellum" silahını görüb ora yaxınlaşdı. Silahın altında kağız üzərində ağzını göyə açıb ulayan canavar şəkli çəkilmiş yazını gördü. Kağızı götürüb oxudu. "Hər işin əvvəli olan kimi sonu da olmalıdır. Bu da mənim həyatımın sonudur. Bütün ömrüm boyu bu quruma xidmət etdim, tapşırıqları yerinə yetirmək bizim vəzifə borcumuz idi. Bu işdə mən birinci deyildim və yəqin ki, sonuncu da olmayacağam, mənimlə bərabər xidmət edənlərin aqibətinin necə olduğu mənə məlumdur. Neçəsini özüm ləğv etmişəm, ilk gündən bu günə qədər belə olacağını hər an gözləyirdim, ləğv etdiklərimin sırasında özümü də görürdüm. Bu da axırı... Üfüqdə batan günəşin son şüalarını görürəm."

"Maqa"nın qəlbində ölümünü duyan, onun anbaan yaxınlaşdığını hiss edən bu məşhur casusa qarşı rəğbət, mərhəmət hissi oyandı. "Canavarın ölümü də ona layiq olmalıdır" deyə düşündü. O, "Yalquzaq" haqqında çox eşitmişdi. Ömrünü Sovet rejiminə xidmət etmiş bu adamın son zamanlar Rusiyada yüz oyundan çıxan Qarbaçov kimi dövlət başçılarının hoqqalarını həzm edə bilmədiyini yaxşı başa düşürdü. Amma nə etməli onun qələmi qırılmışdı.

"Maqa" üzü mətbəxin girişinə baxan, masadan üç addım aralı olan kürsüdə oturub silahını əlində hazır tutmuşdu. Elə bu zaman hamam otağının qapısı açıldı, mətbəxin qapısı önündə arıq, beli bir az donqar, hündür bir kişi göründü. Əynində yüngül idman forması vardı,

əlindəki dəsmalla ağarmış saçlarını qurulayırdı. Baxışları ani olaraq toqquşdu, "Maqa"nın qəlbi üşüdü. Əlindəki silahı tarazladı. Doğrudan da əsil canavar baxışları idi, sanki qarşısındakının üstünə atılıb parçalamağa hazırlaşırdı.

– Hə ə, səni göndəriblər? Deməli bir rus tapıb göndərə bilmədilər. – Üzünə süni təbəssüm verib yenidən sözünə davam etdi – İndi yuxarıda südəmər uşaqlardır, onlar bizim qədrimizi bilməzlər. Mən bu günü gözləyirdim, elə belə, bu gün baş verdiyi kimi təxmin edirdim. Nəhayət ki, baş verdi. Əvvəllər bizim daha sərt qanunlarımız vardı, kimliyindən asılı olmadan xəyanət bağışlanmazdı. İşlədiyin quruma xəyanət Vətənə xəyanət kimi qəbul edilərdi, elə buna görə də bu qurumda çox az adam təqaüd yaşına çatırdı. Sən hələ cavansan, bu günü və sənə dediklərimi yadında saxla, görünür sən məni öldürməyə layiqsən ki, səni göndəriblər, nə vaxtsa, sən də mənim yerimdə olacaqsan, dediklərimi öz xələfinə çatdırmağı da unutma. Bu qurum dünyada yeganə qurumdur ki, məğlubiyyəti sevmir, məğlubiyyət baş verərsə, yalquzaq kimi öz boğazlarını gəmirirlər. Bu gün baş verəcək ssenanini özüm yazmışam, indi mən masanın üstündə olan boş silahıma əl uzadan kimi sən məni vuracaqsan. Çünki masanın üstündəki silahı yoxlamamısan. Bir güllə mənim ölməyimə bəs etməz, onunçün də ikisini vurmalısan. Yadından çıxarma, ikisini – deyə o sağ əlinin iki barmaqlarını sağ çiyni bərabərinə qaldırdı, dik tutaraq ona göstərdi və sözünə davam etdi – həyat şirin olur, heç kim ölmək istəmir, hamı kimi mən də yaşamaq istəyirəm, bir gülləyə ölməsəm, sənin həyatın sual altında qala bilər, sənə xətər yetirərəm, həm də bizim xidmət etdiyimiz qurumda ikinci güllə mütləq olmalıdır.

O, danışa-danışa masaya yaxınlaşırdı. "Görəsən silahının boş olmasını doğru deyirdi, yoxsa aldadıb onu qabaqlamaq istəyirdi?" – deyə gənc casus düşündü. Bayaq o hamam otağında olan zaman masanın üstündəki silahı yoxlamadığına görə özünü qınadı. "Maqa" silahını qaldırıb azərbaycan dilində qətiyyətlə dedi.

– Yerində dur qoca! Əgər bir addım da atsan, beynini dağıdacağam. Sənin kimilərin nağıllarını çox eşitmişəm.

Barat dayanmadı, gülümsünərək masaya yaxınlaşıb əlini tapançasına uzatdı, lakin götürə bilmədi, səsboğucu bağlanmış "Steçkin" iki dəfə atəş açdı. "Yalquzaq" səndələdi, özünü tarazlamaq, qəddini düzəltmək istədi, amma müvazinətini saxlaya bilməyib arxası üstə aşdı. "Maqa" cəld yerindən qalxdı, masanın üstündəki silahı yoxladı. Silah doğrudan da boş idi. Onun bir az əvvəl dediklərini xatırladı. "Bu qurum dünyada yeganə qurumdur ki, məğlubiyyəti sevmir, məğlubiyyət baş verərsə yalquzaq kimi öz boğazlarını gəmirirlər. Bu gün baş verəcək ssenanini özüm yazmışam, indi mən boş silahıma əl uzadan kimi sən məni vuracaqsan, çünki masanın üstündəki silahı yoxlamamısan. Bir güllə mənim ölməyimə bəs etməz, onunçün də ikisini vurmalısan. Yadından çıxartma ikisini..."

Yerdə hərəkətsiz uzanmış Barata baxdı. Bayaqkı təbəssüm hələ də üzündə idi.

Həmin gecə səhərə yaxın "Çolaq", əlaqələndiricidən göndərdikləri casusun yoxa çıxdığını eşitdi. Bu iyirmi beş yaşlı boks üzrə dünya ikincisi olan Vasif Səmədov idi. Çox güclü zərbələri olan bu oğlanı, indi əlaqələndirici olan Niftulla Qayıbov şəxsən onun göstərişi ilə bu işə cəlb etmişdi. Artıq beş il idi ki, o bir çox əməliyyatların

yerinə yetirilməsində iştirak edərək bişmişdi. Əslən dağ rayonundan olan Vasifin böyük əlləri ilk baxışdan adamı cəlb etdiyi üçün "Çolaq" ona "Lapa" ləqəbi vermişdi.

Rus casuslarının və "Lapa"nın azad olunması haqqında təcili tədbirlərin görülməsi hal-hazırkı vaxt üçün ən vacib şərt idi. lakin "Çolaq" hələlik öz təmkinini pozmur, məhkəmənin hansı qərar verməsini gözləyirdi. Öz xüsusi kanalları vasitəsi ilə hakimə təsir mexanizmini əlində saxlayır, sonda bunun böyük bir siyasi qalmaqala çevriləcəyini və hətta məhkəmənin belə, onun təklifi ilə razılaşacaqlarını düşünürdü. O, işin gedişini nəzarətdə saxlayır, hər üç casusu işi aparan müstəntiqlərdən və hüquq mühafizə orqanlarından bacardıqca uzaq tutmağa çalışırdı, tezliklə mərkəzin təkidi ilə azadlığa buraxılacaqlarına ümid edirdi. Bilirdi ki, ruslar öz casuslarını tezliklə geri alacaqlar, "Lapa"nın da divarlar arasından xilasını onlarla birlikdə yerinə yetirməyi planlaşdırırdı. Buna görə də o, mərkəzə bu üç nəfər casusun adlarının bir siyahıda təqdim olunmasını təklif etmişdi. Yaxın zamanlarda yuxarı hakimiyyət dairələrinin görüşlərindən birində bu məsələnin həlli barədə danışıqlar gedəcəkdi. "Lapa"nın Azərbaycan vətəndaşı olması, işi qəlizləşdirirdi.

Bu dövrdə Azərbaycan hakimiyyətindəki xaos və boşluqlar, məsələnin tezliklə həllini ləngidirdi. Digər tərəfdən hakimiyyətdəki vəziyyət, Qaraşovun əl-qolunun açılmasına səbəb olmuşdu. İndi onun rəhbərlik etdiyi şöbə tam ixtiyarında idi və heç kimlə məsləhətləşmədən öz səlahiyətlərindən istifadə etmək şansı yüksək idi. Lakin xasiyyətindəki astagəllik, suyu üfürərək içmək prinsipini uzun illər boyunca ali həyat

prinsipinə çevirən Sovet "KQB"sinin "Çolağ"ı bu gün də əlinə düşən belə bir fürsətdən istifadə etməyə tələsmirdi.

Rusiya xüsusi xidmət orqanlarının təkidinə baxmayaraq Müzamil Qaraşov qərar verməyə tələsmir, ölkə daxilində gedən proseslərin fonunda gələcəkdə də öz vəzifəsini vətoxunulmazlığını qoruyub saxlamaq istəyirdi. O, həm də "Lapa"nı, belə tezliklə itirmək istəmirdi, onun üçün iki yol vardı. Birincisi, ondan gələcəkdə istifadə etmək üçün birdəfəlik Rusiyaya göndərmək və sonra lazım olan zamanda istifadə etmək, ikincisi isə, vaz keçib həmişəlik susdurmaq. Çox götür-qoydan sonra casus intiusiyası ilə və qəlbindən gələn hansısa bir səsin təsiri altında ikinci varianta üstünlük verdi. Bu variant onun vəzifəsini gələcəkdə müəyyən qədər saxlamaq şansını artırırdı. Uzun illər Sovet "KQB"sində, indi isə "DTN"də çalışan, yalnız ona və mərkəzə – Moskvaya məlum olan agenti işə salmağın zamanının çatdığını düşündü. Elə həmin gecə "Lapa," məlum olmayan səbəblər üzündən intihar etdi. Rus casuslarının azad olunmasını isə Moskvanın öhdəsinə buraxdı. Belə işlərdə böyük səriştəsi olan "Çolaq" və adamları, hər şeyi çox ustalıqla etmiş, heç bir şübhə yeri saxlamamışdılar.

"Lapa"nın intihar etdiyi o gecənin ertəsi günü Zəfərə bu məlumat çatdı. Artıq ikinci casus idi ki, istintaqa cəlb olunmasına az qalmış aradan götürülürdü. Hüquq mühafizə orqanları ikinci dəfə idi ki, gecikirdilər. Kimsə onları qarabaqara izləyir, hər addımlarını güdür, istintaqı qabaqlayırdılar.

Onlar hər yerdə idilər. Prezident aparatında, Daxili və Xarici İşlər Nazirliklərində, DTN-də, xalqın içində.

Onları aradan götürmək, milləti təmizləmək isə uzun proses idi. Xaricdən içimizə soxulan casusları tanımaq, ifşa etmək çox asandır, lakin öz millətindən olan, sənlə bir şəhərdə, hətta bir binada yaşayan – havasından udan, suyundan içən, çörəyindən yeyən, eyni dildə danışan, hər kəsə hamıdan çox canıyananlıq edən birinin, casus olduğunu biləndə adama çox ağır gəlir.

Əslində biz hamımız casusuq – mən sənin, sən onun, o isə bir başqasının. Lakin öz xalqına, millətinə, dövlətinə qarşı casusluq edənlərsə tamamilə başqadır. Onlar üçün müqəddəs heç nə olmur – hətta öz ailələri belə. Dünyanın belə qarma-qarışıq olduğu bir zamanda, böyük maraqların toqquşduğu Azərbaycan kimi ölkədə belə casuslar daha çox idi. Bunları düşünən Zəfər mübarizənin hələ indi başlandığını, daha böyük mübarizənin hələ qarşıda olduğunu açıq-aydın görürdü.

Elə həmin gün tutduğu vəzifədən istifadə edən Qaraşov, "Lapa"-nın və iki rus casusunun "DTN" tərəfindən tutulduğunu mərkəzə – Nikitaya xəbər verdi. Nikita Altunbaya zəng edib əməliyyatı dayandırmağı tapşırdı. Əməliyyatın dayandırılmasına görə "Maqa"ya zəng gələndə artıq o, Baratın Buzovnadakı kimsəyə məlum olmayan evinin həyət qapısından çıxırdı.

Nikita hiss edirdi ki, gecikib, tələskənlik edib verdiyi qərara görə özünü qınayırdı. Onun səhvi üzündən indiki qədər heç vaxt lazım olmayan "Yalquzaq" həmişəlik itirilə bilərdi, o isə belə bacarıqlı casusların hələ çox lazım olacağını düşünürdü.

İYİRMİ SƏKKİZİNCİ FƏSİL

Maqamed evə çatanda, Altunbay başını əlləri arasına alıb dərin düşüncələrə dalmışdı, hətta onun qapını açıb evə girdiyindən də xəbəri olmadı. "Yalquzağ"ın ləvğ edilməsində onun da günahı var idi. Maqamed gənc olmasına baxmayaraq düzgün qərar vermişdi, lakin Altunbay, "Əmr müzakirə olunmur, yerinə yetirilir" prisipinə sadiq qalaraq Nikitanın əmrini israrla bildirib, təcili yerinə yetirilməsini həmkarından tələb etmişdi.

Lakin bu prinsiplərin bəzən özünü doğrultmaması qərarına gəldi. İndi isə mərkəzdən alınan yeni tapşırığın yerinə yetirilməsi üçün hazırlaşmaq lazım idi.

Nikita növbəti əməliyyatı ona çatdırmalı idi.

Bakıda həmişə olduğu kimi yenə də külək əsirdi. Küləyin əsməsinə baxmayaraq, Maqa evdə qərar tuta bilmədi, bayıra çıxıb səliqə ilə əkilmiş ağacların arasında həyətin axırına kimi getdi. Həyətin hündür hasarla əhatə olunmasına baxmayaraq külək yerdəki qumu havaya sovurur, göz açmağa qoymurdu. O, yenidən evə qayıtdı.

Altunbay hələ də bayaqkı vəziyyətdə idi.

– Sənə nə olub, bayaqdan elə bil donmusan? Yoxsa, "Yalquzağ"ın fikrini çəkirsən? – deyə onunla zarafat etdi.

Maqanın nə zaman içəri girdiyindən xəbəri olmamışdı, qəfildən eşitdiyi səsə diksindi. Bunu Maqa da hiss elədi, onun gözündən heç nə yayınmırdı, sakit da-

yandığı yerdə belə qaynar qazanı xatırladırdı, bu qafqazlı balası.

– Yox, onun fikrini çəkmirəm, düşünürəm ki, görəsən, bizim növbəti əməliyyatımız nə olacaq. Bu dəfə kimi aradan götürüb sonra peşmançılıq çəkəcəyik?

Maqa gülümsündü.

– Mən heç də peşman deyiləm. Hərçənd ki, "Yalquzağ"ın dediyi sözlər, hər kim olsaydı təsir edərdi. – dedi və bir saat əvvəl, o kiçik evdə baş verənlərin hamısını ona danışdı, ölümündən əvvəl hər şeyi bilərək, yazdığı kağızı göstərdi. – O, əsl "Yalquzaq" idi, mən bu günə qədər beləsinə təsadüf etməmişdim. Mənə elə gəlir ki, bizim aramızda ikinci "Yalquzaq" yoxdur və heç bir zaman olmayacaq da...

– Amma mənə elə gəlir ki, ikincisi mənimlə üzbəüz oturub söhbət edir.

– Komplimentə görə çox sağ ol. Yox, mən onun kimi ola bilmərəm, o, əsl çekist idi. – dedi və vanna otağına getdi.

Axşam saat alt olardı ki, "Çolağ"ın tapşırığı ilə "Çopur" gəldi. O, mərkəzin yeni əməliyyat planını gətirmişdi. Onlar üçlükdə yeni əməliyyat planını müzakirə edib, həyata keçirməyi sabaha təxirə saldılar. Yerli casuslardan "Məşədi" ləqəbli bir nəfər onlara bələdçilik edəcəkdi. O, bələdçinin əlaqə nömrəsini də casuslara verdi.

"Çopur" gedəndən sonra, Altunbay və Maqamed, əməliyyata elə bu gün başlamağa qərar verdilər. Koordinatlar məlum idi, "Alfa" şirkəti və Yusifin ünvanı dəqiq göstərilmişdi. Onlar "Alfa"dan başladılar. İlk növbədə Yusifi tək tutmaq lazım idi, saat səkkizdə hər ikisi, Baratın həmişə dayanıb kənardan şirkətə nəzarət etdiyi

yerdə dayanmışdılar. Buradan şirkətin binası aydın görünürdü. Yusifin kabinetinin işığı yanırdı. Görünür, o, hələ də işdə idi.

Sevdanın ölümündən sonra Yusif vaxtının çoxunu işdə keçirir, evə yalnız yatmaq üçün gəlirdi. Artıq evdə anası və bacısı Nigar onun üçün narahat idilər.

Nigar, həmin gün qardaşı ilə bu barədə təklikdə danışmaq üçün, hamı gedəndən sonra şirkətə gəldi. Yusif bacısının qəfil gəlişindən həm sevindi, həm də narahat oldu. Sevindi ona görə ki, bacısı ilə çoxdan idi ki, ikilikdə baş-başa oturub danışmamışdılar, həm də ki, onun Nigara indi olduğu qədər ehtiyacı olmamışdı, dərdini danışmaq, ondan bir məsləhət almaq istəyirdi. Narahatçılığı isə onun qəfildən peyda olması idi.

Yusif qəhvə hazırladı, fincanlara süzüb gətirdi. Nigarı ilk dəfə görürmüş kimi, başdan ayağadək diqqətlə süzdü. Nigar, yüngül idman geyimində idi. Keçib bacısı ilə üzbəüz oturdu.

– Səndən nə əcəb Nigar, nə yaxşı məni, şirkəti yada salmısan? Yoxsa yolu azıb təsadüfən bura gəlmisən?

– Zarafat yeri deyil, sənə görə narahatıq hamımız. İstədim ki, səninlə təkbətək söhbət edim. Unutma ki, bu şirkət həm sənin, həm də mənimdir. Biz bu şirkətdə tam bərabər şəriklərik. İstədiyim vaxt gələr, istəyəndə də gedərəm. Burada mənim üçün həmişə yaşıl işıqdır. Başa düşdünüz Yusif müəllim?

– Əlbəttə, Nigar xanım, əlbəttə! – deyə Yusif güldü.

Yusiflə Nigar bacı-qardaş olsalar da, xaraktercə bir-birinin tam əksi idilər. Bütün ailə üzvləri, hətta onların özləri də, bunu gözəl bilirdilər. Ailədə Yusifin ən çox çəkindiyi adam da, Nigar idi. O, dəliqanlı oğlan kimi böyümüşdü.

Onlar bir-biri ilə şən zarafat edərək deyib gülürdülər, hər ikisi bu anlar üçün çox darıxmışdılar. Birdən Nigar qardaşını sərt baxışlarla süzüb ciddiləşdi.

– Yusif, evə niyə vaxtında gəlmirsən. Məgər sən, təkcə özün üçün yaşayısan? Düşünmürsən ki, sənin yolunu gözləyənlər var. Yoxsa elə fikirləşirsən ki, bu dünyada sən təksən? Yox qardaşım, bizim özümüzdən başqa, artıq ixtiyar yaşlarına çatan, yolumuzu gözləyən valideynlərimiz var. Özümüzü düşünmürüksə, onları həmişə fikirləşməliyik. Xüsusən də anamızı.

Yusif bacısının öyüd-nəsiyyətlərinə qulaq assa da, fikri tamamilə başqa yerdə idi. O, bacısından on yaş böyük olsa da, bəzi işlərdə həmişə ondan geridə qaldığını yaxşı bilirdi. Nigar, qayğıkeş bir qız idi, istənilən kollektivə tez uyğunlaşır, hamı ilə qaynayıb qarışmağı bacarırdı. Şən, hazırcavab və cəsur qız idi. Hətta, Yusifin Sevda ilə evlənmə məsələsində bir neçə dəfə atasına qarşı da getmişdi.

Nigar qardaşına öyüd-nəsihət verən zaman, qana susamış iki rus casusu, Abdullanın köməyi ilə heç bir maneəyə rast gəlmədən şirkətin qapısından içəri daxil oldular. Artıq Abdulla bu barədə "Çolaq" tərəfindən təlimatlandırılmışdı. O, həmin gün Yusifdən, işdən bir az tez getməsi üçün icazə almış, lakin uzağa getməmişdi. İki rus casusunun bir azdan burada olacağını bilirdi. Abdulla onlarla şirkətin qapısında görüşdü, onları Yusifin kabinetinin qapısına kimi gətirdi. Bununla da öz missiyasını bitirdi.

Qapı qəfildən açıldı. Bir-birinin arxasınca iki idmançı görkəmli adam kabinetə daxil oldular. Onlardan biri Yusifin, digəri isə Nigarın oturduğu tərəfə yönəldi. Yusif özünü itirmiş halda oturduğu yerdən ayağa qalx-

maq istədi. Lakin qıyıq gözlü çağrılmamış qonaq əlini onun çiyninə qoyaraq rus dilində oturmasını dedi və özü də onun yanında oturdu.

Söhbətə Yusiflə üzbəüz, Nigarın yanında oturan qonaq başladı. O, azəricə, şimal ləhcəsində, təmiz danışırdı.

– Sizinlə öz dilinizdə danışsaq, elə bilirəm ki, məni daha yaxşı başa düşərsiniz. Biz atanızın dostlarıyıq, pis niyyətlə gəlməmişik. Əgər bizim dediyimizlə razılaşsan, şirkətiniz getdikcə daha da böyüyəcək. Rusiyada və keçmiş ittifaqın hər yerinə yayılacaq, qısa zamanda ən varlı şirkətlərin sırasında olacaqsınız. O zaman sənin yanında belə gözəl xanımlardan biri yox, onu ətrafında fırlanacaq. Yox əgər razılaşmasan... Onu da deyim ki, bu barədə atanızla danışmışıq.

Onlar Nigarın kim olduğundan xəbərsiz idilər, onu yüngül təbiətli qadın kimi qəbul etdikləri üçün, əhəmiyyət vermirdilər. Özündən razı "qonaqların" hərəkətləri Yusifin xoşuna gəlmirdi. Bir bəhanə ilə Nigarı aradan çıxarmaq istəyirdi, sanki Nigar qardaşının fikrini oxudu və him-cimlə onu fikrindən döndərdi. Bacısına görə narahat olan Yusif "qonaqları" başından etmək istədi.

– Əgər atamla danışmısınızsa, deməli, hər şey həll olunub, bizimlə danışmaq artıqdır. Atam gələndə hər şeyi həll edərik, – dedi və "atamın dostlarına bax, hələ heç mənimlə tanış olmayıblar" deyə düşündü.

– Əlbəttə, özü olsaydı, biz bu söhbətləri onunla aparardıq, atanız şəhərdə yoxdur. Gedərkən yolüstü görüşdük, bizi sənin yanına göndərdi və dedi ki, o gələnə qədər bu məsələləri həll edək, yoxsa gecikə bilərik.

Yusif bilirdi ki, qarşısındakı, bəzi şeyləri yalan danışır. O, düz deyirdi ki, atası qeyri-müəyyən vaxta qədər

səfərdə idi, nə zaman gələcəkdi bilinmirdi. Hətta iki gün öncə Yusifə bu barədə ismarıc da yazmışdı. Əgər qarşısındakının dediyi kimi olsaydı, atası, mütləq bu barədə qeyd edərdi.

Hələlik isə bu iki nəfərin nə istədiyini və niyə mütləq belə vaxtın seçildiyini bilmək istəyirdi. Bunu isə çox gözləmək lazım olmadı.

– İlk növbədə, siz şirkətin bütün qazancını bu hesaba keçirməlisiniz, bu həm sizin, həm də şirkətinizin qarantı üçündür, – deyə o, cibindən çıxardığı hesab nömrəsi yazılmış vərəqi masanın üstünə qoyub ona tərəf sürüşdürdü.

Yusif fikirli halda ona tərəf sürüşdürülən kağıza gözucu baxdı.

– Hımm... Bunun əvəzində siz bizə nə təklif edirsiniz?

Qarşısındakı səsini qaldırdı, bir az da acıqlı tərzdə sözünə davam etdi. Görünür onun səbri tükənməyə başlayırdı.

– Siz millət olaraq necə də küt adamlarsınız, axı mən sizə öz dilinizdə başa saldım ki, bunların hamısı, sizin həyatınızın və şirkətinizin qarantı üçündür. Aydın olmayan nəsə varsa, daha dəqiq formada başa sala bilərəm. – dedi və qoltuğundan "Steçkin"i çıxarıb masanın üstünə qoydu.

Söz Yusifi və Nigarı şapalaq kimi tutdu, Yusif qorxudanmı, yoxsa cəsarətdənmi ayağa qalxmaq istədi, lakin yanında oturan "qıyıqgöz", əlini onun çiyninə qoyub aşağı basdı. Vəziyyət getdikcə gərgin hal almağa başlayırdı, Nigar onları sakitləşdirmək üçün rus dilində müdaxilə etdi.

– E e e, kişilər, bir az sakit olmazmı, sizinlə bir masada...

– Ağzını yum, qancıq, kişi söhbətinə qarışma.

Nigar təəccüblə yanındakının üzünə baxdı, bu günə qədər ona belə söz deyən olmamışdı, hətta kimsənin cürəti də çatmazdı onunla belə danışmağa. İndi isə hansısa dərənin dibindən, çamurun içindən çıxan donuz, ona ağzına gələni deyir, üstəlik hələ silahla da hədələyirdi.

Bir anlıq otağa sükut çökdü, Yusif Nigarın necə əsəbiləşdiyini hiss etdi, indicə kabinetin altını üstünə çevirəcəyini başa düşdü. Ona mane olmaq isə, sadəcə mümkün deyildi, bunu hələ uşaqlıq çağlarından bilirdi.

Nigarın bütün qanı beyninə axdı, fincanda olan isti qəhvəni qarşısındakı "qıyıqgöz"ün sifətənə çırpdı, fincanı isə bütün gücü ilə yanında oturanın başına endirdi. Zərbənin gücündən yanındakı huşunu itirdi və döşəmənin üstünə sərildi, cəld masanın üstündə olan silahı götürdü, qoruyucudan çıxarıb hazır vəziyyətə gətirdi.

Nigar bunları o qədər cəld etdi ki, "qıyıqgöz" və Yusif təəccübdən yerlərində donub qaldılar. Üzünü "qiyiqgöz"ə tutub əmr etdi.

– Əllərini yuxarı qaldır, artıq hərəkət etsən, bu birindən də pis günə düşəcəksən. Yusif, onun üstünü yoxla!

Yusif baş verənlərin fonunda düşdüyü şokdan hələ də ayılmamışdı. Cəld durub "qıyıqgöz"ün üstünü yoxlamağa başladı...

Xüsusi xidmət orqanları kabinetə daxil olanda hər iki casusun əlləri arxada bağlanmış vəziyyətdə idi.

İYİRMİ DOQQUZUNCU FƏSİL

Soyuq, küləkli hava adamın iliklərinə işləyirdi, birdən birə hava soyudu Bakıda. Dünən elə bil yay idi, küçələrdə bir nəfər də olsun pencək geyinən görməzdin, hamı qoluqısa köynəkdə idi, bu gün isə qış gəlmişdi, hamı bürünmüşdü. Üç tərəfdən Xəzər dənizi ilə əhatə olunmuş Abşeron yarımadası özünə məxsus həyatını yaşayırdı. Zəfər ofisdən çıxanda artıq hava qaralmışdı, küçə işıqları son zamanlar olduğu kimi yenə də yanmırdı. İmperiya dağılandan sonra Bakının küçələri də işığa həsrət qalmışdı. Bu gün səhər maşında nasazlıq olduğu üçün Biləcəri enişində olan avtomobil düzəltmə sexində çoxdan tanıdığı ustaya vermişdi, indi gedib götürməli idi. Ancaq həvəsi olmadığı üçün, həm də gec olduğuna görə sabah tezdən götürməyi qərara aldı.

Son zamanlar baş verənlər onu elə məşğul etmişdi ki, düz əməlli evində də tapılmırdı. Fikirli-fikirli səki ilə gedirdi, küçə demək olar ki, boş idi. Arabir şütüyüb keçən maşınlardan və güclü küləklə güləşərək əynindəki paltara bürünüb keçən adamlardan başqa kimsə yox idi. Hələ ertə olmasına baxmayaraq şəhər elə bil ki, yatmışdı. Yolun sağ və sol tərəflərində olan binaların pəncərələrindən süzülən işıqlar gecənin qaranlığında əriyib yoxa çıxırdı, sanki zülmət bu işıqları udur, gündüzün üzərində gecənin əbədi qələbəsini təmin edirdi, elə bil ki, bir daha səhər açılmayacaq, günəş çıxmayacaqdı.

Qaranlıq küçədə yeridikcə hər an nəyinsə baş verəcəyini hiss edirdi, qəlbi, düşüncələri narahat idi. Qarşıdakı parkı keçib avtobus dayanacağında gözləməyi qərara aldı. Bayaqdan yağan yağış səngimişdi.

Parkın girişində bir siqaret yandırdı, tüstünü acgözlüklə ciyərlərinə çəkib havaya üfürdü. Park Sovetlər İttifaqının bərk gedən vaxtlarında tikilmişdi, yetmişinci illərdə ən baxımlı və gəzməli yerlərdən biri idi, istirahət üçün hər şey nəzərdə tutulmuşdu. İttifaq dağılandan sonra, park da dağılmağa başladı, indi park əməlli-başlı cəngəlliyi xatırladırdı, ağacları suvaran, budayan kimsə yox idi. Oturacaqların yalnız yerləri bilinirdi, işıqlandırma sistemi tamamilə dağıdılmışdı, yaşıllıqları ot basmış, yollara döşənmiş daş pilitələr sökülüb harasa yoxa çıxmışdı. Parkın mərkəzində olan hovuz və fantan böyük bir zibilxananı xatırladırdı. İndi bura evsiz-eşiksizlərin, içki düşkünlərinin, narkomanların görüş yerinə çevrilmişdi. Şəhərdə baş verən kriminal hadisələrin əksəriyyəti bu parkın payına düşürdü.

Qalın kol və ağacların arasından keçən cığıra yönəldi. Dağılmış tikilinin yanına çatanda ağacların ən qalın yerində, yarı uçuq divarın yanında bir qadının kiməsə yalvarışını eşidib dayandı. Kimsə kobud kişi səsi ilə qadını danlayır, iş bacarmamaqda günahlandırırdı, qadın isə yalvararaq onu rahat buraxmalarını istəyirdi.

– Buna görə sənə pul verirlər, onun qarşılığında sən neyləmisən? Yoxsa fikirləşirsən ki, elə belə canını qurtara bilərsən? İnan ki, xəbər tutsalar səni də, məni də doğulduğumuza peşman edərlər. Sən hələ bilmirsən kimə işləyirsən? Onlar bizim nəslimizi yer üzündən silərlər. Heç sənin dövlətin də onlarla bacara bilməz, ağlını başına yığ. Hər şey səndən asılıdır.

Qadın yalvarır, daha bacarmadığını deyir, kişi isə öz fikirlərini israrla yeritmək istəyirdi. O, səsini qaldırıb hökmlə dedi.

– Bura bax, Məsumə, əgər bacarmayacaqdınsa, əvvəldən boynuna götürməzdin. Heç kim səni məcbur gətirməyib bura. Unutma ki, sən bura gələndə heç nəyin yox idi, bir həsir idin, bir də Məmmədnəsir, heç onlar yox idi səndə, ay yazıq, – qadına rişxəndlə dedi. – İndi isə evin, bağ evin, kifayət qədər pulun. Deyəsən daha heç nəyə ehtiyacın yoxdur!? Axı mən sənə əvvəlki gündən demişdim, bu oyuna girdinsə, axıra qədər getməlisən, yarıdan qayıtmaq olmaz.

Danışan adamın səsi ona çox tanış gəlirdi, elə bil hər gün onunla qarşılaşırdı, bəli, bu səs "Alfa" şirkətinin təhlükəsizlik meneceri Abdulla Rəhimovun səsi idi. Qadın ona yalvararaq sərbəst buraxılmasını istəyirdi. Mübahisənin sonunu bilmək üçün kolların arasında gizləndi. Qadın yalvarırdı.

– Sənə qurban olum, məni bir daha narahat etmə, başa düş, mən belə işləri qəbul edə bilmirəm. Nə istəyirsən eləməyə hazıram, nə deyirsən eləyim, amma bundan başqa. Belə işlərin axırı olmur Abdulla, hər şeyi satmaq olar, Vətəndən başqa. Bunu başa düşmək üçün akademik olmaq lazım deyil, bir balaca ağlın, qeyrətin olsa, bəs edir. Özün də uzun müddət qanun keşikçisi olmusan, polisdə işləmisən – sözlər Abdullanın üzünə şapalaq kimi dəydi, əsəbləşib səsini qaldırdı.

– Aldığın pulları eninə-uzununa xərcləyəndə düşünmək lazım idi bunları, indi mənə qanun dərsi keçirsən. Elə bilirdin ki, o pullar göydən tökülür? Bilmirdin ki, gəldiyi kimi sorğu-sualı da olacaq? Sən kimsən ki

mənə qeyrətdən danışırsan, qeyrətini o pullarla dəyişən sən deyilsən? Fahişə...

– Bəsdir, Abdulla, bəsdir! Məni məcbur eləmə. Elə etməyin ki, günü sabah gedim polis idarəsinə, səni də sənin o iranlı "ağa"larını da soxdurum içəri, ömürlük. Daha cana yığmısız məni. Cəhənnəm olun hamınız. Məni rahat buraxın, başa düşürsən rahat buraxın, yoxsa sizin üçün çox pis olar.

Qadın hikkəsindən hönkürdü. Söhbətin bu şəkildə bitməsini istəməyən Abdullanın səsi bir az da kobudlaşdı.

– O getdiyim torpaq haqqı, İmam Rzanın qəbrinə and olsun, səni yaşatmaram! Ağlını başına yığ. Qancığın biri qancıq... – qadına güclü bir şillə vurdu – Sən, qudurmusan. İndisə, rədd ol burdan, gözüm səni görməsin.

Qadın səndələdi, yıxılmamaq üçün divardan tutdu, bu qaniçən, əzazil adam hələ ki, fikrini dəyişməmişdi uzaqlaşmaq lazım olduğunu başa düşüb, bir an sonra qaranlığın içində görünməz oldu. Zəfər kölgə kimi onun arxasınca getdi.

* * *

Abdulla Məsuməni Sevdanın yanında görmüşdü, ilk görüşdən "aşiq" olmuşdu ona, ələ almaq üçün məqam axtarırdı və günlərin birində onun gözləmədiyi şəkildə bu görüş baş tutdu. Sevda xanım kabinetində olan bağlamanı təcili olaraq evə göndərmək üçün Abdullaya zəng etdi. Çoxdan gözlədiyi bu imkandan istifadə etmək üçün bağlamanı özü aparmaq qərarına gəldi.

Sevdagildə qapını Məsumə açdı, hətta özünü bir az da itirdi, salamlaşdılar. Məsumə son zamanlar Sevdanın yanına – "Alfa" şirkətinə tez-tez gedirdi. Bu

əlbəttə ki, Sevdaya görə deyildi, məhz yaraşıqlı, cüssəli təhlükəsizlik menecerinə görə idi. Bir neçə dəfə Sevdanın olmadığı vaxtlarda Abdullanın təklifi ilə onun kabinetində gözləmişdi Sevdanı. Belə vaxtlarda Abdulla, qıza qarşı olan hisslərini gizlətməyə çalışardı. Ancaq Məsumə hiss edirdi ki, Abdulla da ona qarşı laqeyd deyil, hətta öyrənmişdi ki, ilk uğursuz evlilikdən sonra, iyirmi ildən çox idi ki, tək yaşayırdı. Qız son zamanlar onu yuxusunda da tez-tez görürdü. Yuxularında gördüyü adamın indi qapıda dayandığını görüncə özünü itirdi. Bir neçə addım geri çəkilib bağlamanı dəhlizdə qapının arxasına qoymasını xahiş etdi.

– Məsumə xanım, hara lazımdırsa, ora aparım. Siz qadınlara ağır olmasın.

–Daşımağınızdan başa düşdüm ki, elə də ağır deyil. Sizə zəhmət olar, özüm apararam, sağ olun.

– Nə danışırsınız, sizin kimi gözəl xanımlara xidmət etmək mənim üçün fəxrdir. Hara lazımdırsa, ora aparım – deyə Abdulla israr etdi

Ünvanına deyilən komplimentdən xoşhallanan qızın sifəti allandı. Təbiətən gözəl olan Məsuməni bu hal daha da gözəlləşdirdi. Bayaqdan Abdullanın baxışlarından qaçan gözləri bir anlıq ona dikildi və sanki əlini qaynar bir qazana vurub çəkən kimi tez də baxışlarını yayındırdı. Amma bir anlıq baxış Abdullaya bəs etdi. Utancaq, xumarlanmış gözlərdə çox şey oxudu Abdulla. Qız vəziyyəti aydınlaşdırana qədər özünü onun qolları arasında gördü. Müqavimət göstərmək istədi, bacarmadı, qarşısındakının güclü iradəsi qarşısında və bu günə qədər duymadığı hisslər onu təslim olmağa vadar etdi. Qızın badamı dodaqlarını, boynunu, boğazını, sinəsinin açıq yerlərini uzun-uzadı öpdü, iri əlləri pal-

tarının üstündən belində və daha aşağılarda gəzdi, ətli əndamını, yumru döşlərini sıxdı. Məsumə, aldığı qeyri adi duyğuların təsirindən arabir içini çəkərək, sanki etdiyi günahı görməmək üçün gözlərini yummuşdu. Əllərini onun geniş sinəsinə qoyub, könülsüz olaraq özündən itələdi. Abdulla onu buraxdı, sağ əli ilə onun çiynindən tutdu, başdan ayağadək süzdü. Onun şəhvət dolu baxışları, qızın olan-qalan iradəsini də əritdi və tam olaraq özünə təslim etdi.

– Sən gözəlsən, Məsumə, hamıdan gözəlsən! Səni gördüyüm gündən dəli divanəyəm. İnan ki, sənin üçün hər şeydən keçərəm... Evdə kimsə var?

Qız elə bil yuxuda idi, deyilən sözləri də yuxuda eşidirdi, cavab vermək istədi, bacarmadı, beynindən axıb gələn sözlər boğazında kilidləndi, hələ də bayaqkı duyğuların əsiri idi, narazı, qınaq dolu baxışlarla Abdullaya baxır, ehtiras dolu anların tez bitdiyinə görə onu qınayırdı. Başını bulayıb "yox" dedi. Abdullanın gözləri parıldadı, yenidən onu özünə çəkib bağrına basdı, bir xeyli vaxt dəhlizdə bir-birinə sarıldılar, indi Məsumə də ona sarılmışdı. O, qızı qolları üstünə alıb yataq otağına apardı.

Sonralar onlar bir birinə daha çox yaxınlaşdılar. Keçmiş orqan işçisi, çirkin əməllərini həyata keçirmək üçün bu sadəlöv qızı öz oyunlarına qatdı.

Orqandan çıxandan sonra bir müddət iranlı tanışı ilə ticarət sevdasına düşən Abdulla ticarətdə böyük uğurlar qazandı. Bir neçə il pulun qədərini bilmirdi, amma ticarət, necə deyərlər qumar kimi bir şeydir, illərlə qazandığını bir anın içində itirə bilirsən. O da bu məntiqə sadiq qalaraq bir gün kefinin xoş vaxtında əlində olanların hamısını itirdi və ticarətlə birdəfəlik vi-

dalaşdı. Lakin iranlı həmkarı ondan əl çəkmədi, itirilən puldan öz payını çıxıb onun payını qaytardı, uzun illər bir-biri ilə "dostluq" etdilər və bu dostluğun fonunda Abdulla özünü "casus" qiyafəsində gördü. Artıq geriyə yol yox idi. İranın Azərbaycanda törətmək istədiyi bir çox təxribatların iştirakçısı idi. Ətrafına çoxlu adam yığmışdı, indi o İranın Azərbaycandakı qeyri-leqal fəaliyyət göstərən "Casus idarəsi"nin idarə heyətində ən fəal üzvlərindən biri idi və gördüyü hər bir işə görə haqq alırdı.

İnsanlar müxtəlif olur. Ən yaxşıları insan kimi doğulur, insan kimi yaşayır və insan kimi ölürlər. Abdulla isə hamı kimi insan olaraq doğulmuşdu, polis kimi yaşadı, casus kimi öləcəkdi. Arabir boş vaxtlarında öz həyat kitabını vərəqləyərkən onun qəlbini göynədən yalnız bu idi, ancaq müxtəlif bəhanələrlə sakitləşmək üçün özünə həmişə bəraət qazandırardı.

Məsumə ilə tanış olandan sonra çox çəkmədi ki, onu da bu çirkab dolu bataqlığa sürüdü. Son zamanlar açıq-aşkar etdiyi etirazlarına baxmayaraq, yanında qorxudaraq saxlayırdı qızı, onun şıltaqlığı, verilən tapşırıqları yerinə yetirməkdən boyun qaçırması Abdullanın hövsələsini tükəndirmək üzrə idi. "Bu qız mənim canımı boğazıma yığıb, belə davam etsə, onu aradan götürməyə məcburam" deyə düşündü və elə bu axşam onun dediyi son sözləri xatırladı. "Bəsdir, Abdulla, bəsdir! Məni məcbur eləmə. Elə etmə ki, günü sabah gedim polis idarəsinə səni də sənin o iranlı "ağa"larını da soxdurum içəri, ömürlük. Daha cana yığmısız məni. Cəhənnəm olun hamınız. Məni rahat buraxın, yoxsa sizin üçün çox pis olar". Bu xəbərdarlıq onu qorxutdu, canına üşütmə doldu.

– Yaxşı, həyasız. Baxarıq, hələ ona baxarıq, kimin üçün pis olacaq – qızı buraxdığına peşman oldu – gərək, işini bitirəydim – deyə özünü qınadı.

Məsumə Abdullanı heç vaxt belə görməmişdi, bu gecə həddən artıq aqressiv idi, ağzına gələn ağır söyüşlərlə onu təhqir etdi, üstəlik tutarlı bir şillə də vurdu. Bundan sonra daha onunla bütün əlaqələri kəsmək lazım idi. Aldığı zərbədən hələ özünə gəlməmişdi, bir az bundan əvvəl başına gələnlərə görə heç bir zaman nə özünü nə də Abdullanı bağışlamayacaqdı. Nifrət edirdi hər şeyə – udduğu havaya, içdiyi suya, yediyi çörəyə.., ətrafında nə vardısa – binalara, binaların arasında veyillənən itlərə, pişiklərə, içində yaşayan insanlara, xüsusən də başda Abdulla olmaqla bütün kişilərə nifrət edirdi. Onunla tanış olduğu günə, birlikdə keçirdiyi illərə, nəhayət ki, özünün doğulduğu günə, bitmək, tükənmək bilməyən əzablarla dolu yaşadığı ömrə nifrət edirdi. Ömrü əzablarla keçsə də, belə alçaldığı olmamışdı.

Hələ Sevda ilə birlikdə universitetin yataqxanasında qalan zaman, elə günlər olurdu ki, çörək üzünə həsrət olurdular, bəzən o günləri həftələr əvəz edirdi. Sevdagilə köçəndən sonra, həyatı bir müddət yaxşılaşdı. Tale üzünə yenicə gülürdü ki, Sevdagildən də çıxdı, yenidən sıxıntılı günlər başladı. Sevdagildə keçirdiyi naz-nemətli həyatdan sonra yenidən çətinliyə düşməyi daha da ağır gəldi ona, dözmədi həyatın yeni zərbələrinə, elə bu zaman Abdulla zəng etdi.

Bu çətin günlərdə Abdulla ona həyan oldu, şəhərin yaxşı yerində olan evlərindən birini ona hədiyyə etdi, əvəzində isə onun hər şeyini aldı. İndi Məsumə ona məxsus idi. Onlar uzun müddət qeyri-qanuni nigah-

la ayrı-ayrı evlərdə yaşadılar. Abdulla istəyəndə gələr, istəyəndə gedərdi. Əvvəllər onun işləməyinə qəti etiraz edən Abdulla zaman keçdikcə razılaşdı və çox keçmədi ki, onu "casus ordusu"na daxil etdi. Məsumə ilk günlər razılaşmaq istəmirdi, amma yenidən əvvəlki həyatına da dönmək çox ağır gəlirdi ona, əgər Abdulla bir gün onu bu hədiyyə etdiyi evindən çıxarsaydı.., uzun tərəddüddən sonra razılaşdı. Düşündü ki, bir müddət işləyib sonra özünə başqa iş tapar. Bir ilin içində şəhərin yaxşı yerindən iki ev və Novxanıdan bağ evi aldı. Şəhərdə olan evlərin birinin ünvanını özündən başqa heç kim bilmirdi, elə bil bir gün meşşan təbiətli Abdullanın başına açacağı oyunları duymuşdu.

Elə bu gecə Məsumənin illərlə qorxa-qorxa gözlədiyi və gözləyə-gözləyə qorxduğu həmin gecəydi. Bir saat əvvəl Abdulla zəng edib onu küçəyə çağırdı, maşına oturdub həmin bu dağılmış, yiyəsiz parka gətirdi. Bu yağışlı havada şərtlərini kəskin surətdə onun qarşısına qoydu, qəbul etməyincə bu "üsyançı" qızı söyüb, döyüb yanından qovdu və elə yaxşı ki, qovdu. Məsumə bilirdi ki, daha betər ola bilərdi, onu da bilirdi ki, indiyə qədər çəkdiyi əzablar, bu gündən sonra çəkdiklərinin yanında heç nə olacaq. O, bunun şahidi olmuşdu Abdulla ilə tanışlığından sonra. Belə addım atanlar cismən yox, ruhən əzab çəkirdilər, hətta ölmək istəyirdilər – sanki, ölmək belə onların çəkdiyi əzablara son qoymurdu. Onlar sadəcə olaraq çəkdikləri əzablardan canlarını birdəfəlik qurtarmaq üçün ölə bilmirdilər. Dəfələrlə Abdulladan o adamlardan əl çəkməsini xahiş etməsinə baxmayaraq heç nə alınmırdı. İndi onların cərgəsində özü də vardı və onlardan yalnız Abdullanı və onun ətrafındakı İranlı "ağa"ları yaxından tanımasıyla fərqlənirdi. "Çox bilsən,

başın daha çox ağrıyar" məsəli görünür onun kimilər üçün deyilmişdi.

Evdən çıxanda əynini nazik geyinmişdi, çiskin yağış, havada olan soyuq və bir az öncə keçirdiyi stress öz işini görməyə başlamışdı. Qaranlıq küçələrdə yağışla dolu gölməçələri nəzərə almadan, tez-tez yolunu dəyişərək harasa tələsirdi, arabir dönüb geriyə baxır, bu günə qədər üzvü olduğu "casus ordusu"nun onu izləyəcəyindən qorxur, vətənə, dövlətə, millətə etdiyi xəyanəti yağış sularında yuyaraq evinə təmiz, pak dönmək istəyirdi. Zəfər onu gözdən qoymur, itirməkdən qorxurdu. Məsumə qarşıdakı beşmərtəbəli binanın tininə burulub gözdən itdi, o yerişini sürətləndirib tinə çatanda qızın binanın ən yaxın girişindən içəri keçdiyini gördü. O, girişə çatıb bir addım içəri keçdi, dayanıb dinlədi, sakitlik idi. Qız haradasa girişə yaxın bir yerdə idi, hətta birinci mərtəbədə, ən yaxın evdə yaşasa belə, bu tezlikdə qapını açıb evə daxil ola bilməzdi. Siqaret yandırdı, alışqanın işığı ilə girişi işıqlandırdı, qızı gördü, təqib edildiyini bilərək gizlənmək məqsədi ilə güncə sıxılmışdı. Çiskin yağış, soyuq hava və təqibin qorxusundan büzüşmüşdü, nə edəcəyini bilmir, çaşıb qalmışdı. Ağlından keçənləri düşünməyə belə qorxurdu. Zəfər onu tanıdı, bir neçə dəfə Sevdanın yanına gələndə görmüşdü, qız soyuqdan və həyəcandan tir-tir əsirdi. Gödəkçəsini çıxarıb onun çiyninə saldı.

– Narahat olmayın, sizi heç kim incidə bilməz, gedək mənimlə.

Məsumə bayaqdan keçirdiyi həyacanları unutdu, sakitcə onun yanına düşüb binanın girişindən uzaqlaşdılar. Zəfər taksi saxlatdı və dənizkənarında olan evinin

ünvanını dedi. Yolboyu heç biri danışmadı, taksidən düşdülər, binanın girişində Məsumə dayandı.

– Bəlkə mən öz evimə gedim?

– Yox, bura sizin üçün daha təhlükəsiz olar. Bir neçə gün burada qalarsınız.

Yenidən susdular, küçənin soyuğundan sonra evin istisi və yumşaq divan adama ləzzət verirdi. Ev səliqəli idi, lakin uzun müddət qadın əlinin dəymədiyi aydın görünürdü, təmiri sadə olsa da zövq oxşayırdı.

– Duş qəbul etmək istəsəniz, vanna otağı oradadır, soyuq havadan sonra məsləhətdir – qardirobu göstərib – buradan nə lazımdırsa götürə bilərsiniz, hərçənd ki, qadın paltarı yoxdur, mənim paltarlarımdan istifadə edə bilərsiniz. Məndən heç nə soruşmayın, nə lazımdırsa götürün.

Məsumə heç nə demədən, vanna otağına getdi. Paltarları yaş olduğu üçün qardirobdan Zəfərin paltarlarından – qolu qısa köynəklərindən birini və idman şalvarını götürdü, geyindikləri əyninə çox böyük idi. Çıxarkən mətbəxdə masanın üstünə bir cüt boşqab və stəkanların qoyulduğunu gördü, səhər yediyinin üstündə idi.

Zəfər heç nə soruşmadan yeməyə dəvət etdi, pamidor-yumurta cığırtması əla bişirilmişdi, sonra isti kəklikotulu çay içdilər. Az sonra Zəfər ayağa qalxdı.

– Mən indi gedirəm, evdə tək olacaqsan, bu evə heç kim gəlmir, yalnız mən gəlirəm ki, mənim də açarım var. Heç kimə qapını açmayın, hər ehtimala qarşı öz telefonunuzdan istifadə etməyin, – əlindəki telefonu və kağız parçasını masanın üstünə qoydu – bu telefondan istifadə edə bilərsiniz, lazım olsam bu nömrəyə zəng edin, istədiyin kimi istirahət elə.

Zəfər getdi, onun kimliyi, və niyə kömək etməsi Məsuməyə maraqlı qaldı, amma nədənsə heç nə soruşmadı, soruşa bilmədi. "Nə yaxşı ki, belə adamlar var, hələ ki, yaşamağa dəyər" deyə düşündü.

Bütün gecəni yata bilmədi, mətbəxlə otaqların arasında var-gəl etdi. Paltarlarını yudu, evi səliqəyə saldı. Tanımadığı, hətta adını bilmədiyi yad kişini görmək üçün darıxırdı. Bir neçə dəfə zəng eləmək istədi, tez də fikrindən daşındı.

Ertəsi gün saat üçdə Zəfər gəldi, həmişəki kimi qapını açıb evə daxil oldu, evdəki dəyişiklik, səliqə səhman dərhal hiss olunurdu. Hətta havasından da bu evdə qadın olduğu bilinirdi. Bəlkə də ona elə gəlirdi. Qapının səsini eşidən kimi Məsumənin ürəyi şiddətlə döyünməyə başladı, illərlə gözlədiyi ən sevimli adamını qarşılayırmış kimi, özündən asılı olmadan dəhlizə qaçdı. Zəfərin soyuq baxışlarını görəndə özünü tamamilə itirdi, sadəliyinə görə özünü qınadı. O, dünəndən indiyə qədər bu görüşə hazırlaşmışdı, səhər tezdən yenidən vanna qəbul etmiş, saçlarını qurudub daramışdı, güzgünün qarşısında dayanıb xeyli özünə tamaşa etmişdi, gözəl idi. "Minnəti olsun ki, mənim kimi gözəl qadın onun üçün bəzənir, onun yolunu gözləyir." Amma bəzənməyə heç nəyi yox idi. Həmişə yolunu gözləyəcəyi, sevəcəyi seviləcəyi, qarşısında dayanıb naz edəcəyi bir adamın olmasını arzulamışdı, hələlik isə bu arzu olaraq qalırdı, nə zaman reallaşacağı isə məlum deyidi. Reallıq bu idi ki, onu qarabaqara ölüm izləyirdi, bəlkə də ölümün özü də bu gözəlliyin aşiqi idi.

Evdə tək olduğu zaman doyunca ağlamışdı. Hansısa kinoda eşitdiyi bir söz yadına düşdü. "Tənha quş yuva bağlamaz, hətta qartal olsa belə". Təkliyi, tənhalığı

göynətdi onu, dərdini bölüşməyə bir yaxını yox idi. İndi içəri girən Zəfərin onunla soyuq salamlaşması bir az da artırdı dərdini, ancaq tez də "axı o mənim nəyimdir, heç adını da bilmirəm, mənim adımı da bilmir, yenə sağ olsun ki, həyan oldu mənə" deyə düşündü. Zəfər mətbəxə tərəf döndü.

– Əhsən, bir də əhsən sənə, bu evin hələ bu vəziyyətdə olduğu olmamışdı. Divarlar adamın üzünə gülür. Halal olsun – sonra ona tərəf baxmadan – yeməyə nəyimiz var. Elə acmışam ki, elə bil illərdir yemək yemirəm – əslində Zəfər tox idi, ofisdə yemişdi. İçəri girən zaman Məsumənin xətrinə dəydiyini hiss etdi və tez də səhvini düzəltməyə çalışdı.

– Bu dəqiqə...

Məsumənin bayaqkı dilxorluğu bir anın içində yoxa çıxdı, qazı yandırıb bir az əvvəl bişirdiyi şorbanı və çayı isitməyə başladı, masanın üstünə süfrə saldı, hazırladığı salatı, boşqabları, qaşıqları süfrənin üstünə düzdü. Bəlkə də heç vaxt belə həvəslə işləməmişdi, bu cür əl qabiliyyəti, ev işlərində səriştəsi olan qadın doğrudan da xoşbəxt olmağa layiq idi. O, heç nəyə fikir vermədən, o qədər cəld və səriştəli işləyirdi ki, kənarda dayanıb ona tamaşa edən Zəfər bu mənzərəni təəccüblə izləyirdi. Yeməyi boşqablara çəkə-çəkə ona baxmadan dedi.

– Hazırdır, əyləşin.

Zəfər vanna otağında əllərini yuyub gəldi. Onlar birlikdə nahar etdilər.

OTUZUNCU FƏSİL

Həmin gün Zəfər işə gələndə Abdullanı gördü. Ofisin həyətindəki maşınların dayanandığı yerdə siqaret çəkirdi, bu günə qədər kimsə onu siqaret çəkən görməmişdi. Kefi yerində deyildi, görünür dünənki hadisədən sonra gecəni yaxşı yatmamışdı. Çox narahat idi və Zəfərə elə gəldi ki, bu narahatlığı ilə o, içindəkiləri açıq-aydın biruzə verir. Nahar fasiləsindən sonra onu gördüm deyən olmadı, görünür hansısa bəhanə ilə Yusifdən icazə alıb aradan çıxmışdı.

Zəfər bir az da gözləyib Ramizin yanına getdi. Əvvəllər olduğu kimi Ramiz ayağa qalxıb fərəqət vəziyyətində dayandı. Zəfər əlinin işarəsi ilə ona oturmasını dedi, özü də keçib üzü pəncərəyə baxan kürsüdə oturdu. Çox qayğılı görünürdü, dünənki hadisədən sonra hələ də özünə gəlməmişdi. Ramiz sükutla onun nə deyəcəyini gözləyirdi. Nəhayət o, başını qaldırıb Ramizin üzünə baxdı və Abdullanı nəzarətdə saxlamasını tapşırdı. Ramiz başını irəli-geri yellədərək razılıq verdi. Adətən belə tapşırıqları verərkən, əvvəldən hər şeyi ölçüb biçərdi, indi vaxt yox idi.

– Onun hər addımından xəbərimiz olmalıdır, uşaqlardan birini ona calaşdır, kölgəsi qədər yaxın olsun, amma ehtiyatlı olsun, özü də çox ehtiyatlı. Unutmayın ki, o, uzun müddət polisdə əməliyatçı işləyib, çox təcrübəlidir – dedi və dərin fikrə getdi.

"Başına dəysin sənin təcrübən, əgər belə bir ağır gündə vətənini satırsansa, deməli sən qarşıdakı düşməndən də qorxulusan, milləti ayaq üstə qaldırmaq, yaşatmaq üçün ilk növbədə səni və sənin kimiləri islah etmək lazımdır. Sənkimilər zəli və parazitlər kimi bu millətin qanını sorurlar, dirçəlməyə qoymurlar." Bu fikirlərlə beynini yora-yora evlərinə nə zaman çatdığını bilmədi. Hətta Məsumənin bişirdiyi yeməklərdən yeyəndə də bu fikirlərin təsiri altında idi. Qaşığı boşqabın icinə qoyub qadına baxdı.

– Dadlı yeməklər bişirmisən, əllərinə sağlıq... Dünəndən bir yerdəyik , heç tanış da olmamışıq. Adım Zəfərdir, təqaüdçüyəm, indi nə iş olsa edirəm.., olsa ustalıq, olmasa fəhləlik, bənna, suvaqçı, santexnik, elektrik və ilaxır.

Qadın üzbəüz oturub özünü təqdim edən kişinin üzünə baxdı. "Axı bu heç də fəhlə işləyənə oxşamır. Yəqin məni aldadır. Nəyinə lazımdır məni aldatmaq, aldadıb nəyimi alacaq ki? O gündən gətirib evinə, kim bilir özünə nə boyda problem yaradıb? Abdulla bilsə nələr olacaq? Bir də ki, Abdullanın bilmədiyi bir şey varmı görəsən? Uzağı üç günə peyda olacaq burda, it kimi iy bilir elə bil, əclaf."

Qadın əlindəki qaşığı qaba qoyub, onun üzünə baxdı, ürəyində nə deyəcəyini düşünürdü. Zəfərin səsinə diksindi.

– Bağışlayın sən allah, deyəsən tanış olmaq istəmirsiniz? Mən elə belə söz gəlişi dedim. Bir daha üzr istəyirəm.

– Yox, nə danışırsınız!? Əlbəttə ki..., adım Məsumədir, heç yerdə işləmirəm, heç kimim də yoxdur, bu

dünyada tək-tənhayam. Bəzən elə fikirləşirəm ki, heç mənim valideynlərim də olmayıb, yer üzünə göydən düşmüşəm, bəlkə də göbələk kimi yerdən çıxmışam. Bəlkə də ALLAH bir zamanlar Adəmi torpaqdan yaratdığı kimi, məni də nədənsə yaradıb. Adəmin taleyinə nəsil artırmağı, mənə isə onun nəslinin əlindən dərd çəkməyi yazıb – daha danışa bilmədi, qəhər onu boğdu. Zəfər özünü bilməməzliyə vurub soruşdu.

– Bəs, o dünənki kişi kim idi?

– Heç kim. Dedim axı heç kimim yoxdur, nə valideyinlərim, nə də qohum-əqrabam. Bu dünyada tənhayam və həyatımda ilk dəfədir ki, sizin kimi alicənab insana rast gəlirəm – onun göz yaşları dayanmırdı, yenidən yanaqlarından axan göz yaşını silib dedi – qardaş, əgər vaxtınız və həvəsiniz varsa, mən həyatımın bir hissəsini danışa bilərəm sizə. Bu mənim üçün maraqsız və cansıxıcı olsa da bəlkə sizə maraqlı olar.

– Danışın. Sizin həyatınız mənim üçün çox maraqlı olacaq, çünki bizim oxşar cəhətlərimiz çoxdur.

Məsumə göz yaşı tökərək zülmətə qərq olmuş həyatının bir hissəsini – uşaq evindən, tələbəlik illərindən, Sevda adlı rəfiqəsindən, onun həyatından, ayıya bənzər Yusifdən, balaca Fidandan, sonda isə dünən onu söyüb döyən Abdulladan, onun casus ordusundan uzun-uzadı danışdı və çəkinmədən özünün də onların sırasında olduğunu dedi. Abdullanın bu günə qədər törətdiyi cinayətlərdən danışdı. Rəfiqəsi Sevdanı, onunla birlikdə işləyən Zəfər adlı bir nəfəri necə və kimin sifarişi ilə öldürdüyündən danışdı. Pul müqabilində nə qədər insanı tora salıb, böyük bir "casus ordusu" yara-

daraq sonra onların bəzilərini aradan götürərək pulları mənimsəməyindən, bəzilərini isə ifşa etmək qorxusu ilə cüzi pulla və ya pulsuz işlətməyindən danışdı.

– Mən bilirəm ki, mənim də sonum onlarınkı kimi olacaq. Həyatın çətinliyi mənim kimiləri sıxdıqca, onun "casus ordusu" böyüyür, nə etdiyimizin fərqinə varmadan, müqəddəs nə varsa verdiyi qəpik-quruşa görə – hətta milyon olsa belə – onun ayaqları altına atırıq, əmirlərini yerinə yetiririk. Dövlətin qanunlarına tabe olmuruq, Abdulla kimilərin yazılmamış qanunlarına boyun əyirik. Anlayanda isə gec olur. Bəziləri buna öyrəşir, ömrünün sonuna qədər vicdansızcasına çalışır, hətta öləndə də "casus" kimi ölürlər. Mən belələrindən olmaq istəmirəm. Elələri də olur ki, tutduğu işə görə əzab çəkir, əmrlərə tabe olmaqdan boyun qaçırır və günahını həyatı bahasına ödəyir. Məni də bu gözləyir, ancaq getməmişdən öncə, bildiklərimi dövlətdən bir nəfərə danışmaq istəyirəm.

Qadın susdu, sanki ürəyində olan ağır yükü atdı, daha ağlamırdı. Zəfərə hər şey aydın idi.

– Siz artıq danışdınız.

EPİLOQ ƏVƏZİ

Üç gün sonra Bakıdakı təcridxanaların birinin qarşısında dayanmışdı, şəhərə narın yağış yağırdı. İri damlalar bir-birinə qovuşub selə çevrilir, küçə boyu axıb gedirdi. Özü ilə birlikdə udduğumuz havanın, getdiyimiz yolların, etdiyimiz əməllərin, düşündüyümüz planların çirkini də yuyurdu, təmizləyirdi. Amma elə əməllər var ki, nəinki yağış, hətta dolu da təmizləyə bilmir, dənizlərin, okeanların suyu ilə saçlarından dırnağına qədər illərlə yusan belə, bir zərrəsini təmizləyə bilməzsən...

Yolun o biri tərəfində kimsə maşında maqnitafonun səsini artırıb Yetim Eyvazın dediyi meyxanaya qulaq asırdı.

Yağış yağır, ona qurban olum,
əcəb yağır ona qurban olum...

Ey, Yetim Eyvaz!... Bu dünyada hamı səndən də betər yetimdir. Sənin kimin varsa, ətrafındakıların elə o qədər kimləri var. Yalandan özünə yetim deyib, "Yetim şeirləri"nə güc vermə. Səndən də betər yetimlər, fəqirlər var bu dünyada, yolunu azanların əllərində oyuncağa çevrilən, valideyinlərini belə görməyənlər var, bu dünyada, elə Məsumə kimi... Eh, Yetim Eyvaz! Sənin kimilərdən yetim olmaz, boş yerə özünə yetim deyib bizi kövrəltmə... Mənəvi yetim olanlar var bu dünyada – özünə, ailəsinə, Vətəninə, Torpağına, elinə-obasına qarşı yetim olanlar var bu dünyada...

Elə bil bu gün xüsusi bir gün idi, seçilirdi, fərqlənirdi o biri günlərdən. Nəyi ilə fərqlənirdi? Axı bu gün də yaşadığımız adi günlərdən biri idi... Bəli, günlərin hamısı eynidir, necə də bir birinə bənzəyir bütün günlər, səhərlərin açılması ilə, axşamların düşməsi ilə. Əgər onları boy sırası ilə bir cərgəyə düzə bilsək görərik ki, heç də biri digərinin tam eynisi deyil. Biri gödək, o biri orta, digərisə uzundur, eləsi var yadda qalmır, gəldi, getdi – bilmirsən ki, necə keçdi, amma eləsi də olur ki, gəlişi var, gedişi yox – illər qədər uzun olur bu günlərin hər bir anı. Qərinələri udur, əsrlərə hökm edir... Gündə olan hikkəyə bax, İlahi!

Bir az yağışı ilə, bir az qarı ilə, şimşəyi ilə, dolusu ilə və bir də günəşli havası ilə seçilir bir birindən, tufanı ilə, zəlzələsi ilə yaddaşlara həkk olur. Etdiyimiz əməllərin əsiriyik.., kəkilimizdən tutub sürüyür arxasınca, qiyamətə qədər bu əməllər. Nə ediriksə, bədəlini ödəyirik – bəzilərini pulumuzla, malımızla, bəzilərini isə canımızla, qanımızla ödəyirik. Qalan bu həyatda nə varsa, yağan yağışlar yuyub özü ilə birlikdə aparır və yalnız həmin gün ona qədər və ondan sonra gələn bütün günlərdən seçilir, elə həmin gün yaddaşlara hopur, tarixə dönür insanlarla birlikdə, qiyamətə qədər uzanır. Kim bilir, bu uzun günün içində nələr olur və daha nələr olacaq. Bəlkə "Qiyamət" deyilən gün də, elə həmin o gündür, biz bimirik!?

Zəfər yağışın altında dayanıb axan selə tamaşa edirdi. İri yağış damlaları başına döydükcə təmiz yağış suyu dərisinə hopur, beynini yuyub düşüncələrini duruldur, qəlbini – damarlarında axan qanını, bütün orqanlarını təmizləyib dırnaqlarının arasından çıxır, axıb yağış suyu

ilə birlikdə selə qarışırdı. Ayaqqabılarının içi də yağış suyu ilə dolur, yəqin ki, saçlarının dibindən hopub bütün bədənini təmizləyərək ayaq barmaqlarında olan dırnaqlarının arasından çıxan su idi bu...

* * *

Abdulla elə o gecə Məsuməni qovduğuna peşman oldu, "gərək onu bitirəydim" deyə düşündü. Düşündüyünü həyata keçirmək üçün bir saatdan sonra onun yaşadığı evin qapısına gəldi, cibindəki açarla qapını açıb evə daxil oldu, səs salmadan bütün otaqları axtardı, evdə kimsə yox idi. Qonaq otağına keçib divanın üstündə oturdu. İki saat gözlədi, Məsumə gəlmədi. Artıq narahat olmağa başlayırdı, cibindən telefonu çıxarıb kiməsə zəng etdi, evə nəzarətçi qoydu. Evdən çıxıb maşını saxladığı küçəyə getdi, gələndə kimisə şübhələndirməsin deyə maşını paralel küçədə saxlamışdı. O, evə çatanda artıq səhər açılırdı. Bir azdan işə gedəcəkdi. "Məsumə hara yoxa çıxa bilərdi, telefonuna da zəng çatmır. Deməli, dediyini elədi, fahişə!..." deyə düşündü. Gecə işini bitirmədiyinə görə özünü qınadı.

Elə həmin gün Abdulla "casus ordusu"nun ən bacarıqlı üzvülərindən beş nəfəri öz evinə çağırıb kiçik bir toplantı keçirdi, nə baş verdiyini üstüörtülü onlara çatdırıb, Məsumənin təcili tapılmasını əmr etdi. Toplantıda iranlı "ağa"lardan da üç nəfər vardı. Onlar hər iki tərəfdə – həm İranda, həm də Azərbaycanda olan "agent"lər arasında xüsusi hörmətə malik əlaqələndiricilər idilər ki, Abdullanın "casus ordusu" üçün yeni təlimat və tapşırıqlar gətirmişdilər.

– Diri ya ölü fərq etməz. Mütləq tapılmalıdır.

Abdulla yaxşı başa düşürdü ki, Məsumənin polisə getməsi ona və onun başçılıq etdiyi zəncirvari formada idarə olunan casus təşkilatına çox baha başa gələcək. Təşkilatda onu az adam tanımasına baxmayaraq Sovet milis məktəbinin varisi olan polis orqanlarının iş prinsiplərinə yaxşı bələd idi. Onlara, Abdullanı ən ağır cəza ilə məhkum etməsi üçün Məsumənin dedikləri kifayət idi.

Yığıncağın bitməsinə az qalmışdı ki, gurultu qopdu, olduqları evə basqın olundu, hələ nə baş verdiyini anlamamışdı ki, onu vurub yerə aşırdılar, artıq qolları arxasında qandalla bağlanmışdı. Hamısının silahlı olmasına baxmayaraq, istifadə etməyə macal tapmadılar. Onlar qapıdan, pəncərələrdən bir göz qırpımında daxil oldular. Yalnız sürüyüb maşınlara dolduran zaman nə baş verdiyini anladı. "İfritə, deməli, öz dediyini elədin. Eybi yox, borc olsun." deyə düşündü. Vəhşi heyvanlara məxsus intiqam hissi ilə maşının pəncərəsindən çölə baxan zaman Zəfərin dayanıb maskalılara göstəriş verdiyini görüb özünü itirdi. "Demək, Məsuməlik deyilmiş. Ağzımızın içində bizə torba tikənə bax."

Vaxtilə Baratın Zəfər haqqında dediklərini xatırladı. Zəfər göstərişlərini verib maşına tərəf gəldi, onlar bir anlıq göz-gözə dayandılar. Zəfər, "aparın" deyə əmr etdi.

İndi yağışın altında dayanıb bütün bunları xatırlayan Zəfər, ömrünün ən gözəl çağlarını xidmət etdiyi müstəqil Azərbaycan dövlətinin anbaan möhkəmləndiyini görür və qəlbində çox böyük fərəh hissi duyurdu. Bu qədər casusu olan bir məmləkətin qısa zamanda belə inkişaf

etməsi, xarici və daxili siyasəti balanslaşdıraraq irəli aparması elə də asan iş deyildi. Böyük dövlətlərin maraqlarının toqquşduğu bu məkan, onun fəxrlə yaşadığı Azərbaycan idi. Qəlbi qürur hissi ilə doldu. Bir müdrik söz beynindən axıb bütün bədənini dolaşdı, qan damarları ilə bütün orqanlarını gəzdi. **"Mən fəxr edirəm ki, Azərbaycanlıyam."**

Doğrudan da, fəxr etməyə dəyərdi.

S O N